# Humanizm və xeyirxahlıq missiyası

Bakı - "Nurlan" - 2007

Humanizm və xeyirxahlıq missiyası.

"Nurlan" nəşriyyatı. Bakı - 2007

İdeyanın və ön sözün müəllifi:
**Əli EYVAZOV**,

Hüquq elmləri namizədi
Elmi redaktoru:
**Samirə EYVAZOVA**,
Bakı Dövlət Universitetinin
Beynəlxalq Hüquq fakültəsinin müəllimi

Tərtibçi:
**Sabir HÜSEYNOV,**
Azərbaycan Yazıçılar Birliyinin üzvü

Kitabda zaman etibarı ilə çox qısa müddətdə millət və dövlət maraqları baxımından strateji əhəmiyyət daşıyan bir sıra layihələri uğurla gerçəkləşdirərək Cəmiyyətdə mərhəmət və xeyirxahlığın ali ünvanına çevrilmiş Heydər Əliyev Fondunun qarşıya qoyduğu hər bir xoş məramdan söhbət açılır. Eyni zamanda kitabda Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevanın yüksək humanizm, mərhəmət və nəciblik kimi ali mənəvi keyfiyyətləri öz əksini tapıb.

$$\frac{4702000000}{N-098-2007}$$

**©"Nurlan",2007**

## MƏRHƏMƏT VƏ XEYİRXAHLIĞA SÖYKƏNƏN XOŞMƏRAMLI MİSSİYA

### (ÖN SÖZ)

Antik yunan filosofu Platon zamanında yazırdı ki, ədalət, müdriklik və qanunun bir yerdə olacağı zaman bəşəriyyət xoşbəxtliyə qovuşacaqdır. Ümummilli liderimiz Heydər Əliyev də özünün təkmil dövlətçilik fəlsəfəsində bu üç dəyəri bir araya gətirməklə siyasi fəaliyyətinin bütün mərhələlərində humanizm, sosial ədalət və insanpərvərlik prinsiplərinə əsaslanmış, milli və bəşəri ideallara bağlı olmuşdur. Ulu öndərimiz hər bir fərdin maraq və mənafeyinin, qanuni hüquqlarının müdafiəsini dövlətin başlıca vəzifəsi saymışdır. Dahi liderin mütərəqqi ideyaları milli inkişaf prosesində mayak rolunu oynamışdır.

Azərbaycan bu gün məhz ümummilli liderimiz Heydər Əliyevin dövlətçilik ideallarına tapmaraq nailiyyətlərini günbəgün zənginləşdirir. Ulu öndərimizin əsasını qoyduğu çoxşaxəli və effektli islahatlar kursu Prezident İlham Əliyev tərəfindən dönmədən, ardıcıllıqla, yeni dünya nizamının tələblərinə uyğun tərzdə davam etdirilir. Dövlət başçısı Heydər Əliyev dühasından, onun müqayisəyəgəlməz siyasi və dövlətçilik təcrübəsindən qədərincə bəhrələnərək xalqımızı inamla xoşbəxt gələcəyə doğru aparır. İqtisadi inkişaf yolu ilə dövlət müstəqilliyimizin daha da möhkəmləndirilməsi, milli mədəniyyətimizin qorunub inkişaf etdirilməsi, hüquqi dövlət və vətəndaş cəmiyyətinin qurulması, ölkəmizin dunya birliyində layiqli yerini tutması baxımından mövcud siyasi kursun müstəsna əhəmiyyəti praktik surətdə təsdiqini tapır.

Müasir Azərbaycan məhz ulu öndərimiz Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf magistralı ilə nurlu sabahına doğru sürətlə irəliləyir. Bu yolda geriyə boylanan hər kəsin gözləri önündə ulu öndərimizin millət və xalq qarşısındakı misilsiz xidmətləri kino lenti tək canlanır. Bir daha aydın olur

ki, ölkəmizin tərəqqisinin yeganə yolu məhz Heydər Əliyev siyasi kursunun davam etdirilməsi və ulu öndərimizin sağlığında həyata keçməyən ideyalarının ardıcıl surətdə gerçəkləşdirilməsidir. Ümummilli liderimizin zəngin dövlətçilik irsinin öyrənilməsi, onun ölməz ideyalarının geniş təbliğ olunaraq praktik həyatda tətbiqi və gələcək nəsillərə çatdırılması müasir qloballaşma dövründə xüsusən aktualdır. 3 il öncə məhz bu zərurətdən yaranmış Heydər Əliyev Fondu hələ sağlığında canlı əfsanəyə çevrilmiş ulu öndərimizin zəngin dövlətçilik irsinin öyrənilməsi və gənc nəslə təlqin edilməsi, onun ölməz ideyalarının gerçəkləşdirilməsi prosesində yaxından iştirak edir. Fond geniş ictimaiyyətlə əlaqələri möhkəmləndirməklə Azərbaycanın hərtərəfli inkişafına, ölkəmizdə vətəndaş cəmiyyətinin bərqərar edilməsi prosesinə layiqli töhfəsini verir.

Millətin işıqlı gələcəyi naminə bir sıra strateji əhəmiyyətli layihələri inamla həyata keçirən Heydər Əliyev Fondu qısa müddətdə bir çox insanların ümid yerinə çevrilmişdir. Ümummilli liderimizin ölməz ideyalarının layiqli daşıyıcısına çevrilmiş fond hər bir vətəndaşın zəruri istək və arzularının gerçəkləşməsinə, problemlərinin operativ həllinə maddi-mənəvi dəstək verir. İnsanlara ən müxtəlif səviyyələrdə yardım göstərməklə cəmiyyətdə yalnız sağlam ənənələrin, zəngin əxlaqi-mənəvi dəyərlərin möhkəmlənməsinə çalışır. Bu xeyirxah missiya köməksizə əl tutmaq, çarəsizdə ümid yaratmaq, bir sözlə, insanlara səmimi diqqət və qayğı istəyindən qaynaqlanır. Bunun nəticəsi kimi 2004-cü ildə YUNESKO-nun, 2006-cı ildə isə İSESKO-nun xoşməramlı səfiri kimi yüksək titula layiq görülmüş Mehriban xanım Əliyevanın özünün də vurğuladığı kimi, fondun çoxşaxəli fəaliyyətinin bir başlıca qayəsi var - insanlara təmənnasız yaxşılıq etmək. Azərbaycan insanı Heydər Əliyev Fondunun prezidentinin vətəndaşlara diqqət və qayğı nümunələri ilə zəngin olan çoxşaxəli fəaliyyətinə nəzərən savab və xeyirxah əməllərin nə qədər vacib olduğunu dərk edir, özünün yaşam fəlsəfəsini bu ideallara uyğunlaşdırmağa çalışır. Xeyirxahlıq, mərhəmət, ədalət kimi ülvi və saf dəyərlər fondun fəaliyyətində parlaq xətt təşkil edir. Fondun prezidenti Mehriban xanım Əliyevanın söylədiyi kimi, başqalarına yaxşılıq ömrü boyu onun üçün ümdə anlayışlara, ülvi insani keyfiyyətlərə çevrilmiş, eyni zamanda bu xeyirxahlıq missiyasının kökündə təmənnasızlıq prinsipi dayanmışdır: "...Ömur boyu mənim həyat amalım belə olmuşdur ki, etmək istədiyin yaxşılığı heç vəchlə gözə çatdırmaq olmaz. İndi

mən bundan, demək olar ki, məhrumam. Birinci xanım statusunda mən elə bir xeyriyyə aksiyası keçirə bilmirəm ki, o, ictimaiyyətin diqqətini cəlb etməsin. Bu kütləvilik amili məni sıxsa da, yaşayışıma bəzi yeniliklər gətirir və mən bunu olduğu kimi qəbul edirəm. Bu isə özünü göstərməkdən tamamilə uzaq adam kimi mənə kifayət qədər çətin olur".

Dünyanın nüfuzlu mədəniyyət qurumu - YUNESKO-nun Azərbaycanın birinci xanımına göstərdiyi yüksək etimad təkcə bir fərdin deyil, ümumilikdə respublikamızın uğuru olmaqla bərabər, həm də müasir dünyanın xalqımızın milli mədəniyyətinə, folkloruna, tarixinə, dilinə, incəsənətinə göstərdiyi yüksək diqqətin ifadəsidir. Bu təyinat eyni zamanda Mehriban xanım Əliyevanın şəxsində Azərbaycan qadınının fədakarlığını və bacarığını beynəlxalq miqyasda təsdiq etməsinə daha bir əyani sübutdur. Cəmiyyətin ictimai-siyasi həyatında və idarəetmə sistemində daim fəal mövqe tutmuş qadınlarımız bu gün də müstəqil respublikamızın inkişafı, dövlətçilik ənənələrinin möhkəmlənməsi naminə əzmlə çalışırlar. Azərbaycan qadını üçün səciyyəvi olan yüksək humanizm, qayğıkeşlik və mərhəmət kimi ali mənəvi keyfiyyətlər bu gün Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın şəxsiyyətində bir daha parlaq təcəssümünü tapır.

Zəngin mənəviyyata, dair maraqlarla çərçivələnməyən konkret həyat amalına malik insanlar dövrünün problemlərinə əsl ziyalı yanğısı, vətəndaş təəssübkeşliyi ilə yanaşır, fürsət düşdükcə xalqının nicatına, təminatlı gələcəyinə xidmət edən xeyirxah əməllərin sahibinə çevrilirlər. Şəxsiyyətə hörmət, vətəndaşa həssas münasibət, insanlara qayğı və təmənnasız xidmət amalını özünün həyat kredosuna çevirmiş Heydər Əliyev Fondunun prezidenti ötən üç ili xalqımızın milli varlığını özündə yaşadan zəngin mənəvi, elmi-intellektual və mədəni mülkiyyəti qloballaşma dövrünün mənfi təzahürlərindən hifz etmək üçün genişmiqyaslı işlər görmüşdür. YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın milli-mənəvi dəyərlərin qorunması, elm və təhsilin səviyyəsinin yüksəldilməsi, səhiyyənin inkişafı, insanların fiziki və mənəvi sağlamlığının təminatı, Azərbaycan həqiqətlərinin bütün dünyada təbliğ olunması yönümündə həyata keçirdiyi qlobal layihələr onun fəal vətəndaşlıq mövqeyində dayanmasının,

yüksək mənəvi məsuliyyətinin təzahürüdür.

Heydər Əliyev Fondunun son üç illik fəaliyyəti həm də fərqli sivilizasiyaların uğurlu dialoquna, keçmişlə gələcək arasında körpü salınmasına, insanlara yüksək mənəvi-etik dəyərlərin əxz edilməsinə yönəlmişdir. Şübhəsiz, sivilizasiyalarası dialoq və yaxınlaşma, fərqli mədəniyyətlər arasında ortaq təmas nöqtələrinin tapılması, ümumbəşəri konsolidasiya və texnogen proseslərin geniş vüsət alması mütərəqqi proses olduğu qədər də, bəzən milli mədəniyyətə, mənəvi dəyərlər sisteminə real təhlükə qismində çıxış edir. Belə şəraitdə xalqın milli "mən"inin, mənəvi dəyərlərinin qorunması məsələsi də son dərəcə vacib və aktual problem kimi qarşıya çıxır. Bu baxımdan Azərbaycan mədəniyyətinin və incəsənətinin YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın şəxsində özünə etibarlı xilaskar tapması faktı xüsusi qeyd olunmalıdır.

Heydər Əliyev Fondu həyata keçirdiyi qlobal layihələrlə həm də insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəçisi statusunda çıxış edir. Fond respublikamızın hərtərəfli inkişafına və vətəndaş cəmiyyəti quruculuğu prosesinin sürətləndirilməsinə töhfəsini verməyə çalışır. Mümkün səviyyədə vətəndaşların problemlərinin həllinə səy göstərir, imkanlarını bu yöndə səfərbər edir. Bəzən hətta müəyyən dövlət qurumlarında biganəliklə üzləşən, problemlərini həll edə bilməyən insanlar da sonda Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyevaya rəsmi müraciət etməklə nicat tapırlar. Onun rəhbərlik etdiyi fondda hər bir vətəndaşın müraciətinə böyük diqqət və həssaslıqla yanaşılır, problemlərinin həllinə səy göstərilir. Bu, həm də Heydər Əliyev Fondunun vətəndaş cəmiyyəti quruculuğu prosesində fəal iştirak edən nüfuzlu və sanballı ictimai təsisat olduğunu təsdiqləyir.

Fondun xətti ilə 2004-2007-ci illərdə həyata keçirilmiş bir sıra proqramlar daha çox maarifçi mahiyyət daşıması ilə yaddaqalan olmuş, təhsilin səviyyəsini ildən-ilə yüksəltməyə imkan vermişdir. Qurumun əsas fəaliyyət istiqamətlərindən biri də ölkənin təhsil problemlərinin həllinə kömək və bu məqsədlə nüfuzlu beynəlxalq təşkilatlardan sayılan YUNESKO-nun geniş imkanlarından səmərəli şəkildə faydalanmaqdan ibarət olmuşdur. Bu nüfuzlu beynəlxalq təşkilatın diqqətinin ölkəmizin təhsil problemlərinin həllinə cəlb

olunması, təşkilatla əməkdaşlıq şəraitində keçirilən birgə tədbirlər yaxın gələcəkdə mövcud əlaqələrin daha da intensivləşməsinə yaxşı imkanlar açır.

Heydər Əliyev Fondu ilk gündən Azərbaycanda təhsil infrastrukturunun yeniləşdirilməsini, yeni məktəblərin inşasını bu sahədə mövcud problemlərin başlıca səbəblərindən biri kimi dəyərləndirmişdir. Fondun təşəbbüsü ilə həyata keçirilən, dövlət qurumlarının və özəl strukturların da dəstəklədiyi "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində təkcə 2005-2006-cı illərdə Azərbaycanın müxtəlif regionlarında 250-yə yaxın məktəb binası inşa olunaraq lazımi avadanlıqla təchiz edilmişdir. "Ölkəmizdə çox böyük əks-səda doğuran "Yeniləşən Azərbaycana yeni məktəb" proqramıdır. Biz ilk dəfə bu proqramı təqdim edəndə "dəyirmi masa" keçirmişdik. Çox adam inanmırdı, şübhə ilə yanaşırdı ki, bu necə ola bilər, üç-dörd ay ərzində 132 məktəb tikiləcək, özü də əksəriyyəti ucqar rayonlarda, ölkəmizin dağlıq rayonlarında inşa olunacaqdır. Amma biz sübut etdik ki, əgər inam varsa, iradə varsa, əgər işləri düzgün qurmaq bacarığı varsa, hər bir problem çox qısa bir zamanda öz həllini tapa bilər", - deyə Heydər Əliyev Fondunun prezidenti layihənin qısa müddətdə uğurla icra olunduğunu bildirmişdir.

Layihə çərçivəsində bölgələrdə tikilən və infrastrukturu yerli tələbata və imkanlara uyğunlaşdırılan məktəblər müasir avadanlıq, istilik sistemi, zəngin kitabxanalar, əyani vəsait və kompyuter avadanlığı ilə təchiz olunmuşdur. Beləliklə, ölkənin ən müxtəlif bölgələrində minlərlə şagird 2005-2006-cı tədris ilini müasir tələblərə cavab verən yeni məktəblərdə qarşılamışdır. Fərəhli haldır ki, fond bu xeyirxah missiyanı cari ildə də inamla davam etdirir.

Heydər Əliyev Fondunun fəaliyyət prioritetləri sırasında elm və təhsilin mühüm yer tutması qətiyyən təsadufi deyil. Ulu öndərimizin ideyalarını əldə rəhbər tutaraq onların gerçəkləşdirilməsinə çalışan fond bir zamanlar vətənpərvər ziyalılarımızın yeritdiyi fəal maarifçilik təmayülünü davam etdirmək kimi çətin və şərəfli missiyanı üzərinə götürmüşdür. Bu sahəyə yönələn diqqət və qayğının hansı məqsəddən qaynaqlandığını, xalqın, dövlətin gələcəyi baxımından necə böyük əhəmiyyət kəsb etdiyini isə xüsusi vurğulamağa ehtiyac yoxdur. Elmin, təhsilin, kompyuter və informasiya texnologiyalarının dinamik inkişafı, gənc nəslin təlim-tərbiyəsinin yüksək səviyyədə təşkili, bugünün uşaqlarının sabahın layiqli vətəndaşları kimi yetişməsi yolunda məqsədyönlü

işlərin görülməsi, ilk növbədə, həqiqi vətənpərvərlikdən irəli gəlir. Yalnız səmimi vətənpərvərlik hissi, vətən sevgisindən qaynaqlanan təmənnasız, pak hisslər insanı olduqca çətin, lakin xalqın və dövlətin gələcəyi baxımından müstəsna əhəmiyyətli işləri həyata keçirməyə sövq edə bilər. Bu baxımdan Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın elm və təhsilin tərəqqisinə əlahiddə münasibəti onun fəal vətəndaşlıq mövqeyində dayanmasının, nümunəvi vətənpərvərliyinin əyani ifadəsidir. Azərbaycanın birinci xanımı ulu öndərimizin əsasını qoyduğu, Prezident İlham Əliyevin isə layiqincə davam etdirdiyi konseptual təhsil strategiyasının həyata keçirilməsinə öz töhfəsini verir. Məhz onun müəyyənləşdirdiyi prioritetlərin nəticəsi kimi Heydər Əliyev Fondu yarandığı gündən ölkəmizin elmi, ictimai, mədəni və humanitar həyatında öz sözünü deyir.

Fondun diqqət yetirdiyi sahələr cəmiyyətin olduqca həssas qütbləridir və bu qütblərin mərkəzində milli genofondun inkişafı, xalqımızın minilliklərdən keçirib bugünə çatdırdığı mədəni-estetik dəyərlər sistemi dayanır. Fond, həmçinin, səhiyyə, ekologiya, idman və sosial problemlərlə bağlı müxtəlif layihələr hazırlayaraq səylə icra edir. Qurumun müxtəlif layihələrini birləşdirən ortaq nöqtə isə məhz milli genofondun qorunmasıdır. Bu ali mərama xidmət edən hər bir addım Heydər Əliyev Fondu üçün eyni səviyyədə prioritet mahiyyət daşıyır.

Heydər Əliyev Fondunun çoxsaylı məqsədlərindən biri də Azərbaycan mədəniyyətinin dünyada geniş təbliğidir. Son 10 ildə Azərbaycan Mədəniyyətinin Dostları Fondunun vasitəsilə bu istiqamətdə bir sıra uğurlu layihələr həyata keçirilmişdir. Azərbaycan milli musiqisinin incilərindən olan muğamın inkişafı və təbliği ilə bağlı ciddi addımlar atılmış, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə görkəmli muğam ustaları dəvət olunmaqla "dəyirmi masa" keçirilmiş, Bakı şəhərində Beynəlxalq Muğam Mərkəzinin yaradılması qərara alınmışdır. Muğam ustaları ilə mütəmadi görüşlərdən, məsləhətləşmələrdən sonra Beynəlxalq Muğam Mərkəzinin layihəsi tərtib edilmiş və Heydər Əliyev Fondunda onun təqdimatı keçirilmişdir. Bu mərkəz üçün münasib yer seçilmiş, Azərbaycan Prezidenti cənab İlham

Əliyevin və YUNESKO-nun Baş direktoru cənab Koişiro Matsuuranın iştirakı ilə binanın təməli qoyulmuşdur.

Azərbaycan muğam sənətinin inkişafı və qorunması istiqamətində atılan növbəti addımlardan biri də "Qarabağ xanəndələri" musiqi albomunun nəfis şəkildə buraxılması və "Gülüstan" sarayında onun təqdimat mərasiminin keçirilməsidir. Tanınmış ifaçıların iştirakı ilə ardıcıl olaraq muğam axşamlarının təşkili də sənətsevərlər, milli musiqi həvəskarları tərəfindən dərin razılıq hissi ilə qarşılanır, bu ənənə yüksək dəyərləndirilir. Bütün bunlarla yanaşı, son illərdə Heydər Əliyev Fondunun köməyi ilə Azərbaycanın görkəmli yazıçı və pedaqoqu Abdulla Şaiqin ev-muzeyində təmir-bərpa işləri aparılmış və əsaslı təmirdən sonra muzey yenidən fəaliyyətini davam etdirmişdir. Bakının Əzizbəyov rayonundakı Mərdəkan qəsəbəsində kütləvi kitabxanada yenidənqurma işləri aparılmış, Pir Həsən ziyarətgahının yenidən qurulması ilə bağlı işlər başa çatmışdır. Heydər Əliyev Fondunun dəstəyi və köməyi hesabına Gəncənin sonuncu xanı Cavad xanın qəbri üzərində türbə ucaldılmış, Həzrəti Zeynəb məscidində yenidənqurma işləri aparılmışdır.

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın bu günlərdə BMT-nin Cenevrədəki ofisinin iqamətgahında "Azərbaycan otağı"nın təntənəli açılışında iştirakı da respublikamızın dünya miqyasında təbliği istiqamətində həyata keçirilən uğurlu siyasətin tərkib hissəsidir. Tədbirdə məruzə edən Azərbaycanın birinci xanımı respublikamızın milli inkişaf yolundan və son illərdə qazandığı uğurlu nəticələrdən söz açmış, ölkə həqiqətləri barədə tədbir iştirakçılarına geniş məlumat vermişdir. "Bu otağı yaratmaqla biz vətənimizin kiçik bir hissəsini Millətlər sarayına gətirməyə, öz zəngin mədəni və tarixi irsimizi, eləcə də ənənəvi incəsənətimizi nümayiş etdirməyə çalışdıq. Qədim vaxtlardan Azərbaycan Qərblə Şərqi nəinki coğrafi, həm də mənəvi baxımdan birləşdirmişdir. Yüksək dərəcədə dözümlülük, ümumbəşəri dəyərləri milli dəyərlərlə uzlaşdırmaq qabiliyyəti, mədəni və dini müxtəlifliyə hörmət - bütün bunlar Azərbaycan xalqının əsrlər boyu formalaşmış xasiyyətini təşkil edir", - deyə Mehriban xanım Əliyeva bildirmişdir.

Ermənistanın işğalı nəticəsində tarixi torpaqlarından didərgin düşmüş qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həllinə yardım göstərilməsi

də Heydər Əliyev Fondunun əsas fəaliyyət istiqamətlərindən biridir. Mehriban xanım Əliyeva bu təbəqədən olan vətəndaşlarımızın problemlərini həssaslıqla duyur və imkan daxilində maddi və mənəvi yardımlarla onlara təsəlli verməyə çalışır. Azərbaycanın birinci xanımı xarici mətbuat orqanlarından birinə verdiyi müsahibə zamanı qaçqın və məcburi köçkünlərimizin ağır vəziyyətindən söhbət açmış, onların mənəvi köməyə və həyanlığa ehtiyacının olduğunu vurğulamışdır: "EMən inanıram ki, həqiqət zəfər çalacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Dağlıq Qarabağ münaqişəsi ilk növbədə görünməmiş humanitar fəlakətdir. Bir milyon qaçqın-köçkünün hər birinin öz şəxsi faciəsi var... Bəli, biz bu gün Azərbaycan dövlətinin və Azərbaycan cəmiyyətinin imkanı çatan hər şeyi edirik. Neft Fondundan ilk vəsait məhz qaçqın-köçkünlər üçün şəhərciklərin tikintisinə və onların çadır düşərgələrindən köçürülməsinə xərclənmişdir. Onlarla ünsiyyət zamanı bu insanların hədsiz dözümlülüyü və elə bir o qədər də hədsiz inamı adamı heyrətə gətirir. Onlar ədalətin zəfər çalacağına, işğal olunmuş torpaqların azad ediləcəyinə və yenidən ev-eşik sahibi olacaqlarına inanırlar".

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın ulu öndərimiz Heydər Əliyevin anadan olmasının 84-cü ildönümü münasibətilə amnistiya təşəbbüsü ilə çıxış etməsi də səmimiyyətə söykənən xeyirxahlığın növbəti təcəssümüdür. Yekdilliklə qəbul olunan bu amnistiya aktı bir daha Heydər Əliyev Fondunun insanpərvərlik, humanizm və ədalət kimi ali dəyərlərə sadiqliyini, insan və vətəndaş hüquq və azadlıqlarına həssas münasibətini əks etdirir. Xüsusi vurğulamağa ehtiyac yoxdur ki, məhz ulu öndərimizin 1993-cü ildə xalqın təkidli tələbi və arzusu ilə hakimiyyətə qayıdışından sonra Azərbaycanda insan hüquq və azadlıqlarının təminatında ciddi dönüş yaranmış, mütərəqqi məhkəmə-hüquq islahatları aparılmış, penitensiar xidmətin səviyyəsi ildən-ilə yüksəldilmişdir. Ölüm hökmünün tətbiqinə moratorium qoyulmuş, 1995-ci ildə Əfvetmə komissiyası fəaliyyətə başlamış, islah olunaraq azad cəmiyyətə qovuşmaq istəyən məhkumların bağışlanması müsbət ənənəyə çevrilmişdir. 1998-ci ilin 10 fevralında Azərbaycanda ölüm hökmü cəzasının birdəfəlik ləğvi də məhz ulu öndərimizin yüksək humanizm və mərhəmətinin nəticəsində mümkün olmuşdur.

İnsan hüquqlarına, şəxsiyyət azadlığına humanist münasibətin formalaşdığı

respublikamızda 1995-2003-cü illərdə ümummilli liderimiz Heydər Əliyev tərəfindən 32 əfv fərmanı imzalanmış, bu fərmanlar 3104 məhkuma şamil edilmişdir. Heydər Əliyevin qanunvericilik təşəbbüsü əsasında Milli Məclis 1996-2003-cü illərdə 7 amnistiya haqqında qanun imzalamış, 21325 məhkum azadlığa buraxılmış, bu amnistiya aktları 77 mindən artıq məhkuma şamil edilmişdir.

Azərbaycan Prezidenti cənab İlham Əliyev bu mütərəqqi ənənəni davam etdirərək üç il yarım müddətində 10 əfv fərmanı imzalamış, 5000-ə yaxın məhkumu cəzasının çəkilməmiş hissəsindən tam və yaxud qismən azad etmişdir. Bu göstəriciyə görə də Azərbaycan dünyanın lider ölkələrindən biri sayıla bilər. Hər halda, dünyanın heç bir digər ölkəsində qısa müddətdə bu sayda əfv fərmanının imzalanması faktına rast gəlinməmişdir. Bu, Azərbaycanda insan hüquqlarının etibarlı təminatına və demokratikləşməyə xidmət edən strateji siyasi kursun layiqincə davam etdirildiyini göstərir. Dünyanın insan hüquqları sahəsində ixtisaslaşmış nüfuzlu təşkilatları da bunu açıq etiraf edir, cənab İlham Əliyevin insanpərvər dövlət başçısı olduğunu bildirirlər.

Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü əsasında gerçəkləşən sonuncu amnistiya aktı da bu müsbət ənənənin davamı kimi cəmiyyətdə böyük rezonans doğurmuş, böyük rəğbət və ehtiramla qarşılanmışdır. Amnistiya aktı bir çox təbəqələrdən olan məhkumları əhatə etməklə olduqca humanist səciyyə daşıyır. Amnistiya aktı ilk növbədə böyük ictimai təhlükə törətməyən və az ağır bir sıra cinayətlərə görə məhkum olunmuş qadınlara, birinci qrup əlillərə, 60 yaşına çatmış kişilərə, cinayət törədərkən 18 yaşına çatmayanlar, öhdəsində (himayəsində) yetkinlik yaşına çatmayan övladı və ya birinci və ikinci qrup əlil övladı olan kişilərə şamil edilmişdir. Təqdirəlayiq haldır ki, Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunması uğrunda döyüşlərdə iştirak etmiş şəxslər, bu döyüşlərdə həlak olmuş və ya xəbərsiz, itkin düşmüş şəxslərin yaxın qohumları, 1948-1953 və 1988-ci illərdə etnik təmizləmə, terrorçuluq və soyqırımı siyasəti nəticəsində Ermənistandan deportasiya olunmuş, 1988-1993-cü illərdə Azərbaycan ərazisinin bir hissəsinin işğalı nəticəsində doğma torpaqlarından məcburi köçürülmüş, 1990-cı il 20 Yanvar faciəsində və ya Xocalı soyqırımında əlil olmuş şəxslər və ya şəhid olmuş şəxslərin yaxın qohumları və bəzi digər

kateqoriyalardan olan şəxslərin də amnistiyanın təsir dairəsinə düşəcəyi gözlənilir.

Amnistiya aktında cinayətlərin xarakterindən və ictimai təhlükəlilik dərəcəsindən asılı olaraq ağır və xüsusilə ağır cinayətlər, habelə xüsusilə təhlükəli residiv yaradan cinayətlər törətmiş, cinayət nəticəsində vurulmuş ziyanı ödəməmiş və bəzi digər kateqoriyalardan olan şəxslər barəsində amnistiyanın tətbiq edilməsinə məhdudiyyətlər nəzərdə tutulmuşdur. Amnistiya aktı nəticəsində azadlıqdan məhrumetmə cəzasını çəkən məhkumlardan təqribən 1500 şəxsin cəzaçəkmə müəssisələrindən azad edilməsi, habelə azadlıqdan məhrumetmə cəzası ilə bağlı olmayan cəzalara məhkum olunmuş təqribən 7500 şəxsin cəzalarından azad edilməsi mümkün olacaq. Maddi vəziyyəti ilə bağlı məhkəmələr tərəfindən təyin olunmuş cərimə cəzalarını ödəməmiş 3 mindən artıq şəxsin həmin cəzadan azad olunması reallaşacaqdır. Bütövlükdə təqribən 9 min məhkumun amnistiya aktının təsiri altına düşməsi ehtimal olunur.

Azərbaycan Respublikası Prokurorluğu öz fəaliyyət istiqamətinə uyğun olaraq bu amnistiya aktının düzgün icrası və tətbiqində fəal iştirak edir, prosesin qanunda nəzərdə tutulmuş qaydada həyata keçirilməsinə diqqət yetirir. Prokurorluq orqanları, həmçinin, amnistiya aktının məhkumlar arasında düzgün izahını təmin etmək, onun tərbiyəvi təsirini daha da gücləndirmək yönümündə məqsədyönlü iş aparırlar.

Bu gün Heydər Əliyev Fondu Azərbaycanda yüz minlərlə insanın inam və etimadını qazanmış ictimai təşkilat olmaqla yanaşı, ulu öndərimizin adını şərəflə daşıyır. "Bəzən cəmiyyətdə insan elə bir vəziyyətə düşür ki, bütün döydüyü qapılar onun üzünə bağlı qalır. O öz dərdi ilə, öz problemi ilə təkbaşına qalır və ona elə gəlir ki, heç bir şey və heç kəs ona kömək edə bilməz. Bu halda o, üzünü bizim fonda tutur. Mən demək istəmirəm ki, biz dərhal onun bütün problemlərini həll edirik. Amma o insan burada nə biganəliklə, nə soyuq münasibətlə rastlaşmaz və hökmən onun problemlərinin həlli üçün mümkün olan bütün vasitələrdən istifadə ediləcəkdir. Yəqin ki, xeyriyyəçilik, insansevərlik, mərhəmət Azərbaycan xalqının mentalitetinə, mədəniyyətinə, əsrlər boyu formalaşan ənənələrimizə xas olan gözəl keyfiyyətlərdən biridir və biz bu gün Heydər Əliyev Fondu olaraq bu ənənələri davam etdirməyə çalışırıq" - bu fikirlər YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfirinin yüksək həyat

amalını bir daha təcəssüm etdirir.

Fondun son üç ildə həyata keçirdiyi bütün layihələr milli xüsusiyyətlər, yerli tələb və ehtiyaclarla çulğalaşaraq olduqca maraqlı və rəngarəng forma almışdır. Fond hansısa ayrıca götürülmüş sahənin inkişafı naminə fəaliyyət göstərmir - xeyriyyəçilikdən tutmuş ölkənin səhiyyə və təhsil sisteminin, mədəniyyət və incəsənətinin inkişafı, Azərbaycanın beynəlxalq aləmdəki imicinin formalaşmasına qədər müxtəlif sferalarda məhsuldar fəallıq nümayiş etdirir. Milli Məclisin deputatı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva üzərinə götürdüyü çətin, fəqət xoşməramlı missiyanı layiqincə davam etdirir. Bu fəaliyyəti ilə o, həm də həyatının mənasını insanlara köməkdə, xeyirxah və nəcib əməllərdə axtaran insanlarla bir sırada dayanır.

**Əli Eyvazov,**
Hüquq elmləri namizədi

## XOŞMƏRAMLI SƏFİR MEHRİBAN XANIM ƏLİYEVA YUNESKO TRİBUNASINDAN AZƏRBAYCANIN HAQQ SƏSİNİ DÜNYAYA ÇATDIRIR

Artıq bir neçə müddətdir ki, Azərbaycanda cəmiyyətin istifadə etdiyi mədəni və siyasi anlamlar çərçivəsinə mənası ilə tamamilə yeni, əvvəllər rastlaşmadığımız bir ifadə daxil olmuşdur: YUNESKO-nun xoşməramlı səfiri. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın ölkəmizdə apardığı ictimai fəaliyyətin beynəlxalq miqyasda qiymətləndirilməsi nəticəsində verilmiş bu statusun şərəf və nüfuz çəkisini müəyyənləşdirmək üçün, zənnimcə, YUNESKO-nun daha bir neçə xoşməramlı səfirinin adlarını çəkmək kifayətdir: dünya şöhrətli musiqiçilər Monserrat Kabalye, Mstislav Rostropoviç, fransız kosmonavtı Patrik Bodri, İordaniya şahzadəsi Firyal, məşhur afrikalı alim Modibo Diarra, Türkiyə Böyük Millət Məclisinin deputatı, tanınmış musiqiçi və bəstəkar Ömər Zülfi Livanelli, tanınmış fransız musiqiçisi Jan Mişel Jar, ispaniyalı səyahətçi-alim Kitin Minyos, Fransanın nəhəng "L'Oreal" şirkətinin baş direktorunun xanımı Kristina Ouen-Cons, iş adamı Şeyx Həsən Şakir, Rusiyanın tanınmış rəssamı Zurab Sereteli, Latın Amerikasının təmsilçisi xanım Mariya de Lurdes Exidiyo Villela. İngiliscə qudvil ("goodwill") kimi səslənən bu sözün məna çalarları çoxdur. Belə ki, iqtisadiyyatda, siyasətdə, mədəniyyət və elmdə, ictimai həyatda hər sahənin məzmununa uyğun işlədilir. Lakin onun bir dəyişməz mənası var: mövcudluğu ilə insanlarda etibar, inam oyadan xoş məram, xoş niyyət. Bu sözün arxasında narahat, ziddiyyətli dünyanın insanlarını mənən yaxşılaşdırmaq, gözəlləşdirmək, əsrlərin miras qoyduğu mənəvi və mədəni sərvətləri bu gün də yaşatmaq amalı durur. YUNESKO-nun xoşməramlı səfirləri ailəsində artıq öz yerini tutmuş Mehriban xanım Əliyevanın Vətənimiz üçün gördüyü işlərin mahiyyəti, bəlkə də, hələ tam dərk edilmir. Lakin tarixdə elə hadisələr olur ki, onların tarixi dəyəri təkcə gələcək nəsillərə ünvanlanmır, əksinə, elə ilk gündən müəyyənləşir. Azərbaycanın tarixində ilk xoşməramlı səfir Mehriban

xanım Əliyevanın Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti kimi çoxşaxəli və çoxillik fəaliyyəti məhz bu tarixi dəyərə malikdir. Martın əvvəllərində Parisdə YUNESKO-nun xoşməramlı səfirlərinin illik toplantısında müxtəlif məsələlər ətrafında müzakirələr aparıldı. Açılış mərasimində YUNESKO-nun baş direktoru cənab Koiçiro Matsuura, YUNESKO-nun baş konfransının sədri Zati-aliləri cənab Mişel Abiola Omovela çıxış etdilər. Tədbirlərdə YUNESKO-nun təbii fəlakətlərə qarşı xəbərdarlıq, təhsil sahəsində əsas inkişaf istiqamətləri, hamı üçün təhsil, davamlı inkişaf və təhsil layihələri müzakirə edildi. YUNESKO-nun 60 illiyi ilə əlaqədar məruzə dinlənildi, bu təşkilatın internet səhifəsi təqdim olundu. Məlumdur ki, dünyanın ən iri beynəlxalq mədəni-humanitar təşkilatı kimi YUNESKO siyasi problemlərin müzakirəsi ilə məşğul olmur. O, siyasi müstəvidən, siyasət kürsüsündən bir növ uzaqdır. Lakin o da təkzibedilməz həqiqətdir ki, müasir, qloballaşan dünyada hər şey siyasi gerçəkliklərə bağlıdır və çox zaman onların işığına boyanır. İlk baxışda siyasətlə birbaşa əlaqəsi olmayan addımlar, təşəbbüslər isə bu siyasətə cüzi də olsa düzəliş etmək iqtidarında ola bilir. YUNESKO-nun məramı, iş prinsipləri sırf humanitar xarakterli, siyasət baxımından bitərəf bəyan edilsə də, onun Birləşmiş Millətlər Təşkilatının bir struktur bölməsi kimi real beynəlxalq siyasətdən təcrid edilməsini də düşünmək sadəlövhlük olardı. Dünya obyektiv olaraq mövcuddur və o, müharibələr, toqquşmalar, iqtisadi, siyasi və mənəvi böhranlardan xali deyildir. Müharibələrdən əziyyət çəkən, müharibələr üzündən inkişaf və tərəqqi yolunda maneələrlə rastlaşan ölkələr sırasında Azərbaycan da var. Ərazisinin 20 faizi işğal olunan, bir milyona yaxın qaçqın-köçkünü mənən və maddi baxımdan yaşadan kiçik bir ölkənin birinci dərəcəli problemi də elə bunlardır. Erməni işğalına son qoymaq üçün ölkəmizin rəhbərliyi bütün siyasi səviyyələrdə intensiv iş aparır. Təbiidir ki, YUNESKO-nun ənənəsi, fəaliyyət istiqaməti və xarakteri ilə əlaqədar olaraq Mehriban xanım öz çıxışında siyasi problemlərdən yan keçməli idi. Lakin Azərbaycanın birinci xanımı bu problemləri beynəlxalq təşkilatın məramına uyğun deyim və təbliğat vasitələrindən istifadə etməklə bir daha nüfuzlu tədbirlərdə mədəniyyət layihəsi çərçivəsində qaldırdı. YUNESKO-nun xoşməramlı səfirlərinin ənənəvi illik iclası bir daha Azərbaycan, onun mədəniyyəti, dünyəvi əhəmiyyətli ənənələri haqda məlumat vermək üçün, informasiya məkanı kimi mühüm əhəmiyyətə malikdir. Müasir dünyamızda məhz informasiyanın

təqdimi bəzən dövlətlərin real iqtisadi, maliyyə gücü qədər təsirli və bəlkə də, daha səmərəli olur. Təsadüfi deyil ki, çox zaman informasiya məkanında müxtəlif dövlətlərin maraqları "görüşür" və bu "görüşün" nəticələri siyasətdə də əks-səda doğurur. YUNESKO-nun iclas salonunda keçirilən toplantının birinci yarısına tanınmış fransız musiqiçisi, xoşməramlı səfir Jan Mişel Jar sədrlik edirdi. Əsas diqqət xoşməramlı səfirlər arasında təcrübə mübadiləsinə həsr olunmuş iclasda Mehriban xanım Əliyevanın təqdim etdiyi, müəllifi və rəhbəri olduğu "Azərbaycan muğamı" layihəsinin "Qarabağ xanəndələri" adlı tarixi, elmi, mədəni dəyərə malik ilk bölümü böyük maraqla qarşılandı. Artıq YUNESKO öz qərarı ilə Azərbaycan muğamını dünya mədəniyyətinin misilsiz dəyerlərə malik şifahi, mənəvi sərvətləri sırasına daxil etmişdir. Qarabağ muğam məktəbi, onun tanınmış nümayəndələri haqqında nəfis şəkildə tərtib olunmuş kitab və 24 xanəndənin ifasını canlandıran kompakt disklər də Azərbaycanın ayrılmaz parçası olan Qarabağın çoxəsrlik muğam tarixini əks etdirir. Bu disklər Qarabağ muğam sənətinin səslərdə yaşayan tarixini və müasir səviyyəsini əyani şəkildə nümayiş etdirir. "İnsanlara əbədi həqiqətlər haqqında düşünmək və bir də mənəvi rahatlıq tapmaq imkanı yaratmaq" qüdrətində olan muğam kimi misilsiz, dərin fəlsəfi mahiyyətli musiqi haqqında danışan Azərbaycanın xoşməramlı səfiri həm də mənəvi işğala məruz qalmış Vətənimizin haqq səsini çatdırdı. O, Azərbaycanın sadəcə bir ərazi parçası deyil, mədəniyyətimizin, mənəviyyatımızın ayrılmaz parçası olan Qarabağ haqqında onun öz avazı, nəfəsi, tarixdən gələn ən obyektiv şahidləri və mühafizəçilərinin - musiqi səfirlərinin səsi ilə danışırdı. Mehriban xanım YUNESKO-nun açdığı imkanlar dairəsində yenə də Azərbaycan reallıqlarını, mənəvi və mədəni sərvətlərin tarixini, bugünkü potensialını yüksək, inandırıcı, cəlbedici, müasir səviyyədə təqdim etdi. YUNESKO-nun tarixində Azərbaycanın təmsil olunduğu müddətdə mədəniyyət və incəsənət ilə bağlı belə səviyyəli təqdimat ilk dəfə idi keçirilirdi. İclasda iştirak edən bütün qonaqlara "Qarabağ xanəndələri" albomu hədiyyə edildi. Rəsmi hissədən sonra qeyri-rəsmi görüşlərdə də Azərbaycanın bu problemləri lazımi səviyyədə təqdim olundu, onlar haqqında ətraflı söhbət edildi. Ənənəyə uyğun olaraq, Azərbaycanın birinci xanımı və YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva baş direktoru və digər xoşməramlı səfirləri nahara dəvət etdi. Bu münasibətlə verilən konsertdə müasir Azərbaycan musiqi mədəniyyətinin parlaq nümayəndə

si, bəstəkar Firəngiz Əlizadənin artıq dünyanı fəth etmiş "Habilsayağı" əsəri səsləndi. Əsəri Firəngiz Əlizadə və tanınmış violonçelçi İvan Monigetti ifa etdilər. Muğam ənənəsinin qədim ruhunu, əsrlərin emosional-bədii energiyasını hifz edən musiqinin müasir, avanqard üslub vasitələri və estetikası ilə çulğalaşmış təcəssümü dinləyiciləri, sözün əsil mənasında, heyran etdi. Məşhur Azərbaycan kamança ustadı, bizim müasirimiz Habil Əliyevin çalğısından alınan təəssürat nəticəsində yazılmış kompozisiyanın adı da elə bu böyük el sənətkarının adından götürülmüşdür. Əsərin yaranması ideyası da vaxtilə Habil Əliyevin kamançada çaldığı muğamdan, onun ifa üslubundan heyrətlənən İvan Monigettiyə məxsusdur. Firəngiz Əlizadənin Azərbaycan muğamının sanki tamamilə yeni çalarlarla boyanan, müasir ritmə və deyim tərzinə köklənmiş musiqi toxumasında zərgər dəqiqliyi ilə işlənmiş muğam pannosu bu sənətin həmişəyaşar potensialının nadir bir təzahürü idi. Elə bu görüş əsnasında CNN xəbərlər proqramında Azərbaycanda "Monitor" jurnalının redaktoru Elmar Hüseynovun qətli ilə bağlı xəbər yayıldı. Qonaqlar da bu xəbəri eşidib maraqlandılar. Hər bir insanın qətli, xüsusilə də onun həyatına zorakılıqla son qoyulması faktı dəhşət doğurur. Jurnalistin qətlə yetirilməsi hadisəsi, əlbəttə ki, ölkəmizə qarşı müəyyən qüvvələr tərəfindən təzyiq vasitəsi kimi istifadə üçün zəmin yarada bilər. Bu faktı isə bilərəkdən siyasi amilə çevirmək cəhdi ölkəmizin sivil simasının qorunmasına yönəldilmiş işlərə və fəaliyyətə mane olur. Vahid milli ideya - müstəqil Azərbaycan ideyası insan amilinin, fərdin qiymətləndirilməsi prinsiplərinə arxalanaraq, bütövlükdə cəmiyyəti bir yüksək amal altında birləşdirməlidir. Əlbəttə ki, bu ideya, bu amal və arzular qərəzli münasibətlərdən yüksəkdə olmalıdır. Konsertdən sonra nahar yeməyində Mehriban xanım qonaqlarına - YUNESKO-nun baş direktoru Koiçiro Matsuuraya, Mstislav Rastrapoviçə, şahzadə Firyala, Ömər Zülfi Livanelliyə, Şeyx Həsən Şakirə Azərbaycanın üzləşdiyi qaçqın-köçkün problemi haqqında artıq qeyri-formal şəraitdə məlumat verdi. Naharda iştirak edən bu sətirlərin müəllifi təəssüf doğuran bir faktla qarşılaşdı. Onların çoxu Azorbaycanın bu faciəvi reallıqları barədə heç nə bilmirdilər. Mehriban xanımın qaçqın-köçkünlərin ağır şəraitdə çadır şəhərciklərində yaşamaları, xüsusilə də uşaqların bundan çox əziyyət çəkmələri, çətin şəraitdə təhsil aldıqları barədə söhbətini diqqətlə dinləyirdilər. Mstislav Rostropoviç də onun sözlərini təsdiqləyərək, bütün bunları öz gözləri ilə gördüyünü bir daha qonaqlara çatdırdı.

Mənim üçün bu, səfərimizin bəlkə də ən uğurlu məqamı idi. Çünki xaricdə, xüsusilə də Avropa ölkələrində hər hansı bir həqiqəti qəzet məlumatları və rəsmi təqdim süzgəcindən keçmiş quru faktlarla deyil, şəxsi münasibətlər, inam və səmimiyyət atmosferində aldıqda daha tez qavrayırlar. Mən görürdüm ki, onlar Azərbaycanın birinci xanımını, sadəcə, hörmət və nəzakət xatirinə dinləmir, ona inanırdılar. Onlar doğrudan da, eşitdiklərindən şok vəziyyətinə düşdükləri, təsirləndikləri üçün Azərbaycan haqqında çox məlumat almaq istəyirdilər. Çoxları bu sətirləri oxuyanda düşünə bilər ki, işğal kimi qlobal problemi belə sadə vasitələrlə nə dərəcədə həll etmək olar və yaxud ilk baxışda, bəlkə də, kifayət qədər "təsirli siyasi gücü" olmayan belə sadə vasitələr nəyisə həll etmək iqtidarında deyildir. Lakin müasir tariximiz bəzən ilk baxışda sadə görünən vasitələrin də siyasi müstəvidə önəmli rol oynamasına dəlalət edən hadisələrlə doludur. Bəzən məhz mədəniyyət siyasətçilərdən bir addım öndə gedərək, onların gördüyü ağır işlərin xoşməramlı, əlverişli fonunu yaradır. Hər bir ölkənin siyasi aurası mürəkkəb bir konstruksiyanı xatırladır. Bəzən bu konstruksiyanın ümumi planında xırda, ilk baxışda nəzərə çarpmayan, gözəgörünməz detallar onun bütövlüyünü, möhkəmliyini təmin edir. Müasir dünya nə qədər praqmatik, maddiləşmiş olsa da, mənəvi dəyərlər aktuallığını itirmir, insan amili, şəxsi münasibətlər, mədəni-mənəvi ənənələr böyük təsir gücünə malikdir. Tarix həmişə kiçik dövlətləri böyük sınaqlara çəkir. Bu sınaqlardan çıxmaq yollarında aparıcı amal, məram, vətəndaşlıq həmrəyliyi, milli və ümumbəşəri mənəvi dəyərlər, mədəni ənənələrə sadiqlik və müasir dünya ilə ayaqlaşmaq, özünü qloballaşan dünyanın bənzərsiz bir hissəsi kimi dərk etməkdir. Tarix sübut edir ki, öz vətəndaşlarının qədrini bilən, onlarla fəxr edən, dünyada öz yerini milli siyasəti, iqtisadiyyatı, mədəniyyəti ilə müəyyənləşdirən ölkənin gələcəyi var.

**Nərgiz Paşayeva,**
BDU-nun prorektoru,
filologiya elmləri doktoru, professor

# XOŞ MƏRAMLAR ELÇİSİ
# NƏCİB ƏMƏLLƏRİN DAVAMÇISI

Azərbaycan cəmiyyətində qadınlar aparıcı mövqe tutmuşlar. Bu, bəlkə də mentalitetimizdə qadına olan yüksək hörmət və ehtiramdan irəli gəlır. Demokratiya yolu ilə addımlayan Azərbaycanda qadınlar bütün sahələrdə uğurla fəaliyyət göstərirlər. Onlar rəhbərlik etdikləri təşkilatlarda yüksək fəallıq göstərir, ictimai-siyasi proseslərdə yaxından iştirak edirlər. Bütün bunlar həyatımızın daha da yaxşılaşdırılmasına xidmət etməklə, eyni zamanda onların özlərinə böyük nüfuz qazandırır.

Ölkəmizin birinci xanımı Mehriban Əliyeva özünün keçdiyi ömür yolu və çoxşaxəli ictimai fəaliyyəti ilə yüksək ehtiram sahibi olmuşdur. Bu nüfuz, ehtiram bütün fəaliyyətini xalqına həsr etmiş fədakar, vətənpərvər bir övladın, ləyaqətli vətəndaşın tam mənəvi haqqıdır. Elə insanlar var ki, öz varlıqları ilə elə-obaya şan-şöhrət gətirirlər. Nəsildən-nəslə keçən xeyirxahlıqları, nəcibləri ilə doğulduqları torrağın, sahibi olduqları vətənin şərəfini uca tuturlar. Belə övladların həyatı xalqa həmişə qürur gətirir.

Mehriban xanım Əliyeva Azərbaycanın ictimai-siyasi həyatında xüsusi fəaliyyəti ilə seçilir. O, Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı, YUNESKO-nun xoşməramlı səfiri, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun sədri, Azərbaycan Gimnastika Federasiyasının prezidenti, "Azərbaycan-İrs" yurnalının Baş redaktorudur. Bu qədər gərgin işlə məşğul olmasına baxmayaraq, fəaliyyətinin əsas hissəsini xalqımızın gələcəyi olan uşaqlara yönəldir. Qaçqın və məcburi köçkün ailələrinin övladlarına, yardıma və qayğıya ehtiyacı olan əlil və xəstə uşaqlara xüsusi diqqət yetirir, onların problemlərinin həllinə kömək göstərir. Xalqlar arasında mədəni əlaqələrin daha da genişləndirilməsi, Azərbaycan mədəniyyətinin dünyada tanınması üçün əlindən gələni edir. Ağır, gərgin, səmərəli fəaliyyəti sakit, rahat həyatdan üstün tutur, çünki canından artıq sevdiyi Azərbaycanın taleyinə laqeyd qala bilmir.

Bunu özünün vətəndaşlıq borcu hesab edir. Mehriban xanım Əliyeva xarici səfərləri zamanı da ilk növbədə uşaqların taleyi və uşaq müəssisələri ilə maraqlanır. Bu da onun qayğıkeş, gözəl ana olmasından irəli gəlir.

Gözəllik, xeyirxahlıq, sədaqət kimi ülvi keyfiyyətləri təcəssüm etdirən Mehriban xanım Əliyevanı, sözün əsl mənasında, böyük hərflə yazılan AZƏRBAYCAN QADINI adlandıra bilərik.

Azərbaycan qadınlarının ən gözəl xüsusiyyətlərini, mənəvi keyfiyyətlərini özündə birləşdirən Mehriban xanım iki böyük qadının - Zərifə Əliyevanın və Aida İmanquliyevanın zəngin mənəviyyatından bəhrələnərək istər şəxsi həyatında, istərsə də ictimai fəaliyyətində onların nəcib əməllərini ləyaqətlə davam etdirir. Mehriban xanımın fəaliyyətinin bütün istiqamətlərinə nəzər salsaq, bir daha onun xalqımızın milli sərvətlərinə, tarixinə, mədəniyyətinə, incəsənət xəzinəsinə həssas münasibətinin şahidi olarıq. İllərdən bəri rəhbərlik etdiyi Azərbaycan Mədəniyyətinin Dostları Xeyriyyə Fondunun xətti ilə təşkil etdiyi tədbirlər birbaşa mədəniyyətimizin, incəsənətimizin qorunub saxlanmasına və təbliğinə xidmət edir.

Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi "Azərbaycan-İrs" jurnalı Azərbaycan həqiqətlərinin dünyaya yayılması yolunda mühüm iş görür. Bu jurnalın materialları Azərbaycan mədəniyyətinin, yaşadığımız cəmiyyətin uğurlarını, problemlərini əks etdirir.

Mehriban xanım Əliyevanın ölkəmiz üçün gördüyü işlər göz qabağındadır. Xüsusən, onun xeyriyyəçilik işləri, ehtiyacı olanlara qayğısı cəmiyyətdə minnətdarlıqla qarşılanır. Heydər Əliyev Fondu adından qaçqın və məcburi köçkün ailələrinin uşaqları üçün Yeni il şənliyi təşkil etməsi, uşaq evlərinə qayğısı onun humanist bir insan olduğunu sübut edir. Mehriban xanım Əliyeva ümummilli liderimiz Heydər Əliyev məktəbinin layiqli davamçısı kimi daim çalışır, resrublikamızda xeyriyyəçilik, mesenatlıq ideyalarının bərqərar edilməsində, Azərbaycan xalqının şifahi, ədəbi və musiqi irsinin qorunub saxlanılması, gənc nəslin təhsilinin inkişafı yolunda böyük zəhmət sərf edir. Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi ölkəmizin bütün regionlarında uğurla həyata keçirilir. Gördüyü bütün bu işlərə görə ölkəmizin birinci xanımının fəaliyyəti təkcə Azərbaycanda deyil, xarici ölkələrdə də yüksək qiymətləndirilir.

2004-cü ilin avqustunda Azərbaycan şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunub saxlanılması, inkişaf etdirilməsi sahəsindəki yorulmaz xidmətlərinə görə Mehriban xanım Əliyeva YUNESKO-nun xoşməramlı səfiri adına layiq görülüb. Elə həmin ilin dekabrında Milli Olimpiya Komitəsinin IV Baş Məclisində MOK İcraiyyə Komitəsinin üzvü seçilib. Rusiyanın "Yüzilliyin mesenatları" Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut xaç" ordenini ictimai, təhsil və mədəniyyət müəssisələrinin dəstəklənməsinə sanballı töhfəsinə görə almışdır. Bu yaxınlarda isə Mehriban xanım Əliyeva müsəlman dünyasının nüfuzlu təşkilatı olan İSESKO-nun xoşməramlı səfiri adına layiq görülmüşdür. Mehriban xanım öz şəxsiyyətində və fəaliyyətində Şərq ənənələrinin, habelə Qərb dəyərlərinin ahəngdar vəhdətinə nail ola bilmişdir. Bu isə Azərbaycan mədəniyyətinin Şərq və Qərb sivilizasiyaları arasında körpü yaratmasının daha bir təsdiqidir.

Mehriban xanım Əliyevanın həyata keçirdiyi böyük missiya Azərbaycanda qadın hüquqlarının yüksək səviyyədə təmin edilməsinə sübut və bütün xanımlarımız üçün örnəkdir. Onun fəaliyyəti möhtərəm Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi xətti uğurla tamamlayır. Azərbaycanın birinci xanımı fədakarlığı, mədəniyyətimizə, tariximizə, adət-ənənələrimizə bağlılığı ilə qadınlarımızın haqq işinin önündə getməyə və ən böyük mükafat olan ümumxalq sevgisinə layiq olduğunu sübut edib.

**Hicran Hüseynova,**<br>
Ailə, Qadın və Uşaq Problemləri üzrə<br>
Dövlət Komitəsinin sədri<br>
("Azərbaycan" qəzeti, 02.12.2006)

## MİLYONLARIN ÜMİD YERİ

Milli təfəkkürümüzdə Vətən və Ana məfhumları vəhdət təşkil edir. Yəni, Ana Vətən! Deməli, Azərbaycan şüurunda Vətən də, Dövlət də, dövlətçilik vətən müqəddəratının qorunması üçün həyata keçirilən siyasət də ilk növbədə ana, qadın adının ucalığından başlayır. Tarixən Azərbaycan qadını özünü heç vaxt Vətən, Yurd uğrunda aparılan mübarizlərdən kənarda hiss etməyib. Lazım olan anda siyasi proseslərə qatılıb. Tarixin daş yaddaşında Tomris ana, Türkan xanım, Tuti bikə, Xurşudbanu Natəvan, Ağabəyim Ağa, akademik Zərifə xanım Əliyeva kimi qadınlar Azərbaycan tarixində hörmətlə xatırlanırlar.

Dövlət idarəçiliyində Azərbaycan qadınlarının peşəkarlığından, intellektual qabiliyyətindən istifadə meyli Heydər Əliyev siyasətində daim mühüm yer tutmuş, ümummilli liderin rəhbərliyi ilə ölkəmizdə səmərəli şəkildə həyata keçirilən dövlət-qadın siyasəti xanımlarımızın bütün sahələrdə yüksək səviyyədə təmsilçiliyi üçün geniş imkanlar yaratmışdır. Azərbaycan qadını istər ölkə daxilində, istərsə də ölkə xaricində cəmiyyətin ayrı-ayrı sahələrinə dair müxtəlif problemər barədə öz sözünü deyə bilir, bu problemlərin həllini təmin edən yeni-yeni uğurlara imza atır. Ölkənin birinci xanımı YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban xanım Əliyevanın fəaliyyəti bunun bariz təzahürüdür.

Mehriban xanım Əliyevanın uğurlu fəaliyyəti, gördüyü işlər göz önündədir. Onun atdığı addımlar, həyata keçirdiyi mədəni-ictimai tədbirlər, xalqımızın, dövlətimizin inkişafına, dövlətçiliyimizin möhkəmləndirilməsinə, Azərbaycanın dünya birliyində öz layiqli yerini tutmasına doğru istiqamətlənib. Hər hansı bir problemin həllinə çarə axtaran, haradasa kimsə tərəfindənsə haqqı tapdanan Azərbaycan vətəndaşı üçün Mehriban Əliyevanın timsalında artıq bir pənah yeri, bir ümid ünvanı da var.

İstər YUNESKO-nun xoşməramlı səfiri, istərsə də Heydər Əliyev Fondunun prezidenti kimi mənə ehtiyac olduğunu hiss edirəm. Mənim adıma hər gün

200-dən çox məktub gəlir. Onların heç biri diqqətsiz qalmır. Mən konkret iş görmək, konkret insanlara kömək etmək istəyirəm. Konkret problemləri həll etmək, yardım edə bildikdə sevinc hissi keçirmək və səndən asılı olmayan səbəblər üzündən nəsə edə bilmədikdə təəssüflənmək, qəzavü-qədər, sağalmaz xəstəlik qarşısında bütün gücsüzlüyün dərk edərkən əziyyət çəkmək, xilas edilmiş bir uşağın təbəssümünü gördükdə isə bir daha sevinmək istəyirəm. Bu mənim seçimimdir" - deyən Mehriban xanım şüurlu həyatını millət yolunda şam kimi əridən maarifpərvər ziyalılarımız tək uğurlu bir seçimdə və yoldadır. Bu yol ulu öndərimiz Heydər Əliyevin müəyyənləşdirdiyi, onun layiqli davamçısı- Azərbaycan prezidenti cənab İlham Əliyevin uğurla davam etdirdiyi yoldur.

Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın özünün də söylədiyi kimi "Bəzən cəmiyyətdə insan elə bir vəziyyətə düşür ki, bütün döydüyü qapılar onun üzünə bağlı qalır. O, öz dərdi ilə, öz problemi ilə təkbaşına qalır və ona elə gəlir ki, heç bir şey və heç kəs ona kömək edə bilməz. Bu halda, o, üzünü bizim fonda tutur. Mən demək istəmirəm ki, biz dərhal onun bütün problemlərini həll edirik. Amma o insan burada nə biganəliklə, nə soyuq munasibətlə rastlaşmaz və hökmən onun problemlərinin həlli üçün mümkün olan bütün vasitələrdən istifadə ediləcəkdir. Yəqin ki, xeyriyyəçilik, insanpərvərlik, mərhəmət Azərbaycan xalqının mentalitetinə, mədəniyyətinə, əsrlər boyu formalaşan ənənələrimizə xas olan ən gözəl keyfiyyətlərdən biridir. Və biz bu gün Heydər Əliyev Fondu olaraq bu ənənələri davam etdirməyə çalışırıq".

Bu fikirlərin müəllifinə Mehriban xanım Əliyevaya YUNESKO-nun verdiyi xoşməramlı səfir təyinatı isə ümumilikdə dünyanın Mehriban xanımın timsalında bütün Azərbaycan xalqına, milli mədəniyyətimizə, folklorumuza, tariximizə, dilimizə, incəsənətimizə göstərdiyi diqqət kimi qəbul olunmalıdır. Bu təyinat həm də Mehriban Əliyevanın timsalında Azərbaycan qadınının öz fədakarlığı və bacarığını beynəlxalq miqyasda təsdiq etməsinə əyani bir sübutdur. Və ən nəhayət, bu ad Mehriban xanım Əliyevanın şifahi irsin və musiqi yaradıcılığı irsinin qorunub saxlanması, inkişafı sahəsində ortaya qoyduğu zəhmətin xoş bəhrəsidir. YUNESKO-nun Baş direktoru Koisiro Matsuura onun bu sahədəki xidmətlərini yüksək dəyərləndirərək demişdir: "Musiqi təhsili və gələcək nəslin maarifləndirilməsi xanım Əliyevanın rəhbərlik etdiyi fondun daim diqqət mərkəzindədir. Təqdirə və hörmətə layiq bir haldır ki, fondun təşkil etdiyi xeyriyyə

konsertləri, dinləyicilərə sevinc bəxş etməklə yanaşı, milli mədəniyyətin zəngin ənənələrinin yaşadılmasına da xidmət etmişdir. Fondun səyləri nəticəsində Azərbaycanda musiqi gimnaziyası və musiqi məktəbi tam təmir olunmuş, minlərlə yeniyetmə və gəncin musiqi aləminə qovuşa bilməsi üçün gözəl şərait yaradılmışdır. İmkansız ailələrdən olan uşaqların bu prosesə cəlb edilməsi xüsusilə diqqətəlayiq haldır".

Dünyanın ən nüfuzlu mədəniyyət qurumunun Mehriban Əliyevaya göstərdiyi bu yüksək etimad ümumilikdə Azərbaycanın böyük uğurudur.

Xalqımız Heydər Əliyev Fondunun prezidentinin vətəndaşlara diqqət və qayğısının, xeyirxah əməllərinin nə qədər savab iş olduğunu dərk edir, özünün yaşam fəlsəfəsini bu meyarlara uyğunlaşdırmağa çalışır.

Ölkənin birinci xanımı əbədi liderimizin fəaliyyətinin və ömür yolunun əsas qayəsinə çevrilmiş humanizm və xeyirxahlıq fəlsəfəsini mənəvi miras kimi qəbul etməklə bu möhtəşəm irsin varisinə çevrildiyini təsdiqləyir.

Mehriban Əliyevanın Azərbaycan dövləti, xalqı naminə gördüyü işlər bütün bunlarla məhdudlaşmır. O, ölkənin birinci xanımı statusu ilə Azərbaycan cəmiyyətində novatordur. Bir çox ölkələrin dövlət başçılarının xanımlarının mədəni sosial sahədə həyata keçirdikləri tədbirlər əsasında yaranan bu ənənələrin Azərbaycanda formalaşdırılması məhz Mehriban Əliyevanın qismətinə düşüb.

Mehriban Əliyeva YUNESKO-nun rəhbərliyi ilə görüşü zamanı Bakıda "Qafqaz xalq ənənələri evi"nin yaradılması təşəbbüsü ilə çıxış edib. Belə bir qurumun təşkili Qafqaz xalqlarına məxsus mədəni irsin qorunması və təbliğat sahəsində son dərəcə mühüm addım ola bilər. Mehriban xanım bununla ilk növbədə təkcə Azərbaycanın deyil, bütün Qafqaz xalqlarının mədəniyyət hamisi olmaq missiyasını öz üzərinə götürüb. Bu təşəbbüs həmçinin siyasi yükə malikdir. "Qafqaz xalq ənənələri evi"nin yaradılması Avropa Birliyinin təşəbbüsü ilə Qafqaz regionunda həyata keçirilən "Yeni Qonşuluq siyasəti"nin effektliyi baxımından son dərəcə mühüm əhəmiyyət kəsb edir.

Heydər Əliyev Fondunda qısa zaman kəsiyində bir çox layihələr həyata keçirilib, uğurlar əldə edilib. Fond yaradılan vaxtdan elmin və təhsilin inkişafını, milli mədəni irsimizin qorunmasını fəaliyyətinin əsas proritet istiqaməti kimi müəyyən edib. "Yeniləşən Azərbaycana yeni məktəb", "İnternat məktəbləri və uşaq evlərinin inkişafı", "Görmə qabiliyyətini itirən və zəif olan insanların

informasiya-kommunikasiya texnologiyalarına çıxışının təmin edilməsi" və sair layihələr artıq həyata keçirilib. Görülən işlər barədə YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva qeyd edir ki, "Ölkəmizdə iki il ərzində Fondun təşəbbüsü ilə 180-dən çox yeni məktəb inşa edilib və ən müasir avadanlıqla təmin olunub. Hər bir məktəbdə kompüter sinfi var. 29 internat məktəbində və uşaq evində əsaslı təmir aparılıb, onların maddi-texniki bazası yeniləşdirilib. Görmə qabiliyyəti zəif olan insanlar üçün yeni tədris mərkəzi yaradılıbdır. Mərkəzə dünyada mövcud olan ən müasir kompüter sistemləri gətirilib, müəllimlərə treniqlər keçirilibdir".

Fond öz fəaliyyətində milli mədəni irsimizin qorunmasına diqqətlə yanaşır. Məlum olduğu kimi, YUNESKO-nun və Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə Bakıda Beynəlxalq Muğan Mərkəzi inşa olunur. Mehriban xanımın yaxından köməyi ilə bir neçə beynəlxalq konfranslar keçirilib. Məlum olduğu kimı, YUNESKO ilə birlikdə "YUNESKO-Azərbaycan: gələcəyə körpü" adlı konfrans ölkəmizin paytaxtı Bakıda və Parisdə keçirilib. Həmin konfrans təhsil sahəsində olan islahatlara həsr olunub.

BMT-nin ali mədəniyyət qurumu - YUNESKO ilə sıx əməkdaşlıq edən Heydər Əliyev Fondu Bakıda Vaşinqton Akademiyası ilə birlikdə "Orta əsr əlyazmalarında tibb və əczaçılıq" mövzusunda 1-ci beynəlxalq konfransı, Latın Mədəniyyət Akademiyası ilə birlikdə " Avrasiyada mədəniyyət müxtəlifliyi: Azərbaycan sivilizasiyalararası diaoloqun keçmişi və bu günü" mövzusunda XIII beynəlxalq konfrans keçirmişdir.

Bu da onu göstərir ki, respublikamız sivilizasiyalararası dialoqun mərkəzinə çevrilmişdir.

Konfransda çıxış edən Mehriban Əliyeva demişdir: "Bu gün biz sivilizasiyalararası dialoqun keçməsindən söhbət açaraq xüsusi vurğulamalıyıq ki, qədim və çox zəngin Yunan-Roma sivilizasiyasının ilk varisi məhz Şərq olubdur. Müsəlman renessansı kimi tarixə düşən bu dövrdə müsəlman ölkələrində ən mütərəqqi, ən qabaqcıl ideyalar yaradılıb, inkişaf etdirilibdir. Şərq alimlərinin və filosoflarının əsərləri ilə zənginləşən bu irs orta əsrlərdə yenidən Avropaya qaytarılıbdır. Bütün Şərqin, müsəlman aləminin bu irsin qorunmasındakı rolu əvəzsizdir.

2006-cı ildə konfransın məhz Bakı şəhərində keçirilməsini ölkəmizin

mədəniyyətlərarası dialoq səviyyəsində çox müsbət təcrübə toplaması ilə əlaqələndiririk. Həqiqətən də əsrlər boyu Böyük İpək Yolu üstündə yerləşən ölkəmiz çox yüksək tolerantlığa malik və müxtəlif mədəniyyətləri birləşdirən bir məkan kimi tanınır. Bu, bizim qürur duyduğumuz uğurumuz, keçmişimizdir və inanıram ki, gələcəkdə də bu sahədə Azərbaycan öz müsbət rolunu oynayacaqdır".

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın İsveçrəyə işgüzar səfəri zamanı "Azərbaycan otağı"nın açılışındakı iştirakı hər bir azərbaycanlının ürəyində qürur hissi yaratdı. Həmin tədbirdə diplomatik korpusun nümayəndələri, beynəlxalq təşkilatların yüksək vəzifəli təmsilçiləri, ölkəmizin daimi nümayəndəliyinin və səfirliyin əməkdaşları da iştirak edirdilər.

Mehriban xanım Əliyeva ölkəmizi təmsil edən eksponatlar Bakıda, Qarabağda, Qubada toxunulmuş XVII və XVIII əsrlərə aid xalçalar haqqında söhbət açmış, baş direktora bu qədim sənət inciləri haqda ətraflı məlumat vermiş, Azərbaycan həqiqətlərini tədbir iştirakçılarının nəzərinə çatdırmışdır. Mehriban xanım ölkəmizin ən ağır problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışıb işğalçılıq siyasəti yeridən Ermənistanın ərazimizin 20 faizini zəbt etdiyini, doğma yurdlarından silah gücünə çıxarılmış bir milyondan artıq qaçqın və məcburi köçkünün ağır vəziyyətdə yaşadığını bildirmişdir. Eyni zamanda, Mehriban Əliyeva BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin Ermənistan tərəfdən yerinə yetirilmədiyini bildirmiş, beynəlxalq təşkilatları məsələnin sülh yolu ilə həllində öz təsir imkanlarından istifadə etməyə çağırmışdır.

Heydər Əliyev Fondunun xətti və dəstəyi ilə keçirilən tədbirlər, görülən işlər bir daha göstərir ki, Mehriban Əliyeva Azərbaycanın haqq səsidir. Filologiya elmləri doktoru, professor Nərgiz Paşayeva haqlı olaraq qeyd edir ki, "Mehriban xanım Əliyevanın vətənimiz üçün gördüyü işlərin mahiyyəti, bəlkə də, hələ tam dərk edilmir. Lakin tarixdə elə hadisələr olur ki, onların tarixi dəyəri təkcə gələcək nəsillərə ünvanlanmır, əksinə elə ilk gündən müəyyənləşir. Azərbaycanın tarixində ilk xoşməramlı səfir Mehriban xanım Əliyevanın Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti kimi çoxşaxəli və çoxillik fəaliyyəti məhz bu tarixi dəyərə malikdir".

Mədəniyyətimizin və təhsilimizin inkişafı, mənəvi sərvətlərimizin beynəlxalq aləmdə tanınması Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın

adı ilə bağlıdır. Mehriban xanım öz millətinin, xalqının övladıdır. O, ömrünün mənasını da doğma xalqına xidmətdə gorür.

YUNESKO-nun xoşməramlı səfiri adı Mehriban xanımın uğurlu yolunun başlanğıcı oldu. 2006-cı ildə isə İSESKO-nun xoşməramlı səfiri adına layiq görüldü. Rusiyanın "Yüzilliyin mesenatları" Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut xaç" ordeni ilə təltif edildi. Genişmiqyaslı xeyriyyəçilik fəaliyyətinə, bəşəriyyətin ali ideallarına xidmət sahəsində yüksək nailiyyətlərinə görə "Qızıl ürək" beynəlxalq mükafatına layiq görüldü. May ayının 17-də Cenevrədə Dünya Səhiyyə Təşkilatının (DST) ali orqanı olan Dünya Səhiyyə Assambleyasında İhsan Doğramacı Ailə Sağlamlığı Fondunun mükafatı ilə təltif edildi.

İnanırıq ki, Mehriban xanımın həyat yolunu layiq olduğu çox mükafatlar, titullar, fəxri adlar bəzəyəcək. Onun üçün ən böyük mükafat isə Azərbaycan xalqını ləyaqətlə təmsil etməsidir.

Bu gün cəmiyyətimizin taleyüklü bir problem yaşadığı dövrdə, Azərbaycan qadınının yüksək mükafatlara layiq görülməsi, xalqımızın zaman-zaman tarixə bəxş etdiyi Tomrislərin, Sara Xatunların daha bir xələfinin, XXI əsr Azərbaycan cəmiyyətində daha bir siyasətçi qadının yetişib formalaşdığının şahidi oluruq. Mehriban xanımın Azərbaycan mədəniyyəti sahəsində yorulmaz fəaliyyəti onun mədəni irsin, o cümlədən musiqi irsinin qorunması, musiqi təhsili sahəsində gördüyü işlər çox böyük dəyərə malikdir. Mübaliğəsiz deyə bilərik ki, bu ali mükafatlar ilk növbədə onun xalqımız qarşısında layiqli xidmətlərinin bəhrəsidir.

**Samirə Eyvazova,**
BDU-nun beynəlxalq
hüquq fakültəsinin müəllimi.

## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVAYA "QIZIL ÜRƏK" BEYNƏLXALQ MÜKAFATI TƏQDİM OLUNMUŞDUR

Genişmiqyaslı xeyriyyəçilik fəaliyyətinə, bəşəriyyətin ali ideallarına xidmət sahəsində yüksək nailiyyətlərinə görə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevaya yüksək mükafat - "Qızıl ürək" beynəlxalq mükafatı təqdim olunmuşdur.

Mayın 27-də Moskvanın Stanislavski və Nemiroviç-Dançenko adına Musiqili Teatrında keçirilən mərasimə gələn Mehriban xanım Əliyeva əvvəlcə məşhur İtaliya aktrisası, mərasimin patronessası Sofi Lorenlə görüşmüşdür. Sofi Loren Azərbaycanın birinci xanımını bu mükafata layiq görülməsi münasibətilə təbrik etmişdir.

Sonra "Qızıl ürək" beynəlxalq mükafatının dördüncü təqdimat mərasimi olmuşdur. Mərasimi Sofi Loren açmışdır. Mehriban xanım Əliyevaya "Qızıl ürək" mükafatını - heykəlciyi və "Beynəlxalq mükafatın laureatı" fəxri nişanını Sofi Loren, Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Sergey Mironov və Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi İqor İvanov təqdim etmişlər.

Azərbaycanın birinci xanımına mükafatı təqdim edən Sergey Mironov Mehriban Əliyevanın Heydər Əliyev Fondu çərçivəsindəki fəaliyyəti ilə yaxşı tanış olduğunu bildirərək vurğulamışdır ki, "belə xeyirxah və qızıl ürəklər insanlara və dünyaya fəzilət bəxş edir".

Mehriban ƏLİYEVA təşəkkür edərək demişdir:

- Mükafata görə çox sağ olun, mənim ünvanıma deyilən səmimi sözlərə görə çox sağ olun!

Çox sağ olun ki, mürəkkəb zəmanəmizdə səylə mərhəmətə çağırırsınız. Düşünürəm ki, həm laureatlarmızın və həm də nominantlarmızın xeyirxah işləri

mərhəmətə, rəhmdilliyə, başqasının dərdinə şərik olmağa, ətrafdakıların və bizim köməyimizə ehtiyacı olanların ağrı-acısını duymağa və bölüşməyə çağırışdır.

Mən arzu edirəm ki, bu mükafatın laureatlarının sayı ilbəil artsın və beləliklə, dünyada saf və xeyirxah əməllər daha çox olsun, dərd-qüssə isə, azacıq da olsa, əskilsin. "Qızıl ürək" müxtəlif ölkələrdən olan insanları, müxtəlif peşə və vəzifə sahiblərini universal və əbədi ideya - xeyirxahlıq ideyası ətrafında birləşdirir.

Bu böyük və nəcib işinizə görə çox sağ olun.

Azərbaycanın birinci xanımına "Qızıl ürək" mükafatının təqdimatından əvvəl Heydər Əliyev Fondu haqqında sənədli film nümayiş etdirilmişdir. Filmdə Mehriban Əliyevanın fəaliyyətindən, təhsil, mədəniyyət, səhiyyə sahəsində həyata keçirilən geniş layihələrdən, habelə xəstə, yetim uşaqlara, aztəminatlı ailələrin uşaqlarına göstərilən yardımdan bəhs olunurdu.

Tədbirin təşkilatçısı, "Qızıl ürək" Xeyriyyə Fondunun təşkilat komitəsinin rəhbəri, tibb elmləri doktoru Yakov Brand AzərTAc-ın müxbirinə demişdir ki, Mehriban Əliyeva bu yüksək mükafata layiqdir, çünki onun başçılıq etdiyi Fond, ilk növbədə, xəstə uşaqlara yardım sahəsində çox böyük işlər görür. Mehriban Əliyevaya "Qızıl ürək" mükafatının verilməsi barədə qərar qəbul edilməzdən əvvəl Fondım fəaliyyəti ətraflı öyrənilmiş, diabet, talassemiya, vərəm ilə mübarizə proqramı çərçivəsində, habelə evsiz-eşiksiz və əlil uşaqlara yardım sahəsində görülən konkret işlər yüksək qiymətləndirilmişdir.

Mötəbər mükafatın təqdim olunması mərasimində Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin təbrik məktubu oxunmuşdur.

Humanizm ideyalarına və bəşəri ideallara xidmətə xüsusi töhfələrinə görə görkəmli insanların mükafatlandırılması mərasimi hər il Rusiya Federasiyasının YUNESKO-nun İşləri üzrə Komissiyasının, Rusiya Hökumətinin, Rusiya Qızıl Xaç Cəmiyyətinin, Federasiya Şurasının, "Qızıl ürək" Xeyriyyə Fondunun, İTAR-TASS agentliyinin və bir sıra digər təşkilatların himayəsi ilə keçirilir. Bu il "Qızıl ürək" mükafatına yanğın zamanı uşaqları xilas etmiş 11 yaşlı Olqa Kozlova və Dmitri Filyuşin, 60-dan çox uşağı övladlığa götürmüş Sorokinlər ailəsi və ayrı-ayrı şəxslər layiq görülmüşlər.

Təntənəli gecədən və Rusiyanın estrada ulduzlarının iştirakı ilə böyük

konsertdən yığılan vəsait "Həyat yolu" xeyriyyə proqramının ehtiyaclarına sərf olunacaqdır.

Mərasimdə Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu, Heydər Əliyev Fondunun Moskvadakı nümayəndəsi Leyla Əliyeva, Moskva merinin müavini Lyudmila Şvetsova, Rusiyanın fövqəladə hallar naziri Sergey Şoyqu, məşhur müğənni, Dövlət Dumasının deputatı İosif Kobzon, Rusiya siyasi elitasının, işgüzar dairələrinin görkəmli nümayəndələri, elm və mədəniyyət xadimləri iştirak etmişlər.

**AzərTAC.**

## "MƏN AZƏRBAYCANA GÖRƏ QÜRUR HİSSİ KEÇİRİRƏM..."

Mübaliğəsiz deyə bilərəm ki, Azərbaycanın YUNESKO-dakı fəaliyyəti xeyli güclənmişdir. Bu, ilk növbədə, Mehriban xanımın fəaliyyəti ilə bağlıdır. Heç şübhəsiz, birinci ledi xoşməramlı səfir olanda, dövlət istər-istəməz YUNESKO məsələlərinə daha çox diqqət ayırır. Mən bir sıra forumların, görüşlərin iştirakçısı olmuşam, Azərbaycan incəsənət ustalarının gözəl konsertləri yadımdan silinmir.

Mən bu tədbirlərə gələn insanların reaksiyasını görürəm - çox tədbirlər görmüş ərköyün parislilər Azərbaycan konsertlərini heyranlıqla qarşılayırdılar. Mən hətta bizim qazaxıstanlı mədəniyyət xadimlərinə deyirəm ki, bir baxın, azərbaycanlılar öz incəsənətlərini necə gözəl təqdim edirlər. Bütün bunlar respublikanın, onun xalqının müasir mədəniyyətindən, onda tarixin çağdaş dövr ilə ayaqlaşdığından xəbər verir. Xalq isə öz incəsənəti ilə tanınır.

Üç il öncə mən Brüsseldə Dədə Qorqudun abidəsinin açılışında iştirak edəndə qürurumun həddi-hüdudu yox idi. Avropanın mərkəzində bu əfsanəvi mütəfəkkirin abidəsi ucalırdı. Bu yaxınlarda Azərbaycan Prezidenti İlham Əliyevin parlaq dövlət səfəri zamanı Parisin baş küçəsində, Yelisey xiyabanında, Zəfər tağı üzərində Azərbaycan bayrağının dalğalandığını görəndə mən oxşar hisslər yaşadım. Azərbaycana görə həqiqi qürür hissi keçirdim, çünki bu diyar mənə Qazaxıstan torpağı qədər doğmadır.

**Oljas Süleymenov.**

## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-NUN XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVA "YAQUT XAÇ" ORDENİNƏ LAYİQ GÖRÜLMÜŞDÜR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva Rusiyanın "Yüzilliyin mesenatları" Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut Xaç" ordeninə layiq görülmüşdür.

Bununla əlaqədar Fondun prezidenti O.Oleynikin Mehriban xanıma göndərdiyi məktubda deyilir:

"Hörmətli Mehriban xanım!

"Yaqut Xaç" ordeni ilə təltif olunmuş Rusiya DİN İdarəçilik Akademiyasının, A.S.Puşkin adına Dövlət Təsviri Sənət Muzeyinin, Dövlət Ermitajının, Rusiya Elmlər Akademiyasının, Rusiya Dövlət Akademik Böyük Teatrının, Dövlət Tretyakov Qalereyasının, Azərbaycanın Rus İcmasının tövsiyəsi ilə "Yüzilliyin mesenatları" Beynəlxalq Xeyriyyə Fondunun Hamilər Şurası ictimai, mesenatlıq və xeyriyyəçilik fəaliyyətinizə görə, təhsil və mədəniyyət müəssisələrinin dəstəklənməsinə, Rusiya və Azərbaycan xalqları arasında dostluğun möhkəmlənməsinə sanballı töhfənizə görə Sizin "Yaqut Xaç" ordeni ilə təltif olunmağınız haqqında yekdilliklə qərar qəbul etmişdir.

Azərbaycan Respublikasında xeyriyyəçilik və mesenatlıq ideyalarının bərqərar edilməsinə, Azərbaycan xalqının şifahi ədəbi və musiqi irsinin qorunub saxlanmasına və inkişafına, yetim uşaqlara, qaçqınlara, xəstələrə yardım üzrə geniş-miqyaslı aksiyalara yönəldilmiş fəaliyyətiniz təkcə Azərbaycanda deyil, Rusiyada da ictimai təşkilatlarda böyük əks-səda doğurmuşdur.

Sizi layiqli mükafat münasibətilə təbrik edir, Sizi və qonaqlarımızı Moskva Hökumət Evində iyunun 16-da keçiriləcək XXV təntənəli təltif mərasimində gözləyirik.

Hörmətlə,

**O.Oleynik,**
Rusiyanın "Yüzilliyin mesenatları"
Beynəlxalq Xeyriyyə Fondunun prezidenti"

# AZƏRBAYCANIN BİRİNCİ XANIMI, HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO VƏ İSESKO-NUN XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN XANIM ƏLİYEVA DST-NİN YÜKSƏK MÜKAFATİNA LAYİQ GÖRÜLMÜŞDÜR

Mayın 17-də Cenevrədə Dünya Səhiyyə Təşkilatının (DST) ali orqanı olan Dünya Səhiyyə Assambleyasının 60-cı sessiyasının yığıncağı keçirilmişdir.

Assambleyanın sədri, Avstraliyanın səhiyyə naziri xanım Ceyn Halton yığıncağı açaraq, bəşəriyyəti təhdid edən və geniş yayılmış xəstəliklərin qarşısının alınmasında həkimlərin şərəfli əməyindən danışmışdır. Sədr Heydər Əliyev Fondunun prezidenti kimi Mehriban xanım Əliyevanın təkcə mədəniyyət və təhsil sahəsində deyil, həm də səhiyyə sahəsində göstərdiyi xidmətləri yüksək qiymətləndirmişdir.

Sədr Mehriban xanım Əliyevanın İhsan Doğramacı Ailə Sağlamlığı Fondunun mükafatına layiq görüldüyünü bildirmişdir. İhsan Doğramacı Fondunun təmsilçisi xanım Filis Ərdoğan uşaq həkimi kimi professor İhsan Doğramacının səhiyyə sahəsində xidmətlərini xatırlatmış və fondun yaranma tarixindən danışmışdır. Xanım Ərdoğan Azərbaycanda səhiyyənin inkişafında, yeni xəstəxanaların açılmasında və onların müasir avadanlıqla təchiz edilməsində Mehriban Əliyevanın gördüyü işləri xüsusi vurğulamışdır.

Assambleya sədri Ceyn Halton və DST-nin baş direktoru xanım Marqaret Çan İhsan Doğramacı Ailə Sağlamlığı Fondunun mükafatını Mehriban Əliyevaya təqdim etmişlər.

Mehriban Əliyeva, Ceyn Halton və Marqaret Çan xatirə şəkli çəkdirmişlər.

Mehriban Əliyeva yığıncaqda çıxış etmişdir.

# İLHAM ƏLİYEVİN, MEHRİBAN XANIM ƏLİYEVANIN QƏDRİNİ BİLİN, ONLAR ÖLKƏNİZ ÜÇÜN ÇOX İŞ GÖRÜRLƏR

Bu, XX əsrin ikinci yarısı - XXI əsrin əvvəli fizika elminin iftixarı olan şöhrətli alimlər nəslinin görkəmli nümayəndəsi, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Elmlər Akademiyasının (indiki Rusiya Elmlər Akademiyasının) həqiqi üzvü, hazırda ABŞ-da Merilend Universitetinin professoru, SİLKSAT qlobal layihəsinin müəllifi Roald Zinnuroviç Saqdeyevin Azərbaycan xalqına xitabıdır. Ensiklopedik biliklərə, yüksək mədəniyyətə və böyük cazibə qüvvəsinə malik bu parlaq sima dünya elmi elitasının bəşəriyyətin bu gününü və gələcəyini müəyyənləşdirən adamlarından biridir. Saqdeyev geniş miqyasda düşünən alimlərdəndir, onun ideyaları zamanı qabaqlayır, həyatın bütün sahələrini əhatə edir. İndi Azərbaycanın kosmik orbitə çıxmasına kömək etmək niyyətindədir. Jurnalistlərlə söhbətində bu barədə deyib:

- Avropanı və Asiyanı bir-birinə bağlayan TRASEKA nəqliyyat dəhlizi Mərkəzi Asiyanı, Azərbaycanı, Gürcüstanı və Ukraynanı da birləşdirir. SİLKSAT bu Avrasiya dəhlizinin peyk komponenti rolunu oynamalıdır. Gərək regionun informasiya strukturu kifayət qədər inkişaf etsin və dünya standartlarına cavab versin. Bunun üçün isə güclü və geniş şəbəkəli müasir telekommunikasiya sistemləri lazımdır. Mən ilk növbədə peyk sistemini nəzərdə tuturam. Çünki o, Çindən Qərbi Avropayadək böyük bir ərazinin bütün rayonlarını əhatə etməyə imkan verir. Layihənin iştirakçısı olan ölkələrin hamısı indi adətən sərfəsiz kommersiya şərtləri ilə beynəlxalq peyk sistemlərinin xidmətindən istifadə etməyə məcburdur. Bu, dövlətləri xarici kompaniyalardan asılı vəziyyətə salır. Əlbəttə, peyk rabitəsinin yaradılması çətin, baha başa gələn işdir, amma savadlı tərtib edilmiş texniki-iqtisadi əsaslarla bunu asanlaşdırmaq mümkündür.

Roald Saqdeyev ulu öndər Heydər Əliyevin SİLKSAT layihəsi ilə daim maraqlandığını qeyd edərək daha sonra bildirib:

- Heydər Əliyev Moskvada işləyərkən həmişə məni dəstəkləyirdi. 1998- ci ildə burada, Bakıda onun qəbulunda oldum və biz SİLKSAT-ın reallaşdırılmasını konkret müzakirə etdik. Azərbaycan layihədə Milli Aerokosmik Agentlik ilə təmsil edilməli idi. Layihədə ona qədər ölkənin iştirakı planlaşdırılmışdı, həmin dövlətlərin prezidentləri Nyu-Yorkda görüşmüşdülər. Ancaq 2000-ci ildə qlobal telekommunikasiya sahəsində baş vermiş qəza layihənin həyata keçirilməsinə mane oldu. İndi biz bir sıra aspektləri yenidən işləyirik və təşəbbüskar Azərbaycan olduğu üçün SİLKSAT layihəsinin mənzil-qərargahı Bakıda yerləşəcək. Yaradacağımız kosmik sistem regionları Şərqi Avropa ölkələri ilə birləşdirəcək, okean uzərindən telekommunikasiya körpüsü salınmasına kömək göstərəcək, İpək yolunu dünyanın qlobal informasiya sisteminə daxil edəcək.

Roald Zinnuroviç hazırda ABŞ-da Merilend Universitetinin müəllimidir. Eyni zamanda kosmos, atmosfer, Dünya Okeanı sahəsində elmi tədqiqatlar aparır. Həm də Beynəlxalq Təhsil üzrə Amerika Şurasının üzvüdür, tələbələrin və aspirantların Amerikada təcrübə keçməsinin təşkili ilə məşğuldur. Bakıda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə görüşündə bu mövzuya da toxunduqlarını söyləyib:

- İndi hər il Amerikada Azərbaycandan yüz nəfər təcrübə keçir. Lakin cənab İlham Əliyev istəyir ki, onların sayı ildə min nəfərə çatdırılsın. Mən cənab İlham Əliyevlə ilk dəfə Moskvada görüşmüşəm, sonra ABŞ-da səfərdə olarkən görüşdük. Onda Azərbaycanın birinci xanımı Mehriban Əliyeva da məni və zövcəm Süzeni qəbul etdi. Çox görüşmüşük. Bu cütlüyün gözəlliyi, gəncliyi, peşəkarlığı və erudisialığı məni həmişə heyrətləndirib. Onların qədrini bilin.Onlar ölkəniz üçün çox iş görürlər. Məhz onların sayəsində Azərbaycan bu gün siyasi və iqtisadi sahələrdə islahatlar prosesində əsl liderdir - Vaşinqtonun siyasi dairələrində bu fikirdədirlər.

**AzərTAC.**

**Mənim üçün hər şeydən əziz mənim xalqımdır,**
**mənim Vətənimdir, mənim torpağımdır.**
**Heydər ƏLİYEV**

Azərbaycanın dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsi, iqtisadi inkişafının təmin olunması, milli mədəniyyətimizin inkişaf etdirilməsi, vətəndaş cəmiyyətinin yaradılması, ölkəmizin dünya birliyində öz layiqli yerini tutması ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Dərin zəka, uzaqgörənliklə hazırlanmış və etibarlı bünövrə üzərində təməli qoyulmuş bu ideyaların müstəqil dövlətimizin inkişaf etməsi üçün düzgün yol olduğu hamı tərəfindən etiraf olunur.

* * *

Heydər Əliyev ömrü Azərbaycan xalqının XX əsr tarixinin 35 illik ən məsuliyyətli, çətin və şərəfli bir dövrünün salnaməsidir. Ona görə də ulu öndərin adını daşıyan fondun yaranması həm də xalqın öz dahi oğluna sonsuz ehtiramının ifadəsidir. 2004-cü il mayın 10-dan fəaliyyətə başlayan Heydər Əliyev Fondu ulu öndərin həyat və fəaliyyət fəlsəfəsinin, elmi-nəzəri irsinin, azərbaycançılıq ideologiyasının öyrənilməsi, təbliği, gələcək nəsillərə çatdırılması yolunda üzərinə götürdüyü şərəfli missiyanın uğurla həyata keçirilməsi üçün səylə çalışmaqdadır.

İctimai təşkilat olan Heydər Əliyev Fondu qarşıya qoyduğu, reallaşdırdığı məqsəd və vəzifələrin əhəmiyyətinə, miqyasına görə ölkəmizdə analoqu olmayan yeni tipli qurumdur, ardıcıl və məqsədyönlü fəaliyyəti nəticəsində fond həm respublikamızda, həm də xaricdə, nüfuzlu beynəlxalq qurumlarda böyük hörmət qazanmışdır. Fondun prezidenti, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva çoxcəhətli fəaliyyətinə görə bir sıra nüfuzlu beynəlxalq təşkilatların mükafatlarına layiq görülmüşdür.

* * *

Fondun prezidentinin təşəbbüsü ilə YUNESKO Azərbaycan muğamını bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri siyahısına daxil etmişdir. Azərbaycan və dünya musiqisinin incisi olan muğamların qorunub saxlanması və inkişafı, dünyada yayılması və beynəlxalq muğam tədbirlərinin keçirilməsi məqsədi ilə Bakıda Beynəlxalq Muğam Mərkəzi inşa edilir.

* * *

Azərbaycan həqiqətlərinin yayılmasına həmişə xüsusi önəm verən fond bu ilin əvvəlindən etibarən Xocalı faciəsinin 15-ci ildönümü ərəfəsində xüsusi layihə həyata keçirmişdir. 16 ölkədə anma tədbirləri təşkil olunmuş, erməni faşizminin iç üzünü açıb göstərən "Qarabağ həqiqətləri" toplusu və onun elektron versiyaları yayılmış, "Xocalı soyqırımı" filmi nümayiş etdirilmişdir. Real faktlara, fotosənədlərə istinadla aparılan bu təbliğat kampaniyası on minlərlə avropalıya Qarabağ həqiqətləri, Xocalı soyqırımı, Ermenistanın ölkəmizə çarşı həyata keçirdiyi təcavüzkar işğalçılıq siyasəti haqqında əsl həqiqətləri çatdırmışdır.

Fondun YUNESKO ilə birgə keçirdiyi "YUNESKO-Azərbaycan: gələcəyə körpü" mövzusunda konfransda Azərbaycanın təhsil sistemində aparılan islahatlar, Avropa təhsil sisteminə inteqrasiya və digər məsələlər müzakirə olunmuşdur. Azərbaycanın tarixi və mədəni ənənələrini, mövcud tolerantlığını nəzərə alaraq, Latın Mədəniyyəti Akademiyası özünün sayca XIII konfransını 2006-cı il aprelin 24-də Bakıda Heydər Əliyev Fondu ilə birgə keçirmişdir. "Avrasiyada mədəniyyət müxtəlifliyi: Azərbaycan -sivilizasiyalararası dialoqun keçmişi və bu günü" mövzusunda konfransda iştirak edən xarici qonaqlar ölkəmizdə dini etiqad azadlığının, dini dözümlülüyün yüksək səviyyədə olduğunu, Azərbaycanın Şərq və Qərb sivilizasiyalarının ən yaxşı ənənələrini özündə birləşdirdiyini faktlarla vurğulamışlar.

* * *

"Orta əsr əlyazmalarında tibb və əczaçılıq" mövzusunda birinci beynəlxalq konfrans da Bakıda keçirilmişdir. Əlyazmalar İnstitutunda saxlanılan qədim təbabətə dair 3 nadir tibb əlyazması fondun dəstəyi ilə konfrans ərəfəsində YUNESKO-nun Dünya Yaddaşı Proqramının Beynəlxalq Siyahısına daxil edilmişdir. Vaşinqton Elmlər Akademiyası ilə birgə təşkil edilmiş konfransın açılış mərasimi 2006-cı il iyunun 12-də Heydər Əliyev Fondunda keçirilmişdir. Konfransın keçirildiyi günlərdə fondda qədim əlyazmaların sərgisi təşkil olunmuşdur. Konfransın növbəti iclasları Yevlax və Şəki şəhərlərində keçirilmişdir.

## XOŞMƏRAMLI, XOŞNİYYƏTLİ

Azərbaycanın birinci xanımının bütün fəaliyyəti
insanlar üçün xeyirli işlər görməyə yönəlib

Genişmiqyaslı xeyriyyəçilik fəaliyyətinə, bəşəriyyətin ali ideallarına xidmət sahəsində yüksək nailiyyətlərinə görə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva bu günlərdə "Qızıl ürək" beynəlxalq mükafatına layiq görülmüşdür.

Moskvanın böyük teatr salonlarından birində keçirilən mərasimdə bu mükafatı Azərbaycanın birinci xanımına məşhur İtaliya aktrisası, mərasimin patronessası Sofi Loren, Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Sergey Mironov və Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi İqor İvanov təqdim etmişlər.

Mükafatı təqdim edən Sergey Mironov Mehriban xanım Əliyevanın Heydər Əliyev Fondu çərçivəsindəki fəaliyyəti ilə yaxşı tanış olduğunu bildirərək demişdir: "Belə xeyirxah və qızıl ürəklər insanlara və dünyaya fəzilət bəxş edir".

Bu isə Mehriban Əliyevanın özünəməxsus səmimiyyətlə dediyi sözlərdir: "Mən arzu edirəm ki... dünyada saf və xeyirxah əməllər daha çox olsun, dərd-qüssə isə, azacıq da olsa, əskilsin".

Mehriban xanım 2006-cı ilin sonlarında İSESKO-nun - 51 müsəlman dövlətinin təmsil edildiyi nüfüzlu beynəlxalq mədəni-humanitar qurum olan İslam Ölkələri Elm, Təhsil və Mədəniyyət Təşkilatının xoşməramlı səfiri adına layiq görülmüşdür. ABŞ-Azərbaycan Ticarət Palatasının 10 illiyi münasibətilə Vaşinqtonda keçirilən toplantıda isə Azərbaycan-ABŞ parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri kimi Birləşmiş Statlar ilə Azərbaycan arasında əlaqələrin tərəqqisinə, ölkəmizdə elm, təhsil, mədəniyyət və səhiyyənin inkişafına şəxsi dəstəyinə görə ona "2006-cı ilin xoşməramlı səfiri" adı verilmişdir. Lap bu yaxınlarda, 2007-ci ilin mayında Mehriban Əliyevaya Cenevrədə Dünya Səhiyyə

Təşkilatının (DST) İhsan Doğramacı Ailə Sağlamlığı Fondunun mükafatı təqdim edilmişdir. O, həmin beynəlxalq mükafata Dünya Səhiyyə Təşkilatı İcraiyyə Komitəsinin Cenevrədə keçirilən 120-ci sessiyasının yekdil qərarı ilə ana, uşaq və ailə sağlamlığının qorunması və möhkəmlənməsi işində müstəsna xidmətlərinə görə layiq görülmüşdür. Mehriban xanım İSESKO-nun xoşməramlı səfiri adı və ölkəmizdə, eləcə də onun hüdudlarından kənarda apardığı xeyriyyəçilik işlərinə görə "Əsrlərin xeyriyyəçiləri" beynəlxalq Fondunun Yaqut Xaç ordenini almış ilk qadındır. Bunlar Mehriban xanımın son iki ildə layiq görüldüyü titul və mükafatların yalnız bir hissəsidir.

Son dövrdə Azərbaycan cəmiyyətinin həyatına və dilimizin lüğət tərkibinə daxil olan "birinci xanım", "xoşməramlı səfir" məfhumları bilavasitə Mehriban xanımın adı ilə bağlıdır. Əminik ki, Azərbaycanın birinci xanımının həyatında belə "ilk"lər bundan sonra da olacaqdır.

Mehriban xanım 1995-ci ildə təsis etdiyi Azərbaycan Mədəniyyətinin Dostları Fondu ilə öz həyat amalını, istəyini müəyyən etmişdir: milli mədəniyyətimizin inkişafına kömək göstərmək, xalqımızın dəyərli mədəniyyət nümunələrinin xaricdə təbliğini dəstəkləmək.

İndi onun rəhbərlik etdiyi bütün qurumların fəaliyyətinin əsas istiqamətini, ölkəmizdə və beynəlxalq aləmdə gördüyü işlərin mahiyyətini də xoş məram, xoş niyyət təşkil edir.

Kollegial demokratik seçim ənənələri ilə idarə edilən dünyanın ən nüfuzlu beynəlxalq təşkilatları Mehriban xanıma "xoşməramlı səfir" adlarını verərkən dəfələrlə vurğulandığı kimi, ilk növbədə, onun real fəaliyyəti, habelə nəciblik, xeyirxahlıq kimi mənəvi keyfiyyətləri, dünyada qəbul olunmuş davranış qaydalarını da özündə ehtiva etməklə mənsub olduğu xalqın milli-mənəvi dəyərlərinə sadiqliyi, intellektual səviyyəsi başlıca meyar götürülmüşdür.

Mebriban Əliyevanın bu adlara layiq görülməsini şərtləndirən işlərə - onun birbaşa təşəbbüsü və təşkilatçılığı ilə həyata keçirilmiş, yaxud reallaşmaqda olan layihələrə, proqramlara qısa nəzər salaq. Məhz bu proqram və layihələr onun prezidenti olduğu Heydər Əliyev Fondunu beynəlxalq miqyasda ən nüfuzlu qeyri-hökumət qurumlarından biri kimi tanıtmışdır.

**Təhsil sahəsində: "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı".** Aparılan monitorinqlərin nəticəsi olaraq respublikanın bütün

regionlarında yerləşən uşaq tərbiyə müəssisələrində problemlərin həllinə yönələn dörd əsas istiqamət - texniki dəstək, təhsil, səhiyyə və ictimai fəallıq prioritet təşkil etmişdir. Bu müəssisələrin böyük əksəriyyətinin məhz təmirə, yenidənqurmaya və texniki təchizata daha çox ehtiyacı olduğu müəyyənləşdirilmişdir. Respublikada 29 uşaq müəssisəsi əsaslı şəkildə təmir edilmiş, əlavə yardımçı binalar inşa olunmuş, yaşayış üçün rahat kommunal şərait yaradılmış və təzə avadanlıqla komplektləşdirilmişdir.

**"Yeniləşən Azərbaycana yeni məktəb proqramı"** əsasən təhsilin səviyyəsinə birbaşa təsir edən problemlərin həllinə - maddi bazanın yaxşılaşdırılmasına, tədris prosesinin səviyyəsinin yüksəldilməsinə imkan verən məktəb binalarının inşasına istiqamətlənmişdir.

Azərbaycanın bütün regionlarını əhatə edən 62 rayonda 200-dək yeni məktəb tikilib istifadəyə verilmiş, ən müasir avadanlıqla təchiz edilmişdir. Bununla da 2005-2006-cı illərdə 38 min 964 şagird yerlik məktəblərin inşasına və yenidən qurulmasına nail olımmuşdur. 100, 200, 240, 300 və daha artıq şagird yerlik məktəblərin hər birində laboratoriya, kompyuter otaqları, idman salonu və meydançaları, kitabxana, yeməkxana, ayrıca istilik sistemi vardır.

**"Təhsilə dəstək" layihəsi.** Məktəbəqədər uşaq tərbiyə müəssisələrinin yenidən qurulması layihəsi çərçivəsində Lerik və Bakının Əzizbəyov rayonlarında 4 uşaq bağçası əsaslı təmir olunaraq müasir avadanlıqla təchiz edilmişdir.

Daimi yaşayış yerlərini tərk etmiş, aztəminatlı ailələrdən 2004-2006-cı illərdə birinci sinfə gedən 60 min uşağa məktəb ləvazimatları hədiyyə verilmişdir. Gürcüstanda və Moskvada azərbaycanlıların təhsil aldığı məktəblərə kompyuter dəstləri, məktəb ləvazimatları və digər avadanlıqlar hədiyyə edilmişdir.

Məktəblərdə tədrisin keyfiyyətini yüksəltmək məqsədi ilə əyani vəsaitlər hazırlanmış, laboratoriya-təcrübə ləvazimatları alınaraq tədris müəssisələrinə verilmişdir.

Pakistan İslam Respublikasının zəlzələdən zərər çəkmiş Müzəffərabad şəhərində fondun maliyyə dəstəyi hesabma müasir tələblərə cavab verən ümumtəhsil məktəbinin tikintisinə başlanılmışdır. Təhsil müəssisəsində kitabxana, laboratoriya, kompyuter otaqları və idman meydançası da olacaqdır.

YUNESKO-nun himayəsi ilə təhsillə bağlı regional konfrans 2008-ci ildə Bakıda keçiriləcəkdir.

**Dərs vəsaitləri və müxtəlif ədəbiyyatla təchizat.** Rusiyanın "Puşkin kitabxanası" fondu ilə yaranmış əməkdaşlıq çərçivəsində Rusiyada son illər nəşr olunmuş və müxtəlif elm sahələrinə aid 5 minə qədər kitab respublikamızın ali məktəblərinə təqdim edilmişdir.

World Vision ("Dünyaya baxış") təşkilatı tərəfindən fonda təqdim edilən və məxsusi olaraq uşaq müəssisələri üçün nəzərdə tutulmuş 1000-dək nəfis tərtibatlı kitab uşaq evlərinə və internat məktəblərinə paylanılmışdır.

"JP Morgan" təşkilatının fonda hədiyyə etdiyi, xaricdə nəşr olunmuş müxtəlif adda kitablar ali məktəblərə təqdim olunmuşdur.

**Səhiyyə sahəsində.** "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsi Azərbaycan Diabet Cəmiyyəti və Danimarkanın "Novo Nordisk" şirkəti ilə birgə əməkdaşlıq nəticəsində həyata keçirilmişdir. Layihə çərçivəsində Azərbaycanda diabet xəstəliyinə düçar olmuş 14 yaşınadək uşaqlar 2004-2006-cı illər ərzində müntəzəm olaraq lazımi miqdarda insulin preparatları və şpris-qələmlərlə təmin edilmişlər.

**"Talassemiyasız həyat naminə" layihəsi.** Azərbaycan talassemiya xəstəliyinin geniş yayıldığı ölkələrdən hesab olunur. Layihə çərçivəsində müasir avadanlıqla təchiz olunmuş Talassemiya Diaqnostika Mərkəzinin yaradılması qərara alınmışdır və artıq tikinti işləri aparılır. Proqramın daha səmərəli şəkildə həyata keçirilməsi üçün Məsləhət Şurası yaradılmışdır. Layihədə bu xəstəlikdən əziyyət çəkən uşaqların təhlükəsiz və keyfiyyətli qanla təmin olunması üçün donor xidmətinin inkişafı, əhalinin maarifləndirilməsi, prenatal diaqnostika üsulu ilə xəstəliyin proqnozlaşdırılması məsələlərinə də diqqət yetirilir.

**Tibb müəssisələrinin yenidən qurulması və müasir avadanlıqla təchizatı.** Fondun təşəbbüsü ilə paytaxtın Əzizbəyov rayonunun Türkan qəsəbəsində poliklinika, təcili yardım stansiyası, aptek, Şüvəlan qəsəbəsində xəstəxana, İsmayıllı rayonunun İvanovka kəndində poliklinika yenidən qurulmuş və avadanlıqla təchiz olunmuşdur.

Almaniyanın "Fresenius Medical Care" şirkətinin Heydər Əliyev Fonduna hədiyyə etdiyi 10 ədəd hemodializ aparatı və "Storz" şirkətinin hədiyyəsi olan endoskopik avadanlıq tibb müəssisələrinə verilmişdir. Fransanın "Servye" şirkəti tərəfindən fonda verilmiş "Diabeton MR" preparatları diabetdən əziyyət çəkən insanlara paylanmışdır.

**Səhiyyə məsələləri ilə əlaqədar əhalidən daxil olmuş müraciətlər.** Səhiyyə məsələləri ilə bağlı fonda ayrı-ayrı insanlardan 6 mindən çox müraciət daxil olmuş, onlara kömək göstərilməsi üçün tibb müəssisələri ilə sıx əlaqə qurulmuş, lazımi tədbirlər həyata keçirilmişdir. Ürək xəstəliklərindən əziyyət çəkən 1300 uşağın ölkə daxilində müalicəsinə, bir qismində isə xarici ölkələrdə cərrahiyyə əməliyyatı aparılmasına kömək göstərilmişdir.

**Mədəniyyət sahəsində: "Qarabağ xanəndələri" musiqi albomunun nəşri.** Azərbaycan muğam sənətinin inkişafı və muğam mədəniyyəti ənənələrinin qorunub saxlanmasını nəzərdə tutan "Muğam İrs", "Muğam-Dəstgah", "Muğam Ensiklopediyası", "Muğam-İnternet", "Muğam-Antologiya", "Muğam dünyası", "Muğam Mərkəzi" layihələri silsiləsindən "Muğam İrs" layihəsi çərçivəsində "Qarabağ xanəndələri" musiqi albomu nəfis şəkildə nəşr olunmuşdur. Albomda 24 muğam ustasının ifasında səslənmiş muğamlar toplanmışdır. Musiqi albomu həm də Qarabağ torpağının acısını, Azərbaycanın haqq səsini muğam vasitəsilə bütün dünyaya çatdırmaq məqsədi daşıyır. 2005-ci ilin martında Parisdə YUNESKO-nun qərargahında, xoşməramlı səfirlərin illik toplantısında "Qarabağ xanəndələri" albomunun təqdimatı olmuşdur.

**"Muğam-Dəstgah"** layihəsindən məqsəd muğam-dəstgahların konsertlərdən birbaşa yazıya alınması və gələcək nəsillər üçün qorunub saxlanmasından ibarətdir. "Muğam Ensiklopediyası" layihəsi çərçivəsində Azərbaycan muğamına həsr olunmuş "Muğam Ensiklopediyası"nın nəşri həm elektron, həm də kitab variantlarında həyata keçirilir. "Muğam-İnternet" layihəsindən məqsəd internetdə muğamla bağlı audio və video materialları özündə ehtiva edən muğam-portal yaratmaqdır. "Muğam dünyası" layihəsinə əsasən simpoziumlar və muğam sənəti ilə bağlı beynəlxalq konfranslar, müxtəlif festival və yarışmalar keçirilir. "Muğam-Antologiya" layihəsi çərçivəsində isə muğamla bağlı zəngin nəzəri musiqi irsinin qiymətli nümunələrindən Səfiəddin Urməvinin, Fəthullah Şirvaninin və digər görkəmli müəlliflərin əsərləri işıq üzü görmüşdür.

Beynəlxalq Muğam Mərkəzinin yaradılması. Fondun təşəbbüsü ilə YUNESKO Azərbaycan muğamını bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri siyahısına daxil etmişdir. Azərbaycan və dünya musiqisinin incisi olan muğamların qorunub saxlanması və inkişafı, dünyada yayılması və beynəlxalq muğam tədbirlərinin keçirilməsi məqsədi ilə Bakıda Beynəlxalq Muğam Mərkəzi inşa edilir.

**"Televiziya muğam müsabiqəsi-2005"in keçirilməsi.** Dahi bəstəkar Üzeyir Hacıbəyovun anadan olmasının 120 illiyi münasibətilə bir il davam edən muğam telemüsabiqəsi keçirilmiş, Heydər Əliyev adına Sarayda müsabiqə iştirakçılarının və muğam ustadlarının konserti təşkil edilmişdir.

**Cavad xanın məqbərəsinin inşası.** Fondun dəstəyi ilə Gəncənin sonuncu xanı Cavad xanın qəbri üzərində gözəl məqbərə tikilmişdir. Bu layihə Gəncə sakinlərinin müraciətlərinə cavab olaraq həyata keçirilmişdir.

**Comərd Qəssab məzarının və məzarüstü türbəsinin bərpası.** VII əsrdən Gəncədə öz xeyirxahlığı ilə məşhur olan Comərd Qəssabın məzarında və məzarüstü türbəsində bərpa işləri aparılmış, ətraf ərazi abadlaşdırılmışdır.

**Abdulla Şaiqin ev-muzeyinin bərpası.** Görkəmli yazıçı və pedaqoq Abdulla Şaiqin ev-muzeyində əsaslı təmir-bərpa işləri aparılmış və muzey yenidən fəaliyyətini davam etdirmişdir.

**Mərdəkan qəsəbəsində kütləvi kitabxana** üçün müasir bina tikilmiş, kitab fondu zənginləşdirilmiş, kompyuter avadanlığı ilə təchiz edilmişdir.

**M.Əzizbəyov adına mədəniyyət evinin yenidən qurulmasına başlanılmışdır.** Burada 600 yerlik konsert salonunun istifadəyə verilməsi rayon miqyaslı tədbirlərin keçirilməsinə imkan yaradacaqdır.

**Fransanın Versal sarayında heykəllərin bərpası**. 1674-cü ildə bu sarayda yaradılmış muzey dünya mədəni irs siyahısına salınmışdır. Fond tərəfindən açıq səma altındakı iki nadir heykəlin bərpası işləri həyata keçirilir.

**Gürcüstanda abidələrin bərpası.** Vaxtilə Tbilisi şəhərində yaşayıb-yaratmış görkəmli Azərbaycan şəxsiyyətləri Mirzə Şəfi Vazehin və Mirzə Fətəli Axundovun, habelə Fətəli xan Xoyskinin, digər tanınmış simaların qəbirüstü abidələrinin yenidən qurulması və xiyabanın yaradılması işlərinə başlanmışdır.

**Pir Həsən ziyarətgahının yenidən qurulması.** XVI əsrə aid Pir Həsən ziyarətgahında dəfn edilmiş böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin, onun özünə böyük ustad-müəllim hesab etdiyi Turab ağanın və Hacı Zeynalabdinin qızı Sara xanımın məzarları bərpa olunmuş, ətraf abadlaşdırılmış və xiyaban salınmışdır.

**Möhsün Səlim məscidinin yenidən qurulması.** Məscidin qəza vəziyyətində olması barədə Binə qəsəbəsi ağsaqqallarının müraciətindən sonra bina memarlıq

üslubu qorunub saxlanılmaqla əsaslı təmir edilmişdir.

Heydər Əliyev Fondunun dəstəyi ilə Moskvada, Rusiya Federasiyası hökuməti yanında Maliyyə Akademiyasında "Beynəlmiləl dostluq klubu", Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (MDBMİ) Azərbaycan gəncləri klubu, Rusiyadakı Azərbaycanlı Gənclərin Əlaqələndirmə Şurası tərəfindən ardıcıl təşkil edilən Azərbaycan mədəniyyəti günləri Rusiya ictimaiyyətinin ölkəmizin zəngin mədəniyyəti, qədim ənənələri, incəsənəti və milli mətbəxi ilə tanışlığına imkan yaradır. MDBMİ-nin gənclər hərəkatının lideri Leyla Əliyevanın rəhbərliyi ilə həyata keçirilən belə tədbirlər iki ölkə arasında münasibətlərin daha da yaxşılaşmasına xidmət edir.

**YUNESKO ilə əməkdaşlıq çərçivəsində** fondun dəstəyi ilə Bakıda və Parisdə dahi bəstəkar Üzeyir Hacıbəyovun 120 illik yubileyi keçirilmişdir. Parisdə YUNESKO çərçivəsində görkəmli kimyaçı alim, akademik Yusif Məmmədəliyevin 100 illiyi qeyd olunmuş, YUNESKO-nun 60 illiyi münasibətilə Azərbaycan mədəniyyəti günləri keçirilmişdir.

Dünya şöhrətli musiqiçilər Mstislav Rostropoviç və xanımı Qalina Vişnevskayanın 50 illik birgə fəaliyyətinə həsr edilmiş albom və disklər hazırlanmışdır. Mstislav Rostropoviçin, məşhur bəstəkar Dmitri Şostakoviçin, görkəmli vokal ustası Bülbülün yubileyinə həsr olunmuş beynəlxalq festivallar keçirilmişdir.

2006-cı ilin oktyabrında YUNESKO-da Azərbaycan günləri keçirilərkən YUNESKO-nun baş direktoru Koişiro Matsuura çıxışına belə bir fikirlə başladı ki, bu gün burada məndən əvvəl Azərbaycan Respublikasının birinci xanımı ingilis dilində mətndən istifadə etmədən elə çıxış etdi ki, onun nümunəsini bir də təkrar etmək qeyri-mümkündür. Bu il aprelin 3-də Parisdə YUNESKO-nun əsas iqamətgahında qurumun xoşməramlı səfirlərinin ənənəvi illik hesabat yığıncağında isə K.Matsuura demişdir: "Mehriban xanım Əliyevanın fəaliyyəti sayəsində Azərbaycanla YUNESKO arasında sıx əməkdaşlıq yaranmışdır".

Qeyd etmək lazımdır ki, bu tədbir çərçivəsində Azərbaycanın birinci xanımının Fransa Senatının və Milli Assambleyasının sədrləri, Litva prezidenti, İordaniya kraliçası və digər yüksək səlahiyyətli şəxslərlə görüşləri Mehriban xanımın artıq ölkə xaricindən kənarda da kifayət qədər ciddi qəbul edilən şəxsiyyətinə, beynəlxalq əhəmiyyətli ictimai fəaliyyətinə verilən yüksək qiymətin

təzahürüdür. İordaniya şahzadəsi xanım Firyal deyir: "Azərbaycanın birinci xanımı Mehriban Əliyeva öz ölkəsində və bütün dünyada bir çox xeyriyyə işlərinin həyata keçirilməsi məqsədi ilə yorulmaz fəaliyyət göstərir. Birinci xanım olduqca qısa müddət ərzində böyük nailiyyətlər əldə etmişdir".

Mehriban xanım iştirak etdiyi hər belə mötəbər tədbirdən həm də Azərbaycan mədəniyyətinin təbliği üçün istifadə edilməsinə, xalqımızın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasına xüsusi diqqət yetirir və buna nail olur.

Ötən ilin sentyabrında birinci beynəlxalq rus kitabı festivalının iştirakçıları ilə Heydər Əliyev Fondunda keçirilən görüşdə dünya şöhrətli yazıçı Çingiz Aytmatov Mehriban xanımın söhbətlərini dinlədikdən sonra demişdir: "Mən bayaqdan Sizinlə söhbət edirəm, Sizə qulaq asıram, öz-özümə düşünürəm ki, rus dilində belə səlis, mənalı, ağıllı çıxışı mən heç zaman eşitməmişəm... Siz bizim YUNESKO səfirləri içərisində ən gənc, ən hörmətli və ən çox dəyərli iş görən səfirsiniz".

**İSESKO ilə əməkdaşlıq da uğurla inkişaf edir.** Aprelin 27-də Mehriban xanım Əliyeva və islam dünyasının bu nüfuzlu qurumunun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri Heydər Əliyev Fondu ilə İSESKO arasında əməkdaşlıq haqqında protokol imzalamışlar. Beş il müddətinə əməkdaşlığın əsas prinsiplərini tənzimləyən protokol elm, mədəniyyət, təhsil sahəsində əlaqələrin inkişafını, birgə layihələrin işlənib həyata keçirilməsini və fəaliyyətin əlaqələndirilməsini nəzərdə tutur.

Fondun elm, təhsil, mədəniyyət və digər sahələrdə həyata keçirdiyi layihələri yüksək qiymətləndirən Əbdüləziz bin Osman əl-Tüveycri İSESKO-nun ilk qadın xoşməramlı səfiri kimi Mehriban xanımın bu şərəfli missiyanın yerinə yetirilməsində şəxsi nümunə göstərdiyini bildirmişdir. Azərbaycanın birinci xanımı həm də sivilizasiyalararası dialoqa verdiyi şəxsi töhfəsinə görə İslam Konfransı Təşkilatı Gənclər Forumunun mükafatına layiq görülmüşdür.

Mehriban xanımın fəlsəfə elmləri namizədi alimlik dərəcəsi almaq üçün müdafiə etdiyi dissertasiya müasir dövrdə təbabət, psixologiya və sosiologiyanın ən mübahisəli məsələlərindən birinin tibbi-fəlsəfi mahiyyətinə, elmi araşdırılmasına həsr olunmuşdur: "Evtanaziya və təbabətdə humanizm problemi". Keçmiş SSRİ-nin ən nüfuzlu elm-təhsil müəssisələrindən olan M.Seçenov adına

Birinci Moskva Tibb İnstitutunu fərqlənmə diplomu ilə bitirən, Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda zəngin elmi təcrübə keçən Mehriban Əliyevanın bu elmi işi bir sıra xarici ölkə alimləri tərəfindən də yüksək dəyərləndirilmişdir. Mehriban xanım Azərbaycan qadını adını ən mötəbər məclislərdə ucaldır, ona şərəf və şöhrət gətirir.

**Sosial sahədə.** Heydər Əliyev Fondunun hesabına Qaradağ rayonunun Lökbatan qəsəbəsində 20 min sakinin su təminatının yaxşılaşdırılmasına imkan verən boru kəməri çəkilmişdir.

Şamaxı şəhərində müvəqqəti məskunlaşmış məcburi köçkün ailələri üçün 16 mənzilli bina əsaslı təmir olunmuş, ev əşyaları və avadanlıqla təmin edilmişdir.

1941-1945-ci illər müharibəsində qələbənin 60 illiyinə həsr olunmuş mərasim keçirilmişdir.

Kimsəsiz, qaçqın və məcburi köçkün ailələrindən olan uşaqlar üçün hər il ölkənin ən iri saraylarında Yeni il və Novruz şənlikləri təşkil edilir.

Fondun hesabına Gürcüstanın Azərbaycanlı Qadınlar İttifaqına (GAQİ) 5 ədəd hana bağışlanmışdır.

**Elm və texnologiya sahəsində.** Respublikanın internet məkanında məlumat bazasının zənginliyinə görə analoqu olmayan "Azərbaycan" portalı (www.azerbaijan.az) yaradılmışdır. Portal 12 bölməni əhatə edir: "Xəbərlər", "Ümumi məlumat", "Təbiət", "Tarix", "İqtisadiyyat", "Mədəniyyət", "Cəmiyyət", "Dövlət hakimiyyəti", "Azərbaycan beynəlxalq aləmdə", "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi", "İnzibati ərazi vahidləri" və "Xəritələr". Hər bölmə bir neçə hissədən ibarətdir. İnternet istifadəçiləri portaldan Azərbaycan, rus və ingilis dillərində istənilən mövzuda informasiya əldə edə bilirlər.

**BMT-nin İnkişaf Proqramı ilə birgə həyata keçirilən "Kor və görmə qabiliyyəti zəif olan insanların informasiya-kommunikasiya texnologiyalarına çıxışının təmin edilməsi" layihəsi.** Respublikada kor və görmə qabiliyyəti zəif olan şəxslərin sayı təxminən 40 min nəfərdir. Onlara informasiya toplamaq və məşğulluğunu artırmaq üçün əlavə imkanlar yaratmaq mexanizmi kimi İKT-dən istifadənin təşkili zəruri sayılmış, BMT-nin İnkişaf Proqramı ilə birgə Milli Strategiya hazırlanmışdır. Uşaqlar üçün Model İKT sinifləri yaradılmış, xaricdən xüsusi kompyuter avadanlığı alınıb quraşdırılmış, proqram təminatı lokallaşdırılmış, internetə çıxış, tədris-təlim proqramlarının hazırlanması, audio

studiya və kitabxananın fəaliyyəti təmin edilmişdir.

**Fondun təşkilatçılığı ilə keçirilən beynəlxalq konfranslar.** YUNESKO ilə birgə 2005-ci il avqustun 24-də "Gülüstan" sarayında keçirilən "YUNESKO-Azərbaycan: gələcəyə körpü" mövzusunda konfransda Azərbaycanın təhsil sistemində aparılan islahatlar, Avropa təhsil sisteminə inteqrasiya və digər məsələlər müzakirə olunmuşdur.

**"Avrasiyada mədəniyyət müxtəlifliyi:** Azərbaycan - sivilizasiyalararası dialoqun keçmişi və bu günü" XIII beynəlxalq konfrans. Azərbaycanın tarixi və mədəni ənənələrini, mövcud tolerantlığını nəzərə alaraq Latın Mədəniyyəti Akademiyası özünün sayca XIII konfransını 2006-cı il aprelin 24-də Bakıda Heydər Əliyev Fondu ilə birgə keçirmişdir. Mötəbər xarici qonaqlar ölkəmizdə dini etiqad azadlığının, dini dözümlülüyün yüksək səviyyədə olduğu, Azərbaycanın Şərq və Qərb sivilizasiyalarının ən yaxşı ənənələrini özündə birləşdirdiyini faktlarla vurğulamışlar.

**Fondun "Dini tolerantlığın ünvanı - Azərbaycan"** layihəsi çərçivəsində Bakıdakı Pravoslav kilsəsinin, məscidlərin yenidən qurulması tamamlanmışdır. Dünya yəhudilərinin nüfuzlu təşkilatlarından olan "Or-Avner" Beynəlxalq Fondu ilə əməkdaşlıq sazişi çərçivəsində Mehriban xanım Əliyevanın iştirakı ilə Bakının Xətai rayonunun Əbilov yaşayış sahəsində Azərbaycanda yaşayan yəhudi uşaqları üçün orta məktəb, uşaq bağçası, yəhudi tarixi və mədəniyyəti muzeyindən ibarət kompleksin tikintisinə başlanmışdır.

**"Orta əsr əlyazmalarında tibb və əczaçılıq"** mövzusunda beynəlxalq konfrans. Fondun dəstəyi ilə Əlyazmalar İnstitutunda saxlanılan qədim təbabətə dair 3 nadir tibb əlyazması konfrans ərəfəsində YUNESKO-nun Dünya Yaddaşı Proqramının Beynəlxalq Siyahısına daxil edilmişdir. Vaşinqton Elmlər Akademiyası ilə birgə təşkil edilmiş konfransın açılış mərasimi 2006-cı il iyunun 12-də Heydər Əliyev Fondunda keçirilmişdir. Konfransın keçirildiyi günlərdə fondda qədim əlyazmaların sərgisi təşkil olunmuşdur. Konfransın növbəti iclasları Yevlax və Şəki şəhərlərində keçirilmişdir.

**Fondun nəşrləri:** "Qarabağ həqiqətləri" toplusu. Beynəlxalq ictimaiyyətə ünvanlanan "Qarabağ həqiqətləri" toplusu "Qarabağın tarixi haqqında məlumat", "Qarabağ münaqişəsinin başlanması", "Xocalı soyqırımı", "Azərbaycana qarşı erməni təcavüzünün nəticələri", "Erməni terror təşkilatlarının Azərbaycana qarşı

fəaliyyəti" kitabçalarından ibarətdir. Bu topluların elektron variantları 2007-ci ildə, qanlı soyqırımın 15 illiyində fondun təşəbbüsü ilə Avropanın 15 dövlətində keçirilən soyqırımı qurbanlarının xatirəsini anma mərasimlərində xarici ölkələrin diplomatik korpuslarına, beynəlxalq təşkilatlara, kütləvi informasiya vasitələrinə, tanınmış siyasi-ictimai xadimlərə paylanmışdır. Real faktlara, dəlil-sübutlu foto-sənədlərə istinadla aparılan bu təbliğat kampaniyası on minlərlə avropalıya Qarabağ həqiqətləri, Xocalı soyqırımı, Ermənistanın ölkəmizə qarşı həyata keçirdiyi təcavüzkar işğalçılıq siyasəti haqqında əsl həqiqətləri çatdırmışdır.

Mehriban xanım Əliyevanın "Ön söz"ü ilə yenicə işıq üzü görmüş "Müharibə və tarixi-mədəniyyət abidələrimiz" kitabında Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərində - Xankəndi, Xocalı, Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Qubadlı, Füzuli və digər rayonlarda düşmən tapdağı altında qalıb dağıdılmış tarixi memarlıq abidələri haqqında ətraflı məlumatlar verilir.

**Xarici nəşrlərin tərcüməsi.** Azərbaycan oxucusu üçün əhəmiyyətli sayıla biləcək bir sıra xarici nəşrlər dilimizə tərcümə edilərək çap olunmuşdur. Murad Adcının "Türklər və dünya: munis tariximiz", ABŞ-ın Mərkəzi Asiya-Qafqaz İnstitutu - İpək Yolu Araşdırmalar Proqramının rəhbərləri Frederik Starr və Svante Kornellin "Bakı-Tbilisi-Ceyhan boru kəməri: Qərbə açılan neft pəncərəsi", "Azərbaycan təbiəti", Linda Li Rattonun "Yuxuların çin olduğu yerdə" kitabları bu qəbildəndir. Sonuncu nəşrdən məqsəd fiziki cəhətdən qüsurlu uşaqların cəmiyyətdə bərabərhüquqlu üzv kimi qəbul olunmasına kömək etməkdir.

**Ekologiya.** 2007-ci ilin Novruz bayramı ərəfəsində fond paytaxt Bakı ətrafindakı Qala qəsəbəsində istifadəsiz 8 hektar sahədə 9 min həmişəyaşıl tingin əkilməsi ilə "Hərəmiz bir ağac əkək!" layihəsinə start verilmişdir. Qısa zamanda respublikanın bütün şəhər, qəsəbə və kəndlərində vətəndaşlar, ayrı-ayrı kollektivlər bu çağırışa qoşularaq yaşıllaşdırma kampaniyasına başlamışlar. Ətraf mühitin sağlamlaşdırılmasına, təmiz hava, təmiz ekologiyaya töhfə olan layihə çərçivəsində respublikanın bütün guşələrində yüz minlərlə yeni ağac əkilmiş, təzə parklar, bağlar, yaşıl xiyabanlar salınmışdır. Təşəbbüsün hər il mövsümi olaraq davam etdirilməsi nəzərdə tutulur.

**Mehriban xanım təsisçisi olduğu "Azərbaycan İRS" jurnalının 3 dildə nəşri** ilə də Azərbaycan tarixinin, mədəniyyətinin öyrənilməsi və təbliğində, xüsusən Rusiya və digər MDB ölkələrinin rusdilli əhalisinə Azərbaycan

həqiqətlərinin çatdırılmasında təqdirəlayiq iş görür.

Bakıda 47 ölkəni təmsil edən gimnast qızların iştirakı ilə bədii gimnastika üzrə 27-ci dünya çempionatının keçirilməsi də təkcə idman növü deyil, həm də gözəllik, zəriflik, yüksək sənət rəmzi olan bu idmanın ölkəmizdə populyarlıq qazanması da Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban xanımın xidmətidir.

Mehriban xanım dəfələrlə siyasətdən uzaq olduğunu bildirsə də, Milli Məclisin deputatı kimi fəaliyyətində əsl professionallıq, siyasi yetkinlik nümunəsi göstərir. Azərbaycan-ABŞ parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri kimi ötən il dekabrın 4-dən 7-dək ABŞ-a işgüzar səfəri birinci xanımı, ilk növbədə məhz bu keyfiyyətləri ilə tanıtdı. Bu səfər olduqca maraqlı məqamlarla yadda qalmış, dünyanın super dövləti ilə ölkəmiz arasında dostluq münasibətlərinin genişlənməsində, Azərbaycan həqiqətlərinin təqdimatında əhəmiyyətli rol oynamışdır.

Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın Ağ evdə ABŞ-ın birinci xanımı Loura Buş, məşhur siyasi xadim Zbiqnev Bjezinski, senator Key Beyli Hatçinson və Konqresin üzvü Şila Sikula Qibs, dövlət katibinin ictimai diplomatiya və ictimai məsələlər üzrə müavini Karen Hyuz, dövlət katibinin demokratiya və qlobal məsələlər üzrə müavini Paula Dobryanski ilə səmimi görüşləri, Heydər Əliyev Fondu və senator Hatçinsonun həmsədri olduğu "Vital Voice" qeyri-hökumət humanitar təşkilatı arasında əməkdaşlığa dair memorandumun imzalanması, Azərbaycanın ABŞ-dakı səfirliyində Amerikanın müxtəlif ştatlarında təhsil alan azərbaycanlı tələbələrlə görüşü yaddaqalan olmuşdur. ABŞ-Azərbaycan Ticarət Palatasının 10 illiyi münasibətilə Vaşinqtonun möhtəşəm "Endryu Melon" Auditoriumunda Mehriban Əliyevanın şərəfinə verilmiş ziyafətdə Ağ evin və Dövlət Departamentinin yüksək vəzifəli rəsmilərinin, konqresmenlərin, görkəmli siyasi və ictimai xadimlərin, xarici ölkələrin ABŞ-da akkreditə olunmuş səfirlərinin - 300-dən artıq insanın iştirakı, ABŞ-Azərbaycan Ticarət Palatasının həmsədri, dünyada çox böyük nüfuz sahibi olan Ceyms Beykerin, ABŞ Senatının ən qocaman üzvlərindən biri, Xarici Əlaqəiər Komitəsinin sədri, senator Riçard Luqarm geniş nitqlə çıxış etmələri Azərbaycan Prezidentinin xanımının beynəlxalq aləmdə nüfuzuna, şəxsi mövqeyinə, ictimai fəaliyyətinə verilən yüksək qiymətin konkret ifadəsi oldu. Mehriban xanımın sivilizasiyalararası dialoq, Şərq-Qərb

münasibətləri və digər qlobal məsələlər barədə fikirləri diqqətlə dinlənildi, maraqla qarşılandı. Bütün görüşlərdə, nitqlərdə Mehriban xanımın ölkəmizdə, eləcə də YUNESKO və İSESKO-nun xoşməramlı səfiri kimi beynəlxalq aləmdə fəaliyyəti yüksək dəyərləndirilmiş, bu fəaliyyətin Azərbaycanın gələcək inkişafı üçün böyük əhəmiyyət kəsb etdiyi vurğulanmış, birinci xanıma ABŞ-Azərbaycan Ticarət Palatasının "2006-cı ilin xoşməramlı səfiri" mükafatı da təqdim edilmişdir.

Milli Məclisin deputatı Mehriban Əliyeva tərəfindən hazırlanmış və parlamentdə qəbul edilmiş amnistiya haqqında qərar layihəsi də cəmiyyətdə çox böyük əks-səda doğurmuşdur. İlk dəfədir ki, Milli Məclisin deputatı belə humanist təşəbbüslə çıxış edərək parlamentə amnistiya haqqında qərar layihəsi təqdim etmişdir. Bu layihənin əhatə dairəsi genişdir və təxminən 9000 nəfərə şamil olunur. 1500 nəfər azadlığa, ailəsinə, övladlarına, doğma və əzizlərinə qovuşmuşdur. Deputat Mehriban Əliyevanın hazırladığı bu sənədi beynəlxalq qurumlar da razılıqla qarşılamışdır.

Birinci xanımın Milli Məclisin deputatı kimi ölkə daxilində fəaliyyətinin miqyasını təsəvvür etmək üçün deputat seçildiyi Əzizbəyov rayonunun bir neçə qəsəbəsində görülmüş işlərə nəzər salmaq kifayətdir.

Təhsil müəssisələri: 820 yerlik 5 internat məktəbi yenidən qurulmuş, 150 yerlik yay düşərgəsi inşa edilmiş, 6138 şagird yerlik 8 ümumtəhsil məktəbi, 230 yerlik 3 uşaq bağçası yenidən qurulmuş, zəngin maddi-texniki bazalı təlim-tədris mərkəzi yaradılmışdır.

Səhiyyə müəssisələri: müasir tələblərə cavab verən və lazımi avadanlıqla təchiz edilən 25 çarpayılıq xəstəxana, poliklinika, təcili yardım stansiyası və aptek yenidən qurulmuşdur.

Mədəniyyət müəssisələri və dini abidələr: 860 yerlik 2 mədəniyyət evi ilə yanaşı, kitabxana inşa edilmiş, abidə və barelyef, 3 məscid və ziyarətgah yenidən qurulmuşdur.

İnfrastruktur: 3 qəsəbənin giriş qapısı inşa olunmuş, 3 qəsəbəyə 45 kilometr uzunluğunda su xətti çəkilmiş, 63 kilometr uzunluğunda qəsəbələrarası və qəsəbədaxili yollar yenidən qurulmuş, 27 avtcbus dayanacağı, 110 kilovoltluq yardımçı stansiya istifadəyə verilmiş, 512 işıq dirəyi quraşdmlmış, 2 qəsəbə parkı yenidən qurulmuşdur.

Bunlar ötən ilin noyabrına qədər görülən işlərdir. İndi bu siyahı daha da

genişlənibdir.

Rayon ağsaqqallarının təşəbbüsü ilə "Əzizbəyov rayonunun inkişafı fondu" yaradılıbdır. Artıq fəaliyyət göstərən fondun işində qəsəbələrin sakinləri çox fəal iştirak edirlər. Səlahiyyətli nümayəndə yerlərdə sakinlərlə mütəmadi görüşlər keçirir. Noyabrın 6-da, Milli Məclisə seçkilərin bir ilinin tamam olduğu gün deputat Mehriban Əliyeva Əzizbəyov rayonunda seçicilərlə hesabat görüşünə gələndə sakinlərdən ən çox eşidilən söz bu oldu ki, siz seçkiqabağı görüşlərdə nəinki hər bir qəsəbənin problemlərinin həlli barədə xahişlərimizi yerinə yetirmisiniz, hətta çox olduğundan dilə gətirib deyə bilmədiyimiz digər problemlərimizi də özünüz gəlib yerində görüb həllinə kömək göstərmisiniz. İndiyədək seçkiqabağı vədlərini deputat mandatı alan gün unudanları çox görsək də, əksini ilk dəfə sizin timsalınızda gördük. Camaatımız sizin simanızda özünə etibarlı arxa-dayaq tapıbdır.

Türkiyədə çıxan "Hürriyyət" qəzetinin 2005-ci il 13 noyabr nömrəsində Mehriban xanım haqqında verilmiş yazının başlığı belə idi: "Təmiz bir örnək - xalq onu çox sevir, onun gözəl və ağıllı qadın kimi çox müsbət imici var".

Mehriban xanımın 2004-2006-cı illərdə istər valideyn himayəsindən məhrum əlil uşaqlarla, tənha qocalarla, təhsil, səhiyyə, mədəniyyət işçiləri ilə görüşlərində, istərsə də Heydər Əliyev Fondunda, xarici səfərlərdə təmasda olduğu siyasətçilərlə, elm, mədəniyyət xadimləri ilə ünsiyyətində diqqəti birinci cəlb edən onun təbiətindən, gendən gələn səmimiyyət, ziyalılıq, xeyirxahlıq, insanpərvərlik və nəciblikdir.

Məhəmməd Peyğəmbərimizin fikridir: insanlar arasında ən dəyərlisi insanlar üçün ən çox xeyirli iş görənlərdir.

Azərbaycanın birinci xanımı belə insanlardandır.

Hacı Nərimanoğlu,
AzərTAC-m xüsusi müxbiri,
Yazıçılar Birliyinin üzvü

# İNSANPƏRVƏLİK HEYDƏR ƏLİYEV FONDUNUN ƏSAS MƏRAMLARINDAN BİRİDİR

Vərəmli məhkumlar üçün ixtisaslaşdırılmış müalicə müəssisəsində müalicə olunan məhkumlardan 25 nəfəri mayın 8-də Milli Məclisin qəbul etdiyi "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş amnistiya haqqında" qərarın icrası ilə əlaqədar azadlığa buraxıldılar. Mayın 10-da müəssisədə keçirilən mərasimdə cəzalarının çəkilməmiş hissəsindən azad olunan məhkumlara müstəqil həyatda uğurlar arzulandı. Tədbirdə çıxış edən Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Rejim şöbəsinin müdiri Azər Seyidov Azərbaycan hakimiyyətinin humanizm dəyərlərinə böyük önəm verdiyini diqqətə çatdırdı. O bildirdi ki, ulu öndərin təşəbbüsü ilə 7 amnistiya aktı qəbul olunmuşdur. Bu amnistiya və əfv fərmanları ilə minlərlə insan azadlığa buraxılmış, cəzaları yüngülləşdirilmiş, neçə-neçə ailəyə sevinc bəxş edilmişdir.

Təqdirəlayiq haldır ki, ümummilli lider Heydər Əliyevin humanizm ideyaları bu gün də ölkəmizdə uğurla davam etdirilməkdədir. Bəşəri ideyalara sadiqlik nümayiş etdirən dövlətimizin başçısı cənab İlham Əliyev müxtəlif əlamətdar günlərdə əfv fərmanları imzalamışdır. Sonuncu amnistiya qərarı isə Heydər Əliyev Fondunun Prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Milli Məclis tərəfindən bu günlərdə qəbul edilib. Mehriban xanım Əliyeva ümummilli lider Heydər Əliyevin humanist siyasətinə sədaqət nümayiş etdirərək, onun xatirəsinə ehtiramın ifadəsi olaraq amnistiyanın elan edilməsi barədə təşəbbüs irəli sürüb.

Çıxışlarda o da vurğulandı ki, azadlığa çıxan məhkumlar müalicələrini qeydiyyatda olduqları ərazidəki müalicə müəssisələrində davam etdirmək hüququna malikdirlər. Tədbirin sonunda məhkumlara azadlığa buraxılmaları barədə arayışlar təqdim olundu. Həmçinin azadlığa buraxılanlara evlərinə rahat gedib çatmaları üçün müəyyən miqdarda pul da verildi.

Onlardan bəziləri ilə söhbət etdik. Ömürlərinin bir neçə ilini həbsxana həyatı ilə bağladıqları üçün peşmançılıq hissi keçirən bu insanlar həyatda yenidən qurub-yaratmaq arzusunda olduqlarını gizlətmirlər.

Məhəmməd Bağırov:

- Həbsxanada uzun illər qalmasam da, ömrümün bir hissəsinin burada keçməsi məni narahat edir. Amma bu da həyatın bizə verdiyi dərsdir. Çalışacam ki, mənə bəxş edilən bu azadlığı lazımınca qiymətləndirim və normal həyata qovuşmaqla ömrümün bir neçə ilinin burada keçməsini tamamilə unudum. Bizim həbsxanadan azad olunmağımız göstərir ki, həqiqətən də həyatda insani dəyərlər var. Heydər Əliyev 1993-cü ildə prezident seçildikdən sonra dəfələrlə amnistiya və əfv qərarları verib. İndi isə bu dahi insanın adını daşıyan Fondun təşəbbüsü ilə biz azadlığa çıxırıq. Demək, ulu öndər həyatda olmasa da, onun ideyaları yaşayır.

İlqar Əsədov:

- Həbsxanada olan hər bir məhbusun ən böyük arzusu azadlığa çıxmaqdır.

Mənə edilən bu yaxşılığın əvəzini ömrümün sonuna qədər unutmayacam və hər addımımda bunun əvəzini dövlətimizə verməyə çalışacam.

Mən müalicə müəssisəsinin əməkdaşlarına da minnətdaram. Burada olduğumuz müddətdə onlardan həqiqətən gözəl münasibət görmüşük. Bütün problemlərimiz vaxtında həll olunub, ehtiyaclarımız ödənilib. Normal müalicə olunmağımıza vaxtlı-vaxtında diqqət yetiriblər. Çox sağ olsunlar.

Mehdi Əhmədov:

- Bu gün mənim ömrümün ən xoş günlərindən biridir. Çünki ailəmin, əzizlərimin yanına qayıdıram. Mənə bu xohbəxtliyi bəxş etmiş Mehriban xanım Əliyevaya, onun ailəsinə dünyada ən xoş nemət olan cansağlığı arzu edirəm.

Xeyırxah əməlləri ilə insanlara xoşbəxtlik bəxş edən Heydər Əliyev Fondu bizim də ailələrimizi sevindirdi. Buradakı bütün məhbuslara tezliklə azadlığa çıxmağı, öz ailələrinin yanına qayıtmağı arzulayıram.

Abbas Zöhrabov:

- Ulu öndərimiz Heydər Əliyevin əsasını qoyduğu humanizm ideyaları bu gün uğurla davam etdirilməkdədir. Biz azadlığa qovuşmaqla bunun şahidi olduq.

Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul edilən amnistiya qərarının mənə də şamil olunması ailəmizə bəxş edilən ən böyük hədiyyədir. Ailə üzvlərimin

mənim azadlığa çıxmağıma görə necə sevindiklərini düşünəndə kövrəlirəm. Allah qoysa, bundan sonrakı həyatımı elə quracam ki, bir də bu yerlərə yolum düşməsin.

Bahadur Zeynalov:

- Hər bir azadlığa çıxan məhkum bu xeyirxah əməlinə görə Mehriban xanım Əliyevaya minnətdardır. Onun sayəsində mən bu gün ailəmin yanına dönəcəm, yenidən azad həyata qovuşacam. Burada olmaq, həyatmın bir hissəsini həbsxanada keçirmək heç kimin arzusu deyil. Çalışacam bundan sonra bir daha məhkumluq həyatı yaşamayım.

Azadlığa buraxılan Qalib Əsədzadənin bacısı Sədaqət Rüstəmova da sevinc içində idi:

- Qardaşım da amnistiyaya düşənlər arasındadır. Amnistiya barədə Milli Məclisdə qərarın qəbulunu eşidəndə qardaşımın da azadlığa çıxmasını arzuladım.

Təsəvvür edin, indi mən bir bacı kimi necə sevinirəm, həyəcanlanıram.

Mehriban xanım Əliyevaya ailəmiz adından minnətdarlıq edirik. Onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu həqiqətən də ümummilli liderin adına layiq işləri ilə insanların məhəbbətini qazanıb. Kimin problemi varsa, Mehriban xanım Əliyeva onun həllinə çalışır. Hər gun qəzetlərdən, televiziya ekranlarından Heydər Əliyev Fondunun Azərbaycanın müxtəlif yerlərində həyata keçirdiyi layihələrlə tanış oluruq. Bütün bunlar bir Azərbaycan vətəndaşı olaraq məni də sevindirir. Bu gün isə Heydər Əliyev Fondu bizim ailəmizə sevinc nuru ələdi.

Qardaşımız amnistiyaya düşərək cəzasının yerdə qalan hissəsindən azad edildi.

**Rəşad Cəfərli,**
"Azərbaycan"

# HEYDƏR ƏLİYEV FONDUNDA RUSİYANIN "PUŞKİN KİTABXANASİ" FONDUNDAN KİTABLARIN HƏDİYYƏ EDİLMƏSİ MƏRASİMİ

Heydər Əliyev Fondunda Rusiyanın "Puşkin kitabxanası" Fondundan kitabların hədiyyə edilməsi mərasimi keçirilmişdir. Mərasimi Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva mərasimi açdı. Sonra "Puşkinskaya biblioteka" Fondunun baş direktoru Mariya Vedenyapina səmimi sözlərə görə Mehriban xanım Əliyevaya təşəkkür edərək dedi: - Mən həqiqətən hesab edirəm ki, kitab ən yaxşı hədiyyədir, çünki "Puşkinskaya biblioteka" Fondu, ilk növbədə, kitablar və kitabxanalarla işləyir. İkincisi, demək istərdim ki, ölkələr arasında münasibətlərdə kitab ən xeyirxah və etibarlı səfirdir. Ona görə mənə çox xoşdur ki, məhz bugünkü hadisə - "Puşkinskaya biblioteka" Fondunun Heydər Əliyev Fonduna kitablar hədiyyə etməsi Azərbaycanda Rusiya ilinin açılışının başlanğıcı olacaqdır. Həqiqətən hesab edirəm ki, ən başlıcası, ən vacibi və faydalısı bir-birimizə olan marağı itirməməkdir. Əgər bu meyar varsa, əgər tələbələrə və müəllimlərə rus dilində ədəbiyyat lazımdırsa, biz onlara həvəslə kömək edirik. Əslində bu, yardım deyil, birgə layihədir. Mən "Puşkinskaya biblioteka" Fondu haqqında bir neçə kəlmə demək istərdim, çünki burada məndən soruşurlar ki, Sankt-Peterburqdakı Puşkin evinə bizim hansı aidiyyətimiz var. Biz Puşkin evi deyilik, baxmayaraq ki, onunla çox yaxşı və sıx əməkdaşlıq edirik. "Puşkinskaya biblioteka" Fondunun əsas qayğısı kəndlərdəki, məktəblərdəki kiçik kitabxanalarından başlayaraq, federal və ali məktəb kitabxanalarınadək Rusiya kitabxanalarıdır. Biz fondları komplektləşdirir, həm universitet kitabxanaları, həm də kütləvi kitabxanalar üçün müxtəlif tipli kataloqlar buraxırıq. Eyni zamanda, kitabxana işinin dəstəklənməsinə yönəldilmiş müxtəlif sosial layihələr həyata keçiririk, bu isə mahiyyət etibarilə elmin, təhsilin, mədəniyyətin dəstəklənməsi deməkdir. Odur ki, biz artıq federal hökumət tərəfindən də dəstəklənən ayrıca

böyük layihə həyata keçiririk. Bu, "Kənd kitabxanaları" layihəsidir. Cari ildən həqiqətən böyük problemləri olan məktəb kitabxanalarının komplektləşdirilməsinin yenidən qurulmasına dair təzə layihənin gerçəkləşdirilməsinə başlamışıq. Doğrudan da, əvvəllər deyirdik ki, biz ən çox mütaliə edən millətik, kitab ən yaxşı hədiyyədir. Ancaq hazırda, yeni informasiya texnologiyalarının dünyanı fəth etdiyi dövrdə, təəssüf ki, kitab nüfuzunu itirir. Başqa bir proqramımız-mütaliənin dəstəklənməsinə və genişləndirilməsinə yönəldilmiş "Mütaliə edən Rusiya" proqramıdır. Biz bunu əsas layihəmiz sayırıq, çünki, həqiqətən, kitabsız savadlı nəsil tərbiyə etmək olmaz. Ona görə də çox ümid edirəm ki, bugünkü tədbir ölkələrimizin rifahı naminə, başlıcası isə, uşaqlarımızın həqiqətən savadlı, mədəni böyüməsi və bizim onlarla fəxr edə bilməyimiz naminə əməkdaşlığın möhkəm bünövrəsini qoyacaqdır. Mərasimdə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun kafedra müdiri, professor Tatyana Alekseyeva da çıxış etdi. Rusiya alimi dedi: - İndiki halda, mən, görünür, kitab istehlakçısıyam, belə ki, ilk növbədə, elmi, pedaqoji cəmiyyəti təmsil edirəm. Ona görə mən də bozi mülahizələrimi sizinlə bölüşmək istərdim. Deyildiyi kimi, bu sərgidə 800-dən çox dərslik nümayiş etdirilir. Mən bunu bir daha vurğulamaq istərdim, çünki bu rəqəm özlüyündə çox təsirli olsa da, müəllimlərin, elmi işçilərin daim qarşılaşdıqları bəzi məsələlər barədə düşünməyə vadar edir. 800 dərslik çoxdur, yoxsa azdır? Ümumiyyətlə, bu cür ədəbiyyatı nəşr etmək vəzifəsinin yerinə yetirildiyini, həm müəllimlərin, həm də tələbələrin xarici elmin və vətən elminin ən yeni ixtira və kəşflərinə yolunun açıldığını söyləmək üçün nə qədər dərslik lazımdır? Bu, olduqca aktual məsələdir. Son 2-3 ildə elmi ictimaiyyətdə, Rusiyada bu mövzuda çox ciddi diskussiyalar gedir: yeni nəsil üçün dərslik nədən ibarətdir, o, necə olmalıdır, nə qədər, hansı fənlər üzrə dərslik olmalıdır. Ümumiyyətlə, kifayət qədər ciddi problem də var ki, universitetdə dərslik lazımdırmı? Universitet təhsili əzəldən onu nəzərdə tutmuşdur ki, tələbə lap əvvəldən orijinal mətnlərlə, orijinal əsərlərlə tanış olmalıdır. İndiki halda mən humanitar sahədən danışıram. Ola bilsin, burada heç bir dərslik gərək deyildir. Bu, heç də sadə bir məsələ deyil və həqiqətən, ciddi fikir ayrılıqlarına səbəb olur. Son nəticədə bizim elmi ictimaiyyətimiz, - hər halda Moskvadakı, - razılaşdı ki, dərsliklərin və dərs vəsaitlərinin hansısa faizi lazımdır. Bu dərsliklərin kimə lazım olması, onların tələbələrə, yoxsa, ilk növbədə, müəllimlərə lazım olması isə baş-

qa məsələdir. Həm bu, həm də digər nöqteyi-nəzərin öz tərəfdarları və əleyhdarları var. Tələbələrə gəldikdə isə, düşünürəm ki, burada hər şey aydındır. Müəyyən xətt var, baza bilikləri olmalıdır, tələbələr imtahanları uğurla vermək üçün hansısa kitaba əsaslanmalıdırlar. Müəllimlərə gəldikdə isə, burada vəziyyət bir qədər mürəkkəbdir. Humanitar sahənin mütəxəssisləri çox yaxşı bilirlər ki, biz XX yüzilliyin böyük hissəsini bada vermişik - ilk növbədə, xaricdə yaranan elmi məktəblərlə, XX əsrin dəyərləri sayılan böyük əsərlərlə tanış olmaq imkammız yox idi. Müəllim heyətinin əksəriyyəti onlarla 1990-cı illərin əvvəllərində tanış olmağa başlamışdır. Mənim sahəmə gəldikdə isə, bıırada tezliklə üzə çıxan kifayət qədər ciddi problemlər var. Məsələn, məlum olmuşdur ki, siyasi nəzəriyyədən, siyasi elmlərdən dərs deyən müəllimlərin yalnız 0,2 faizi xarici dilləri hansısa mətni orijinaldan oxuya biləcək səviyyədə bilir. Mən hələ təhlildən danışmıram. Bu, 1990-cı illərin məlumatıdır. Başqa sözlə, müəllim heyəti qarşısında humanitar sahədə nəhəng dünya təcrübəsini qısa müddətdə mənimsəmək kimi çox ciddi problem dururdu. Nə qədər kədərli olsa da, onların əksəriyyəti özü öyrənənlər idi. Axı, hamı yaşa dolmuş, formalaşmış insanlardır və onlar tələbələrlə birlikdə parta arxasında əyləşərək, bu böyük ədəbiyyat axınını mənimsəməyə başlamalı idilər. Bu zaman fəal surətdə tərcümələrlə məşğul olmağa başlayan Rusiyanın nəşriyyat korpusu böyük kömək göstərdi. Biz yaxşı başa düşürük ki, bu tərcümələr, onların tirajları azdır, bu kitablara ehtiyacı olan adamlara çatmır. İndi yeni nəsil dərsliklər problemi yaranır. Onlar bir tərəfdən, sovet tədris-təhsil sistemində olan nailiyyətlərini itirməməli, digər tərəfdən isə, bizim tanış ola bilmədiyimiz ən yeni kəşflərlə tamamlanmalıdır. Düşünürəm ki, bu işdə "Puşkinskaya biblioteka" kimi fondların əhəmiyyəti olduqca böyükdür. Dərslik naşirləri qarşısında çox ciddi problem durur - ənənələri, mövcud bilik və bacarığı qoruyub saxlamaq şərti ilə, müasir, habelə xarici ictimai-siyasi təfəkkürün bizə təklif etdiklərinə tənqidi yanaşmaq. Məncə, burada təqdim olunan dərsliklərin bir hissəsi bu ciddi fikir ayrılığını, ciddi dilemmnanı həll etmək cəhdidir. Bunun nə dərəcədə uğurla həyata keçiriləcəyini isə bu kitablarla işləyənlər deyə biləcəklər. Demək istəyirəm ki, belə kitablar çox olmalıdır, onlar müəllimlərin masasının üstündə olmalıdır. Belə kitablar çox olduqca, biz müqayisəli təhlil aparır və ümumi məqsədimiz olan yeni, bizdən daha savadlı nəsil yetişdirmək kimi nəticə əldə edirik.

**Mərasimi giriş nitqi ilə fondun prezidenti,
YUNESKO-nun xoşməramlı səfiri,
Milli Məclisin deputatı Mehriban ƏLİYEVA açaraq demişdir:**

- Mən bizim növbəti tədbirimizdə sizin hər birinizi görməkdən çox şadam. Bu gün biz sizi gözəl bir kitab sərgisinə dəvət etmişik. Amma adi sərgidən fərqli olaraq bizim sərgimizdəki bütün bu kitablar Heydər Əliyev Fondu tərəfindən ölkəmizin ali məktəblərinə hədiyyə kimi təqdim ediləcəkdir.

Bildiyiniz kimi Heydər Əliyev Fondu təhsil sahəsində ardıcıl olaraq irimiqyaslı layihələr həyata keçirir. Bütün ölkədə böyük rəğbətlə qarşılanan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramının artıq ikinci mərhələsi başlayıbdır. Ötən il bu proqram çərçivəsində Heydər Əliyev Fondunun təşəbbüsü ilə ölkəmizdə 100, 200 və 240 yerlik 132 məktəb tikilib istifadəyə verilibdir. Bu il artıq 50-yə yaxın məktəbin inşasına başlanılmışdır. Yeni tədris ilinin başlanmasına qədər bu məktəblərin hamısı ən müasir avadanlıqla təchiz olunub qapılarını şagirdlərin üzünə açacaqdır.

Digər bir layihə - internat məktəblərinin inkişafı proqramı 2003-cü ildə 268 nömrəli məktəbin təmiri ilə başlanıbdır. O zamandan indiyə qədər ölkəmizdə 23 internat məktəbində əsaslı təmir aparılmışdır. İndi biz deyə bilərik ki, belə xüsıısi internat məktəblərində maddi-texniki baza ilə bağlı problemlərin əksəriyyəti aradan qaldırılmışdır.

Bugünkü tədbirimizi də təhsil sahəsində böyük bir proqramın başlanğıcı kimi qiymətləndirmək olar. Sərgimizdə 4 mindən artıq kitab nümayiş olunur, onların əksəriyyəti dərsliklərdir. Bu kitabları bir neçə qrupa bölmək olar. Kitabların bir qrupu rusca nəşr olunmuş riyaziyyat, fizika, kimya, biologiya, fəlsəfə, hüquq, tarix və psixologiya, sosiologiya və xarici dillərə aid olan dərsliklərdir.

İkinci bir qrup xarici dillərdən rus dilinə tərcümə edilən kitablardır. Bunlar müasir xarici üslubda nəşr olunmuşdur.

Kitabların böyük bir qismi tibb elmlərinə aiddir. Burada həm fəaliyyət göstərən həkimlərə, həm də Tibb Universitetinin tələbələrinə ünvanlanan nəşrlər vardır.

Nəhayət, uşaqlara aid olan və xüsusi məktəblər üçün dərsliklərdir.

Bütün bu kitablar bu gün ölkəmizin 14 təhsil ocağının kitabxanalarına

bağışlanacaqdır.

Hesab edirəm ki, bu, bizim proqramımızın yalnız bir mərhələsidir. Hazırda Azərbaycanda ali təhsil məktəblərinin təhsil proqramında istifadə olunan dərsliklərin təhlili göstərir ki, onların əksəriyyəti sovet dövründə çap edilib və əlbəttə ki, çoxu köhnəlib və müasir tələblərə cavab vermir. Əgər biz bu gün təhsildə islahatlar haqqında danışırıqsa, öz tələbələrimizin ən qabaqcıl ölkələrin təhsil sisteminə inteqrasiya olunmalarını istəyirik. Ona görə də Heydər Əliyev Fondu təklif edir ki, təqdim olunan kitabların bizim təhsil proqramına uyğunluğu ali məktəblərdə araşdırılsın, təhlillər aparılsın, onlar Azərbaycan dilinə tərcümə edilərək çap olunsun.

Aydındır ki, elə kitablar var, onlar milli zəmində hazırlanmalıdır və bu, ilk növbədə, humanitar, ictimai elmlər sahəsinə aiddir. Azərbaycan dili, ədəbiyyatı tarixinə dair kitablar əlbəttə ki, yalnız Azərbaycanda yazılmalı və çap olunmalıdır.

Eyni zamanda hesab edirəm ki, digər elmlərə aid olan fızika, kimya və biologiyaya aid dərsliklərin Azərbaycan dilinə tərcümə olımub kütləvi tirajla nəşr edilmesi bu gün ali məktəblərdə təhsil alan tələbələrimizə böyük dəstək ola bilər.

Bu məsələnin həllində Heydər Əliyev Fondu respublikamızın bütün ali məktəblərinin müəllimləri, alimləri ilə əməkdaşlığa, həm kitabların tərcüməsində, həm də çapında böyük dəstək göstərməyə hazırdır. Heydər Əliyev Fondu xüsusi məktəblərə aid olan dərslikləri, fiziki və əqli cəhətdən problemləri olan uşaqlar üçün dərsliklərin tərcüməsi və çapını öz öhdəsinə götürür və inanıram ki, yaxın gələcəkdə ölkəmizdə olan bütün xüsusi internat məktəbləri ən müasir dərsliklərlə təmin ediləcəkdir.

Sonda mən vurğulamaq istərdim ki, bu gün nümayiş olunan kitablar hamısı Rusiya təhsil sisteminə aiddir, amma yaxın gələcəkdə, bu ilin sonuna kimi Heydər Əliyev Fondu ingilis, alman, fransız dilində nəşr olunan dərsliklərin sərgisini keçirəcək və sonra bunlar yenə də bizim alimlərimizin, ekspertlərimizin ixtiyarına veriləcəkdir.

Sonda mən kitablar təqdim olunan ali məktəblərin siyahısı ilə sizi tanış etmək istərdim: Bakı Dövlət Universiteti, Azərbaycan Tibb Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti,

Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Dövlət Pedaqoji universiteti, Azərbaycan Dillər Universiteti, Azərbaycan Dövlət Bədən Fərbiyəsi və İdman Akademiyası, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Mədəniyyət və İncəsənət universiteti, Azərbaycan Rəssamlıq Akademiyası, Bakı Slavyan Universiteti, Turizm Akademiyası.

Beləliklə, Heydər Əliyev Fondu bütün bu ali məktəblərlə əməkdaşlığa başlayır və mən inanıram ki, bu əməkdaşlıq uğurlu olacaqdır.

* * *

**AMEA-nın prezidenti**
**Mahmud Kərimovun çıxışı:**

- İlk növbədə, fürsətdən istifadə edərək, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanı "2005-ci ilin adamı" elan olunması münasibətilə təbrik etmək istərdim. Lap bu günlərdə ictimaiyyətə Heydər Əliyev Fondunun fəaliyyəti haqqında hesabat təqdim edildi. Biz Fondım gördüyü çox böyük işlər, nəcib xeyriyyəçilik fəaliyyəti, təhsilə, səhiyyəyə dəstəyi, uşaq evlərinə yardımı barədə bir daha məlumat aldıq. Bu, həqiqətən, böyük işdir və biz onu yüksək qiymətləndiririk. İndi yenə də Heydər Əliyev Fondu tərəfindən təşkil olunmuş tədbirə toplaşmışıq. Bu da çox əlamətdar hadisədir, "Puşkin kitabxanası" Fondunun hədiyyə etdiyi kitabların bizə belə gözəl kolleksiyası təqdim olunmuşdur. Bu hədiyyənin bizim üçün dəyərini lazımınca qiymətləndirmək çətindir. Azərbaycam və Rusiyanı iki yüzillik birgə tarix, bütün sahələrdə - iqtisadiyyat, mədəniyyət, elm və təhsildə ən sıx dostluq əlaqələri birləşdirir. Sirr deyil ki, Azərbaycan xalqı dünya və Avropa ədəbiyyatına rus mədəniyyəti vasitəsilə qovuşmuşdur. Əlbəttə, biz onu da bilirik ki, ümumi mənəvi dəyərlərin formalaşmasına Puşkin, Dostoyevski, Tolstoy, Qoqol ilə yanaşı, Nizami, Nəsimi, Füzuli, Mirzə Fətəli Axundov da çox böyük təsir göstərmişlər. Bu ənənələr indi də davam etdirilir, əlaqələrimiz bu gün də uğurla inkişaf edir. Bu kitabların indiki təqdimatı buna misal ola bilər. Biz bu hədiyyəni Heydər Əliyevin xatirəsinə ehtiram, Azərbaycan xalqına, onun mədəniyyətinə hörmət kimi dəyərləndiririk. Həqiqətən, bu gün elektron-informasiya vasitələri həyatımızın bütün sahələrinə tətbiq edilsə də, zənnimcə, kitab öz əhəmiyyətini itirməyib və necə deyərlər, bilik mənbəyi, ən

yaxın adamın sənə edə biləcəyi ən əziz hədiyyə olaraq qalmaqdadır. Azərbaycanda kitabı həmişə yüksək qiymətləndirmişlər. AMEA-nın prezidenti xatırlatdı ki, Azərbaycan dövlətinin başçısı İlham Əliyev 2003-cü ildə İsveçrədə keçirilmiş informasiya cəmiyyətinə dair dünya zirvə toplantısında belə bir məqsəd irəli sürmüşdür: neftin dəyərini insani dəyərə çevirək. İsveçrədən qayıtdıqdan dərhal sonra latın qrafikası ilə kitabların kütləvi nəşri haqqında Fərman imzaladı. Bu sahədə iş görülür, artıq hərəsi 25 min nüsxə ilə yüzlərlə kitab nəşr edilmişdir. Bu kitablar respublika və məktəb kitabxanalarına hədiyyə olunur. M.Kərimov vurğuladı ki, bu gün, ərazimizin 20 faizinin işğal altında olduğu, mindən çox kitabxananın yandırıldığı, milyonlarla kitabın məhv edildiyi bir vaxtda "Puşkinskaya biblioteka" Fondunun hədiyyəsi xüsusilə qiymətli və əhəmiyyətlidir. O, Azərbaycana verilən belə qiymətli hədiyyəyə görə fondun rəhbərliyinə və kollektivinə, habelə bu tədbirin baş tutmasında böyük xidməti olan Mehriban xanım başda olmaqla Heydər Əliyev Fondununun kollektivinə təşəkkürünü bildirdi. AMEA-nın prezidenti dedi ki, bu kitablar öz sahibini tapmışdır. Çünki onların hədiyyə edildiyi kollektiv öz mədəniyyətinə, mənəvi dəyərlərinə diqqət və qayğı ilə yanaşır. Buna görə də kitabların qiymətini bilir və onlardan düzgün istifadə etməyi bacarır. Arzu edirəm ki, bu təşəbbüs dəstəklənsin, inkişaf etdirilsin və bu, sonuncu hədiyyə olmasın. Mehriban xanım Əliyeva hədiyyə olunan kitablara baxdı və qonaqları da Heydər Əliyev Fondunun fəaliyyətə başladığı dövrdən nəşr etdirdiyi kitablarla tanış etdi. Mərasimdə ölkəmizin tanınmış alimləri, incəsənət və mədəniyyət xadimləri, Milli Məclisin deputatları iştirak edirdilər.

* * *

Heydər Əliyev Fondu respublikamızın ali məktəblərinə müxtəlif elm sahələrinə aid Rusiyada yüksək poliqrafik səviyyədə çap olunmuş 4 mindən çox kitab hədiyyə etmişdir.

Bu münasibətlə keçirilən təqdimat mərasimində respublikamızın elm, mədəniyyət, təhsil işçiləri, tanınmış alim və ziyalıları iştirak etmişlər.

**Bakı Dövlət Universitetinin rektoru,**
**AMEA-nın müxbir üzvü, Milli Məclisin deputatı Abel Məhərrəmov**

bu tədbirin Azərbaycan təhsili, elmi üçün çox əlamətdar olduğunu vurğulayaraq 4 mindən artıq kitabın ölkə ali məktəblərinə təqdimatını ümummilli lider, ulu öndər Heydər Əliyevin vəsiyyətlərinə böyük ehtiramın sübutu kimi səciyyələndirmişdir.

Heydər Əliyev Fondunun təhsil və mədəniyyətimizin inkişafına mühüm töhfələr verdiyini bildirən rektor Rusiyanın tanınmış alimlərinin yazdıqları elmi-nəzəri əsərlərin, dərsliklərin Azərbaycana gətirilib təmənnasız olaraq ali məktəblərə paylanılmasının bu baxımdan əhəmiyyətini vurğulamışdır. Bakı Dövlət Universitetinə 794 adda mindən çox kitab ayrıldığını bildirən A.Məhərrəmov demişdir ki, universitetin 16 fakültəsində 43 istiqamət üzrə təhsil alan 17 mindən çox tələbə, habelə 1500-ə yaxın müəllim bu əsərlərdən bəhrələnə biləcəkdir.

Rektor vurğulamışdır ki, Heydər Əliyev Fondu yaranarkən çoxlarında belə təsəvvür vardı ki, dünyada olan oxşar qurumlar kimi, o da çox da mürəkkəb olmayan missiyanı həyata keçirəcəkdir. Ancaq qısa müddət keçəndən sonra hamı gördü ki, bu fond qarşısına genişmiqyaslı vəzifələr qoymuşdur və onları yerinə yetirməkdə israrlıdır. Fond artıq özü də bir elmi mərkəzə çevrilməkdədir.

Qloballaşma dövründə, informasiya cəmiyyətinin bərqərar olduğu müasir internet əsrində digər ölkələrlə elmi-mədəni əməkdaşlığın, ümumbəşəri nailiyyətlərin öyrənilməsinin əhəmiyyətini xatırladan rektor, hələ əksər dərsliklərimizin latın qrafikası ilə çap edilmədiyi bir şəraitdə fondun hədiyyə etdiyi kitabların tədris prosesinin keyfiyyətinin yaxşılaşmasına mühüm kömək olacağını bildirmişdir.

A.Məhərrəmov Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizin sosial-iqtisadi inkişafı, milli dövlət müstəqilliyimizin möhkəmlənməsi sahəsində gərgin fəaliyyətinin təbliğində ziyalıların, təhsil işçilərinin öhdəsinə düşən vəzifələrdən də danışmış, elm və təhsilə qayğısına görə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya universitetin çoxminlik kollektivinin minnətdarlığını çatdırmışdır.

**Milli Məclisin Elm və təhsil məsələləri daimi komissiyasının sədri, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Şəmsəddin Hacıyev**

Heydər Əliyev Fondunun ölkəmizin sosial-iqtisadi inkişafının ən mühüm prioritetlərindən biri kimi müəyyən edilmiş təhsil sahəsinin inkişafına xüsusi diqqət və qayğı ilə yanaşdığını və bu istiqamətdə çox əhəmiyyətli tədbirlər həyata keçirdiyini konkret faktlarla xatırlatmış, görülən işlərin elm və təhsil işçiləri tərəfindən böyük razılıqla qarşılandığını bildirmişdir. Rektor fondun elm, təhsil, səhiyyə, mədəniyyət, incəsənət sahəsində, eləcə də milli-mənəvi dəyərlərimizin qorunub saxlanması və təbliği, xüsusilə Dağlıq Qarabağ həqiqətlərinin bütün dünyaya çatdırılması istiqamətində fəaliyyəti ilə cəmiyyətdə böyük nüfuz qazandığını vurğulamışdır.

O demişdir ki, fond son bir ildə Azərbaycan Dövlət İqtisad Universiteti ilə də bir neçə uğurlu layihənin həyata keçirilməsində yaxından iştirak etmişdir. "Heydər Əliyev iqtisadi irsinin öyrənilməsi Mərkəzinin" yaradılması və müasir informasiya-kommunikasiya vasitələrindən geniş istifadə etməklə virtual sistemlərə və proqram təminatına əsaslanan 20-dən çox elmi-metodik tədris laboratoriyasının qurulması xüsusilə əhəmiyyətlidir.

Ali təhsilin maddi-texniki bazasının möhkəmlənməsi, dünya təhsil sisteminə inteqrasiya, müasir tələblərə cavab verən müvafiq qanunvericilik aktlarının qəbul edilməsi sahəsindəki uğurları xatırladan Ş.Hacıyev təhsilin bütün pillələrində müasir dərsliklər və dərs vəsaitləri ilə təminatın mühüm yer tutduğunu, bu problemin iqtisadyönümlü ixtisaslarda özünü daha aydın şəkildə büruzə verdiyini bildirmişdir. Rektor fondun universitetə 300-ə qədər dərsliyi hədiyyə etməsini yüksək qiymətləndirmişdir. Bildirilmişdir ki, bu kitablar bir tərəfdən, iqtisadiyyatın, demək olar, bütün sahələrini (dünya iqtisadiyyatı, makro və mikro iqtisadiyyat, maliyyə, bank işi, menecment, marketinq, idarəetmə, mühasibat uçotu, audit, laborator analizləri) əhatə edir, digər tərəfdən, bu dərsliklərin əksəriyyətinin dünyanın və Avropanın ən məşhur unversitetlərinin kafedraları, alimləri tərəfindən yazılmışdır.

Ş.Hacıyev bu əvəzsiz hədiyyəyə görə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya 18 min nəfərlik müəllim və tələbə kollektivi adından minnətdarlıq etmişdir.

**Sonra çıxış edən Azərbaycan**
**Dövlət Pedaqoji Kollecinin direktoru**
**Nurlanə Əliyeva**

demişdir ki, ulu öndər Heydər Əliyevin adını daşıyan bu müqəddəs yerdə təhsilimiz, elmimiz və mədəniyyətimiz üçün mühüm əhəmiyyəti olan tədbirlər müntəzəm keçirilir. O millət, xalq, ölkə inkişaf edir ki, orada dövlət elmin, təhsilin inkişafına qayğı ilə yanaşır. Bu cəhətdən xalqımız, pedaqoji ictimaiyyətimiz nikbindir. Çünki ölməz Heydər Əliyevin təhsildə apardığı islahatlar hazırda onun layiqli varisi İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

İndiki mərasimin də belə qayğının əyani təzahürü olduğunu söyləyən N.Əliyeva görkəmli Azərbaycan yazıçı və pedaqoqu Mircəlal Paşayevin "Bir gəncin manifesti" əsərində azərbaycanlı uşaqların vəziyyətini bütün ağrı-acısı ilə qələmə alan müəllifin "Bahar, mələr quzum, indi sən haradasan..." sözlərini xatırladaraq, XXI əsrin əvvəllərində onun nəvəsi Mehriban xanımın uşaqların səsinə əməli işləri ilə səs verdiyini vurğulamış, onun valideyn himayəsindən məhrum olan uşaqların təhsili və tərbiyəsinə verdiyi töhfələri yada salmışdır.

"Yeniləşən Azərbaycana yeni məktəb" proqramının, eləcə də digər layihələrin cəmiyyətdə yüksək razılıqla qarşılandığını bildirən N.Əliyeva fəal həyat mövqeyinə malik gənc nəslin yetişməsində dərsliklərin rolundan, ibtidai təhsilin əhəmiyyətindən, müsbət ənənələri ilə tanınan kollecdə bu sahədə görülən işlərdən də danışmışdır. Eyni zamanda problemlərdən də söhbət açmış, onların aradan qaldırılması üçün öz təkliflərini söyləmiş, həmin problemlərin həllinə Heydər Əliyev Fondunun yardımçı olacağına əminliyini vurğulamışdır.

Rus dilində nəşr olunmuş, elmi-texniki tərəqqinin son nailiyyətlərini əks etdirən dərsliklərin və elmi-kütləvi ədəbiyyatın ali məktəblərə təqdim edilməsinin mühüm hadisə olduğunu vurğulayan

**Azərbaycan Tibb Universitetinin rektoru,**
**akademik Əhliman Əmiraslanov**

demişdir ki, hazırda Azərbaycanda çox böyük inkişaf var. Bu inkişaf bütün sahələri, o cümlədən elm və təhsil sahəsini də əhatə edir. Ulu öndər Heydər Əliyevin təhsilə, elmə, mədəniyyətə, səhiyyəyə göstərdiyi diqqət və qayğının bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən davam etdirildiyini deyən rektor

indiki tədbirin də məhz bunun nəticəsi olduğunu söyləmişdir.

Tibb Universitetinin tələbələri, elmi işçiləri üçün xeyli sayda dərsliklərin, kitabların da ayrıldığını bildirən Ə.Əmiraslanov bu nəşrlərin çox böyük üstünlükləri olduğunu, Rusiyanm nüfuzlu alimləri tərəfindən yazıldığını xatırlatmışdır. Universitetdə kitabxananın əsasının uzun illər bu təhsil ocağına rəhbərlik etmiş böyük alim və ictimai xadim Əziz Əliyev tərəfindən qoyulduğunu, hazırda kitab fondunun 1 milyon nüsxəyə çatdığını xatırladan rektor bildirmişdir ki, hər il latın qrafıkası ilə təxminən 50 dərslik çap edilir. Bu dərsliklər öz mütəxəssislərimiz tərəfindən yazılmışdır. İndi hədiyyə olunan dərsliklər isə xüsusilə rus bölməsində oxuyan tələbələr, habelə müəllimlər, elmi-tədqiqat işi ilə məşğul olan magistrlər üçün çox faydalı olacaqdır.

Akademik Ə.Əmiraslanov belə dəyərli nəşrlərin alınıb gətirilməsinə və ali təhsil müəssisələrinə hədiyyə olunmasına görə Heydər Əliyev Fondunun Prezidenli Mehriban xanım Əliyevaya universitetin kollektivi adından dərin təşəkkürünü bildirmişdir.

**Çıxışına Mehriban xanım Əliyevaya təşəkkürlə başlayan Bakı Slavyan Universitetinin rektoru, professor Kamal Abdullayev**

Slavyan Universitetinə təqdim olunan kitabların təhsil ocağının həyatında, tələbələrin, müəllimlərin fəaliyyətində yeni canlanma yaradacağını, çox böyük razılıqla qarşılanacağını vurğulamışdır. Slavyan Universitetinə təqdim olunan kitabların, başqa universitetlərə verilən əsərlərdən həm də informasiyaların zənginliyi ilə fərqləndiyini bildirən rektor demişdir ki, həmin əsərlərin müəlliflərinin bir çoxu ilə universitet sıx əlaqə saxlayır və Rusiyadakı bir sıra ali məktəblərin kitabxanaları ilə də birbaşa təmaslar yaradılmışdır. Bu da təbiidir çünki hazırkı informasiya cəmiyyətində də dünyada kitab vasitəsilə ünsiyyət yenə öz əhəmiyyətini, etibarlılığını qoruyub saxlayır.

Rəhbərlik etdiyi universitetdə dünya klassiklərinin əsərlərinin birbaşa tərcümə edilib nəşr olunması üçün görülən işlərdən danışan K.Abdullayev bu təşəbbüslərin bir sıra xarici ölkələrdə də böyük maraqla qarşılandığını bildirmişdir.

Bu gün kitab bayramıdır, - deyən rektor Heydər Əliyev Fondunun prezidenti

Mehriban xanım Əliyevanm digər sahələrdə olduğu kimi, kitabın təbliği sahəsindəki fəaliyyətinin də cəmiyyət tərəfindən yüksək qiymətləndiriləcəyinə əminliyini söyləmiş, dünyanın bir çox ölkələrində hazırda azərbaycanşünaslığa böyük diqqət yetirildiyini xatırlatmış, bununla bağlı qarşıda duran vəzifələrdən də danışmışdır.

Xeyriyyəçilik fəaliyyəti, mərhəmətliliyi, alicənablığı ilə örnək olan Azərbaycanın birinci xanımının fəaliyyətinin insanlarda Heydər Əliyev ideyalarının ölməzliyinə inam da yaratdığını bildirən rektor K.Abdullayev dahi şəxsiyyətin siyasi xəttinin onun övladı, Prezident İlham Əliyev tərəfindən böyük ləyaqətlə, gəlini Mehriban xanım tərəfindən məhəbbətlə davam etdirilməsinin mənəvi əhəmiyyətini vurğulamışdır.

K.Abdullayev dəyərli hədiyyəyə görə fondun prezidenti Mehriban xanım Əliyevaya minnətdarlıq etmişdir.

**Səhiyyə naziri Oqtay Şirəliyev**

dahi şəxsiyyət Heydər Əliyevin adını daşıyan fondun konkret insanların, əhalinin problemləri ilə bağlı real işlər gördüyünü vurğulayaraq demişdir ki, bu fəaliyyət sahələrindən biri də səhiyyə və təhsildir. "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı doğrudan da misilsiz bir layihədir. Bu, əvvəlcə bir çoxları üçün inandırıcı görünmürdü. Ancaq bu işlər layihə ilə bağlı doğrudan da, ən yüksək səviyyədə təşkil olundu, məktəblər qısa müddətdə tikildi və üstəlik, avadanlıqla, kompüterlərlə də təmin edildi.

Səhiyyə sahəsində fondun gördüyü işləri xatırladan nazir, şəkərli diabeti olan uşaqlara çox böyük yardımların edilməsini, irsi qan xəstəlikləri olan insanların müalicəsi üçün görülən tədbirləri, hazırda Bakı şəhərində talassemiya mərkəzinin inşasını xüsusi vurğulamışdır. Nazir fondun təşəbbüsü ilə bu yaxınlarda Bakı şəhərində qədim tibb əlyazmaları ilə bağlı beynəlxalq konfransın keçirildiyini, Azərbaycanda saxlanılan üç əlyazmanın YUNESKO-nun Dünya Yaddaşı Proqramının registrinə salınmasını mühüm hadisə kimi səciyyələndirmiş, bir müddət əvvəl Parisdə qeyri-maddi mədəni irsin qorunması ilə bağlı komissiyanınBaş Assambleyasında Mehriban xanımın hər bir ölkənin müxtəlif sahədə topladığı təcrübədən, səriştədən istifadə etmək haqqında irəli sürdüyü fikirləri yüksək qiymətləndirmişdir.

O.Şirəliyev təhsil ocaqlarına hədiyyə olunan kitablara, xüsusən tibbə dair ədəbiyyata görə Mehriban xanım Əliyevaya çoxminlik səhiyyə işçilərinin minnətdarlığını çatdırmışdır.

Mehriban xanım Əliyeva mərasimə yekun vuraraq demişdir: Mən tədbirdə iştirak və çıxış edən bütün alimlərimizə və müəllimlərimizə öz dərin minnətdarlığımı bildirmək istəyirəm. İnanıram ki, bu gün təməlini qoyduğumuz böyük bir proqram Azərbaycan təhsilinin inkişafına mühüm töhfə olacaqdır.

Sizə cansağlığı və uğurlar arzulayıram.

Sonra Mehriban xanım mərasimdə iştirak edən elm xadimləri, təhsil işçiləri ilə söhbət etmiş, onlarla birlikdə hər bir təhsil müəssisəsi üçün ayrılmış kitablara baxmışdır.

**AzərTAC**

## QIZIL ÜRƏKLİ İNSAN

Həyatda hər bir kəsin yerini və taleyini
tarix müəyyən edir. Odur ki, nə böyük,
nə də kiçik rollar olur. Öz həyat kitabını
yazmağa ancaq sənin şəxsi, dərk edilmiş
məsuliyyətin imkan verir.

**Mehriban ƏLİYEVA**

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın çıxışlarının birində söylədiyi yuxarıdakı hikmətli ifadələr həqiqətdir, hər bir kəsin öz həyatını qurmaq, cəmiyyətdə layiq olduğu yeri tutmaq üçün sanki geniş bir layihədir, proqramdır. Məsuliyyət hissini dərk edən şəxs xeyirxahlığı, qayğıkeşliyi, qurub-yaratmağı, əsl vətəndaş olmağı fəaliyyətinin əsas istiqaməti sayır.

Dövlətimiz, xalqımız qarşısında məsuliyyətini çox yaxşı başa düşən Mehriban xanım Əliyeva özü dediyi kimi, öz həyat kitabını xeyirxah işləri, səmərəli fəaliyyəti, əzmkarlığı, işgüzarlığı, yüksək ideyalarını həyata keçirməklə yazmışdır. Böyükdən tutmuş kiçiklərədək bütün insanların qəlbində xeyirxahlıq, nəciblik təcəssümü, qurucu insan, yenilik tərəfdarı kimi yer tutan bu ziyalı qadının fəaliyyət dairəsini, gördükləri işlərin, xeyirxahlıq missiyasının miqyasını sadalamaqla qurtaran deyil. Mehriban xanım Əliyevanın yaradıcılığı barədə düşünəndə adam bilmir ki, onun ölkə daxilində elm, təhsil, səhiyyə, humanitar məsələlər sahəsində həyata keçirdiyi tədbirlərə üstünlük versin, yoxsa bu istiqamətlərdə xarici ölkələrlə, beynəlxalq təşkilatlarla əməkdaşlığın möhkəmləndirilməsində təqdirəlayiq, səmərəli fəaliyyətinə.

Mehriban xanım hər bir tədbiri əvvəlcədən düşünülmüş şəkildə həyata keçirir. Onların tətbiqinə tərtib olunmuş proqram, layihə əsasında başlayır. Ona görə də ölkənin birinci xanımının həm qurucu insan, həm siyasi xadim kimi

fəaliyyəti yüksək qiymətləndirilir. Və qürur hissi ilə qeyd etməliyik ki, Mehriban xanım Əliyevanın hər an genişlənən məqsədyönlü fəaliyyətinə həm ölkəmizin, həm xarici dövlətlərin ictimai-siyasi qurumlarının, nüfuzlu beynəlxalq təşkilatların verdikləri qiymət, onu layiq olduğu mükafatlarla, fəxri adlarla təltif etmələri hamı tərəfindən rəğbətlə qarşılanır.

Bu il may ayının 27-də Moskvanın Stanislavski və Nemiroviç-Dançenko adına Musiqili Teatrında Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya "Qızıl ürək" beynəlxalq mükafatının təqdim olunması xəbəri də həmyerlilərimiz tərəfindən ruh yüksəkliyi ilə qarşılanmışdır. Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva bu mükafata genişmiqyaslı xeyriyyəçilik fəaliyyətinə, bəşəriyyətin ali ideyalarına xidmət sahəsində yüksək nailiyyətlərinə görə layiq görülmüşdür. Mehriban xanım Əliyevaya "Qızıl ürək" mükafatını - heykəlciyi və "Beynəlxalq mükafatın laureatı" fəxri nişanını məşhur İtaliya aktrisası Sofi Loren, Rusiya Federasiyası Federal Məclisi Federasiyası Şurasının sədri Sergey Mironov və Rusiya Təhlükəsizlik Şurasının katibi İqor İvanov təqdim etmişlər. S.Mironov mükafatı Mehriban xanıma təqdim edərkən onun Heydər Əliyev fondu çərçivəsindəki fəaliyyəti ilə yaxşı tanış olduğunu bildirərək demişdir: "Belə xeyirxah və qızıl ürəklər insanlara və dünyaya fəzilət bəxş edir".

Mehriban xanım Əliyevaya "Qızıl ürək" beynəlxalq mükafatı təqdim olan gündən cəmi on gün əvvəl isə, yəni may ayının 17-də Mehriban xanım Əliyeva səhiyyə sahəsində xidmətlərinə görə İhsan Doğramacı Ailə Sağlamlığı Fondunun mükafatına layiq görülmüşdür. Həmin mükafat Cenevrədə Dünya Səhiyyə Təşküatının ali orqanının - Dünya Səhiyyə Assambleyasının 60-cı sessiyasının yığıncağında təqdim olunmuşdur. Mehriban xanım vurğulayır ki, bu mükafatlar onun xeyriyyəçilik mıssiyasını, ölkəmizdə ana, uşaq və ailə sağlamlığının yaxşılaşdırılması məqsədilə göstərdiyi səyləri daha da gücləndirəcəkdir.

Ali insani keyfiyyətlərə malik Mehriban xanım böyük ürək sahibidir. Yumşaq qəlbli bu insan sanki körpələrin tərbiyəsi, onların sağlam böyümələri, irsimizin qorunub saxlanması və inkişaf etdirilməsi, təhsilin səviyyəsinin yüksəldilməsi, bir sözlə böyük xeyriyyəçilik fəaliyyəti göstərmək üçün doğulmuşdur. O, xeyirxahlıq təcəssümüdür.

Mehriban Əliyevanın Heydər Əliyev Fondunun prezidenti kimi fəaliyyətə

başlaması ilə uşaq evlərində, internat məktəblərində canlanma yarandı. Orta məktəblərdə yeniliklər baş verdi. Bir sözlə, gələcəyimiz olan, uşaqlar özlərinə möhkəm dayaq, arxa tapdılar. Bu, gəlişi xoş söz deyil, həqiqətdir. Uşaq evlərinin, internatların əksər orta məktəblərin əwəlki vəziyyətlərini göz önünə gətirdikdə indi bu sahələrdə nə qedər müsbət dəyişikliklər olduğunu açıq-aydın görürük. Bunlar öz-özlüyündə əmələ gəlməmişdir. Hər bir sahədə Heydər Əliyev Fondunun hazırladığı layihə üzrə yeniləşmə baş vermişdir. "Yeniləşən Azərbaycana yeni məktəb", "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə", "Azərbaycan muğamları", "Hərəmiz bir ağac əkək!". Bunlar Heydər Əliyev Fondunun layihələrinin tam siyahısı deyil. Özünün həyat amalını insanlara qayğı göstərməkdə, xəstə uşaqlara, ehtiyac içərisində yaşayanlara yardım etməkdə görən Mehriban xanım rəhbərlik etdiyi Fondun layihələri çərçivəsində nəzərəçarpacaq dərəcədə işlər görmüşdür. Neçə-neçə yeni məktəb binaları istifadəyə verilmiş, internat və uşaq evləri əsaslı təmir olunmuş, lazımi avadanlıqla təchiz edilmişdir. Bir sözlə, uşaqlar üçün nümunəvi şərait yaradılmışdır. Mehriban xanım tez-tez bu müəssisələrdə olur, uşaqların yaşayış şəraiti, sağlamlığı, onlara göstərilən xidmətin səviyyəsi ilə maraqlanır. İnternatlarda tərbiyə olunan uşaqlarla Mehriban xanım arasında əsl ana-övlad münasibəti yaranmışdır. Kimsəsiz uşaqlar onu ən əziz insan sayırlar.

Mehriban xanım Əliyeva xüsusi qayğı tələb edən bütün uşaqlara eyni münasibət bəsləyir. Onun yolunu səbrsizliklə gözləyən körpələrə baş çəkərkən onlarla bir həkim kimi də, səmimi insan kimi də son dərəcə mehriban davranır. Bəli, Mehriban xanım yüzlərlə azərbaycanlı uşağın mənəvi anasıdır. Onun səyləri sayəsində hər cür qayğı ilə əhatə olunan, yüksək şəraitdə tərbiyə alan bu uşaqlara bundan sonra kimsəsiz demək istəməzdim. Çünki onların Mehriban xanım Əliyeva kimi himayəçiləri var. Və ölkəmizin birinci xanımı onlara hər dəfə ana nəvazişi ilə qayğı göstərir. Görüşlər isə tez-tez olur. Elə bir əlamətdar gün, bayram olmur ki, Mehriban xanım internat məktəblərinə, uşaq evlərinə baş çəkib uşaqlann vəziyyəti ilə maraqlanmasın. Hər dəfə də onlara kifayət qədər hədiyyə təqdim olunur, əyləncə təşkil edilir. Bütün bunlar Mehriban xanımın insanpərvərliyindən, vicdanlılığından, humanistliyindən, dövlət, xalq qarşısında məsuliyyətini başa düşməsindən irəli gəlir.

Mehriban xanım Əliyeva beynəlxalq təşkilatlarla əlaqə sahəsində də, deputatlıq fəaliyyətində də işlərini yüksək səviyyədə qurmuşdur. Milli Məclisə üzv seçil-

diyi Əzizbəyov rayonu seçicilərinin tapşırıqlannı yerinə yetirməyə daim səy göstərir və bu sahədə bir çox uğurlar qazanmışdır. Rayonun ərazisində yerləşən uşaq və internal məktəbləri, ziyarətgahlar əsaslı təmir edilmiş, yollara asfalt döşənmiş, qəsəbələr abadlaşdırılmışdır.

Bir faktı diqqətə çatdırmaq istəyirəm. Milli Məclisin bu il may ayının 8-də keçirilən iclasında Milli Məclisin deputatı Mehriban xanım Əliyeva özü hazırladığı "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş amnistiya haqqında" qərar layihəsini müzakirəyə təqdim etmişdir. Mehriban xanım amnistiya aktının mahiyyətindən danışmış və onun həmkarları tərəfindən dəstəklənəcəyinə əmin olduğunu bildirmişdir. Bildiyimiz kimi, bu akt qəbul olunmuş və təxminən 9000 nəfər bu sənədin təsir dairəsinə düşmüşdür. Bax, bundan da humanist hərəkət ola bilərmi. Doqquz min ailəyə sevinc bəxş etmək böyük savab işdir. Bunu yalnız Mehriban Əliyeva kimi xeyirxah, geniş qəlbli, humanist insan edə bilər.

Heydər Əliyev Fondunun nüfuzlu beynəlxalq təşkilatlarla da geniş əlaqələri var. Bu əlaqələri əlbəttə Fondun Prezidenti Mehriban xanım Əliyeva yaratmışdır. Xeyriyyəçiliklə, səhiyyə məsələlərilə əlaqədar beynəlxalq təşkilatların elə bir iclası, yubiley təntənəsi olmamışdır ki, YUNESKO-nun, İSESKO-nun xoşməramlı səfiri, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Mehriban Əliyeva orada iştirak və məzmunlu məruzə ilə çıxış etməsin. Təkcə bu ilin ötən müddətində Mehriban xanım 5-6 belə tədbirdə olmuşdur. Məsələn, o, YUNESKO ilə Qətər fondunun bu ilin martında təşkil etdikləri "Ərəb dövlətlərində savadlılıq: tərəfdaşlığın qurulması və yeni yanaşmaların təşviqi" regional konfransda iştirak etmək üçün Qətər dövlətinin birinci xanımı YUNESKO-nun ibtidai və ali təhsil üzrə xüsusi elçisi Şeyxa Muza Biut Nasir əl-Missnedin dəvəti ilə həmin ölkədə olmuşdur. Konfransda Mehriban xanım Əliyeva məzmunlu çıxış etmişdir. O, görüşlər zamanı Şeyxa Muza, Livanın və Suriyanın birinci xanımları ilə fikir mübadiləsi aparmışdır.

Mehriban xanım Əliyevanın Cenevrəyə səfəri də zəngin olmuşdur. O, Dünya Səhiyyə Assambleyasının 60-cı sessiyasında geniş çıxış etmişdir. Mehriban xanım Birləşmiş Millətlər Təşkilatının Cenevrədəki bölməsinin baş direktora Sergey Orconikidze ilə görüşmüşdür. Görüş zamanı BMT ilə Azərbaycan arasında sıx əməkdaşlıq əlaqələri barədə fikir mübadiləsi aparmışdır.

S.Orconikidze BMT-nin Cenevrədəki bölməsinin iqamətgahında "Azərbaycan

otağı"nın açılışında iştirak edərək lenti kəsən Mehriban xanım Əliyevanı bu münasibətlə təbrik etmiş və Azərbaycanı başqa ölkələrə örnək göstərmişdir.

Ölkəmizin birinci xanımı Mehriban Əliyevanın istər Heydər Əliyev Fondu çərçivəsində, istərsə də Azərbaycan Prezidenti möhtərəm İlham Əliyevin xarici dövlətlərə rəsmi, işgüzar səfərləri çərçivəsində fəaliyyəti həmişə təqdirəlayiq və səmərəli olmuşdur. O, hər səfər zamanı həmin ölkələrin uşaq tərbiyə müəssisələrinin fəaliyyəti, təhsil, səhiyyə problemləri ilə yaxından tanış olur, bu sahələrdə respublikamızda qazanılan uğurlardan, perspektivlərdən söhbət açır. Ən vacibi isə odur ki, Mehriban xanım Əliyeva Azərbaycan həqiqətlərini dünyaya çatdınr, Ermənistan-Azərbaycan münasibətlərini, Dağlıq Qarabağ münaqişəsini reallığı ilə açıqlayır.

Mehriban xanım Əliyeva hər səfər zamanı olduğu ölkələrdə təhsil alan azərbaycanlı tələbələrlə, orada yaşayıb işləyən həmyerlilərimizlə görüşlər keçirir, onların problemləri ilə maraqlanır, müstəqil respublikamızda gedən inkişaf proseslərini onların diqqətinə çatdırır. Bir sözlə, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı, "Qızıl ürək", mükafatının və İhsan Doğramacı Ailə Sağlamlıq Fondunun mükafatı laureatı Mehriban xanım Əliyevanın fəaliyyəti genişmiqyaslıdır. Onun fəaliyyətinin istiqamətlərini, təşəbbüsü ilə həllini tapan müxtəlif həyatı məsələləri, vacib problemləri bir məqalədə, əlbəttə işıqlandırmaq, əhatə etmək mümkün deyil. Onların hər biri ətraflı tədqiq olunmalı, geniş təhlil edilməli problemdir. Bu, müstəqil Azərbaycanın tarixidir, salnaməsidir. Tarix isə xalqımıza, bəşəriyyətə olduğu kimi, obyektiv şəkildə yazılıb çatdırılmalıdır. Əlbəttə, tariximizi yaradanlar, inkişafımızın səviyyəsini yüksəldənlər isə böyük ehtirama layiqdirlər. Bəli, Mehriban xanım Əliyevanın xalqımızın rifahı naminə gördüyü işlər, səhiyyənin, təhsilin inkişafındakı səyləri, gələcəyimiz olan uşaqların sağlam böyümələri üçün onun təşəbbüsü ilə həyata keçirilən məqsədyönlü, sərhədi olmayan tədbirlər insanlıq, xeyirxahlıq, işgüzarlıq, millətinə vurğunluq, məsuliyyət hissini duymaq nümunəsidir.

**Ənvər Məşədiyev**,<br>
əməkdar jurnalist.

# XALQA VƏ DÖVLƏTƏ TƏMƏNNASIZ XİDMƏT ÖRNƏYİ

Cəmiyyətdə nəcibliyin, mərhəmət və xeyirxahlığın, savab əməllərin müqəddəs ünvanına çevrilməklə, zaman etibarilə o qədər də böyiik olmayan müddətdə ümumxalq mənafeyi baxımından bir sıra strateji layihələri uğurla gerçəkləşdirməyə nail olmuş Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyətinin hər bir səhifəsi özündə ulu öndərimizin ali ideallannı parlaq şəkildə təcəssüm etdirir. Qloballaşmanın bütün dünyada qarşısıalınmaz prosesə çevrildiyi, kütləvi mədəniyyət stereotiplərinin hakim olduğu bir dönəmdə fond minilliklər boyu formalaşaraq xalqımızın milli varlığının və özünəməxsusluğunun ifadəsi kimi üzə çıxan zəngin mənəvi irsi, milli düşüncə və dəyərlər sistemini, mədəni-intellektual mülkiyyətini neqativ təzahürlərdən qorumaq kimi çətin bir missiyanın öhdəsindən layiqincə gəlir.

## Ümid qapısı

Bəşər sivilizasiyasının ən qədim xalqlarından olan azərbaycanlıların yüksək mənəvi-əxlaqi keyfiyyətlərini, genetik yaddaşını pak və sağlam niyyətlərlə qoruyaraq bütövlükdə milli intibaha, cəmiyyətin pozitiv ruhda inkişafına əsaslı təsir göstərmək, onun genetik yaddaşını, tarixi kimliyini, milli irs və özünəməxsusluğunu gələcək nəsillərə ötürmək Heydər Əliyev Fondunun fəaliyyətinin əsas qayəsini təşkil edir. Fondun fəaliyyəti, ilk növbədə, dünyanın xilasına yönələn mütərəqqi ümümbəşəri və milli ideallarin cəmiyyətdə daha da möhkəmlənməsinə, ictimai şüura hakim kəsilməsinə, fərqli bəşəri sivilizasiyaların uğurlu dialoquna, keçmişlə gələcək arasında möhkəm körpü salınmasına, insanlara xeyirxahlıq və nəciblik kimi ali dəyərlərin aşılanmasına yönəlmişdir. Fondun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın özünün də söylədiyi kimi, bu gün ən müxtəlif hakimiyyət strukturlarının laqeydliyi, biganəliyi ilə üzləşən, dərdinə əlac axtaran köməksiz insanların sonuncu ümid qapısına çevrilmiş Heydər Əliyev Fondunun fəaliyyət

fəlsəfəsində insanlara yaxşılıq kimi sadə olduğu qədər də bəşəri və müqəddəs bir ideya, amal dayanır. Məhz bu kimi saf amalla Mehriban xanım Əliyeva rəhbərlik etdiyi fonda üz tutmuş vətəndaşların mənəvi hamisi, qayğıkeşi kimi çıxış edir, imkan daxilində onların üzləşdiyi problemlərin həllinə çalışır. "Keçmişə ehtiram, gələcəyə ümid" postulatına əsaslanan bu xeyirxah missiya köməksizə əl tutmaq, çarəsizin qəlbində bir ümid çırağı yandırmaq, bir sözlə, insanlara səmimi diqqət və qayğı istəyindən qaynaqlanır. Təkcə 2005-ci ildə fonda 3000-dən artıq vətəndaşın müraciət ünvanlaması da bu qurumun ictimai təsisat kimi cəmiyyətdə əlahiddə nüfuz və etimada sahib olduğunu nümayiş etdirir. Mehriban xanım Əliyevanın yüksək hümanizm, mərhəmətlilik və nəciblik kimi ali mənəvi keyfiyyətlərindən irəli gələn bu uğurlu fəaliyyətin qayəsində isə məhz millətə və dövlətə səmimi xidmət istəyi, məramı dayanır. "Bəzən cəmiyyətdə insan elə bir vəziyyətə düşür ki, bütün döydüyü qapılar onun üzünə bağlı qalır. O, öz dərdi ilə, öz problemi ilə təkbaşına qalır və ona elə gəlir ki, heç bir şey və heç kəs ona kömək edə bilməz. Bu halda, o, üzünü bizim fonda tutur. Mən demək istəmirəm ki, biz dərhal onun bütün problemlərini həll edirik. Amma o insan burada nə biganəliklə, nə soyuq münasibətlə rastlaşmaz və hökmən onun problemlərinin həlli üçün mümkün olan bütün vasitələrdən istifadə ediləcəkdir. Yəqin ki, xeyriyyəçilik, insansevərlik, mərhəmət Azərbaycan xalqının mentalitetinə, mədəniyyətinə, əsrlər boyu formalaşan ənənələrimizə xas olan ən gözəl keyfiyyətlərdən biridir və biz bu gün Heydər Əliyev Fondu olaraq bu ənənələri davam etdirməyə çalışırıq" - deyən Mehriban xanım Əliyeva qloballaşan dünyada insanın daxili "Mən"inin qorunmasını vacib saymaqla, ali mənəvi dəyərlərin saxta ideallarla əvəzlənməsinə, cəmiyyətdə biganəliyin ağır fəsadlar verən sosial bəlaya çevrilməsinə qarşı qətiyyətlə çıxır.

Azərbaycan cəmiyyəti Heydər Əliyev Fondunun prezidentinin vətəndaşlara diqqət və qayğı nümunələri ilə zəngin olan çoxşaxəli fəaliyyətinə istinadən şəfqətli və xeyirxah əməllərin nə qədər savab olduğunu dərk edir, özünün yaşam fəlsəfəsini bu meyarlara uyğunlaşdırmağa çalışır. Məhz bu məqamında ölkənin Birinci xanımı əbədi liderimizin fəaliyyətinin və ömür yolunun əsas qayəsinə çevrilmiş humanizm və xeyirxahlıq fəlsəfəsini mənəvi miras kimi qəbul etməklə bu möhtəşəm irsin varisinə çevrildiyini təsdiqləyir.

İnkarolunmaz həqiqətdir ki, yalnız böyük vətənpərvərlik hissləri, pak hisslər

insanı olduqca çətin, fəqət, xalqın və dövlətin mənafeyi baxımından müstəsna əhəmiyyətli işləri həyata keçirməyə sövq edə bilər. Bu baxımdan, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın istər milli-mənəvi irs və dəyərlərin, istər elm və təhsilin səviyyəsinin yüksəldilməsi, fəal maarifçilik kursunun həyata keçirilməsi, istərsə də səhiyyənin inkişafı, insanların fiziki və mənəvi sağlamlığının qorunması istiqamətində həyata keçirdiyi strateji layihələr onun təşəbbüskar vətəndaşlıq mövqeyinin, mənəvi məsuliyyətinin təcəssümüdür.

Qurumun ən müxtəlif layihələrini mahiyyətcə birləşdirən bir ortaq xətt mövcuddur - milli genefondumuzun qorunması. Bu ali mərama xidmət edən hər bir addım Heydər Əliyev Fondu üçün eyni səviyyədə prioritet səciyyə daşıyır.

## Təhsildə milli maarifçilik xətti

Elm və təhsil bəşəriyyətin mövcudluq anından fərd və ictimai toplumların, geniş mənada, xalqların gələcək inkişafının, yaşam fəlsəfəsinin və tarixin əlverişli mərhələlərində qazandığı uğurların başlıca rəhni kimi çıxış etmişdir. Qloballaşan dünyada hər bir dövlətin öncüllüyü, milli inkişaf səviyyəsi və gələcək taleyi bu intellektual-strateji sahələrin səviyyəsilə ölçülür. Praqmatik və peşəkar siyasətçi kimi bu reallığı düzgün qiymətləndirən Azərbaycan Prezidenti cənab İlham Əliyevin elm və təhsilin davamlı inkişaf konsepsiyasının uğurla gerçəkləşdirilməsində Heydər Əliyev Fondunun müstəsna xidmətləri vardır. Fondun təhsilin inkişafı, bu sahədə həllini gözləyən bir sıra problemlərin tez bir zamanda aradan qaldırılması istiqamətindəki fəaliyyəti Azərbaycanda elmə ictimai təsisat səviyyəsində yüksək qayğı nümunəsi olmaqla yanaşı, cəmiyyətin ümumi potensialının bu yöndə səfərbər olunmasına yönəlmişdir. Bu sahəyə yönələn diqqət və qäyğının hansı məqsəddən qaynaqlandığını, xalqın, dövlətin gələcəyi baxımından necə böyük əhəmiyyət kəsb etdiyini xüsusi vurğulamağa ehtiyac yoxdur. Təhsil, eyni zamanda, elə bir spesifik sahədir ki, buradakı problemlərin həllini təkcə dövlətdən gözləmək və tələb etmək bəlkə də düzgün olmazdı - bu sahədə özünü göstərən bəzi neqativ halların aradan qaldırılmasında vətəndaşların da fəal iştirakı vacibdir. Mehriban xanım Əliyevanın istər xeyriyyəcilik, istərsə də ictimai fəaliyyətinin prioritet istiqamətləri sırasında təhsilin mühüm yer tutması da millətimizin gələcəyini, nicat yolunu təhsilin inkişafında, vətəndaşların maariflənməsində görən ümummilli liderimiz Heydər Əliyevin zəngin dövlətçilik

ənənələrinə əsaslanır.

Fondun milli maarifçilik xəttinin həyata keçirilməsi sahəsindəki əzmkar fəaliyyəti hansısa konkret çərçivə ilə məhdudlaşmır - məktəb tikintisindən tutmuş, YUNESKO ilə konkret təhsil proqramlarının həyata keçirilməsinədək - geniş spektri əhatə edir. Qısa müddət ərzində uğurla gerçəkləşdirilən bu layihələr cəmiyyətdə böyük rezonansa səbəb olmuş, rəğbət və ehtiramla qarşılanmışdır. Azərbaycanın zəmri ehtiyaclarını nəzərə alan Heydər Əliyev Fondunun yeni məktəb binalarının tikintisi, mövcud orta ümumtəhsil müəssisələrinin əsaslı təmir və bərpası istiqamətində həyata keçirdiyi tədbirlər xüsusilə təqdirəlayiqdir. İctimai əsaslarla fəaliyyət göstərən fondun ümummilli mənafelərə hesablanmış bu tədbirlərin həyata keçirilməsində cəmiyyətdən ciddi mənəvi-maddi dəstək alması görülən işlərin miqyasını, dinamikliyini və səmərəliliyini daha da artırır.

Heydər Əliyev Fondunun təhsillə bağlı qarşıya qoyduğu strateji məqsəd Azərbaycanda bu sahənin qloballaşan dünyanın tələbləri səviyyəsində qurulması, milli təhsil modelinin gerçəkləşdirilməsinə maddi-texniki və intellektual zəmin formalaşdırılmasıdır. Təhsil infrastrukturunu yeniləşdirmədən, müasir tipli yeni məktəblər inşa etmədən, təlim-tədris prosesinə lazımi şərait yaratmadan, dünya ölkələrinin mütərəqqi təhsil ənənələrini nəzərə almadan bu məqsədlərə nail olmaq qeyri-mümkündür. Həmin reallıqlardan çıxış edən fond, ilk növbədə, yeni məktəblərin inşası istiqamətində sistemli və ardıcıl iş aparır.

Mehriban xanım Əliyevanın birbaşa təşəbbüsü ilə həyata keçirilən, müvafiq hakimiyyət qurumlarının, vətəndaş cəmiyyətinin bəzi strukturlarının, imkanlı iş adamlarının da dəstəklədiyi "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi bu baxımdan cəmiyyətdə daha böyük əks-səda doğurmuşdur. Layihə çərçivəsində yalnız 2005-ci ildə Azərbaycanın ən müxtəlif bölgələrində rekord sayda - 132 ədəd yeni məktəb binasının tikilərək istifadəyə verilməsi və lazımi avadanlıqlarla təchiz olunması dövlətin bu sahədə həyata keçirdiyi işlərə əvəzsiz töhfədir. Müasir tələblərə cavab verən məktəb binaları yeni avadanlıq, istilik sistemi, zəngin kitabxanalar, əyani vəsait və kompüterlərlə təchiz olunmuşdur.

Yeri gəlmişkən, Azərbaycan Prezidenti cənab İlham Əliyevin imzaladığı regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramında yeni məktəblərin inşası məsələsinə xüsusi diqqət ayrılmışdır. Heydər Əliyev Fondu həmin proqram çərçivəsində müvafiq hakimiyyət strukturlarının həyata keçirdiyi işləri də

qabaqlayaraq, bölgələrdə mədəni-intellektual səviyyənin yüksəlməsində yaxından iştirak etmişdir. Cəmi bir il ərzində 132 yeni məktəbin inşası ağır müharibə şəraitində yaşayan, iqtisadiyyatı yenicə inkişaf etməyə başlayan Azərbaycan üçün olduqca böyük nailiyyətdir. Fondun prezidenti Mehriban xanım Əliyeva layihənin ikinci hissəsinin rəsmi təqdimat mərasimi zamanı görülən işlərin bundan sonra da davam etdiriləcəyini, 2006-cı ildə Azərbaycanda 100-dən artıq yeni məktəb binasının tikilib istifadəyə veriləcəyini bəyan etmişdir. Təqdirəlayiq haldır ki, Azərbaycan Prezidentinin regionlara səfərləri zamanı Mehriban xanım Əliyeva fondun xəttilə aparılan inşaat işləri ilə yaxından tanış olur, lazımi tövsiyələrini verir.

Fond yeni təhsil ocaqlarının tikintisi ilə yanaşı, mövcud müəssisələrin əsaslı təmiri və yenidənqurulması işini də diqqət mərkəzində saxlamışdır. Ötən il xüsusi qayğıya ehtiyac duyan uşaqların təhsil aldığı 23 müəssisə əsaslı şəkildə bərpa edilmiş, zəruri avadanlıqlarla təchiz olunmuşdur. Bu, orta hesabla hər ay iki məktəbin normal iş və tədris rejiminə gətirilməsi deməkdir. Bakıda, Sumqayıtda, Xaçmazda, Əli Bayramlıda, Şəkidə, Astarada, İsmayıllıda, Ağdamda, Bərdədə, Beyləqanda, Gədəbəy, Saatlı, Zərdab, Yardımlı, Qax, Göyçay, Qusar, Lerik, Salyanda, habelə bir sıra kəndlərdə qəza vəziyyətində olan məktəblərin yeniləri ilə əvəz olımması insanlarda böyük rəğbət və minnətdarlıq hissi doğurmuşdur. Fondun "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində 22 min nəfərlik şagird yeri yaratmağa nail olması da təqdirəlayiq göstəricidir.

## Fövqəladə bacarıqlı xoşməramlı səfir

BMT-nin ali mədəniyyət qurumu - YUNESKO ilə sıx əməkdaşlıq münasibətləri qurmuş Heydər Əliyev Fondu milli-mənəvi irsimizə, təhsilimizə yüksək bəşəri münasibətə də nail olmuşdur. Azərbaycanın birinci xanımının təşkilatm xoşməramlı səfiri təyin olunması bu əlaqələrə yeni impuls vermiş, strateji əhəmiyyət daşıyan müxtəlif layihələrin müştərək icrasına geniş imkanlar açmışdır. Fondun son iki illik fəaliyyətinin aparıcı istiqamətlərindən biri də məhz ölkənin təhsil problemlərinin həllinə köməkdən, bu məqsədlə nüfuzlu beynəlxalq təşkilatlardan sayılan YUNESKO-nun geniş imkanlarından səmərəli faydalanmaqdan ibarət olmuşdur. Geniş imkanlara malik bu nüfuzlu beynəlxalq təşkilatın ölkəmizin təhsıl problemlərinin həllində yaxından iştirakı, təşkilatla bırgə reallaşdırılan müştərək layihələr uğurlu nəticələrlə zəngindir. 2004-cü il

iyulun 6-da fondun təşəbbüsü ilə Parisdə YUNESKO-nun iqamətgahında "Davamlı inkişaf üçün Azərbaycanda təhsil islahatları" mövzusunda beynəlxalq konfrans keçirilmişdir. Əldə olunmuş razılaşmaya əsasən, 2005-ci il avqustun 24-də Bakıda "YUNESKO-Azərbaycan: gələcəyə körpü" mövzusunda mühüm beynolxalq konfransm keçirilməsi Azərbaycanın təhsil problemlərinin müzakirəsi, onların optimal həlli mexanizmlərinin aranması, habelə təşkilatla əməkdaşlığın gələcək perspektivlərinin müəyyən olunması baxımından böyük əhəmiyyət daşımışdır.

YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva konfransdakı dərin məzmunlu çıxışında Azərbaycan milli təhsilinin problemlərindən söz açmış, həyata keçirilən islahatlar barədə konfrans iştirakçılarına ətraflı məlumat vermişdir. Eyni zamanda, Ermənistanın Azərbaycana qarşı təcavüzünün təhsilimizdə yaratdığı çətinliklər YUNESKO-nun Baş direktorunun və nümayəndə heyətinin nəzərinə bir daha çatdırılmışdır: "Biz işğala məruz qalan ərazilərdə əvvəllər mövcud olan təhsil infrastrukturunu qoruyub saxlaya bilmişik. Bu məktəblər qaçqın-köçkün düşərgələrində yerləşir. Biz həm də müəllim kollektıvini saxlaya bilmişik və onlar düşərgələrdə uşaqların təlim-tərbiyəsi ilə məşğul olurlar. Bu, doğrudan da, nadir bir təcrübədir. Mən inanıram ki, bu təcrübə bütün münaqişə zonalarında istifadə oluna bilər".

Konfrans milli təhsilimizin ümumi vəziyyəti ilə bağlı YUNESKO nümayəndələrində tam təsəvvür yaratmaq, onları hərtərəfli məlumatlandırmaq, habelə perspektivdə müştərək layihələrlə çıxış etmək baxımından uğurlu nəticələrlə yadda qalmışdır. Bu mötəbər təşkilatın diqqətinin ölkəmizin təhsil problemlərinə cəlb olunması üçün həyata keçirilən tədbirlər deməyə əsas verir ki, yaxın gələcəkdə münasibətlər daha da dərinləşəcək, YUNESKO maddi və qeyri-maddi mədəni irsimizin qorunması və gələcək nəsillərə çatdırılmasında öz imkanlarından maksimum səmərəli istifadə edəcəkdir.

YUNESKO-nun Baş direktoru cənab Koişiro Matsuura fondun prezidentinin gördüyü işlərin təkcə Azərbaycan üçün deyil, bütövlükdə, dünya üçün müstəsna əhəmiyyətə malik olduğunu hər zaman xüsusi vurğulamışdır: "Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyeva on il bundan öncə Azərbaycan Mədəniyyətinin Dostları Fondunu yaratmış və həmin fondun çərçivəsində böyük işlər görülmüşdür. Mən onun bu sahədəki fəaliyyətini izləyir və yaxından

öyrənirdim. Mən gördüm ki, bu sahədə Mehriban xanımın xidmətləri əvəzsizdir və belə qərara gəldim ki, o, YUNESKO-nun xoşməramlı səfiri təyin edilsin. O, bu vəzifəyə təyin olunduqdan sonra Azərbaycanda mədəniyyət sahəsində böyük işlər görmüşdür. Biz onun, xüsusilə, təhsilin inkişafı, eləcə də şifahi və musiqi ənənələrinin qorunması sahəsindəki fəaliyyətini xüsusi qeyd edirik".

Təhsil sahəsində Azərbaycan-YUNESKO əməkdaşlığı başqa bir əlamətdar cəhəti ilə də mühüm aktuallıq kəsb edir. Bu da Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün, torpaqlarımızın Ermənistan silahlı birləşmələri tərəfindən işğalının Azərbaycan təhsilində yaratmış olduğu ağır problemlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılmasından ibarətdir. Bütün dünyada təhsil, maarifçilik hərəkatının geniş vüsət aldığı indiki günlərimizdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mahiyyəti, miqyası barədə beynəlxalq aləmdə obyektiv təsəvvür yaratmaqdan ötrü bu məqam da təbliğatı baxımdan böyük əhəmiyyətə malikdir. Azərbaycan isə bu imkandan yetərincə yararlanır.

## Sağlam ruh, sağlam sabah uğrunda

Heydər Əliyev Fondunun millətin fiziki və mənəvi sağlamlığı, milli-genetik ruhunun qorunması naminə həyata keçirdiyi sosialyönümlü layihələr sırasında səhiyyəyə yardım, bu sahənin infrastrukturunun yeniləşdirilməsi, vətəndaşlara göstərilən tibbi xidmətin səviyyəsinin yüksəldilməsi mühüm yer tutur. İxtisas etibarilə tibb elminin incəliklərinə dərindən bələd olan fondun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva Azərbaycan səhiyyəsində mövcud olan problemləri daha yaxşı görməklə, ictimaiyyəti həmin problemlərin həlli istiqamətində səfərbər etməyə, ələlxüsus, tibbi yardıma böyük ehtiyacı olan aztəminatlı vətəndaşlara yüksək diqqətlə, həssaslıqla yanaşmağa çalışır.

Azərbaycanda kimsəsiz uşaqlar üçün nəzərdə tutulmuş müəssisələrə sığınan körpələrin problemlərinin həlli bu gün Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın qarşıya qoyduğu əsas vəzifələrdən biridir. "Uşaq evləri və internat məktəblərinin inkişafı rroqramı" bilavasitə fondun prezidentinin təşəbbüsü və rəhbərliyi ilə hazırlanmış, Bakıda və ətraf qəsəbələrdə yerləşən uşaq evi və internat məktəblərdə mövcud problemlər öyrənilrniş, onların aradan qaldırılması üçün konkret işlər görülmüşdür. Qısa müddətdə 12 internat məktəbi əsaslı təmir edilmiş, daha 28 analoji təhsil müəssisəsində təmir-bərpa və yenidənqurma işləri uğurla aparılır. Fond uşaq evləri və internat yetirmələrinin

sosial-psixoloyi reabilitasiyasına imkan yaradacaq resurs mərkəzinin yaradılmasını da planlaşdırmışdır. Sözügedən proqram üzrə uşaq evləri və internat məktəblərində mövcud problemlərin həll olunması üçün 4 əsas istiqamət müəyyən edilmişdir: texniki dəstək, təhsil, səhiyyə və ictimai fəallıq. Proqram çərçivəsində yaradılmış işçi qruru resrublikada fəaliyyət göstərən uşaq evləri və internat məktəblərindəki mövcud vəziyyətin monitorinqini apararaq uşaqların sayı, aylıq, illik dövlət təminatına daxil olan qida, geyim, texniki vəsait normativləri, ümumi şərait (təhsil, səhiyyə, yaşayış, istirahət) kimi göstəriciləri müəyyən etmişdir. Belə uşaq müəssisələrinin böyük əksəriyyətinin ilkin mərhələdə əsaslı təmirə və texniki təchizata daha çox ehtiyacı olduğu müəyyən edilmişdir. Heydər Əliyev Fondunun rəhbəri Bakıdakı və ölkəmizin əksər rayonlarındakı uşaq evlərində, internat məktəblərində şəxsən olaraq, proqramın texniki dəstək istiqaməti üzrə işlərin başlanması üçün tarşırıq vermişdir.

Heydər Əliyev Fondunun 2005-ci ildə görülmüş işlərlə bağlı yekun hesabatı "Uşaq evləri və internat məktəblərinin inkişafı rroqramı" çərçivəsində görülmüş işlərin real miqyasını bir daha aşkara çıxarır. Həmin proqram çərçivəsində həyata keçirilən tədbirlər yalnız bu kateqoriyadan olan təlim-tərbiyə müəssisələrinə texniki dəstəklə məhdudlaşmamış, yeni kitabxanalar da yaradılmışdır. Bu kitabxanalar müvafiq tədris vəsaiti və bədii ədəbiyyatla təmin olunmuş, əksər uşaq evləri və internat məktəblərində komrüter avadanlığı quraşdırılmış, sinif otaqları interaktiv təhsil üçün zəruri vasitələrlə təchiz edilmiş, bir çox internatlarda, həmçinin uşaq evlərində həkim və psixoloq otaqları yaradılmış, bu təhsil müəssisələrində qida normativlərinin dəyişdirilməsi məqsədilə təkliflər raketi hazırlanmışdır. Uşaq evlərində, internat məktəblərində tərbiyə olunan uşaqlar, qaçqın və məcburi köçkün ailələrindən olan və təhsildə fərqlənən şagirdlər üçün müxtəlif bayram şənliklərinin təşkili də xoş ənənə halını almışdır.

Mehriban xanım Əliyevanın şəxsi təşəbbüsü əsasında uşaqların asudə vaxtının və istirahətinin səmərəli təşkili məqsədi ilə 2006-cı ildə rilot layihəsi kimi Nizami rayonundakı 1 saylı uşaq evi üçün Şüvəlan qəsəbəsində yay düşərgəsinin yaradılması qarşıda dayanan əsas planlardan biridir. Fondun dəstəyi ilə paytaxtda inşa olunan Resurs Mərkəzində isə uşaq evlərinin, internat məktəblərinin müəllim və tərbiyəçiləri üçün müasir tədris və tərbiyə metodikasının tətbiqinə dair treninqlərin keçirilməsi mümkün olacaqdır. Fondun prezidenti bu sahədə dünyanın

aparıcı ölkələrinin mütərəqqi təcrübəsindən istifadə olunması zərurətini də önə çəkir. "EKonkret problemləri həll edərkən, qlobal problemləri də unutmaq olmaz. Məsələn, uşaq evləri və internat məktəblərinin bütün sisteminin sovet redaqogikası və təhsilin sovet sistemi ilə idarə olunması çərçivəsində yarandığım nəzərə almaq son dərəcə vacibdir. Ona görə də digər ölkələrin təcrübəsindən faydalanmaq və istifadə etmək üçün qapıları açmaq zəruridir" - deyə o bildirir. Heydər Əliyev Fondunun ÜUNİSEF-lə birlikdə həyata keçirdiyi "Deinstitutlaşma proqramı" da məhz bu məqsədə xidmət edir. Mehriban xanım hesab edir ki, heç bir dövlət müəssisəsi, ən müasir, gözəl təmir olunmuş, avadanlıqla təmin edilən məktəb belə, heç zaman ailə mühitini əvəz edə bilməz. Fondun ən vacib və böyük məqsədlərindən biri də bu təhsil müəssisələrindəki uşaqların ailə şəraitində tərbiyə almasıdır.

Mehriban xanım Əliyevanm təşəbbüsü ilə iki il əvvəl İrlandiyanın Dublin şəhərində keçirilən xəstə uşaqların idman yarışına göndərilən 7 şagirdin hamısı qızıl medalla qayıtmışdır. Ötən ilin dekabrında isə Heydər Əliyev Fondu ilə BMT-nin İnkişaf Proqramı arasında kor və zəif görən insanların informasiya-kommımikasiya texnologiyalarına çıxışının təmin edilməsinə dair layihə sənədi və əməkdaşlıq sazişi də imzalanmışdır. Əgər bu gün Azərbaycanda gözdən əlil insanların sayının 40 minə çatdığını nəzərə alsaq, bu addımın əhəmiyyəti barədə geniş söhbət açmağa lüzum qalmır. Layihənin əsas məqsədi əhalinin belə qruplarının səlahiyyətlərini genişləndirmək və xüsusilə, onların məşğulluğunun artırılması sahəsində kor və görmə qabiliyyəti zəif olan insanlara yardım göstərməkdən ibarətdir.

Layihənin birinci mərhələsində gözdən əlil insanlar üçün rəqəmsal fərqin aradan qaldırılması üzrə milli strategiya hazırlayıb həyata keçirmək məqsədi ilə Azərbaycanda həmin insanların İnformasiya Kommunikasiya Texnologiyaları (İKT) ehtiyacı müəyyən olunacaqdır. İkinci mərhələdə texniki mütəxəssislər qruru vasitəsilə xüsusi komrüter avadanlığını quraşdırmaq, proqram təminatını lokallaşdırmaq (tərcümə etmək), internetə çıxışı təmin etmək, tədris-təlim proqramlarını hazırlamaq üçün təhsil sahəsində yerli və xarici eksrertlərin təcrübəsindən istifadə etməkdən ötrü model informasiya-kommımikasiya texnologiyaları sinfi yaradılacaqdır. Üçüncü mərhələdə isə kor və görmə qabiliyyəti zəif olan insanlar üçün yaradılacaq kitabxana və təlim mərkəzində onların audio

materiallar və Brayl şriftli kitablardan istifadə imkanları təmin olunacaqdır. Bakının Nərimanov rayonundakı kor və zəifgörən uşaqlar üçün resrublika internat məktəbi layihənin yeri kimi müəyyənləşdirilmişdir. Hazırda burada yenidənqurma işləri aparılır və əlil insanlar layihənin geniş imkanlarından faydalana biləcəklər.

Fond səhiyyə sahəsində də uğurlu və əhəmiyyətli layihələr həyata keçirir. Bu baxımdan, "Diabetli uşaqlara ən yüksək qayğı" və "Talassemiyasız həyat naminə" layihələri xüsusi vurğulanmalıdır. Fondun, Azərbaycan Diabet Cəmiyyətinin və Danimarkanın "Novo Nordisk" şirkətinin təşkilatçılığı ilə gerçəkləşdirilən bu layihələrlə birgə qaçqın-köçkün uşaqları, uşaq evləri və internat məktəblərinin şagirdləri üçün "Gülüstan" sarayında yeni il şənlikləri keçirilmişdir. Habelə "Talassemiyasız həyat naminə" layihəsi uğurla icra edilmiş, bu layihə çərçivəsində ixtisaslaşdırılmış mərkəz və qan bankı yaradılmışdır. Belə xəstələrin sayı, onların vəziyyəti ətraflı təhlil olunur, talassemiyanın müalicəsi və profilaktikası üçün milli proqramlar hazırlanır. Təkcə keçən il Heydər Əliyev Fondunun dəstəyilə 500-dən çox soydaşımıza bu xəstəliyə görə yardım göstərilməsi Mehriban Əliyevanın xeyirxah fəaliyyətinin nəticəsidir.

2006-cı ildə Talassemiya Mərkəzinin inşasına başlanacaq və bu ağır xəstəliyə düçar olmuş xəstələrin problemləri Azərbaycanda yaradılacaq Talassemiya Mərkəzi çərçivəsində Heydər Əliyev Fondu tərəfindən həll ediləcəkdir. Mehriban xanım Əliyeva deyir: "Tibb işçisi kimi çox gözəl başa düşürəm ki, psixi və fiziki qüsurları olan uşaqlar yalnız nəticədir, çox mürəkkəb ictimai proseslər zəncirində axırıncı halqadır. Bunun arxasında yoxsulluq, zərərli adətlər və bəzən də sadəcə, müəyyən zəruri tibbi biliklərin yoxluğu dayanır. Bütün bunlar uzunmüddətli proqramların gerçəkləşdirilməsini tələb edir. Biz reallaşdırılması illərlə çəkəcək layihələrdən qorxmuruq, lakin eyni zamanda, gözəl anlayırıq ki, bizdən ani tezliklə yardım və fayda gözləyirlər. Bütün bunları vəhdət halında birləşdirmək mürəkkəb vəzifədir, lakin necə deyərlər, yolun öhdəsindən yolçu gələr". Bu yol xeyirxahlıq, mərhəmət və nəcibliyə aparan müqəddəs bir yoldur.

## Sivilizasiyalararası dialoqun qədim məkanı

Bu gün bütün dünyanın kosmik informasiya əsrinə qədəm qoyması, informasiya texnologiyalarının inkişafı sahəsində əldə olunan fantastik nailiyyətlərin az qala hər gün həyatımızda hansısa dəyişikliyə gətirib çıxarması özlüyündə no qədər mütərəqqi meyil sayılsa belə, bu inkişaf milli tarixi-mədəni

irsə müəyyən təhlükə meyillərini də istisna etmir. Kütləvi mədəniyyət stereotiplərinin hakim olduğu indiki dövrdə milli ənənələrin qorunub saxlanılması, ona yüksək qayğı və diqqətin göstərilməsi son dərəcə vacibdir. Bu gün YUNESKO-nun çoxsaylı vəzifələrindən biri də məhz insanın mənəvi dünyasının, milli kimliyinin qorunması məsələsidir. Planetimizdə məskunlaşmış xalqlardan hər birinin milli "Mən"ini daha parlaq əks etdirən qeyri-maddi irs incilərinin mühafizəsi də ən aktual vəzifəyə çevrilmişdir. Azərbaycanın birinci xanımı çoxlarının hətta diqqət belə yetirmədiyi bu həssas məqamı özünəməxsus fəhm və nəcibliklə ön plana çəkir, insanları dünyanın inkişaf axarını düzgün qiymətləndirməyə çağırır: "Bu gün biz müasir texnika və qloballaşma əsrində yaşayırıq. Fikrimcə, zəmanənin ən böyük təzadlarından biri ondan ibarətdir ki, əldə edilən tərəqqi, kommunikasiya imkanları insanların birləşməsinə, daha sıx ünsiyyət qurmasına şərait yaratsa da, gerçək həyatda biganəlik artır, insanlar arasında uçurum artır. Bəzən nəinki bəşəriyyətin səsini eşitmirik, hətta qonşu-qonşunu eşitmir, qardaş-qardaşa kömək əlini uzatmır. Bu gün dünyanın qarşılaşdığı ən ağrılı problemlərdən biri mənəvi ideallların ucuşlaşması, onların saxta ideallarla əvəz edilməsidir" - deyən Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva xalqımızın yüksək əxlaqi-mənəvi dəyərlərinin hər bir ailədə qorunmasının tərəfdarı kimi çıxış edir.

YUNESKO-nun xoşməramlı səfiri kimi fərqli mədəniyyətləri bir araya gətirmək missiyasını öz üzərinə götürmüş Mehriban xanım Əliyevanın bu sahədə fəaliyyəti hələ 10 il əvvələ gedib çıxır. O, hələ 1995-ci ildən "Azərbaycan Mədəniyyətinin Dostları" Xeyriyyə Fondunun rəhbəri kimi ağır böhranın girdabına sürüklənmiş milli mədəniyyətimizə yiyə durmuş, ona böyük qayğı və diqqət göstərmişdir. 1995-ci ildən üzü bəri musiqi təhsili və gələcək nəslin maarifləndirilməsi işi bu fondun daim diqqət mərkəzində olmuş, ardıcıl şəkildə təşkil edilən xeyriyyə konsertləri mədəniyyətimizin zəngin ənənələrinin qorunması işinə töhfə vermişdir. Həmin dövrdən başlayaraq Azərbaycanda musiqi gimnaziyası və musiqi məktəbi əsaslı təmir edilmiş, minlərlə yeniyetmə və gəncin, ələlxüsus, imkansız ailələrdən olan gənclərin yüksək musiqi təhsili almasına əlverişli imkan yaradılmışdır.

Mehriban xanım Əliyevanın 2004-cü ilin sentyabrında YUNESKO-nun "Xoşməramlı səfiri" seçilməsi ilə fondun milli irsin mühafizəsi, elm və

mədəniyyətin inkişafı sahəsindəki fəaliyyəti bir qədər də genişlənmişdir. Azərbaycanın bir sıra görkəmli alimlərinin, yazıçı və bəstəkarların yubileylərinin keçirilməsi, habelə "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin beynəlxalq miqyasda qeyd olunması, YUNESKO-nun "Dünya irs siyahısı"na İçərişəhərin Şirvanşahlar Saray Kompleksi ilə birgə daxil edilməsi, bu siyahıya Qobustan Qoruq Muzeyinin və Atəşgahın da daxil olması üçün ilkin sənədlərin hazırlanması bu fəaliyyətin təqdirəlayiq məqamları kimi vurğulana bilər. Fondun prezidentinin şəxsi səyləri nəticəsində Azərbaycan xalqının milli sərvəti sayılan muğam həmin mötəbər təşkilatın vasitəsilə bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri sırasına daxil edilmişdir. Mehriban xanım Əliyevanın Azərbaycan muğamlarının öyrənilməsi və təbliği ilə bağlı fəaliyyəti onun mənəvi dəyərlərə bağlılığının və yüksək vətənpərvərliyinin bariz göstəricisidir. "Qarabağ xanəndələri" adlı nəfis albomun buraxılması da fondun ötənilki uğurları sırasında özünəməxsus yer tutur. Əslində, bütün Azərbaycana məxsus müğamlarımızın toplandığı alboma ad kimi niyə məhz "Qarabağ xanəndələri" ideoniminin seçilməsinin arxasında dayanan incə siyasi məqamı sezməmək mümkün deyildir. YUNESKO xətti ilə hazırlanmış alboma "Qarabağ xanəndələri" adının seçilməsi ilə bütün dünyaya Qarabağın əzəli və əbədi Azərbaycan torpağı olduğu, muğamın isə bu torpağın dünyaya bəxş etdiyi nadir sənət nümunəsi sayıldığı nümayiş etdirilmişdir. Mehriban Əliyevanın rəhbərliyi altında "Qarabağ" kitabının çapa hazırlanması Azərbaycanın, Qarabağın tarixi keçmişinin öyrənilməsi və təbliği baxımından son dərəcə böyük əhəmiyyət daşıyır. Mehriban xanım Əliyevanın rəhbərliyi ilə dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun bütün əsərlərinin yenidən çap olunması ilə yanaşı, onların SD və DVD-də buraxılması layihəsinin həyata keçirilməsi, "Qarabağ xanəndələri" albomunun ardınca yeni muğam layihələri üzərində işlərin davam etdirilməsi, Azərbaycan, ümumilikdə ümumtürk musiqi sənətinin əhəmiyyətinə görə muğamdan əsla geri qalmayan başqa bir qolu, aşıq sənətinə də diqqətin artırılması, bu sənətin ÜUNESKO-nun qeyri-maddi irs siyahısına salınması yönündə ortaya qoyulan səylər də YUNESKO ilə əməkdaşlıq çevrəsində görülən işlərin bir hissəsi kimi nəzərdən keçirilə bilər. 2005-ci il avqustun 24-də isə YUNESKO-nun baş katibinin iştirakı ilə Bakıda Beynəlxalq Muğam Mərkəzinin təməli qoyulmuşdur. Qısa müddətdən sonra bu mənəviyyat məbədinin qapıları bütün muğamsevərlərin üzünə açılacaqdır.

Mehriban xanım Əliyevanın rəhbəri olduğu Azərbaycan Mədəniyyətinin Dostları Fondu dünyanın bu mötəbər mədəniyyət qurumu ilə əməkdaşlıq çərçivəsində ölkəmizdəki tarixi abidələrin qoranması üçün həyata keçirilən tədbirlərdə də fəal iştirak edir. Gəncə şəhərində Cavadxan türbəsinin, Comərd Qəssab məqbərəsinin, Bakının Şüvəlan qəsəbəsində yerləşən Pirhəsən ziyarətgahının bərpası, Abdulla Şaiqin ev-muzeyinin təmiri buna parlaq nümunədir. YUNESKO-nun xoşməramlı səfiri Azərbaycanın tanınmış oğul və qızlarının adı ilə bağlı tarixi abidələrin bərpasını yalnız keçmişə hörmət və tarixi həqiqətin bərpası kimi deyil, eyni zamanda, gənc nəsli milli-vətənpərvərlik ruhunda tərbiyə etməyin əsas elementi, azərbaycançılıq ideologiyasının inkişafı kimi qiymətləndirir: "Biz ölkənin maraq dairəsində baş verən hadisələri diqqətlə izləyir və yaranan problemlərin həlli üçün bütün səyləri göstəririk. Mən Azərbaycanın tanınmış oğul və qızlarının adı ilə bağlı tarixi abidələrin bərpasını yalnız keçmişə hörmət və tarixi həqiqətin bərpası kimi deyil, eyni zamanda, gənc nəsli milli-vətənrərvərlik ruhunda tərbiyə etməyin əsas elementi, Heydər Əliyevin "azərbaycançılıq" ideologiyasının inkişafı kimi qiymətləndirirəm".

Mehriban xanım Əliyevanın Bakıda "Qafqaz xalq ənənələri evi"nin yaradılması ilə bağlı YUNESKO qarşısında irəli sürdüyü təşəbbüsü də olduqca təqdirəlayiqdir. Belə bir qurumun təşkili Qafqaz xalqlarına məxsus mədəni irsin qorunması, təbliği baxımından böyük faydalar vəd edir. Bu təşəbbüs, eyni zamanda, həm də böyük siyasi əhəmiyyətə malikdir. "Qafqaz xalq ənənələri evi"nin yaradılması Avropa Birliyinin təşəbbüsü ilə Qafqaz regionunda həyata keçirilən "Yeni Qonşuluq Siyasəti"nin icrasına müəyyən töfhə verməklə bərabər, həm də zaman-zaman Azərbaycanın mədəniyyət incilərini oğurlayıb öz adlarına çıxan ermənilərin mənfur hərəkətlərinin qarşısını alacaqdır.

Geostrateji mövqeyinə görə Azərbaycan iki dünyagörüşünün, iki həyat tərzinin, iki mədəniyyətin qovuşduğu məkanda yerləşmişdir. Belə bir məkanda yaşayan insanlar bu təmasın təkcə coğrafi deyil, həm də mənəvi təzahürünü, Qərb və Şərq mədəniyyətinin dialoqunu gündəlik həyatımızda hiss etməkdədirlər. Maraqlı cəhət burasındadır ki, dünyanın ən müxtəlif qütblərində siyasi qarşıdurmalara çevrilən bu dialoq Azərbaycan mədəniyyətində hər hansı çatışmazlıqlara səbəb olmamış, əksinə, bu məmləkətdə bənzərsiz bir mədəni mühit formalaşdırmışdır. Çünki əsrlərdən üzü bəri yol gələn, zaman-zaman saf

çeşmə kimi daha da durulan, cilalanan zəngin Azərbaycan mədəniyyəti bütün kənar müdaxilələrə sinə gərmək gücündədir. Azərbaycan malik olduğu mədəni potensialla bu dialoqda öz sözünü deyir və mövqeyini sübuta yetirir.

Azərbaycanın qədim ənənələrini, tarixi İpək yolunun regiondakı rolunu nəzərə alan Latın Mədəniyyəti Akademiyasının 2006-cı il aprelin 19-da Bakıda keçirilmiş sayca XIII konfransının gedişi bu reallığı bir daha təsdiqləmiş, respublikamızın sivilizasiyalararası dialoqun mərkəzinə çevrildiyini nümayiş etdirmişdir. 30-dan artıq latın mənşəli görkəmli mədəniyyət və ədəbiyyat xadiminin iştirakı ilə Heydər Əliyev Fondunda keçirilən konfransda çıxış edən YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva demişdir: "Bu gün biz sivilizasiyalararası dialoqun keçmişindən söhbət açaraq xüsusi vurğulamalıyıq ki, qədim və çox zəngin yunan-Roma sivilizasiyasının ilk varisi məhz Şərq olubdur. Müsəlman renessansı kimi tarixə düşən bu dövrdə müsəlman ölkələrində ən mütərəqqi, ən qabaqcıl ideyalar yaradılıb, inkişaf etdirilibdir. Şərq alimlərinin və filosoflarının əsərləri ilə zənginləşən bu irs orta əsrlərdə yenidən Avropaya qaytarılıbdır. Bütün Şərqin, müsəlman aləminin bu irsin qorunmasındakı rolu əvəzsizdir. 2006-cı ildə konfransın məhz Bakı şəhərində keçirilməsini ölkəmizin mədəniyyətlərarası dialoq səviyyəsində çox müsbət təcrübə toplaması ilə əlaqələndiririk. Həqiqətən də, əsrlər boyu Böyük İpək yolu üstündə yerləşən ölkəmiz çox yüksək tolerantlığa malik və müxtəlif mədəniyyətləri birləşdirən bir məkan kimi tanınır. Bu bizim qürur duyduğumuz uğurumuz, keçmişimizdir və inanıram ki, gələcəkdə də bu sahədə Azərbaycan öz müsbət rolunu oynayacaqdır".

* * *

Azərbaycan xalqı bütün zamanlarda özünün zəkalı, nəcib və xeyirxah qadınları ilə fərəh duymuş, iftixar etmişdir. Tarixin müxtəlif mərhələlərində Azərbaycan qadınları həm də fədakarlıq, mətinlik rəmzi kimi öz adlarını ədəbi salnamələrə, eposlara yaza bilmişlər. Bu gün də qadınlar müstəqil Azərbaycanın daha da inkişafı, dövlətçilik ənənələrinin möhkəmlənməsi, dünya miqyasında tanınması naminə əzmlə çalışırlar. Azərbaycan qadını üçün səciyyəvi olan bu humanizm, qayğıkeşlik və insanpərvərlik kimi ali keyfiyyətlərin bariz təcəssümünü bu gün Heydər Əliyev Fondunun Prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın timsalında müşahidə edirik. İnsanı riqqətə gətirən

əsas məqam bundan ibarətdir ki, onun gördüyü böyük işlərin hamısı səmimiyyətə, Azərbaycana və azərbaycanlılara intəhasız məhəbbətdən qidalanan can yanğısına və təmənnasızlığa söykənir. "İstər ÜUNESKO-nun xoşməramlı səfiri, istərsə də Heydər Əliyev Fondunun prezidenti kimi mənə ehtiyac oldugunu hiss edirəm. Mənim adıma hər gün 200-dən çox məktub gəlir. Onların heç biri diqqətsiz qalmır. Mən konkret iş görmək, konkret insanlara kömək etmək istəyirəm. Konkret problemləri həll etmək, yardım edə bildikdə sevinc hissi keçirmək və səndən asılı olmayan səbəblər üzündən nəsə edə bilmədikdə təəssüflənmək, qəzavü-qədər, sağalmaz xəstəlik qarşısında bütün gücsüzlüyünü dərk edərkən əziyyət çəkmək, xilas edilmiş bir uşagın təbəssümünü gördükdə isə bir daha sevinmək istəyirəm. Bu, mənim seçimimdir" - deyən Mehriban xanım Əliyeva ulularımızın bizə ərməğan etdiyi xeyirxahlıq, yaxşılıq, şəfqət və mərhəmət kimi ali mənəvi dəyərləri öz fəaliyyətində yaşatmaqla, şüurlu həyatını millət yolunda şam kimi əridən maariipərvər ziyalılarımız, nurlu insanlarımız tək uğurlu bir seçimdə və yoldadır. Bu yol ulu öndərimiz Heydər Əliyevin müəyyənləşdirdiyi, onun layiqli siyasi davamçısı - Azərbaycan Prezidenti cənab İlham Əliyevin uğurla davam etdirdiyi yoldur. Bu seçim əbədi liderimizin strateji siyasət kursunun həyata keçirilməsinə dəstək verməyə, bu siyasətin hər bir vətəndaşın həyatında, rifahında və xoşbəxtliyində öz konkret töhfələri ilə iştirakına yönəlmişdir.

**Xalid Niyazov,**
"Azərbaycan" qəzetinin şöbə redaktoru

# ŞƏRƏFLİ MİSSİYA

## Mehriban xanım Əliyevanın ölkənin ictimai-siyasi, mədəni həyatında qazandığı aparıcı mövqe Azərbaycan qadınlarının fəallığının bariz təsdiqidir

Prezident İlham Əliyevin fəaliyyətinin başlıca qayəsi və amalı hər bir Azərbaycan vətəndaşının xoşbəxt yaşaması, torpaqlarımızın işğaldan azad edilməsi, ölkəmizin sosial-iqtisadi inkişafını, Azərbaycanını dünya dövlətləri arasında özünə layiqli yer tutmasını və qüdrətlənməsini təmin etməkdir. Ötən illərdə ölkəmizdə görülən genişmiqyaslı işlər, vətəndaşlarının sosial rifahının daha da yaxşılaşmasına, cəmiyyətimizin demokratikləşməsinə xidmət edən çoxşaxəli islahatlar Prezident İlham Əliyevin xalqa verdiyi vədlərin əməli işə çevrildiyinin sübutudur.

Bu gün hər bir azərbaycanlının qarşısında duran mühüm vəzifələrdən birincisi vətəndaşlıq mövqeyindən, ümummilli mənafelərdən çıxış edərək Azərbaycanın yüksəlişi üçün çalışan Prezidentin siyasi kursuna dəstək vermək, bu işdə əlindən gələni əsirgəməməkdir. Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın əsl vətəndaş mövqeyindən çıxış edərək ölkəmizdə gedən inkişaf proseslərinə verdiyi töhfələr, milli mədəni irsimizin qorunması və təbliği, təhsilin səviyyəsinin yüksəlişi, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində misilsiz fəaliyyəti hər bir vətəndaş üçün nümunə sayıla bilər. Mehriban xanım Əliyeva özünün həyat məramını, ömrünün mənasını insanlara, xüsusilə yoxsulluq içində yaşayan, qayğı və diqqətə daha çox ehtiyacı olanlara yardım etməkdə, onları sevindirməkdə görür. Mehriban xanım Əliyevanın ictimai fəaliyyəti çox genişdir, Azərbaycan diyarının hər yerini əhatə edir. Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı, YUNESKO-nun xoşməramlı səfiri, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun sədri, Azərbaycan Gimnastika Federasiyasının prezidenti, "Azərbaycan-İrs" jurnalının Baş redaktoru kimi çoxşaxəli fəaliyyət dairəsi olan Mehriban xanım Əliyeva bu yaxınlarda İslam Ölkələri Təhsil, Elm və Mədəniyyət Təşkilatının (İSESCO) xoşməramlı səfiri adına da layiq görülmüşdür.

Mehriban xanım Əliyeva ölkəmizdə təhsilin, mədəniyyətin, səhiyyənin

inkişafına xidmət edən bir sıra mühüm layihələrin müəllifi və təşkilatçısıdır. "Yeniləşən Azərbaycana yeni məktəb", "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə" kimi vacib layihələrin icrası istiqamətində həyata keçirilən tədbirlər cəmiyyətdə razılıqla qarşılanmışdır. Son iki il ərzində Heydər Əlıyev Fondunun xətti ilə ölkəmizin ən ucqar kəndlərində hər cür müasir avadanlıqla təchiz edilmiş 180 məktəb binası tikilib istifadəyə verilmiş, neçə-neçə orta məktəb əsaslı təmir olunmuşdur. Milli musiqimizin, muğamlarımızın təbliğində Heydər Əliyev Fondunun rolu əvəzsizdir. Fondun təşəbbüsü ilə "Qarabağ xanəndələri" adlı disk buraxılmış, "Qarabağ həqiqətləri" adlı kitab nəşr edilmişdir. Məhz Heydər Əliyev Fondunun təşəbbüsü ilə Bakının ən mənzərəli yerlərindən olan Milli parkın ərazisində Beynəlxalq Muğam Mərkəzi inşa olunmaqdadır.

Azərbaycan idmanının inkişafı da daim Mehriban xanım Əliyevanı düşündürən məsələlərdəndir. Azərbaycan Gimnastika Federasiyasının prezidenti kimi Mehriban xanım bu idman növünün ölkəmizdə inkişafı üçün mühüm işlər görmüş və bütün bunların da nəticəsi olaraq Azərbaycan gimnastları son illərdə beynəlxalq turnirlərdən ən ali mükafatlarla vətənə dönmüşlər. Gimnastika üzrə beynəlxalq yarışların Azərbaycanda keçirilməsi də ilk növbədə Mehriban xanım Əliyevanın bu sahədə fəaliyyətinin uğurlu nəticəsidir.

Mehriban xanım Əliyeva həm də bir deputat kimi seçicilərinin böyük rəğbətini qazanmışdır. Onun təşəbbüsü ilə Mərdəkan, Binə, Şüvəlan, Türkan, Zirə və digər Bakıətrafı qəsəbələrdə geniş tikinti-abadlıq işləri həyata keçirilmiş, bir sıra yerlərə içməli su xətləri çəkilmiş, elektrik enerjisi şəbəkəsi yenidən qurulmuşdur. Deputat seçkiləri ərəfəsində verdiyi vədlərə əməl edən Mehriban xanımı vaxtaşırı məktəblərdə, uşaq bağçalarında, sadə adamların əhatəsində görmək olar. Hər gün Heydər Əliyev Fonduna yüzlərlə məktub və teleqram daxil olur, Mehriban xanım Əliyeva ilə görüşməyə can atanların, ona təşəkkür etməyə tələsənlərin sayı yüzlərlə, minlərlədir. Bu, hər insana qismət olan səadət deyil. Bu xoşbəxtliyi Mehriban xanımın özü qazanıb, onun halal haqqıdır. Belə bir səmimiyyət ilk əvvəl Mehriban xanımın milli təəssübkeşliyindən, xeyirxah niyyətindən və digər ali insani keyfiyyətlərindən irəli gəlir.

23 noyabr 2006-cı ildə Mehriban xanım Əliyeva ona İSESCO-nun xoşməramlı səfiri adı verilməsinə həsr edilmiş mərasimdə demişdir: "Biz öz fəaliyyətimizdə milli mədəni irsimizin qorunmasına çox diqqətlə yanaşırq. Eyni zamanda, Heydər

Əliyev Fondu dünyanın bir sıra elmi mərkəzləri ilə çox sıx əməkdaşlıq edir. Biz bir il ərzində fondumuzda bir neçə beynəlxalq konfrans keçirmişik. Bütün bu tədbirlərə dünya şöhrətli alimləri dəvət edirik və ölkəmizdə olan reallıqları, həqiqətləri onlara çatdırmağa çalışırıq. Bu da, öz növbəsində, dünyada Azərbaycanın həqiqi imicinin formalaşmasında böyük rol oynayır".

Mehriban xanım Əliyeva həm də əsl vətənpərvər bir insan kimi tanınır. Belə ki, Heydər Əliyev Fondunun fəaliyyətində Ermənistanın Azərbaycana təcavüzü, torpaqlarımızın işğalı, milli-mədəni abidələrimizin dağıdılması və ya erməniləşdirilməsi, azərbaycanlıların soyqırımı, erməni terror təşkilatlarının azərbaycanlılara qarşı cinayətkar əməlləri barədə əsl həqiqətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılması mühüm yer tutur. Bununla bağlı həyata keçirilən layihələrin müəllifi Mehriban xanım Əliyevadır. Fondun ötən il nəşr etdirdiyi "Qarabağ həqiqətləri" bukletlər toplusu Azərbaycan həqiqətlərinin dünyaya yayılması baxımından Mehriban xanım Əliyevanın fəaliyyətində ən uğurlu layihələrdən biridir. Bu il dünyanın bir çox ölkələrində Xocalı soyqırımı ilə bağlı keçirilən anma mərasimlərində Heydər Əliyev Fondunun göndərdiyi materiallardan geniş istifadə olunmuş, fondun təşəbbüsü ilə çəkilən sənədli film nümayiş etdirilmişdir.

Mehriban xanım Əliyevanın icimai-siyasi fəaliyyətinin ən ümdə qayəsi xalqının, millətinin rifahı üçün çalışmaq, bu işdə Azərbaycan Prezidenti cənab İlham Əliyevin siyasi kursuna dəstək verməkdir. İşgüzarlığı, insanlara doğma və mehriban münasibəti göstərir ki, Mehriban xanım Əliyeva Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri və deputat kimi üzərinə düşən bütün vəzifələri layiqincə yerinə yetirir. Bunu Mehriban xanım Əliyevanın ümummilli liderimiz Heydər Əliyevin ölkəmizin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqımızın maddi rifahının yaxşılaşması naminə müəyyən etdiyi siyasətin öyrənilməsinə, təbliğinə və bu ideyaların həyata keçirilməsinə verdiyi dəstək, ulu öndərin zəngin irsindən bəhrələnərək bu işə xidmət edən genişmiqyaslı layihələrin reallaşmasına etdiyi kömək təsdiq edir.

**Rüstəm Mikayılov,**
36 saylı Xətai dördüncü dairə
seçki komissiyasının sədri,
2 saylı Tibb-Sanitar hissəsinin baş həkimi

## HEYDƏR ƏLİYEV FONDUNDA "YENİLƏŞƏN AZƏRBAYCANA YENİ MƏKTƏB" PROQRAMININ İKİNCİ MƏRHƏLƏSİNİN TƏQDİMATINA HƏSR OLUNMUŞ "DƏYİRMİ MASA" KEÇİRİLMİŞDİR

Aprelin 6-da Heydər Əliyev Fondunda "Yeniləşən Azərbaycana yeni məktəb" proqramının ikinci mərhələsinin təqdimatına həsr olunmuş "dəyirmi masa" keçirilmişdir. Respublika hökumətinin, xarici ölkələrin səfirliklərinin, beynəlxalq humanitar təşkilatların və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin iştirak etdikləri tədbiri fondun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva açdı.

## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN XANIM ƏLİYEVANIN ÇIXIŞI

- Hörmətli xanımlar və cənablar!

İlk növbədə, sizi Heydər Əliyev Fondunda salamlayıram. Bugünkü "dəyirmi masa"mıza xoş gəlmisiniz.

Müasir dünyada hər bir ölkənin inkişafı, onun dünya birliyinə inteqrasiyası üçün təhsilin rolu əvəzsizdir. Məhz buna görə də Heydər Əliyev Fondu yarandığı ilk gündən təhsilə yardımı öz fəaliyyətinin prioritet istiqaməti elan etmişdir. Əgər xatırlayırsınızsa, ötən ilin iyun ayında Heydər Əliyev Fondu tərəfindən təhsil sahəsində hazırlanmış ən iri layihə olan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramının təqdimat mərasimində iştirak etmişdik.

Bizim məqsədimiz yeniləşən təhsil sisteminə yardım etmək, müasir təhsil komplekslərinin yaradılması, ölkəmizin hər bir yerində, ən ucqar kəndində də məktəbə gedən hər bir şagird üçün normal, gözəl şərait yaradılması idi. Bununla yanaşı, biz təhsildə olan problemlərə bütün cəmiyyətimizin diqqətini cəlb etməklə, bunların həllində fəal iştiraka dəvət edirdik. Həmin görüşdə biz belə

təklif səsləndirdik və ölkəmizdə fəaliyyət göstərən iş adamlarına, sahibkarlara, yerli və xarici şirkətlərə, qeyri-hökumət təşkilatlarına, diplomatik korpusa müraciət etdik və onları bu layihədə fəal iştiraka dəvət etdik. Ondan çox az bir vaxt keçdi və bu təklif ölkədə böyük əks-səda, rezonans yaratdı. Bizi dəstəkləyən, təşəbbüsümüzə qoşulan insanların və Heydər Əliyev Fondunun birgə səyləri nəticəsində "Yeniləşən Azərbaycana yeni məktəb" proqramının ilk mərhələsi çox böyük uğurla başa çatdı. Ötən il ərzində ölkəmizin 52 rayonunda 132 yeni məktəb inşa olunub istifadəyə verildi, ən müasir avadanlıqla təmin edildi. 22 mindən artıq yeni şagird yeri açıldı.

Mən bu gün fürsətdən istifadə edərək, həmin layihədə iştirak edən, bizi dəstəkləyən, bizə yardım edən, bu gözəl işə qatılan hər bir insana, hər bir təşkilata öz dərin minnətdarlığımı bildirmək istəyirəm.

Heydər Əliyev Fondunun prezidenti kimi mən ölkəmizin müxtəlif rayonlarında inşaat işlərinin gedişi ilə tanış olurdum. Mütəxəssislərin, yerli camaatın - şagirdlərin, müəllimlərin fikirlərini və təkliflərini dinləyirdim. Bir sıra məktəblərin açılışında iştirak etdim. Hesab edirəm ki, il ərzində 132 məktəbin tikintisi bütün Azərbaycanın, bütün cəmiyyətin uğurudur, qazancıdır. Belə böyük nailiyyətlə yanaşı, bu mühüm layihəni həyata keçirərkən biz böyük təcrübə də qazandıq. İnanıram ki, gələcəkdə Heydər Əliyev Fondu tərəfindən hazırlanıb həyata keçiriləcək başqa proqramlarda, layihələrdə də bu təcrübədən səmərəli istifadə olunacaqdır.

Hazırda ölkəmizdə yeni tədris binasına, müasir avadanlığa ehtiyacı olan yüzlərlə məktəb mövcuddur. İstilik sistemi olmayan, dam örtüyü axan, qış zamanı bağlanan, tədrisə yararsız olan məktəblərdə, əlbəttə ki, təhsilin də səviyyəsi bizi qane etməz. Ona görə Heydər Əliyev Fondu bu istiqamətdə işləri davam etdirməyi qərara alıb və biz "Yeniləşən Azərbaycana yeni məktəb" proqramının ikinci mərhələsinə başlayırıq.

Fond tərəfdən hazırlanmış işçi qrupu artıq fəaliyyətə başlayıb və 100 məktəbdən ibarət olan yeni siyahı hazırlanıbdır. Bu siyahıya Bakıda, Abşeronda və respublikamızın müxtəlif rayonlarında yerləşən məktəblər daxil edilmişdir. Həmin məktəblərin yeni tədris ilinin başlanmasına qədər istifadəyə verilməsi nəzərdə tutulur.

Xüsusi vurğulamaq istərdim ki, bu siyahıda olan məktəblərin çoxu

Bakıətrafı qəsəbələrdə yerləşən, 500 və daha çox şagirdlik məktəblərdir. Təbii ki, belə böyük məktəblərdə idman kompleksi, kitabxana, yeməkxana da nəzərdə tutulmalıdır.

Mən inanıram ki, biz bu proqramın ikinci mərhələsini də birlikdə uğurla həyata keçirəcəyik. İndi isə ölkəmizdə 2005-ci il ərzində orta ümumtəhsil məktəblərində inkişaf barədə çıxış üçün söz verilir təhsil naziri cənab Misir Mərdanova.

## TƏHSİL NAZİRİ MİSİR MƏRDANOVUN ÇIXIŞI

- Hörmətli tədbir iştirakçıları!

Xanımlar və cənablar!

Ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş və hazırda Prezident İlham Əliyev tərəfindən davam etdirilən uğurlu daxili və xarici siyasət nəticəsində ölkəmizdə bərqərar olmuş siyasi sabitlik və yüksək iqtisadi inkişaf sürəti bütün sahələrdəki kimi, təhsil sahəsində də ciddi irəliləyişlərə səbəb olmuşdur.

2005-ci ildə təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi, xüsusi qayğıya ehtiyacı olan uşaqlarin təhsilinin təşkili sahəsində bir sıra əhəmiyyətli tədbirlər həyata keçirilmiş, təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəlmiş inkişaf proqramları üzrə işlər aparılmışdır.

Ölkə rəhbərliyinin və şəxsən möhtərəm Prezidentimiz İlham Əliyevin yüksək diqqət və qayğısı nəticəsində 2005-ci ildə müxtəlif mənbələr hesabına ümumilikdə 49 min 732 yerlik 328 yeni məktəb və əlavə korpuslar, o cümlədən 36016 şagird yerlik 194 yeni məktəb, 134 məktəbdə 13 min 716 yerlik əlavə korpuslar inşa edilmişdir. İstifadəyə verilmiş 194 yeni məktəbdən 3 min 836 şagird yerlik 20 məktəb Dövlət proqramına əsasən, 10 min 120 yerlik 42 məktəb ayrı-ayrı nazirliklər, beynəlxalq və yerli təşkilatlar, bələdiyyələr, iş adamları tərəfindən tikilmişdir. Yeni məktəblərdən 22060 yerlik 132 məktəb, yəni məktəblərin 70 faizi bilavasitə Heydər Əliyev Fondunun təşəbbüsü ilə tikilmişdir. Bu, təhsil tariximizdə analoqu olmayan bir hadisədir və bütün ictimaiyyət, o cümlədən təhsil işçiləri tərəfindən böyük rəğbətlə qarşılanmışdır. Mən bir məsələni xüsusi qeyd etmək istəyirəm. Keçən ilin iyununda buraya toplaşıb bu proqramı elan edəndə, sözün düzü, qısa müddət ərzində bu qədər

işin görüləcəyinə məndə inam az idi. Çünki, nəzərə alsaq ki, bu məktəblərin əksəriyyəti dağlıq yerlərdə tikilirdi, yağış yağanda, havalar pis olanda oralara getmək belə çətin olur. Bir neçə ayda bu qədər işin görülməsi Azərbaycan tarixində həmişə yadda qalacaqdır. Şübhəsiz ki, ölkəmizdə məktəb tikintisinin belə geniş vüsət almasında Heydər Əliyev Fondunun xüsusi rolu vardır. Məhz Fond tərəfindən hazırlanmış "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı öz coğrafıyasına görə bütün ölkəni əhatə etmişdir. Ən əhəmiyyətlisi isə budur ki, on illərlə təmir edilməmiş, tam yararsız və qəza vəziyyətində olan, təlim-tərbiyə üçün heç bir şəraiti olmayan məktəblərin yerində müasir standartlara uyğun yeni binalar tikilmiş, keyfiyyətli avadanlıqla təmin edilmiş və şagirdlərin istifadəsinə verilmişdir. Proqrama əsasən Naxçıvan MR-də 6, Quba rayonunda 14, Yardımlı rayonımda 6, Ağcabədi rayonunda 5, Cəlilabad, Şəmkir, Şamaxı, Qusar, Oğuz rayonlarınm hər birində 4, Goranboy, Xaçmaz, Şəki, Tovuz, Ağstafa, İsmayıllı, Kürdəmir, Xanlar, Dəvəçi, Samux, Biləsuvar, Bərdə, Siyəzən, Astara rayonlarının hər birində 3, Qəbələ, Qazax, Sabirabad, Hacıqabul, Beyləqan, Tərtər, Lənkəran, İmişli, Yevlax, Salyan, Masallı, Ağsu, Lerik, Qobustan rayonlarının hər birində 2, Gədəbəy, Neftçala, Saatlı, Daşkəsən, Göyçay, Ağdaş, Zərdab, Zaqatala, Qax, Balakən, Ucar rayonlarının hərəsində 1 məktəb üçün yeni binalar inşa edilmişdir.

Eyni zamanda, 2005-ci ildə Heydər Əliyev Fondu tərəfindən Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunda Şahtaxtı kənd məktəbi əsaslı təmir edilmiş, Sabunçu rayonundakı 112 nömrəli məktəb üçün 350 yerlik əlavə korpus tikilmişdir.

Xüsusi vurğulamaq lazımdır ki, məktəblərin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi sahəsində həyata keçirilən tədbirlər, xüsusilə Heydər Əliyev Fondunun təşəbbüsü ilə yeni məktəb binalarının inşası ölkəmizdə yoxsulluğun azaldılmasına və iqtisadi inkişafa da müsbət təsir göstərmiş, ölkənin müxtəlif regionlarında kasıb ailələrdən olan uşaqlar üçün bərabər təhsil imkanlarının yaradılmasına səbəb olmuşdur.

Heydər Əliyev Fondu tərəfindən xüsusi qayğıya ehtiyacı olan, kimsəsiz, valideyn himayəsindən məhrum, müəyyən mənada cəmiyyətin diqqətindən kənarda qalan uşaqların təhsilinin təşkili, onların təhsil aldığı müəssisələrin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi istiqamətində də

məqsədyönlü işlər görülmüşdür.

Belə ki, 2004-2005-ci illərdə Heydər Əliyev Fondunun təşəbbüsü və təşkilatçılığı ilə xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil aldığı 23 müəssisədə (3 xüsusi məktəb, 16 xüsusi və ümumtəhsil internat məktəbi, 4 uşaq evi) müasir standartlara uyğun əsaslı təmir, bərpa və yenidənqurma işləri aparılmışdır. Həmin müəssisələr avadanlıqla təmin edilmiş, burada tərbiyə və təhsil alan 6759 uşaq yüksək diqqət və qayğı ilə əhatə olunmuş, onlar üçün bərabər imkanlar yaradılmışdır.

Fond tərəfindən hazırlanmış "Uşaq evləri və internat məktəblərinin inkişaf proqramı"nın birinci mərhələsi başa çatmış, ikinci mərhələ üzrə işlər davam etdirilir. Bu mərhələdə respublikanın bölgələrindəki uşaq evləri və internat məktəblərində müvafiq işlər görüləcəkdir. Heydər Əliyev Fondu Azərbaycan təhsili üçün yeni olan inklüziv layihələrin həyata keçirilməsinə də yaxından kömək edir. İnklüziv təhsil zamanı xüsusi qayğıya ehtiyacı olan uşaqlar kütləvi məktəblərdə və uşaq bağçalarında sağlam uşaqlarla birlikdə təhsil alırlar. Təhsilin belə bir formada təşkili xüsusi qayğıya ehtiyacı olan - əqli və ya fiziki cəhətdən qüsurlu uşaqları cəmiyyətdən və yaşıdlarından təcrid olunmaqdan xilas edir, onların adi həyata inteqrasiyasına, inkişafına və hüquqlarının təmin olunmasına kömək edir. Sağlam uşaqlarda isə bu qəbil həmyaşıdlarına qarşı mərhəmət, qayğı hisslərinin formalaşmasına səbəb olur. Bu səbəbdən Azərbaycan təhsil sistemində də inklüziv təhsilin təşkili üzrə pilot layihələrinin həyata keçirilməsinə başlanmışdır.

Hazırda beynəlxalq təşkilatlarla birlikdə 3 inklüziv təhsil layihəsi həyata keçirilir. Bu layihələr çərçivəsində ümumilikdə 30-dək təhsil müəssisəsində xüsusi qayğıya ehtiyacı olan 100-dən artıq məktəbəqədər və məktəbyaşlı uşaq sağlam həmyaşıdları ilə birlikdə inklüziv təhsilə cəlb edilmişdir.

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın səyləri nəticəsində son zamanlar Təhsil Nazirliyinin YUNESKO ilə əməkdaşlığı xeyli genişlənmişdir. Məhz Mehriban Əliyevanın təşəbbüsü ilə Azərbaycan təhsilinin inkişafına həsr olunmuş iki konfransdan birincisi Parisdə, ikincisi isə YUNESKO-nun baş direktorunun iştirakı ilə Azərbaycanda təşkil edilmiş, YUNESKO və Təhsil Nazirliyi arasında memorandum imzalanmışdır. Memorandumda nəzərdə tutulan

tədbirlərin həyata keçirilməsi ilə əlaqədar YUNESKO-nun nümayəndə heyəti 2005-ci il dekabrın 13-17-də Azərbaycanda səfərdə olmuş, texniki peşə təhsili, müəllim hazırlığı və ixtisasartırma təhsilinin təkmilləşdirilməsi üzrə 2006-2007-ci illər üçün fəaliyyət planı tərtib edilmişdir.

Ölkə Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən, 2006-cı ildə də məktəb tikintisi sahəsində ciddi işlər görüləcəkdir. Belə ki, məktəb tikintisi sahəsində dövlət proqramlarına, Heydər Əliyev Fondunun və Səudiyyə İnkişaf Fondunun layihələrinə əsasən 91 min 572 yerlik 230 yeni məktəbin və əlavə korpusun (163+67) inşasına başlanacaq, onlardan 44 min 438 yerlik 167 yeni məktəb və əlavə korpus (118+49) təhvil veriləcəkdir. 69 məktəbin əsaslı təmirinə başlanacaq, cari ildə 59 məktəb əsaslı təmir ediləcəkdir. Əvvəlki illərdən fərqli olaraq 2006-cı ildə Təhsil Nazirliyinin xətti ilə əsaslı təmir işləri aparılacaqdır. Plana əsasən, ölkənin 32 regionunda 46 təhsil müəssisəsi, o cümlədən 44 məktəb və 2 uşaq bağçası əsaslı təmir ediləcəkdir.

Heydər Əliyev Fondu tərəfindən cari ildə də məktəb tikintisi və təmiri üzrə xüsusi proqram hazırlanmışdır. Proqrama ölkənin qəza vəziyyətində olan ümumtəhsil məktəbləri üçün yeni binaların inşası, bir sıra məktəblərin yanında əlavə korpusların tikintisi, bəzi məktəblərin əsaslı təmiri daxil edilmişdir. Proqramda 2006-cı ildə 16 min 277 yerlik 78 yeni məktəb binasının, 12 məktəbin yanında 2460 yerlik əlavə korpusların inşası, 12 məktəbin əsaslı təmiri nəzərdə tutulmuşdur. Bu proqram da ölkənin bütün regionlarını əhatə etmişdir. Nəzərdə tutulur ki, Naxçıvan MR-də 4, Şəki rayonunda 3, Salyan, Biləsuvar, Yardımlı, Masallı, Daşkəsən, Quba, Qobustan, Qusar, Xızı, İsmayıllı, Şamaxı, Qazax, Tərtər, Goranboy, Tovuz, Oğuz, Zərdab, Göyçay, Ağsu, Ağstafa, Qax, Abşeron rayonlarının hər birində 2, Yevlax, Bərdə, Beyləqan, İmişli, Sabirabad, Saatlı, Hacıqabul, Neftçala, Ağcabədi, Kürdəmir, Ağdaş, Astara, Cəlilabad, Lerik, Lənkəran, Xanlar, Samux, Xaçmaz, Dəvəçi, Siyəzən, Gədəbəy, Ucar, Şəmkir, Zaqatala, Balakən, Qəbələ rayonlarının hərəsində və Bakı şəhərinin Əzizbəyov rayonunda bir məktəb binası inşa ediləcək.

Eyni zamanda, proqram çərçivəsində Abşeron rayonunda, Bakı şəhərinin Binəqədi. Sabunçu, Əzizbəyov, Suraxanı və Qaradağ rayonlarında ümumilikdə 12 məktəbin yanında əlavə korpuslar inşa olunacaq və 12 məktəb əsaslı təmir ediləcəkdir.

Bütün bunlar Heydər Əliyev Fondunun təhsilin inkişafı sahəsində həyata keçirdiyi tədbirlərin yalnız bir hissəsidir. Fond tərəfindən milli bayramlar, əlamətdar günlərdə təşkil edilən xeyriyyə tədbirləri, uşaqlar arasında keçirilən müxtəlif müsabiqələr, təhsil müəssisələrinə göstərilən gündəlik qayğı bütün təhsil ictimaiyyətinin yaxşı yadındadır.

Bütün təhsil işçilərinin arzusunu ifadə edərək, Heydər Əliyev Fonduna, fondun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevaya dərin minnətdarlığımı bildirir, şərəfli fəaliyyətində yeni-yeni uğurlar diləyirəm.

MEHRİBAN ƏLİYEVA: Çox sağ olun, Misir müəllim, çox ətraflı məlumat verdiniz. Fondun fəaliyyəti barədə çox gözəl sözlər dediniz, təşəkkür edirəm.

Biz "Yeniləşən Azərbaycana yeni məktəb" proqramını həyata keçirərkən həm birinci və inanıram ki, həm də ikinci mərhələdə dövlət qurumları ilə sıx, çox səmərəli əməkdaşlıq qurmuşuq. Hər iki mərhələdə biz məktəblərin layihələrinin hazırlanması zamanı bir sıra dövlət layihə institutları ilə birlikdə çalışmışıq. İndi bu barədə daha geniş məlumat üçün Baş nazirin müavini cənab Abid Şərifova söz verilir. Buyurun.

## BAŞ NAZİRİN MÜAVİNİ ABİD ŞƏRİFOVUN ÇIXIŞI

- Hörmətli Mehriban xanım!

Hörmətli xanımlar, cənablar!

Əgər yadınızdadırsa, burada oturanların əksəriyyəti 2005-ci il iyunun əvvəlində toplantıda iştirak etmişdi. O zaman Mehriban xanım tərəfindən, Fond tərəfindən deyərdim ki, birinci dəfə olaraq, dövlət əhəmiyyətli, Azerbaycanın bütün bölgələri üçün çox əhəmiyyətli bir layihə burada müzakirəyə çıxarılmışdı. Sözün doğrusu, o vaxt bəlkə də bu masa arxasında oturanların əksəriyyəti bu layihənin gerçəkləşəcəyinə inanmırdı.

Əgər yadınızdadırsa, o zaman mən də məlumat verdim, ancaq özümdə də şübhə var idi. Ancaq tam səmimi deyirəm, Mehriban xanımın istər layihələşdirmə mərhələsində, istər tikinti mərhələsində işlərin gedişi ilə maraqlanması, bilavasitə həmin obyektlərə getməsi, bir sözlə, inadkarlığı sayəsində haradasa, 4-5 ay ərzində 132 məktəb tikildi. Burada qeyd olunduğu kimi məktəblərin də tam əksəriyyəti dağlıq yerlərdə tikilir, bu, işləri daha da

çətinləşdirirdi. Amma buna baxmayaraq, ilin axırına qədər bu məktəblərin hamısı hazır oldu.

Azərbaycanın bölgələrində olan adamlar bilir ki, əksər məktəblərdə, hətta rayon mərkəzlərindəki məktəblərdə istilik sistemi yoxdur.

Mehriban xanım, o zaman siz inadkarlıqla hamıya - layihəçilərə, inşaatçılara tapşırdınız ki, bütün məktəblərdə istilik sistemi olmalıdır. Sonra, Azərbaycanda uzun müddət ərzində tikilən məktəblərin tam əksəriyyətinin damı şiferlə örtülübdür. Şifer heç bir standarta uyğun gəlməyən istər Avropada, istər başqa qitələrdə ümumiyyətlə, qadağan olunmuş bir tikinti materialıdır. Biz Mehriban xanımdan göstəriş aldıq ki, o materialın işlədilməsi qəti qadağandır. Yalnız metal və keramika - yəni ekoloji baxımdan zərərsiz material işlədilməlidir. Mən deyərdim, birinci dəfədir ki, Azərbaycanda 132 məktəbin dam örtüyü də, konstruktiv elementləri də bütün müasir tələblərə uyğundur. Düzdür, - Mehriban xanım, bunu siz mənə demisiniz, - bəzi çatışmazlıqlar olub, bunu bilirik. Çalışmışıq və çalışacağıq ki, bunları da aradan qaldıraq. Onu deyim ki, məktəblərin tam əksəriyyəti mərkəzləşdirilmiş qaydada yox, sobalar vasitəsilə qızdırılır. Ancaq bu dəfə Mehriban xanım tərəfindən belə bir məsləhət verildi ki, bütün məktəblərdə istilik sistemi olmalıdır, yəni siniflərdə soba qoyulması qəti qadağandır. İstər dağ kəndi, istər aran kəndi olsım, fərqi yoxdur, bütün məktəblərdə mərkəzləşdirilmiş istilik sistemi olmalıdır.

Mehriban xanım burada dedi - idman salonu məsələsi. Biz hələlik keçmiş normativlərlə işləyən adamlarıq, 240 yerlikdən aşağı məktəblərdə belə şeylər nəzərdə tutulmurdu. Amma biz bu normativləri bir kənara qoyduq. Həmin məktəblərin tam əksəriyyətində idman salonları və digər lazımi əlavə otaqlar nəzərdə tutulmuşdur.

Bir məsələni də diqqətinizə çatdırmaq istərdim. 40 ildən çox inşaatda işləyən, sovet vaxtında onlarca məktəbin tikintisində iştirak edən adam kimi deyirəm ki, ən böyük problem avadanlıq təchizatı ilə əlaqədar idi. O vaxtlar Baltikyanı ölkələrdən gətirilən partalar hələ ən yaxşı avadanlıq sayılırdı, lakin onlar da elə bir şey deyildi. Ancaq xüsusi olaraq Fond tərəfindən alınan avadanlıq, deyərdim ki, ən müasir standartlara uyğundur.

Mehriban xanım, mən sizə bu barədə məlumat vermişdim, yenə demək istəyirəm.

On illərlə qeyri-münasib şəraitdə dərs deyən müəllimlər, habelə şagirdlər, sakinlər də inanmırdılar ki, belə qısa bir müddətdə kəndlərində bu cür gözəl məktəblər olacaqdır. Amma o proqram həyata keçirildikcə mən bu insanların, o cümlədən uşaqların sevincinin şahidi olmuşam. Mehriban xanım, hansısa məktəbin tikintisi ilə əlaqədar rayonlara gedəndə hamı sizə minnətdarlıq edirdi. Özünüz dəfələrlə bunun şahidisiniz, çünki istər tikinti vaxtı, istərsə də sonra məktəblərin çoxunda olmusunuz və bu insanlarda sizə qarşı olan məhəbbəti görmüsünüz. İndi də mütəxəssislər layihə işlərinə başlamaq üçün sizin tapşırığınızla rayonlara gedəndə bunun şahidi olurlar.

Siz dediniz ki, bu mərhələdə 100-dən artıq məktəbin tikilməsi nəzərdə tutulur və sentyabrın 1-dək işlər başa çatmalıdır. İstər inşaatçılar, istər layihəçilər, istərsə də bizə kömək edən adamlar - hamımız çalışacağıq ki, məktəb binaları əvvəlkindən daha keyfiyyətli təhvil verilsin. Əvvəlkilərlə müqayisədə layihələrdə yeniliklər də nəzərdə tutulmuşdur. Mehriban xanım, layihələri burada stenddə düzmüşük. Bunlar Azərbaycan Dövlət Layihə İnstitutunda işlənmişdir. Lazım olarsa, institutun direktoru Yaşar Mirzəzadə qısa məlumat verər. Ancaq onu deyə bilərəm ki, sizin tapşırığınıza əsasən, layihələrin hamısı aprelin sonuna qədər Təhsil Nazirliyinə veriləcəkdir.

Misir müəllim dedi, uzun müddət inşaatda işləyən adam kimi mən də təkrar edirəm ki, bir ildə Azərbaycanda 132 məktəbin tikilməsi möcüzəyə bənzəyən bir işdir. İnşaatçı yox, bir valideyn, bir vətəndaş kimi istərdim sizə öz dərin təşəkkürümü, minnətdarlığımı bildirim. Əmin ola bilərsiniz, hər bir azərbaycanlı əlindən gələni edəcək ki, sizin təşəbbüsünüz olan bu proqram vaxtında və keyfiyyətlə həyata keçirilsin.

Diqqətinizə görə çox sağ olun!

## "AZƏRDÖVLƏTBAŞLAYİHƏ" İNSTİTUTUNUN DİREKTORU YAŞAR MİRZƏZADƏNİN ÇIXIŞI

- Hörmətli Mehriban xanım! Hörmətli xanımlar və cənablar!

Böyük qürur və fəxr hissi ilə bu şərəfli işin - məktəb binalarınm tikilməsinə dair layihələrin respublikanın aparıcı institutlarma tapşırıldığı üçün hörmətli Mehriban xanıma əvvəlcədən bütün kollektivlər adından öz minnətdarlığımı bildirmək istəyirəm.

Respublikamızın rayon və kəndlərinə ezam olunaraq topoqrafik və geoloji axtarış işlərinə başlayarkən kənd əhalisi - (müəllimlər, şagirdlər gəlişimizin məqsədini, yəni Heydər Əliyev Fondu hesabına yeni məktəb binasının tikiləcəyini biləndə sevinclərini, minnətdarlıqlarını sizə çatdırmağı bizdən xahiş edirdilər. On illərlə məktəblər tikilmirdi, 2005-ci ildə isə 132 məktəb 3-4 ay ərzində inşa olımdu. Biz layihəçilərin də fikrincə, bu, tarixi bir hadisə idi. Kəndlərin, qəsəbələrin sakinləri də bu işlərdə təmənnasız işləyir, ürəklə kömək edirdilər.

Hazırda layihələndirdiyimiz məktəblərin respublikamızm rayonlarında və Bakınm ətraf qəsəbələrində tikilməsi nəzərdə tutulmuşdur. Rayon və kəndlərdə 100, 200 və 240 şagirdlik birtipli məktəblərin tikilməsi, Bakıətrafı qəsəbələrdə isə 100, 180, 200, 240, 500 və daha artıq şagirdlik əlavə korpusların və idman salonlarının tikilməsi tapşırılmışdır. Əlavə korpusların tikiləcəyi məktəblərin əsaslı təmiri və istilik təchizatı da nəzərdə tutulmuşdur.

Keçən il kənd məktəbləri odun sobaları ilə qızdırılırdısa, bu il məktəbləri daşkömür və ya odunla işləyən qazanxanalar istiliklə təmin edəcəkdir.

Şagirdlərin sayı 240 və çox olan məktəblərdə idman salonları da layihələndirilmişdir.

Məktəb binalarının tikintisində işlənilən inşaat materialları əsasən yerli materiallardan ibarətdir. Belə ki, əsas yükdaşıyan divarlar əhəngdaşıdan, arakəsmələr kərpicdən, örtüklər monolit dəmir-betondan, çardaq tipli dam örtüyü metal kirəmitdən, döşəmələr taxtadan, pəncərələr metal plastikdən, qapılar isə ağac materiallarmdan olacaqdır. Məktəblərin plan həllində bəzi dəyişikliklər aparılmışdır. Layihələndirmə artıq başa çatmaq üzrədir. Ekologiya, yanğından mühafizə məsələləri və s. müvafiq qurumlarla razılaşdırılaraq Dövlət Baş Ekspertiza İdarəsinin rəyindən sonra yaxın günlərdə Sifarişçiyə təqdim ediləcəkdir.

Hörmətli Mehriban xanım, bir daha sizə öz minnətdarlığımızı bildirir, respublikamızın inkişafı üçün gələcək layihələrinizdə bizim də iştirak etməyimizi arzulayaraq, sizə uğurlar diləyirik.

MEHRİBAN ƏLİYEVA: Çox sağ olun! Mən qeyd etdim ki, biz bu layihənin birinci mərhələsini həyata keçirərkən böyük təcrübə qazandıq. Abid müəllim, siz düz dediniz, artıq istifadəyə verilən məktəblərə baxanda görürük

ki, bir sıra qüsurlar var. Bu da təbiidir, çünki çox irimiqyaslı bir layihədir və olduqca qısa müddətdə həyata keçirildi. Məqsəd belə qoyulmuşdu ki, çox qısa bir zamanda tikinti başa çatsın. Çünki o məktəblərdəki şəraiti buradakı tədbirdə hamımız görmüşdük. Mən hesab edirəm ki, o cür şəraitdə nəinki təhsil almaq, orada heç 5-10 dəqiqə qalmaq da çətin idi. Ona görə də tikintidə bəzi qüsurlar oldu. İkinci mərhələdə onlar təhlil edilir, öyrənilir. Siz dediniz, təbii ki, bugünkü müasir dünyada artıq o normativlər işləyə bilmir. Ona görə də biz müasir tələblərə cavab verən məktəblər inşa edəcəyik. İkinci mərhələdə istilik sistemi artıq mərkəzləşmiş olacaq, başqa səhvlər də aradan qaldırılacaqdır. Bir də qeyd edirəm ki, belə layihənin həyata keçirilməsi yalnız birgə səylərimizin nəticəsidir. Yerli insanlar da nə qədər həvəslə, canıyananlıqla inşaatçılara kömək edirdilər. Sahibkarlar, şirkətlər, qeyri-hökumət təşkilatları, diplomatik korpus - hamının birgə səyləri nəticəsində belə bir layihəni qısa zamanda reallaşdırmaq mümkün oldu.

Sonra YUNİSEF-in Azərbaycandakı nümayəndəsi Hana Singerə söz verildi.

## YUNİSEF-in AZƏRBAYCANDAKI NÜMAYƏNDƏSİ HANA SİNGERİN ÇIXIŞI

- Çox sağ olun Mehriban xanım!

Mən çox fərəh hissi ilə görürəm ki, üzərinizə götürdüyünüz öhdəliklər hökumətin ən yüksək rütbəli şəxsləri tərəfindən bu cür qavranılır, ölkə rəhbərliyi buna xüsusi diqqət yetirir. Bilirəm ki, gələcək illər ərzində get-gedə iş artacaqdır. Çox şadam ki, Azərbaycanda yeni məktəblərin tikintisi üçün can yandırırsınız, buna böyük ehtiyac var. Nəzərə almalıyıq ki, böyük çətinliklər var, iş çətindir, mürəkkəbdir. Ancaq eyni zamanda, avadanlıqla təchizata xüsusi diqqət yetirilməlidir. Səhiyyə Nazirliyi də nəzər yetirməlidir ki, orada hər şey beynəlxalq standartlara uyğundur, yoxsa yox.

Burada söhbət uşaqlardan gedir. Xüsusi diqqət yetirilməlidir ki, həm tədris edənlər, həm də təhsil alanlar arasında interaktiv bir əlaqə olsun. Tədris sisteminə daha çox adi insanlar cəlb olunmalı və eyni zamanda, müəllimlər üçün də treninqlər təşkil edilməlidir. Əgər biz uğurlardan danışırıqsa, təhsilin yüksək səviyyədə həyata keçirilməsini arzulayırıqsa, onun standartlarına xüsusi nəzər yetirməliyik. Mən səmimi qəlbdən hamınıza bildirirəm ki, bu gün Azərbaycanda

çox vacib bir layihənin artıq ikinci mərhələsinə başlanır. Mehriban xanım, sizə təbriklərimi yetirirəm, təhsil işçilərini təbrik edirəm.

MEHRİBAN ƏLİYEVA: Çox sağ olun! Siz qeyd etdiyiniz problemlər çox aktualdır və həm Fondda, həm də dövlət strukturlarında onlar barədə hər zaman düşünürük. Tikinti işləri ilə yanaşı, təhsilin səviyyəsi təhsil sisteminin yeniləşməsi çox aktual problemdir. Siz bilirsiniz, proqram qəbul edilib ki, məktəblər kompyuterləşdirilməlidir. Biz yüksək texnologiyaları məktəblərə gətirməyə çalışırıq. Əlbəttə, bu baxımdan müəllimlərin treninqi çox mühüm məsələdir və dövlət tərəfindən də bununla bağlı bir sıra layihələr hazırlanır. Fond da bu istiqamətdə işlər aparır.

## GÜRCÜSTANIN AZƏRBAYCANDAKI SƏFİRİ ZURAB QUMBERİDZENİN ÇIXIŞI

- Hörmətli Mehriban xanım!

Xanımlar və cənablar!

Bir il bundan əvvəlki görüşdə iştirak edərkən mənə də çətin görünürdü ki, təhsil sahəsində belə irimiqyaslı layihə qısa müddətdə necə həyata keçirilə bilər. Biz çox şadıq və görürük ki, düşündüyümüzdən də artıq iş görmək olarmış. Mən çox şadam ki, belə şərəfli bir layihə sizin rəhbərlik etdiyiniz fond tərəfindən uğurla həyata keçirilir, ikinci mərhələyə daha nikbinliklə başlayırsınız. Sizə və bu layiqli işlərdə sizə köməkçi olanların hamısına öz həmkarlarım adından təşəkkür edirəm. Sizin rəhbərlik etdiyiniz Heydər Əliyev Fondunun Azərbaycanın inkişafı naminə gördüyü işlərdəki uğurlarına sevinirik. Biz fondla əməkdaşlığa, sizin elan etdiyiniz xeyirxah məramlı hər bir çağırışa səs verməyə, onu dəstəkləməyə hər zaman hazırıq.

MEHRİBAN ƏLİYEVA: Çox sağ olun! Fond hər zaman əməkdaşlığa hazır olan bir təşkilatdır. Biz bəyan etmişik ki, dövlət qurumu və ya qeyri-dövlət qurumu, yaxud diplomatik korpus tərəfindən olsun - biz hər cür əməkdaşlığa hazırıq. Hazırda Heydər Əliyev Fondu tərəfindən proqram hazırlayırıq ki, ölkə xaricində - Rusiyada, Gürcüstanda yaşayan azərbaycanlı şagirdlər üçün də ilk mərhələdə belə məktəblər tikilsin. Bu da böyük, geniş bir proqramın ilk mərhələsidir. Gələcək görüşlərdə yəqin ki, bu haqda ətraflı danışacağıq. Təkliflərinizə görə təşəkkür edirik.

Əziz dostlar!

Mən sonda inşaatçılara, layihə institutunun əməkdaşlarına, dövlət qurumlarına, qeyri-hökumət təşkilatlarına, iş adamlarına bir daha öz təşəkkürümü bildirmək istəyirəm ki, onlar çox böyük kömək göstərdilər, bizim birgə səyimizlə bu layihə həyata keçirildi. "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsinin birinci mərhələsi Heydər Əliyev Fondunun cəmiyyətdə mövqeyini nümayiş etdirdi, ən əsası odur ki, böyük inam yaratdı. İradə olan, istək olan yerdə çox problemlər öz həllini tapır, çox işlər görülür. Ona görə mən inanıram ki, ikinci mərhələ də çox uğurla başa çatacaqdır. Bu istiqamətdə biz işlərimizi davam etdirəcək və gələcəkdə daha böyük uğurlar qazanacağıq.

Çox sağ olun!

* * *

Sonra monitorda ötən il inşa edilən məktəblərin köhnə və yeni binaları, habelə bu il inşasına başlanacaq təhsil obyektlərinin hazırkı vəziyyəti nümayiş etdirildi, yeni layihələrə baxış oldu.

"Dəyirmi masa" iştirakçıları fondun mədəniyyət, təhsil layihələri, kitablar, dərslik və məktəb ləvazimatlarından ibarət sərgi ilə də tanış oldular.

# HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKONUN VƏ İSESCONUN XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN ƏLİYEVANIN FRANSAYA SƏFƏRİ

Aprelin 3-də, Parisdə YUNESKO-nun xoşməramlı səfirlərinin ənənəvi illik yığıncağı keçirilmişdir. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva yığıncaqda iştirak etmişdir.

Yığıncağı YUNESKO-nun baş direktoru Koişiro Matsuura açmışdır. Sonra sədrlik edən İordaniya şahzadəsi xanım FİRYAL Azərbaycanın birinci xanımı Mehriban Əliyevanı iştirakçılara təqdim edərək dedi:

- Mən olduqca fəal xoşməramlı səfir və çox hörmətli birinci xanımı təqdim etməkdən böyük məmnunluq duyuram. O, öz ölkəsində və bütün dünyada bir çox xeyriyyə işlərinin həyata keçirilməsi məqsədilə yorulmaz fəaliyyət göstərir.

Birinci xanım olduqca qısa müddət ərzində böyük nailiyyətlər əldə etmişdir. İndi isə mən Azərbaycanın birinci xanımı Mehriban Əliyevanı şərəf hissi ilə təqdim edirəm.

Azərbaycanın birinci xanımı, YUNESKO-nun xoşməramlı səfiri
Mehriban Əliyevanın çıxışı

- Hörmətli cənab baş direktor!

Hörmətli xoşməramlı səfirlər!

Xanımlar və cənablar!

İlk növbədə, mən YUNESKO-nun iqamətgahmda illik ənənəvi yığıncaqda bütün həmkarları salamlamaq, bu tədbiri təşkil etdiyinə görə baş direktor cənab Koişiro Matsuuraya minnətdarlığımı bildirmək istəyirəm.

Eyni zamanda, Qətərdə keçirilmiş "Tərəfdaşlığın qurulması və yeni yanaşmaların tətbiqi" mövzusunda uğurlu regional konfrans münasibətilə cənab

Koişiro Matsuuranı təbrik edirəm. "Hamı üçün təhsil" proqramı çərçivəsində yekun regionai konfrans 2008-ci ildə Azərbaycanda keçiriləcəkdir. Bu fürsətdən istifadə edərək mən sizi həmin konfransda iştirak etməyə dəvət edirəm. Əminəm ki, Bakı konfransı "Hamı üçün təhsil" proqramının həyata keçirilməsinə doğru atılmış əlavə uğurlu addım olacaqdır.

Ötən ilin yaddaqalan tədbirlərindən biri "Qeyri-maddi mədəni irsin qorunması haqqında" Konvensiyanı ratifikasiya etmiş ölkələrin Baş Assambleyasının birinci iclası oldu. Məmnunluqla sizə məlumat vermək istəyirəm ki, Azərbaycan həmin Konvensiyanı bu ilin martında ratifikasiya etmişdir. Qeyri-maddi mədəni irs mədəniyyətin ifadə olunmasının. ən qədim foraıalanndan biridir. Təbii ki, qeyri-maddi mədəni irsin saxlanılması və qorunması qarşımızda duran əsas məsələlərdəndir.

Ötən il Heydər Əliyev Fondunun fəaliyyətində çox məhsuldar il olmuşdur. Bu günə qədər bir sıra layihələr artıq başa çatdırılmışdır. Onlardan biri, məsələn, "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi uğurla həyata keçirilir. Heydər Əliyev Fondu təhsil, elm, mədəniyyət, səhiyyə və ətraf mühitin qorunması sahələrində öz işini davam etdirmişdir.

Mən bir neçə layihə haqqında əlavə məlumat vermək istəyirəm.

Heydər Əliyev Fondu, Vaşinqton Elmlər Akademiyası və YUNESKO "Orta əsrlər əlyazmalarında tibb və əczaçılıq" adlı ilk beynəlxalq konfrans təşkil etmişdir. Tibb elminə aid Azərbaycanda saxlanılan üç nadir əlyazma Ümumdünya Yaddaş Qeydiyyatına salınmışdır. Həmin Qeydiyyatda ümumən 120 əlyazma öz əksini tapmışdır. Bu əlyazmalar nəinki ayrı-ayrı dövlətlər, o cümlədən bütün bəşəriyyət üçün çox əhəmiyyətlidir. Konfransın işində bir çox ölkələrin tanınmış alimləri iştirak etmişdir və Fondumuz həmin mühüm proqrama dəstəyini davam etdirəcəkdir.

Heydər Əliyev Fondu memarlıq abidələrinin bərpasında fəal surətdə iştirak edir. Ötən il ərzində biz Cavad xanın türbəsi, Pir Həsən, Mövsüm Səlim və Həzrəti Zeynəb məscidləri kimi bir sıra tarixi və dini abidələri bərpa etmişik.

Biz həmçinin ölkəmizin hüdudlarından kənarda yerləşən ümumbəşəri mədəni abidələrin bərpasında iştirak edirik.

Bildiyiniz kimi, Versal sarayı 1979-cu ildən etibarən Dünya İrsi siyahısına salınmışdır. Sarayın parkında yerləşən bir neçə qədim abidə zamanın və iqlim

şəraitinin təsiri nəticəsində zədələnmişdir. Təqribən 15 abidə təcili surətdə bərpa olunmalıdır. Fondumuz parkda iki abidənin bərpası məqsədi ilə 2006-cı il avqustun 10-da müqavilə imzalamışdır. Bərpa işləri 2007-ci il iyulun 15-də başa çatdırılacaqdır.

Ötən il ərzində Heydər Əliyev Fondu Azərbaycan muğamı kimi təkrarolunmaz fenomenə böyük dəstək vermişdir. Bu fürsətdən istifadə edərək mən bir sıra muğam layihələrini dəstəklədiyinə görə YUNESKO-ya öz minnətdarlığımı bildirir, onların uğurla həyata keçirilməsi haqqında məlumat vennək istəyirəm.

Beynəlxalq Muğam Mərkəzinin tikintisi davam edir. Baş direktor cənab Koişiro Matsuura həmin Mərkəzin təməlinin qoyulması mərasimində iştirak etmişdir. Ümidvaram ki, o, 2008-ci ilin yayında Muğam Mərkəzinin açılış mərasimində də iştirak edəcəkdir.

Hazırda, Siz slaydda Mərkəzin çox müasir memarlıq üslubunda işlənilmiş layihəsini görürsünüz, lakin eyni zamanda, binanın özü bizim milli musiqi alətlərinə bənzəyir.

Biz muğam gecələrini keçirməkdə davam edirik. İndi isə, siz həmin konsertlərdən şəkilləri seyr edirsiniz. Biz eyni zamanda, muğam haqqında orta əsrlər traktatlarını çap etmişik. Bu gün, biz sizə muğama həsr olunmuş jurnalı nümayiş etdiririk. Həmin jurnal bu istiqamətdə YUNESKO-nun dəstəyi ilə Heydər Əliyev Fondu tərəfindən görülmüş işlərdən bəhs edir.

Yekunda mən Pakistanda qızlar məktəbinin tikintisi layihəsi haqqında bir neçə söz demək istəyirəm. Bu şəkillərdə siz dəhşətli zəlzələnin nəticələrini və ölən; yaralanan insanlar barədə məlumatı görürsünüz. Təkcə zədələnmiş məktəblərin sayı minlərlədir. Dağıntılar nəticəsində uşaqlar ya çöldə, yaxud da çadırlarda dərs keçməyə məcburdurlar. Lakin bu ağır şəraitə baxmayaraq, onlar təhsil almağı çox istəyirlər.

Məhz bu səbəbdən, Heydər Əliyev Fondu Pakistanda yeni məktəbin tikintisi layihəsinə başlamışdır. Siz burada yenə də viran qalmış məktəbin fotolarını seyr edirsiniz. Bir sözlə, yeni məktəb yüksək standartlara cavab verəcək və bütün lazımi avadanlıqla təchiz olunacaqdır. Məktəbin ümumi sahəsi 2000 kvadratmetr olacaqdır. 500-dən çox şagird müasir sinif otaqlarından, iki laboratoriyadan, kitabxana, salon və idman meydançasından istifadə edəcəkdir. Bu şəkillərdə biz

həmin məktəbin gələcək görünüşünü görürük. Tikintinin müddəti 12 ay olacaq, 2008-ci ilin mart ayında məktəbi açmağı planlaşdırırıq.

Ümid edirəm ki, həmin layihə uşaqlara lazımi təhsil almaq imkanını yaradacaq və "Hamı üçün təhsil" proqramının həyata keçirilməsində növbəti uğurlu addım olacaqdır.

Yekun olaraq, mən məşhur musiqiçi, həmkarımız Mstislav Rostropoviçi 80 illiyi münasibətilə bütün xoşməramlı səfirlər adından təbrik etmək istəyirəm. Mstislav Rostropoviç Azərbaycanın ən yüksək mükafatı - "Heydər Əliyev" ordeni ilə təltif olunmuşdur.

Əfsuslar ki, o, bugünkü görüşdə iştirak edə bilmir. Mən ona möhkəm cansağlığı və uzun ömür arzulayıram.

Diqqətinizə görə minnətdaram.

Mən Sizin hamınıza uğurlu və məhsuldar il arzulayıram.

* * *

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva aprelin 2-də Fransa Senatının sədri Kristian Ponsöle ilə görüşmüşdür.

Senatın binası önündə Mehriban xanımı qarşılayan cənab Kristian Ponsöle Parisdə onunla yenidən görüşməsindən böyük məmnunluq duyduğunu vurğulamışdır.

Sonra Senatın sədri ilə Mehriban Əliyevanın görüşü olmuşdur. Cənab Kristian Ponsöle Senatın dəvətini qəbul etdiyi üçün Mehriban xanıma minnətdarlıq etmiş, Azərbaycanla Fransa arasında ikitərəfli münasibətlərin son dövrdə daha da inkişaf etməsindən razı qaldığını bildirmişdir. O, Prezident İlham Əliyevin bu ilin yanvarında Fransaya dövlət səfərini xatırladaraq demişdir ki, hazırda iki ölkə arasında siyasi, iqtisadi və mədəni sahələrdə əlaqələr çox sürətlə inkişaf etməkdədir.

Kristian Ponsöle Fransanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə sülh yolu ilə həllində maraqlı olduğunu xüsusi vurğulamışdır.

Mehriban Əliyeva dövlətimizin başçısının ən xoş arzularını Senatın sədrinə çatdırmış, Azərbaycan Prezidentinin iki ölkə arasında olan münasibətlərin yüksələn

xətlə inkişafından məmnunluğunu söyləmişdir.

Daha sonra Mehriban Əliyeva YUNESKO-nun xoşməramlı səfiri kimi fəaliyyətindən danışmış, son vaxtlar Azərbaycanın YUNESKO ilə əməkdaşlığa xüsusi diqqət yetirdiyini, müxtəlif layihələrin həyata keçirilməsində qurumla yaxşı əlaqələr yaradıldığını xatırlatmış, bu əməkdaşlığın daha da dərinləşməsi və inkişaf etdirilməsi üçün bütün səylərin davam etdiriləcəyini bildirmişdir.

Azərbaycanın birinci xanımı cənab Ponsöleni ölkəmizə səfərə dəvət etmişdir. Senatın sədri dəvəti məmnunluqla qəbul etmiş və yaxın vaxtlarda ölkəmizə gələcəyini demişdir.

Senatın Fransa-Qafqaz qrupunun sədri Ambruaz Düpon görüşdə iştirak etmişdir.

Görüşdən sonra Kristian Ponsöle Mehriban xanım Əliyevanı Senatın binasının tarixi, ayrı-ayrı salonları, keçmiş tarixdən xəbər verən əşyalarla, parkla tanış etmiş, dünyanın müxtəlif ölkələrindən gətirilərək parkda əkilmiş gül və bəzək kolları, nadir ağac növləri barədə məlumat vermişdir.

Senatın binası ilə tanışlıqdan sonra Kristian Ponsöle Mehriban Əliyeva ilə xatirə şəkli çəkdirmiş, Azərbaycanın birinci xanımının şərəfinə ziyafət vermişdir.

## İORDANİYA KRALİÇASI RANİYƏ ƏL-ABDULLAH İLƏ GÖRÜŞ

Aprelin 3-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva İordaniya kraliçası, YUNESKO-nun xoşməramlı səfiri Raniyə əl-Abdullah ilə görüşmüşdür.

YUNESKO-nun iqamətgahında keçirilən görüşdə xanım Raniyə əl-Abdullah rəhbərlik etdiyi İordan çayı Fondunun xeriyyə tədbirlərindən, valideyn qayğısından məhrum olmuş uşaqlara himayədarlıq edilməsi, onların hərtərəfli təhsil alması və digər sahələrdə gördüyü işlər barədə məlumat vermişdir.

Mehriban Əliyeva Heydər Əliyev Fondunun tarixindən, Azərbaycanda maddi və qeyri-maddi mədəni irsin qorunması, kimsəsiz uşaqlara göstərilən qayğı, təhsil sahəsində YUNESKO ilə birlikdə həyata keçirilən layihələr haqqında danışmışdır.

Sonra Mehriban xanım İordaniya mahnı və rəqslərinin təqdim edildiyi "İordaniya inciləri gecəsi" adlı konsert proqramına tamaşa etmişdir.

Mehriban xanım YUNESKO-nun baş direktoru Koişiro Matsuura və digər

xoşməramlı səfirlərlə birlikdə xatirə şəkli çəkdirmiş, baş direktorun və xoşməramlı səfir Şeyx Həsən İ.Şikerin xoşməramlı səfirlərin şərəfinə verdikləri ziyafətdə iştirak etmişdir.

## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA FRANSA MİLLİ ASSAMBLEYASININ SƏDRİ PATRİK OLYE İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının birinci xanımı, YUNESKO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva Fransaya səfəri çərçivəsində aprelin 4-də Milli Assambleyanın sədri Patrik Olye ilə görüşmüşdür.

Patrik Olye Mehriban xanımı Milli Assambleyanın binası önündə səmimiyyətlə qarşılamışdır.

Milli Assambleyanın sədri və Azərbaycanın birinci xanımı iki ölkənin bayraqları qarşısında xatirə şəkli çəkdirmişlər.

Mehriban Əliyeva ilə görüşdən məmnunluq duyduğunu bildirən Patrik Olye Azərbaycan Prezidenti İlham Əliyevin bu ilin yanvarında Fransaya dövlət səfəri zamanı Milli Assambleyadakı görüşünü xatırlatmışdır.

Söhbət zamanı ölkələrimiz arasındakı münasibətlərə dair fikir mübadiləsi aparılmışdır.

Mehriban Əliyeva ölkələrimiz arasında mədəni sahədə əməkdaşlığın daha da inkişaf etdirilməsinin zəruriliyini xüsusi vurğulamış və Azərbaycanda Fransa, Fransada isə Azərbaycan mədəniyyəti günlərinin keçirilməsini təklif etmişdir.

Milli Assambleyanın sədri Azərbaycanın birinci xanımının bu fikrini böyük razılıq hissi ilə qarşılamış və bu məsələnin seçkilərdən sonra nəzərdən keçiriləcəyini vurğulamışdır. O demişdir ki, nəinki mədəniyyət sahəsində, eyni zamanda, iqtisadi sahədə də əməkdaşlığın inkişaf etdirilməsi üçün addımlar atılacaqdır. Milli Assambleyanın İqtisadi əlaqələr komitəsi üzvlərinin Azərbaycana səfəri təşkil ediləcəkdir. Palatanın sədri bildirmişdir ki, bu səfər ölkələrimiz arasında əməkdaşlığın daha da dərinləşməsinə kömək edəcəkdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də toxunulmuşdur. Milli Assambleyanın sədri ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bir daha vurğulamış, Minsk qrupunun həmsədrlərindən

biri kimi Fransanın bundan sonra da münaqişənin sülh yolu ilə həllinə səy göstərəcəyini söyləmişdir.

Söhbətdə Fransa Milli Assambleyası ilə Azərbaycan Milli Məclisinin parlament dostluq qrupları arasında əməkdaşlığın daha da inkişaf etdirilməsinin zəruriliyi vurğulanmışdır.

Mehriban xanım Əliyeva Fransanın bu mövqeyinə görə minnətdarlığını bildirmiş və cənab Patrik Olyeni Azərbaycana səfərə dəvət etmişdir. Milli Assambleyanın sədri dəvəti razılıq hissi ilə qarşılamışdır.

## AZƏRBAYCAN-FRANSA MƏDƏNİ ƏLAQƏLƏRİ İNTENSİV XARAKTER ALMIŞDIR

Aprelin 4-də Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva Fransanın mədəniyyət və kommunikasiya naziri Reno Donnedyö de Vabr ilə görüşmüşdür.

Görüşdə Azərbaycan Prezidenti İlham Əliyevin Fransaya dövlət səfərindən sonra ölkələrimiz arasında təkcə siyasi-iqtisadi deyil, həm də mədəni əlaqələrin daha intensiv xarakter aldığı vurğulanmışdır.

Azərbaycanın birinci xanımını yenidən Parisdə görməyindən məmnunluğunu bildirən nazir Fransa-Azərbaycan mədəni əlaqələrinin tarixini xatırladaraq bildirmişdir ki, bu ənənə indi də davam edir. Fransa qarşılıqlı mədəni əməkdaşlığın daha da genişləndirilməsi və inkişaf etdirilməsini istəyir.

Mədəni əlaqələrin genişlənməsi sahəsində Mehriban Əliyevanın çox önəmli xidmətlərindən xəbərdar olduğunu bildirən nazir ölkəmizin birinci xanımının Azərbaycan mədəniyyətinin dünyada tanıdılması sahəsindəki fəaliyyətini yüksək qiymətləndirmişdir.

Görüşdən məmnun qaldığını söyləyən Mehriban Əliyeva demişdir ki, 2007- -ci il Azərbaycan Prezidenti İlham Əliyevin Fransaya dövlət səfəri ilə başlanmışdır və inanıram ki, bu il ölkələrimizin ikitərəfli əlaqələrində çox önəmli il olacaqdır.

Azərbaycanın birinci xanımının rəhbərlik etdiyi Heydər Əliyev Fondu dünyanın bir çox ölkələri və təşkilatları ilə mədəniyyət sahəsində əməkdaşlıq edir. Fond Fransada da mədəni tədbirlərin keçirilməsi, Azərbaycanın tanıdılması üçün konkret layihələrin reallaşdırılmasında maraqlıdır. Mehriban Əliyeva bu baxımdan

ölkələrimizdə qarşılıqlı mədəniyyət günlərinin keçirilməsini təklif etmişdir.

Təklifi məmnımiyyətlə qarşılayan nazir bununla əlaqədar yaxın vaxtlarda hər iki ölkənin müvafiq səfirliklərinə hazırlıq işlərinin görülməsinə dair təlimat veriləcəyinə ümidvar olduğunu bildirmişdir. O, mədəniyyət sahəsində sərgilərin keçirilməsinin də vacibliyini vurğulamışdır.

Mehriban Əliyeva nazir Reno Donnedyö de Vabrı Azərbaycana səfərə dəvət etmişdir. Dəvət böyük razılıqla qəbul olunmuşdur.

## FRANSA XARİCİ İŞLƏR NAZİRİNİN XANIMI İLƏ GÖRÜŞ

Azərbaycan Respublikasının birinci xanımı, YUNESKO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva aprelin 4-də Fransaya səfəri çərçivəsində bu ölkənin xarici işlər nazirinin xanımı Dominik Kantyen ilə görüşmüşdür.

Fransa Xarici İşlər Nazirliyinin binasında keçirilən görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığın, o cümlədən mədəni əlaqələrin inkişafından söhbət getmişdir. Bildirilmişdir ki, son illər iki ölkə arasında mədəni əlaqələrin inkişafına təkan verən müxtəlif tədbirlər keçirilmişdir.

Mehriban Əliyeva Fransa Senatının binasında Azərbaycan rəssamlarının sərgisinin, YUNESKO çərçivəsində Azərbaycan gününün keçirilməsini xüsusi qeyd etmişdir. Azərbaycanın birinci xanımı gələcəkdə ölkələrimizin daha da yaxmlaşması üçün mədəni tədbirlərin təşkilinin vacibliyini vurğulamışdır.

Xanım Dominik Kantyen Azərbaycan və Fransa uşaqlarının keramika üzərində rəsmlərindən ibarət sərgilərin təşkil olunmasını təklif etmişdir. O, səhiyyə sahəsində də əməkdaşlığın inkişaf etdirilməsinin vacib olduğunu söyləmişdir.

Fransa xarici işlər nazirinin xanımını Azərbaycana səfərə dəvət edən Mehriban Əliyeva ümidvar olduğunu bildirmişdir ki, yaxın vaxtlarda hər iki ölkədə konkret mədəni tədbirlərin keçirilməsi baş tutacaqdır.

# MEHRİBAN ƏLİYEVA: «MƏN ƏSAS DİQQƏTİMİ TƏHSİL VƏ SƏHİYYƏ SAHƏSİNƏ YÖNƏLDƏCƏM»

## «Ümid edirəm ki, yeni parlament cəmiyyətin ən aktual problemlərini həll edəcək»

Azərbaycanın birinci xanımı, YUNESKO-nım xoşməramlı səfiri, Heydər Əliyev Fondu və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, Milli Məclisin yeni seçilmiş üzvü Mehriban Əliyeva fəaliyyətində başlıca diqqəti səhiyyə və təhsil sahəsinə ayıracaq.

Bu barədə xoşməramlı səfir dünən «İnterfaks-Azərbaycan» agentliyinə verdiyi müsahibədə bildirib. Rəhbərlik etdiyi fondun yaxın gələcəkdə əsasən böyüməkdə olan aztəminatlı nəslin təhsil problemləri ilə bağlı məsələlərə diqqət yetirəcəyini deyən Mehriban Əliyeva bəyan edib ki, xalqımıza böyük faciələr gətirmiş Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ konflikti valideyn qayğısı və diqqətindən məhrum olan uşaqların sayının kəskin surətdə artmasına yol açıb. Bundan əlavə, fiziki və əqli cəhətdən zəif uşaqların da rəhbərlik etdiyi fondun diqqətində olduğunu deyən Mehriban xanım uşaqların sağlamlığı ilə əlaqədar olan, bilavasitə təhsillə bağlı olan bir sıra iri layihələr hazırlandığını bildirib. Bu proqramlara talassemiya xəstəlikləri, diabetdən əziyyət çəkən uşaqlara yardım proqramlarını göstərmək olar. M.Əliyeva kənd məktəblərinin tikintisi, onların təmiri və yenidən təchiz olunması üzrə geniş-miqyaslı hərəkatın ölkəmizdə geniş rezonans doğurduğunu bildirib. Hazırda Heydər Əliyev Universiteti konsepsiyasının yaradılması üzrə işlərin davam etdirildiyini deyən xoşməramlı səfir qeyd edib ki, bu universitetdə millətin intellektual elitası formalaşacaq. «İnanıram ki, biz milli təcrübəni və təhsil üzrə Avropa standartlarını özündə cəmləşdirən modeli qura biləcəyik», - deyə

Mehriban Əliyeva bildirib. Azərbaycan və YUNESKO arasında əməkdaşlığın səviyyəsini həddər artıq yüksək qiymətləndirən Mehriban Əliyevanın sözlərinə görə, YUNESKO-nun baş direktoru Koişiro Matsuuranın Azərbaycana avqust ayında səfəri gedişində qurum və Azərbaycan arasında təhsil sahəsində memorandum imzalanıb. «YUNESKO Azərbaycanın işğal olunmuş ərazilərində qalmış mədəniyyət abidələrinin taleyi ilə bağlı konkret addımlar atacaqmı» sualına cavabında xoşməramlı səfir bildirib: «YUNESKO çərçivəsində keçirilmiş elə bir tədbir olmayıb ki, mən bu barədə məsələ qaldırmayım. Bütün mədəniyyət abidələrini adları ilə saymaq mümkün deyil. Bunlar talan olunmuş, məhv edilmiş muzeylər, arxeoloji, təbii abidələrdir. Bu böyük siyahı münaqişə zonasında qalıb. Erməni işğalçıları tərəfindən işğal olunmuş Azərbaycan ərazilərindən yalnız beşdə birində Azərbaycanın mədəniyyətinin korifeyləri Üzeyir Hacıbəyov və Bülbülün ev muzeylərinin, Xocalı-Gədəbəy mədəniyyət, Azıx mağarası abidələrinin qaldığını söyləmək kifayətdir. Lakin abidələr məsələsi konfliktin ümumi nizamlanması məsələsindən kənarda götürülə bilməz. Siz bilirsiniz ki, bu konflikt irimiqyaslı humanitar fəlakətə gətirib çıxarıb. Qeyd etməliyəm ki, YUNESKO konkret abidələrin taleyi ilə məşğul olan siyasi təşkilat deyil. YUNESKO-nun bir qədər başqa vəzifələr var. Hesab edirəm ki, bu beynəlxalq humanitar təşkilatın fəaliyyəti postkonflikt dövründə daha faydalı ola bilərdi».

Xoşməramlı səfir aşıq mədəniyyətinin YUNESKO-nun qeyri-maddi irsinin siyahısına salınması şansını yüksək qiymətləndirib. Onun sözlərinə görə, bunun baş tutması tarixiədalətin bərpası olardı. Çünki muğam və aşıq sənəti musiqi folklorunun iki bərabərhüquqlu qanadlarıdır. Regionların bəzilərində muğam, bəzilərində aşıq sənəti daha üstün büruzə verməkdədir. M.Əliyeva hesab edir ki, Beynəlxalq Muğam Mərkəzinin açılmasından sonra bu sahədə görülən işlər artacaq. Rəhbərlik etdiyi Azərbaycan Mədəniyyəti Dostları Fondunun 10 yaşı tamam olduğunu deyən Mehriban Əliyeva fondun gələcək planlarının zəngin olduğunu qeyd edib. Yaxın vaxtlarda fond xaricdə Azərbaycan mədəniyyətinin təbliği ilə əlaqədar aksiya keçirəcək. Millət vəkili kimi gələcək fəaliyyətinə toxunan xoşməramlı səfir qeyd edib ki, gərgin həyat ritmində bütün qüvvə və imkanların səfərbər olunması tələb olunur. Xoşməramlı Humanizm və xeyirxahlıq missiyası

səfir bu missiyanm öhdəsindən gələcəyinə əminliyinin ifadə edib. «Heydər Əliyev Fondunun fəaliyyət sahəsi çox genişdir. Bu, təhsil və səhiyyə, mədəniyyət və gənclər, idman məsələsi, sosial və ətraf mühit problemləridir. Şəx-si təcrübəm bu və ya digər vəziyyəti və mövcud problemi qiymətləndirməyə mənə imkan verir. Məsələlələrin bir qisminin qanunvericilik müstəvisində həlli tələb olunur, misal üçün, artıq bir neçə ildir ki, müzakirə olunan təhsil haqda qanunu göstərmək olar. Bəzi gözəl qanunlar qəbul olunub, lakin onlar işləmir, yalnız kağızda qalıb. Ümid edirəm ki, yeni parlamentin fəaliyyəti daha effektiv olacaq və bu parlament cəmiyyətin ən aktual problemlərini həll edəcək», - deyə Mehriban Əliyeva bildirib.

# HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKONUN XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN ƏLİYEVANIN ƏZİZBƏYOV RAYONU İCTİMAİYYƏTİ İLƏ GÖRÜŞÜ

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nım xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva noyabrın 6-da Bakının Əzizbəyov rayonunun Şüvəlan qəsəbəsində, Fuad Fərhadoğlu adına 230 nömrəli orta məktəbdə seçicilərlə görüşmüşdür.

Heydər Əliyev Fondunun həyata keçirdiyi "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilən müasir tipli bu məktəbin müəllim və şagirdləri əziz qonağı səmimiyyətlə, gül-çiçəklə qarşıladılar.

Məktəbin geniş, işıqlı iclas salonunda keçirilən görüşü Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov açaraq dedi ki, bu gün Milli Məclisə seçkilərdən bir il ötür. Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Əzizbəyov 2-ci seçki dairəsindən Milli Məclisə deputat seçilmiş Mehriban xanım Əliyevanın təşəbbüsü ilə bu gün seçicilərlə görüş keçirilir.

Ölkə rəhbərliyi tərəfindən görülmüş irimiqyaslı işlər, həyata keçirilən mühüm layihələr nəticəsində Azərbaycanın hər bir guşəsində olduğu kimi, Əzizbəyov rayonunda da sosial-iqtisadi inkişaf sahəsində mühüm uğurlar əldə edilmişdir. Son bir ildə Heydər Əliyev Fondunım prezidenti, deputat Mehriban Əliyevanın təşəbbüsü ilə rayonda irimiqyaslı layihələr həyata keçirilir. Görülən işlər Əzizbəyov rayonunun sakinləri tərəfindən böyük rəğbətlə qarşılanır.

Şüvəlan qəsəbəsinin sakinləri adından çıxış edən Tamilla Rəcəbova bu görüşə hədsiz sevinc hissləri ilə gəldiyini, Mehriban xanımın deputatlıq fəaliyyətinin bir ili ərzində görülən işlərin göz qabağında olduğunu bildirdi. Qəsəbənin illərdən bəri həll edilməmiş su probleminin aradan qaldırıldığını xüsusi vurğulayaraq minnətdarlıq etdi. O, Mehriban xanıma müraciətlə dedi ki,

qonşuluqda yaşayan tənha qarıya tez-tez baş çəkirəm, evə girən kimi görürəm ki, bir tərəfdə Sizin, o biri tərəfdə Prezidentimiz İlham Əliyevin portreti vurulubdur. Şüvəlanda hansı evə qədəm bassanız, belə mənzərəni görəcəksiniz. Allah-taaladan Sizə və ailənizə cansağlığı arzu edirik, Sizi həmişə deputatımız kimi görmək istəyirik.

Müəllim Vəzirxan Əbilov son bir ildə Binə qəsəbosində görülən işlərin əhatə dairəsinin genişlənməsindən, yeni məktəb, xəstəxana, mədəniyyət evi və kitabxananın, yardımçı elektrik stansiyasının, idman kompleksinin tikintisindən danışdı, park salındığını, qəsəbəyə təzə asfalt yol, su xətti çəkildiyini, qaz təminatı məsələsinin həll edildiyini vurğuladı. Xalqımızın milli-mənəvi dəyərlərinə həmişə hörmətlə yanaşan Mehriban xanıma qəsəbədəki İmam Rza və Möhsün Səlim məscidlərinin bərpasına göstərdiyi qayğıya görə xüsusi təşəkkürünü bildirdi. İyunun 15-də Prezident İlham Əliyevlə birlikdə Mehriban xanımın da Hövsanda təməlqoyma mərasimində iştirak etdiyi 1176 yerlik məktəbin təzə binasının inşasının da sürətlə davam etdiyini bildirdi. O, çıxışının sonunda dedi: Bu yaxınlarda Sizin təşəbbüsünüzlə Parisdə YUNESKO çərçivəsində Azərbaycan günü keçiriləndə təmiz ingilis dilində çıxış etməyiniz qəlbimizi fərəh, iftixar hissi ilə doldurdu. Bir də ona görə çox sevinirik ki, Azərbaycanın birinci xanımı olmaqla yanaşı, Siz həm də bizim deputatımızsınız.

Türkan qəsəbəsinin sakinləri adından Mehriban xanımı salamlayan Mətanət Mayılova qəsəbəyə təzə asfalt yol çəkildiyini, poliklinika tikildiyini, park salındığını, uşaq bağçası, şahmat klubu, təcili tibbi yardım binaları inşa edildiyini, internat məktəbinin yenidən qurulduğunu, abadlıq-quruculuq işlərinin davam etdiyini vurğuladı. Ramazan bayramında Mehriban xanımın adından dindarlar üçün süfrə açılmasını dini dəyərlərimizə hörmətin ifadəsi kimi səciyyələndirdi. Bu il mayın 9-da dövlət başçımızla birlikdə Mehriban xanımın qəsəbədə olmasının türkanlıların qəlbində silinməz iz buraxdığını, "Əzizbəyov rayonunun inkişafı fondu"nun rayon sakinlərinin problemlərinin həllinə yardımçı olduğunu bildirdi, yekdilliklə səs verdikləri deputata ən xoş arzularını yetirdi.

Zirə qəsəbəsinin sakini Əlisahib Məmmədov isə çıxışında dedi: Televiziya ekranlarında nəvələrimizin də bir-birinə "bizim deputatımızdır" deyə fəxrlə göstərdiyi Mehriban xanım, düz bir il əvvəl Siz Zirə ağsaqqallarını yığıb problemlərimizi soruşanda, mən kənd ağsaqqalları adından bir neçə məsələni

diqqətinizə çatdırdım. Fikirləşdim ki, zərif bir qadının çiyninə bu qədər problemin həllini qoymaqla, bəlkə də, günah iş görürəm. İndi, bir ildən sonra Sizə camaatımız adından ancaq, "Sağ olun, Allah xoşbəxt ailənizi başacan eləsin!" deməyə gəlmişəm. Siz bizim dilə gətirmədiyimiz, özünüzün gəzib gördüyünüz çatışmazlıqları da aradan qaldırmısınız.

Seçkiqabağı verdiyi vədlərin, demək olar ki, hamısını vaxtında layiqincə yerinə yetirdiyinə görə Mehriban xanıma təşəkkürünü bildirən Binə sakini Rəhimə Baxşıyeva dedi: Bir Azərbaycan qadını kimi mən Sizinlə fəxr edirəm, Siz qadınlarımızın intellektual səviyyəsini, mədəniyyətini, natiqliyini, zərifliyini bütün dünyada şərəflə təcəssüm etdirirsiniz, xalqımıza, vətənimizə başucalığı gətirirsiniz. Bütün bunlar üçün, deputatımız kimi bir ildə gördüyünüz böyük işlər üçün çox sağ olun.

Şüvəlan qəsəbəsinin sakini Aidə Rzayeva dedi ki, hər birimizin xeyli yaşımız var, müxtəlif dövrlərdə yaşamışıq, ancaq elə bir hal görməmişik ki, deputat verdiyi vədlərin hamısını belə ardıcıllıqla, diqqətlə, qayğı və tələbkarlıqla yerinə yetirsin. Sizin fəaliyyətinizdən hər bir ailəyə pay, rahatlıq düşür. Biz seçkiqabağı görüşlərdə də Sizin nə qədər sadə, səmimi olduğumuzu görürdük. Həmişə belə qalm, biz Sizi çox sevirik.

Daha sonra Heydər Əliyev Fondunun əməkdaşı İlqar Mustafayev son bir ildə deputat Mehriban Əliyevanın təşəbbüsü ilə Əzizbəyov rayonunda görülmüş işlər haqqında qısa məlumat verərək dedi:

- Şüvəlan qəsəbəsində beyin iflici və polimielit keçirmiş uşaqlar üçün 16 nömrəli internat məktəbi, yetim və valideyn himayəsindən məhrum uşaqlar üçün respublika yardımçı internat məktəbi, 1 nömrəli uşaq evinin yay düşərgəsi, Şimal DRES-i qəsəbəsindəki 10 nömrəli uşaq bağçası və 230 nömrəli məktəb, 31 nömrəli birləşmiş şəhər xəstəxanası əsaslı şəkildə bərpa edilib yenidən qurulmuş, 156 nömrəli orta məktəb üçün 700 şagird yerlik yeni bina inşa edilmişdir. Müasir tipli şahmat mərkəzinin tikintisi layihələndirilir, Şüvəlan qəsəbəsinin yolları təmir edilmiş və işıqlandırılmış, dayanacaqlar quraşdırılmışdır. Qəsəbəyə su xətti çəkilmişdir. Şimal DRES-i qəsəbəsində binaların dam örtüyünün və fasadının təmir işlərinə başlanılmışdır.

Binə qəsəbəsində alaqapı tikilmiş, 1176 şagird yerlik 218 nömrəli əsas məktəbin yeni binasının inşasına başlanmışdır. 70 nömrəli körpələr evi- uşaq

bağçası, İmam Rza məscidi, Möhsün Səlim məscidi yenidən qurulmuş, 110 kilovoltluq "Yeni Binə" yardımçı stansiyası istifadəyə verilmiş, qəsəbəyə su xətti çəkilmiş, əsas yollar təmir olunaraq işıqlandırılmış, dayanacaqlar quraşdırılmışdır.

Türkan qəsəbəsində alaqapı, Təhsil-tədris Mərkəzi və 256 nömrəli əsas məktəbin 300 şagird yerlik yeni binası inşa olunmuş, nitqi qüsurlu uşaqlar üçün respublika internat məktəbi, 214 nömrəli uşaq bağçası, 17 nömrəli şəhər poliklinikası, 18 nömrəli təcili yardım stansiyasının 25 nömrəli filialı yenidən qurulmuş, aptek istifadəyə verilmiş, bankomat quraşdırılmış, Türkan parkının yenidən qurulması işlərinə başlanılmışdır. Qəsəbənin əsas yolları təmir edilərək işıqlandırılmış, yol boyu dayanacaqlar quraşdırılmışdır.

Zirə qəsəbəsində alaqapının, Qışlaq sahəsindəki 122 nömrəli ibtidai məktəb üçün 100 şagird yerlik binanın inşası başa çatmış, neftçi Əbdülhəsən Babayevin abidəsi yenidən qurulmuş, xalq rəssamı Baba Əliyevin barelyefi açılmış, bankomat qoyulmuş, qəsəbənin əsas yolları təmir edilmiş, işıqlandırılmış, dayanacaqlar quraşdırılmışdır. Zirə parkının, mədəniyyət evinin, iaşə kompleksinin inşasına başlanmışdır.

Mərdəkan qəsəbəsində 2 nömrəli yetim və valideyn himayəsindən məhrum uşaqlar üçün internat məktəbi, oğlanlar üçün respublika xüsusi məktəbi yenidən qurulmuş,183 nömrəli məktəb üçün yeni tədris korpusu, rayon mərkəzi kitabxanası üçün bina inşa olunmuşdur. Əzizbəyov adına mədəniyyət evində yenidənqurma işləri gedir. Pir Həsən ziyarətgahının yenidən qurulması başa çatmaqdadır.

Buzovna qəsəbəsində, 206 nömrəli orta məktəb üçün əlavə korpus inşa edilmiş, 1296 şagird yerlik məktəbin, Cümə məscidinin yenidən qurulmasına başlanmışdır.

Mehriban xanım seçicilər qarşısında çıxış etdi.

## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-NUN XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN ƏLİYEVANİN ÇIXIŞI

- Əziz və hörmətli dostlar!

İlk növbədə, mən sizi salamlayıram, sizi görməyə çox şadam və bir il bundan öncə, 2005-ci il 6 noyabr parlament seçkilərində mənə etimad göstərdiyinizə, mənə inanıb səs verdiyinizə görə sizə səmimi minnətdarlığımı bildirirəm. Həm seçki kampaniyası dövründə, həm də sonrakı görüşlərimizdə olan səmimiyyət, xoş əhval-ruhiyyə, göstərdiyiniz xoş münasibət və hörmət mənim üçün çox əzizdir və unudulmazdır.

Demək olar ki, ilk görüşlərimizdən biz rayonda olan problemləri birlikdə araşdırıb müzakirə edir, onların həlli üçün yollar axtarırdıq. Həmin görüşlər zamanı biz Əzizbəyov rayonunun gələcək inkişaf planını, əsas perspektivlərini müəyyən edirdik.

Yəqin siz də razılaşarsınız ki, bir il o qədər də uzun müddət deyildir. Amma mən qürur hissi ilə demək istəyirəm ki, bir il ərzində biz qarşıya qoyduğumuz çox məqsədlərə nail olmuşuq. Bu gün konkret işlərin konkret nəticələrini görürük. Bugünkü görüşümüz yenidən inşa olunmuş, dünyanın ən yüksək standartlarına cavab verən 230 nömrəli məktəbdə keçirilir.

Mən yaxşı xatırlayıram, Şimal DRES-i qəsəbəsinin sakinləri ilə seçkiqabağı görüşümdə şagird və müəllimlər bildirdilər ki, məktəb çox yararsız vəziyyətdədir. Mən özüm də gəldim, bunun əyani şahidi oldum. Dərhal bütün zəruri tədbirlər həyata keçirildi. Bu gün artıq bizim balaca uşaqlar, məktəblilər ən müasir tələblərə cavab verən binada təhsil alırlar. Məktəbin geniş, işıqlı sinif otaqları, bütün fənn laboratoriyaları, idman salonu, komyuter otaqları, kitabxanası, yeməkxanası, idman meydançası var. Eyni zamanda, müəllimlərin də iş şəraiti nümunəvidir.

Siz bilirsiniz ki, Heydər Əliyev Fondu ilk gündən təhsilin inkişafını

fəaliyyətinin prioritet istiqaməti müəyyən etmişdir. "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı ölkəmizdə böyük rəğbətlə qarşılanır. Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2005-ci ildə ölkəmizdə 132, 2006-cı ildə 60 yeni məktəb inşa olunub, təzə, ən müasir avadanlıqla təmin edilərək istifadəyə verilmişdir. İndi ən ucqar kəndlərimizdə də bizim uşaqlarımız təmiz, yeni, müasir, işıqlı məktəblərdə təhsil alır.

Əzizbəyov rayonunda da bir çox məktəblər tikilir. Uşaq bağçaları və internat evlərində əsaslı təmir işləri aparılır. Yollar abadlaşır, su xətləri çəkilir. Məndən əvvəl çıxış edən əməkdaşımız görülmüş işlər barədə geniş məlumat verdi. Mən yalnız sizin diqqətinizə bəzi rəqəmləri çatdırmaq istəyirəm.

Təhsil müəssisələri: 820 yerlik 5 internat məktəbinin yenidən qurulması, 150 yerlik yay düşərgəsinin inşası, 6138 şagird yerlik 8 ümumtəhsil məktəbinin, 230 yerlik 3 uşaq bağçasmm yenidən qurulması, təlim-tədris mərkəzinin yaradılması;

Səhiyyə müəssisələri: müasir avadanlıqla təchiz edilmiş 25 çarpayılıq xəstəxananın, poliklinikanın, təcili yardım stansiyasının və aptekin yenidən qurulması;

Mədəniyyət müəssisələri və dini abidələr: 860 yerlik 2 mədəniyyət evinin yenidən qurulması, bir kitabxananın inşa edilməsi, bir abidənin və barelyefin, 3 məscidin və ziyarətgahın yenidən qurulması;

İnfrastruktur: 3 qəsəbənin giriş qapısının inşası, 3 qəsəbəyə 45 kilometr uzunluğunda su xəttinin çəkilməsi, 63 kilometr uzunluğunda qəsəbələrarası və qəsəbədaxili avtomobil yollarının yenidən qurulması, 27 avtobus dayanacağının, 110 kilovoltluq yardımçı stansiyanın istifadəyə verilməsi, 512 işıq dirəyinin quraşdırılması, 2 qəsəbə parkının yenidən qurulması.

Bunları xatırlatmaqda məqsədim odur ki, bir il ərzində biz qarşımıza qoyduğumuz çox məqsədlərə nail olmuşuq, bu işlərin konkret nəticələrini görürük.

Siz bilirsiniz ki, Əzibəyov rayonunun ağsaqqallarının təşəbbüsü ilə "Əzizbəyov rayonunun inkişafı fondu" yaradılıb və artıq fəaliyyət göstərir. Mən çox şadam ki, bu fondun gündəlik işində də qəsəbələrin sakinləri çox fəal iştirak edirlər. Fond yaradıldığı ilk gündən Heydər Əliyev Fondu ilə sıx əməkdaşlıq edir. Bizim nümayəndələrimiz qəsəbə sakinləri ilə mütəmadi görüşlər keçirirlər.

Bir məsələni xüsusi vurğulamaq istərdim. Mənim mövqeyim ondan ibarətdir ki, irimiqyaslı, uzunmüddətli layihələrlə yanaşı, gündəlik həyatda insanları narahat edən problemlərin araşdırılması çox vacibdir, bunların həlli üçün yollar tapmaq lazımdır. Ehtiyacı olan insanlara yardım göstərmək lazımdır. Mən həmişə çalışıram işimizi elə quraq ki, bu problemləri də daim çözə bilək.

Əziz dostlar, əlbəttə, bu gün rayonumuzda hələ həllini tapmayan problemlər də mövcuddur. Biz hamımız istəyirik ki, rayonumuzda bütün uşaq bağçaları, məktəblər ən yüksək standartlara cavab versin. Yeni müalicə-diaqnostika mərkəzləri, idman sarayları tikilsin, yeni iş yerləri açılsm, qaz problemi tamamilə həllini tapsm, təkcə mərkəzi yollar yox, qəsəbədaxili yollar da abadlaşsm.

Məncə, bunların hamısına nail olmaq üçün, əsas iki amil lazımdır. Birincisi, siyasi sabitlik, ikincisi də iqtisadi inkişaf. Bu gün bizim ölkəmizdə bunların ikisi də var. Siz bilirsiniz ki, Azərbaycan regionda aparıcı dövlətdir. İqtisadi inkişafın göstəricilərinə baxsaq görərik ki, biz dünyada lider ölkəyik. Azərbaycanın hər bir rayonunda, hər bir regionunda inkişaf gedir, islahatlar aparılır, yeni məktəblər, xəstəxanalar açılır, yeni zavodlar, fabriklər tikilir, yeni iş yerləri açılır, respublikamızın ən ucqar kəndlərinə yollar çəkilir. Mən inanıram ki, möhkəm iradə olanda, qarşıya qoyduğumuz hər bir məqsədə nail ola biləcəyik.

Əziz dostlar, mənim fəaliyyətim haqqında dediyiniz ürək sözlərinə görə sizə çox böyük, dərin minnətdarlığımı bildirirəm. Biz formalaşmış, möhkəm güclü bir komandayıq, ona görə hər bir arzumuzu həyata keçirəcəyik.

Cənab Prezidentin mənə bir tapşırığı var, onu sizə çatdırmaq istəyirəm. Cənab Prezident sizin hamınıza möhkəm cansağlığı, ailə səadəti, uzun ömür və işlərinizdə uğurlar arzulayır. Mən də bu arzulara qoşuluram.

## AZƏRBAYCAN RESPUBLİKASININ BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVANIN ABŞ-A İŞGÜZAR SƏFƏRİ

Azərbaycan Respublikasının birinci xanımı, Azərbaycan-ABŞ parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva dekabrın 4-dən 7-dək ABŞ-a işgüzar səfəri çərçivəsində bir sıra səmərəli görüşlər keçirmişdir.

Dekabrın 6-da ABŞ-Azərbaycan Ticarət Palatası Vaşinqtonun möhtəşəm "Endryu Melon" auditoriumunda Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın şərəfinə ziyafət vermişdir. Ziyafətdə 300-dən artıq qonaq, o cümlədən Ağ evin və Dövlət Departamentinin yüksək vəzifəli rəsmiləri, ABŞ Konqresinin üzvləri, görkəmli siyasi və ictimai xadimlər, xarici ölkələrin ABŞ-da akkreditə olunmuş səfirləri iştirak etmişlər. Mərasimin aparıcısı, ABŞ-Azərbaycan Ticarət Palatasının həmsədri, məşhur Beykerlər ailəsinin nümayəndəsi Ceyms BEYKER Mehriban xanımı və onu müşayiət edən Milli Məclisin üzvlərini salamlayaraq dedi:

- Mən bu axşam Azərbaycanın birinci xanımının bizimlə olmasından məmnunluğumuzu bildirirəm. ABŞ-Azərbaycan Ticarət Palatası sizin bizim tədbirdə iştirak etməyinizdən xüsusi şərəf hissi duyur. Son on il ərzində həyat yoldaşınızın bizə dəstəyini daim hiss etmişik. O, bizim Müşavirlər Şurasının üzvüdür.

Mən eyni zamanda, bu axşam sizinlə burada olan nümayəndə heyətinin üzvlərini, o cümlədən sizi müşayiət edən Milli Məclis üzvlərini salamlamaq istəyirəm. Bu axşam sizin hamınızla görüşməyimizə çox şadıq. Vaşinqtona xoş gəlmisiniz.

Mən bu axşam burada əyləşən qonaqları, o cümlədən bir neçə Konqres üzvünü salamlamaq istəyirəm. İdarə heyətimizin ilk üzvlərindən biri, doktor Zbiqnev Bjezinski burada bizimlədir. Xanım Bjezinski də gəlibdir. Mən sizi də

salamlayıram. Bu axşam bizə qoşulmağınıza görə minnətdarıq.

Nəhayət, mən bu tədbirə gələn hər bir şəxsə ABŞ-Azərbaycan Ticarət Palatası adından minnətdarlığımızı bildirirəm. Biz bu mərasimin təşkil olunmasında sizinlə birgə işləməkdən çox məmnunuq və bununla fəxr edirik. Bu cür gözəl binada sizi görməkdən çox şadıq. Gəldiyinizə görə bir daha çox sağ olun.

Biz Palatada artıq on ildir ki, fəaliyyət göstəririk. Mənim fıkrimcə, bu təşkilat ABŞ-Azərbaycan ikitərəfli münasibətlərinin ticarət sahəsinin təşkil edilməsində səmərəli olmuşdur. Uzun illər ərzində neft sektorunda çalışan şirkətlər və biznes fəaliyyəti aparan digər dairələr bizim məsləhətimizdən istifadə etmişlər. Bu yaxınlarda Azərbaycan iqtisadiyyatının digər sahələrinə maraq göstərən yeni şirkətlər bizim Palatamıza üzv olmuşdur. Bu ilin aprel ayında ölkəmizə səfər etmiş Prezident Əliyev Azərbaycan iqtisadiyyatının şaxələndirilməsində prinsipal mövqedə olduğunu bəyan etmişdir. Hesab edirəm ki, o, bu istiqamətdə çox dəstəkləyici və uğurlu təşəbbüslə çıxış etmişdir. Biz cari ilin oktyabr ayında Azərbaycana ikinci ticarət missiyamızı təşkil etmişdik. Həmin missiya bizim informasiya texnologiyaları və kommunikasiya sahəsində fəaliyyət göstərən şirkətlərimizdən ibarət olmuşdur. Biz üzvlərimizə xidmət göstəririk, münasibətlərin ikitərəfli qaydada inkişafı üzərində çox çalışırıq və Azərbaycan şirkətlərinin fəaliyyətinin artmasını görməkdən də xüsusilə məmnunuq. Biz öz mandatımızı yerinə yetirməkdə davam edirik.

Mən bir daha birinci xanımı salamlayır və ABŞ-Azərbaycan Ticarət Palatasına göstərdiyi dəstəyə görə həyat yoldaşınıza minnətdarlığımızı çatdırmağı xahiş edirik.

Mən bu axşam sponsorlarımıza da minnətdarlığımı bildirmək istəyirəm. Sponsonlar aşağıdakı şirkətlərdir: AtaHoldinq, Azərbaycan Beynəlxalq Bankı, bp, Şevron, Azercell, "J and İ", KonokoFilips, Grand Hotel Europe və CİSCO. Bu tədbirin keçirilməsində əməyi olmuş hər bir şəxsə minnətdarlığımı bildirirəm.

İndi isə hamınızdan ayağa qalxmağı xahiş edirəm. Mən Azərbaycanın birinci xanımının şərəfinə badə qaldırmaq istəyirəm. Hörmətli xanım, bizimlə bir yerdə olduğunuza görə bir daha minnətdarıq. Ölkələrimiz arasında yaxşı anlaşmanın və mədəni əlaqələrin, ümumiyyətlə, ikitərəfli münasibətlərin təşviq

olunmasmında sizə təşəkkürümüzü bildiririk. Badələrimizi sizin sağlığınıza qaldırırıq.

Bu axşam, mən böyük məmnuniyyətlə əsas natiqlərdən birini təqdim etməkdən məmnunam. Senator Riçard Luqar ABŞ Senatının ən qocaman üzvlərindən biridir. O, ilk dəfə 1976-cı ildə seçilmişdir. Senator Luqar əvvəllər Senatın kənd təsərrüfatı komitəsinə sədrlik etmişdir, son dörd il ərzində isə beynəlxalq əlaqələr komitəsinin sədridir.

1991-ci ildə senator Luqar Senatın digər üzvü Sem Nan ilə keçmiş Sovet İttifaqı ölkələrində nüvə başlıqlarının və kütləvi qırğın silahlarının ləğv edilməsi ilə bağlı Nan-Luqar proqramını yaratmışdır. İndiyədək həmin proqram çərçivəsində ən azı 6800 nüvə başlığı ləğv olunmuşdur. 2005-ci ilin avqust ayında senator Luqar senator Obama ilə Azərbaycana səfər etmiş və Nan-Luqar proqramını müzakirə etmişlər. Həmin vaxt, o, demokratiya və qanunun aliliyini təşviq etmək məqsədi ilə Prezident Əliyevlə görüşmüşdür. ABŞ-ın Azərbaycana təyin olunmuş yeni səfiri xanım Ann Dersin təsdiqlənməsi ilə bağlı dinləmələr zamanı senator Luqar ABŞ-Azərbaycan münasibətlərinin möhkəmləndirilməsini vurğulamış və Azərbaycan hökumətinin terrorçuluğa qarşı mübarizəyə sadiqliyini alqışlamışdır. O, ölkədə iqtisadi inkişafın təşviq olunmasında zəruri hesab edilən etibarlı infrastrukturun, - xüsusən də kənd təsərrüfatı sahəsində, - yaradılmasının vacibliyini bildirmişdir.

Mən əvvəldə dedim ki, senator Luqar kənd təsərrüfatı komitəsinə sədrlik etmişdir. Zənnimcə, burada əyləşənlərin bir çoxuna məlumdur, senator Luqar dörd senatordan biridir ki, "Azadlığın Dəstəklənməsi Aktı"na 907-ci düzəlişin qəbul edilməsinə qarşı çıxmışdır. Bu yaxınlarda senator Luqar altıncı dəfə Senata seçilmişdir. Beləliklə, biz gələn altı il ərzində onun ölkəyə xidmətinin davamını görəcəyik. Senator Luqar, buyurun.

## ABŞ SENATININ XARİCİ ƏLAQƏLƏR KOMİTƏSİNİN SƏDRİ RİÇARD LUQARIN ÇIXIŞI

- Azərbaycanın hörmətli birinci xanımı!
Hörmətli nümayəndə heyəti və millət vəkilləri!
ABŞ Konqresinin üzvləri!
Xanımlar və cənablar!

Bu gün dostluq, irəliləyiş və ideallarımızın əldə olunmasını qeyd etmək, eləcə də Azərbaycan və Birləşmiş Ştatların vətəndaşlarının yaşadığı böyük nailiyyətlərlə dolu həyat haqqında birgə düşünmək məqsədi ilə sözün əsil mənasında, çox önəmli bir fürsətdir.

Mən Azərbaycan vətəndaşlarının qonaqpərvərliyinə, keçmiş Prezidentin və hazırkı Prezidentin mənim ünvanıma söylədikləri sözlərə hər zaman minnətdarlıqla yanaşmışam. 1990-cı illərin ortalarında Azərbaycana etdiyim ilk səfərlər on il sonra baş verəcək inkişafla bağlı məndə gələcəyə ümid yaratmışdı. Lakin bu ümid uzaq görünən perspektivdə idi. Burada Ceyms Beykerin dediyi kimi, mən və senator Obama 2005-ci ildə Azərbaycanda "Britiş Petroleum" şirkətinin platformasında dayanaraq Bakı buxtasının gözəlliyini seyr etmək imkanı əldə etdik və səkkiz yüz mil məsafə keçən boru kəməri ilə neftin uzaq bazarlara çıxarıldığını gördük. Bu səfər Azərbaycanın nəinki gözəçarpan inkişafını müşahidə etmək, həm də ölkəmizin və bütün dünyanın enerji təhlükəsizliyi haqqında konstruktiv şəkildə düşünmək imkanını yaratdı. 8 milyonluq əhalisi olan və gələn illər ərzində daha böyük inkişafa nail olacaq, eləcə də bir çox vətəndaşlarının rifahı naminə böyük işlər görəcək ölkənin gələcək taleyi haqqında fikir mübadiləsi aparmaq bizim üçün önəmli idi.

Mən bütün bunları ona görə xatırladıram ki, bizim Prezident Əliyevlə keçirdiyimiz ilk görüşümüz zamanı o, vacib bəyanatla çıxış etdi. O, bizim gələcəkdə neftdən əldə olunacaq yeni gəlirlərin və təbii qazın satışından qazanılacaq vəsaitlərin hansı şəkildə istifadə olunacağı ilə bağlı suallarımızı cavablandırdı. Prezident Əliyev Norveç modelini misal gətirdi. Azərbaycanın zəngin təbii yataqlarından əldə olunan gəlirlərin düşünülmüş formada, belə bir xüsusi məkanda dünyaya göz açacaq nəsillərin gələcəyi üçün sərf edilməsinə sadiqlik vurğulandı. Mən bu sözləri çox ciddi qəbul etdim. O, bunları məndən də ciddi şəkildə vurğuladı. 2005-ci ilin sentyabr ayında keçirdiyimiz görüş zamanı Prezident geniş və böyük planları barədə olduqca düşünülmüş formada danışdı. Biz ölkənin səhiyyə xidmətləri, uşaqlara təhsilin təmin edilməsi, infrastrukturun qurulması, malların daşınması və insanların ölkə daxilində hərəkəti üçün yolların çəkilməsi kimi əsas xidmət sahələri haqqında söhbət etdik. Biz vətəndaşların ölkənin həyatında iştirakı barədə danışdıq. Təhsil imkanlarını da müzakirə etdik. Azərbaycan tələbələrinin Birləşmiş Ştatlara,

habelə dünyanın digər ölkələrinə təhsil almaq, yeni fürsətlər əldə etmək, onları həvəsləndirmək və təhsillərini bitirdikdən sonra ölkənin xalqına xidmət göstərmələri məqsədi ilə Azərbaycana qayıtmaq üçün səfərlərini mümkün edəcək tələbə təqaüdlərinin verilməsi ilə bağlı çox gözəl fikir bəyənildi.

Bakı şəhərinin özündə gözəçarpan təkmilləşdirmə işləri ilə bağlı hərtərəfli planı müzakirə edən Prezidentin bu barədə söylədiyi fikirlərini eşitməkdən məmnun olduq. Həmin vaxt mən dedim ki, ölkənizə etdiyim ilk səfərim zamanı ötən əsrdən qalan neft biznesinin qalıqlarını gördüm və bu qalıqların təqribən üç milyon insanın yaşadığı şəhərin mərkəzi yerlərində və kənarda, bəzi hallarda neft ilə qarışıq su, digər tullantılar formasında olduğunu bildirdim. Bunun, sözün əsl mənasında, ekoloji bir faciə olduğunu söylədim. Prezident bu sözlə razılaşdı və dedi ki, bu məsələ onu daim düşündürür və onun gündəliyində durur. Mən bunu ona görə xatırladıram ki, eyni məsələni Bakı və Prezidentin planları barədə lazımi şəkildə xəbəri olan beynəlxalq neft şirkətlərinin rəhbərləri və digər biznes dairələri ilə də müzakirə etmişəm. Lakin, səmimi desək, onlar heç bilmirdilər ki, Prezidentin ətraf mühit və sağlamlıq şəraitinin kəskin şəkildə dəyişdirilməsi ilə bağlı planları bu dərəcədə geniş və əhatəlidir. Bu planlarda tarixən qalmış tullantıların təmizlənməsi ilə yanaşı, yeni çirklənmənin qarşısının alınması da nəzərdə tutulur.

Mən Azərbaycan Prezidentinin böyük arzu və maraqla Birləşmiş Ştatlara səfər etdiyini müşahidə etdim. O, buraya yaxşı xəbərlərlə gəlmişdi. Prezident Əliyev, eyni zamanda, öz amerikalı dostları ilə geniş söhbət aparmaq üçün səfər etmişdi. O, bizə ölkənin təhlükəsizliyi barədə danışdı. Azərbaycan dünyanın çətin və təhdid dolu coğrafı məkanında yerləşir. Burada nəhəng təbii sərvətlər və resurslar var.

Mən 2005-ci ildə "Britiş Petroleum" şirkətinin vertolyotu ilə dənizdə qazma əməliyyatları aparılan neft platformasına gəldim və oradakı vəziyyəti öyrəndim. Aparılan qazma işlərinin texniki tərəfini, digər qazma qurğularını öyrənməyə, eləcə də neft və qaz ehtiyatlarını dənizin dibində aşkar edən "geoloji şəkillərin çıxarılması" adlanan texnologiya ilə tamş olmağa və təbii qazı çıxaran paralel boruları görməyə çalışdım. Bu ölkənin təbii qazı Tbilisiyə, Gürcüstana və sonra isə Türkiyəyə çatdırılacaqdır. Bu məqsədlə görüləcək təhlükəsizlik tədbirləri barədə eşitdim. Türkiyə tərəfinin bu məsələyə münasibətini öyrəndim və

anladım ki, bütün bu işlər həmin üç ölkənin təhlükəsizliyinin möhkəmləndirilməsinə öz töhfəsini verəcəkdir.

Mən Qazaxıstana səfər etdiyim zaman boru kəmərinin Xəzər dənizinin dibi ilə çəkilməsinin və Bakı ilə birləşdirüməsinin vacibliyini söylədim. Hesab etdim ki, belə olan halda, Bakı-Tbilisi-Ceyhan boru kəməri həm Qazaxıstana, həm də Azərbaycan, Gürcüstan və Türkiyəyə əlavə təhlükəsizliyi təmin edəcəkdir. Bu, Avropaya da aiddir. Bütün bunlar bu axşam toplaşdığımız mərasimdə xatirimə gələn fıkirlərdir. Çünki biz nəinki olduqca mühüm yeni fiirsət və imkanları, habelə inkişaf edən ölkənin Prezidentinin, onun parlamentinin bütün dünya və öz vətəndaşları naminə vacib planlarını qeyd edirik.

Prezident Əliyevin dediyi kimi, Azərbaycanda bir il ərzində ümumi daxili məhsulun real artımı 34 faizdən çox olmuşdur. Təbii ki, bu rəqəm ölkənizin əldə edəcəyi son nəticə demək deyildir. Yalnız bir neçə ölkə belə artıma nail ola bilmişdir. Bir çoxları bu cür səviyyəni heç vaxt əldə etməmişlər. Adətən, 8, 9 və ya 10 faiz real artıma nail olmuş ölkələr bu baxımdan xüsusi misal kimi göstərilir. Dövləti idarə etmək qabiliyyəti və bacarığı olmayan halda, bütün bunlar uzun çəkmir.

Mən demokratik təsisatların inkişaf etdirilməsi istiqamətində azərbaycanlıların göstərdiyi səyləri alqışlayıram. Bu, beynəlxalq ictimaiyyət arasında müzakirə mövzusu olmuşdur. 2005-ci ildə senator Obama ilə səfərim zamanı biz seçki proseslərini, namizədlərin qeydiyyata alınmasını izlədik. Biz yüzlərlə insanın arzu və istəklərini öyrənməyə çalışdıq. Mən seçki haqqında bir neçə söz söyləmək istəyirəm. Azərbaycana gəldikdə, bu, istənilən sürətlə irəliyə doğru addımlar atmaq baxımından asan bir proses deyildir. Keçmişdə səhvlər və çətinliklər də olmuşdur. Vaşinqtona səfər edən Prezident Əliyev onların əksər hissəsini qəbul etmiş və səhvlərin aradan qaldırılması ilə bağlı görülən tədbirlər barədə məlumat vermişdir.

Mən bütün bunları ona görə deyirəm ki, demokratik təsisatların inkişaf etdirilməsi ölkənin tərəqqisi və resurslardan müdrik şəkildə istifadə üçün çox vacibdir. Bu mövzu burada, Vaşinqtonda diqqət mərkəzində olaraq qalır. Eyni zamanda, nəhəng enerji resursları və inkişaf məsələləri apardığımız danışıqların vacib tərəfini təşkil edir. Lakin bu gün həmçinin o faktı da qeyd edirik, hər iki ölkədə biz xalqın, hər bir vətəndaşın arzuları və imkanları haqqında çox

səmərəli şəkildə düşünürük. Tələbə təqaüdləri, biznes və ticarət əlaqələri, musiqi və incəsənət sahəsində əməkdaşlığa dair təcrübəmizlə bölüşməliyik.

Mən Azərbaycana və xüsusən də, iki ölkə arasındakı dostluğa olan marağımı sadəcə ifadə etmək üçün yaradılmış bu fürsətə görə minnətdaram. Çox sağ olun.

Ceyms BEYKER: Senator Luqar, çox sağ olun.

Xanımlar və cənablar, indi isə mən ARŞ-Azərbaycan Ticarət Palatasının "Azadlığın dəstəklənməsi" mükafatını senator Luqara təqdim etməkdən məmnunluğumu bildirmək istəyirəm. ABŞ-Azərbaycan Ticarət Palatasının Azadlığın dəstəklənməsi" mükafatı Azərbaycanda müstəqilliyə, sülhə, demokratiyaya, şəxsi azadlıqlara və iqtisadi inkişafa böyük töhfə vermiş şəxslərə verilir. Bu sahəyə töhfəsinə görə bu axşam həmin mükafatın senator Luqara təqdim edilməsindən olduqca məmnunam.

Riçard LUQAR: Mən, adətən, mükafat qəbul edəndə dediyim sözlər qısa olur. Sadəcə, ən səmimi minnətdarlığımı və xoş sözlərimi bildirmək istəyirəm. Mən badəni ABŞ-Azərbaycan Ticarət Palatasının 10 illiyi münasibətilə qaldırır, sizə qarşıdakı uzun illər ərzində bir çox xoş arzularımı çatdırıram. Sağ olun.

Ceyms BEYKER: İndi isə mən Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanı təqdim etmək istəyirəm. O, qısa nitqlə çıxış edəcək və sonra isə ona mükafatın verilməsi mərasimi olacaqdır.

Xanım Əliyeva mədəniyyətlə maraqlanır və mərhəmətli fəaliyyətlə məşğuldur. 1988-ci ildən 1992-ci ilə qədər o, Moskvanın Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləyibdir. 1995-ci ildə xanım Əliyeva Azərbaycan Mədəniyyətinin Dostları Fondunu yaratmışdır və hazırda ona rəhbərlik edir. 1996-cı ildə o, Azərbaycan, ingilis və rus dillərində çıxan "Azərbaycan-İrs" adlı mədəniyyət-tarix jurnalı təsis etmiş və həmin jurnalın baş redaktoru olmuşdur. 2002-ci ildə o, Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilmişdir. Onun bu sahədə apardığı fəaliyyəti Beynəlxalq Gimnastika Federasiyasının 2005-ci ildə bədii gimnastika üzrə dünya çempionatını Azərbaycanda keçirmək qərarı ilə nəticələnmişdir.

Eyni zamanda, o, 2004-cü ildə yaradılmış Heydər Əliyev Fonduna rəhbərlik edir. Elə həmin ildə şifahi və musiqi ənənələrinin təşviq olunması üzrə YUNESKO-nun xoşməramlı səfiri təyin edilmişdir. Həmin ilin sonunda

Azərbaycan Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvü seçilmişdir. O, öz xeyriyyə işlərinə görə "Əsrlərin xeyriyyəçiləri" beynəlxalq fondunun Yaqut Xaç ordenini almış ilk qadındır. Eyni zamanda, 2004-cü ildə Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü seçilmişdir. Millət vəkili, YUNESKO-nım xoşməramlı səfiri, Milli Məclisdə Azərbaycan-ABŞ parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, bir çox xeyriyyə və mədəniyyət təşkilatlarının sədri kimi onun, demək olar ki, heç boş vaxtı qalmır. Lakin bütün bu işlərdən əlavə, onun ən vacib işi 1983-cü ildən etibarən başlamışdır. Həmin vaxtdan o, öz həyat yoldaşı, indiki Prezident Əliyev ilə ailə qurmuşdur. İndi isə mən məmnuniyyət hissi ilə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanı təqdim edirəm.

## AZƏRBAYCAN RESPUBLİKASININ BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVANIN ÇIXIŞI

- Hörmətli xanımlar və cənablar!

Hörmətli dostlar!

Mən Sizin hamınızı bu axşam görməkdən şadam. Birləşmiş Ştatlarda yenidən olmağımdan çox məmnunam. Birləşmiş Ştatlarda olduğum zaman mənə olduqca xoş qonaqpərvərlik göstərilmişdir və mən həmin qonaqpərvərliyə görə bütün dostlarımıza minnətdarlığımı bildirmək istəyirəm.

Mən bu tədbiri təşkil etdiyinə görə ABŞ-Azərbaycan Ticarət Palatasına xüsusi təşəkkürümü ifadə etmək istəyirəm. 1995-ci ildə yarandığı vaxtdan etibarən Ticarət Palatası ölkələrimiz arasında tərəfdaşlığın inkişafına yardım etmiş və Azərbaycanın Birləşmiş Ştatlarda daha yaxşı tanınmasını təşviq etmişdir.

Uzun illər ərzində Palata bir çox tədbirlərə sponsorluq etmiş və saysız-hesabsız sərgilərin, konfransların və humanitar layihələrin təşəbbüskarı olmuşdur. Onun Harvard Universitetində Xəzər Araşdırmaları proqramı kimi təhsil layihələri gənc Azərbaycan peşəkarları və tələbələri üçün yeni üfüqlər açmışdır. Bütün bu uğurlu işlər barədə məlumatım var və Palatanın nailiyyətlərini alqışlayıram.

Hörmətli dostlar, dövlətlərimiz arasında bu cür güclü əlaqələrin qurulması təqdirəlayiq haldır. Birləşmiş Ştatlar Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biri olmuşdur. Müstəqilliyimizin bərpasından sonra Azərbaycan ilə

Birləşmiş Ştatlar arasındakı münasibətlər müxtəlif sahələrdə uğurla inkişaf etmişdir. Amerika Birləşmiş Ştatları enerji layihələrimizdə bizim böyük tərəfdaşımızdır. Biz bir çox çətinliklərlə üzləşmişdik, lakin dünyada ən böyük enerji layihəsi hesab edilən Bakı-Tbilisi-Ceyhan boru kəmərinin çəkilməsinə birgə nail olduq.

Azərbaycan antiterror koalisiyasının üzvüdür və əsgərlərimiz amerikalı həmkarları ilə çiyin-çiyinə sülhün bərqərar olması naminə İraq, Əfqanıstan və Kosovoda qulluq edirlər. Biz eyni zamanda siyasi islahatlar, demokratiyanın inkişafı və insan hüquqların qorunması sahəsində də Birləşmiş Ştatlarla əməkdaşlıq edirik. ABŞ Konqresinin çox sayda nümayəndə heyəti ölkəmizə səfər etmişdir. Həmin səfərlər ikitərəfli münasibətlərimizin inkişafında mühüm rol oynamışdır.

Böyük dövlət xadimi və Azərbaycanın səmimi dostu senator Luqarın bu yaxınlarda Bakıya səfəri əlaqələrimizin genişləndirilməsində atılmış mühüm addım oldu.

Azərbaycan-Amerika parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri kimi hesab edirəm ki, əlaqələrimizin daha da sıxlaşdırılması böyük əhəmiyyət kəsb edir və əminəm ki, mənim parlament üzvləri ilə birgə Vaşinqtona səfərim həmin məqsədə xidmət edəcəkdir.

Bu gün Azərbaycan öz inkişafının mühüm mərhələsindədir. İqtisadiyyatımız sürətlə artır. Bildiyiniz kimi, Azərbaycan iqtisadiyyatı 2005-ci ildə dünyanın ən sürətlə inkişaf edən iqtisadiyyatı kimi qiymətləndirilmişdir və biz 2006-cı ildə də bu göstəricinin qorunub saxlanılmasına çalışacağıq.

Ölkəmizin müxtəlif regionları inkişaf etməkdədir. Son üç il ərzində 500 min yeni iş yeri açılmışdır. Mən Prezidentlə birgə ölkənin bir çox yerlərinə səfər edirəm və bütün bu dəyişiklikləri görməkdən çox məmnunam və fərəh hissi keçirirəm. Yeni məktəblər, xəstəxanalar, uşaq bağçaları, idman mərkəzləri inşa edilməkdədir. Yeni sənaye və kənd təsərrüfatı müəssisələri açılmaqdadır. Yeni yollar çəkilir.

Bu gün biz gənclərimizin təhsilinə xüsusi diqqət yetiririk. Son üç il ərzində 735 orta məktəb binası tikilmişdir. Ötən ay Azərbaycan Prezidenti gənc istedadlı azərbaycanlıların xaricdə təhsil alması üçün tələbə təqaüdlərinin artırılması ilə bağlı Dövlət proqramı haqqında fərman imzalamışdır. Bu, hökumətin neftdən

əldə olunan gəlirlərin qeyri-neft sektoruna sərf edilməsi strategiyasının bir hissəsidir. Hesab edirəm ki, təhsilimizə, gələcəyimizə və yeni nəsillərə sərmayə qoymaq ən münasib sərmayə formasıdır.

Ümid edirəm ki, tələbələrin böyük hissəsi təhsil üçün Amerikaya gələcəkdir. Təhsilin dəstəklənməsi Heydər Əliyev Fondunun fəaliyyətində əsas prioritetlərdən biridir. Heydər Əliyev Fondu mədəniyyət, səhiyyə, təhsil və elm sahələrində layihələri dəstəkləmək məqsədi ilə 2004-cü ilin may ayında yaradılmışdır.

Son illər ərzində Heydər Əliyev Fondu "Yeniləşən Azərbaycana yeni məktəb", "Uşaq evləri və internat məktəblərinin inkişafı", "Talassemiyasız həyat", "Diabetli uşaqlara ən yüksək qayğı", "Kor və görmə qabiliyyəti zəif olan insanlar üçün informasiya-kommunikasiya texnologiyalarına çıxışın təmin edilməsi" kimi layihələri həyata keçirmişdir. Təhsil sisteminin təkmilləşdirilməsi ilə bağlı proqramlarımız çərçivəsində 200-dən çox məktəb tikilmiş, lazımi avadanlıqla təchiz olunmuş və kompüterləşdirilmişdir. Həmin məktəblərdən bir neçəsi ən ucqar kəndlərdə yerləşir.

Fəaliyyətimizin xüsusi bir hissəsi uşaq evlərində yaşayan uşaqların qayğısına qalmaqdan ibarət olmuşdur. Onların yaşadığı yerlər müasirləşdirilmiş, kompüterlərlə təchiz olunmuşdur və orada kitabxanalar yaradılmışdır. Biz ailəsiz qalmış uşaqlara yardım göstərmək üçün YUNİSEF ilə birgə çalışırıq. Səhiyyə sahəsinə gəldikdə isə, Heydər Əliyev Fondu tibbi xidmətə ehtiyacı olan 2500-dən çox insana kömək etmişdir. Diabet və qan xəstəliklərindən əziyyət çəkən uşaqlara yardım göstərmək məqsədi ilə xüsusi proqram həyata keçirilir. Biz görmə problemləri olan şəxslər üçün xüsusi təhsil mərkəzinin tikilməsindən ötrü BMT-nin İnkişaf Proqramı ilə birgə layihəni həyata keçiririk.

Fondumuz milli mədəni irsimizin qorunmasına xüsusi diqqət yetirir. Bir çox tarixi və mədəniyyət abidələri Fondun fəaliyyəti sayəsində bərpa olunmuşdur. Bildiyiniz kimi, muğam Azərbaycanın qədim folklor musiqisidir və bu məqsədlə biz Fondun təşəbbüsü və YUNESKO-nun dəstəyi ilə Bakıda Beynəlxalq Muğam Mərkəzi tikirik. Tarixi və mədəniyyət abidələrinin qorunması ölkəmiz üçün bir də ona görə vacibdir ki, Azərbaycan ərazisinin 20 faizi Ermənistanın işğalı altındadır. Həmin ərazilərdə minlərlə tarixi, mədəniyyət abidələri və dini abidələr işğalçı qüvvələr tərəfindən məhv edilmişdir. Ölkəmizdə bir milyon

qaçqın və məcburi köçkün var və onların müəyyən hissəsi hələ də çadır düşərgələrində yaşayır. Biz bu faktları beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaqda səylərimizi davam etdiririk.

Heydər Əliyev Fondu özünün beynəlxalq fəaliyyətini genişləndirir. Son illər ərzində biz YUNESKO, Vaşinqton Elmlər Akademiyası, Latın Mədəniyyəti Akademiyası ilə birgə bir neçə beynəlxalq konfranslar təşkil etmişik. Bir çox ölkələrin, o cümlədən Birləşmiş Ştatların tanınmış alimləri həmin tədbirlərdə iştirak etmişlər. Bizim çox faydalı müzakirələrimiz oldu. Ümid edirəm ki, biz birgə layihələri davam etdirəcəyik. Bir sözlə, fondumuz beynəlxalq təşkilatlar və fondlar ilə əməkdaşlıq etmək arzusundadır və buna hazırdır.

Hörmətli dostlar, Azərbaycan olduqca zəngin mədəni irsə və ənənələrə malik olan qədim diyardır. Uzun əsrlər boyu ölkəmiz Qərblə Şərq arasında körpü olmuşdur. Biz öz müxtəlifliyimizdən fərəhlənirik. Bu gün bizim çoxmilli və çoxdinli cəmiyyətimiz var və burada müsəlmanlar, xristianlar, yəhudilər və digər dinlərin nümayəndələri yan-yana, anlaşma şəraitində bir ailədəki kimi yaşayırlar. Biz dözümlülük, ləyaqət, digər mədəniyyətlərə hörmət, ailəyə sadiqlik, uşaq və yaşlılara qayğı kimi dəyərlərimizi vacib hesab edirik. Bütün bu dəyərlər həmçinin Amerikanın da dəyərləridir. Ona görə də hesab edirəm ki, Birləşmiş Ştatlar ilə Azərbaycan arasında daha sıx əməkdaşlıq bizim ümumi uğurumuz üçün olduqca vacibdir. Dialoq vasitəsilə biz bir çox işlər görə və bir-birimizi daha yaxşı başa düşə bilərik və nəhayət, uzun müddətli əlaqələrimizi qura bilərik.

Sonda, mən göstərilmiş qonaqpərvərliyə və sizinlə görüşmək imkanının yaradılmasına görə ABŞ-Azərbaycan Ticarət Palatasına bir daha öz minnətdarlığımı bildirirəm. Ümid edirəm ki, sizin hamınız, Azərbaycanın dostları Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında münasibətlərin möhkəmləndirilməsində səylərinizi davam etdirəcəksiniz. Bir daha sağ olun. Mən sizə və ailələrinizə ən xoş arzularımızı çatdırıram.

Diqqətinizə görə minnətdaram.

(Azərbaycanın birinci xanımının çıxışı diqqətlə dinlənildi və alqışlarla qarşılandı).

* * *

Ceyms BEYKER: Xanım Əliyeva, sağ olun.

İndi isə, mən məmnuniyyətlə birinci xanıma Palatanın "2006-cı ilin Xoşməramlı səfiri" mükafatını təqdim etmək istəyirəm. Biz bu mükafatı dövri olaraq veririk və ötən dəfə bu mükafat artıq təqdim edilmişdir. Mükafatın verilməsi Birləşmiş Ştatlar ilə Azərbaycan arasında xoş məramın təşviq olunmasına dəlalət edir. Təbii ki, birinci xanım mədəniyyət, təhsil, xeyriyyəçilik sahəsində işlərinə görə bu mükafatla təltif olunur. Mən digər həmsədrlə birgə "Xoşməramlı səfir" mükafatını xanım Əliyevaya məmnnuiyyətlə təqdim etmək istəyirəm.

Mehriban ƏLİYEVA: Bu cür yüksək mükafata görə minnətdaram. Mən Azərbaycanın zəngin mədəni irsi haqqında danışdım. Bu gün axşam bizim gənc və istedadlı azərbaycanlıların səhnədə çıxışlarını dinləmək imkanımız olacaqdır. Əminəm ki, siz bundan həzz alacaqsınız. Sağ olun.

## ABŞ KONQRESİNİN ÜZVLƏRİ AZƏRBAYCANIN BİRİNCİ XANIMI İLƏ GÖRÜŞLƏRİNƏ DAİR BƏYANAT VERMİŞLƏR

ABŞ Konqresinin üzvləri Nümayəndələr Palatasında bəyanatla çıxış edərək Vaşinqtona işgüzar səfər edən Azərbaycan-ABŞ parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Heydər Əliyev Fondununun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanı salamlamışlar.

Konqresdə Azərbaycanla iş üzrə qrupun yeni həmsədri, Pensilvaniya ştatının təmsilçisi Bill Şuster öz adından və qrupun digər həmsədri, Texas ştatından konqresmen Solomon Ortis adından çıxış edərək Azərbaycanın birinci xanımına və onu müşayiət edən Milli Məclisin bir qrup üzvünə səfərə görə təşəkkürünü bildirmişdir. Konqresmen Şuster ABŞ-ın mühüm strateji tərəfdaşlarından olan Azərbaycan Respublikasının parlament üzvlərini iki ölkənin qanunverici orqanı arasında işçi qrupunun fəaiiyyətini və əlaqələndirmə səylərini dəstəkləməyə çağırmışdır.

Azərbaycan-ABŞ parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Mehriban Əliyeva ilə Vaşinqtonda görüş keçirən digər Konqres üzvü Şeli Sekula Gibbs də Nümayəndələr Palatasında çıxış edərək Azərbaycanın birinci xanımını və onu müşayiət edən Milli Məclis üzvlərini salamlamışdır. Xanım Gibbs vurğulamışdır ki, Nümayəndələr Palatası ABŞ-ia Azərbaycanın strateji

tərəfdaşlığını, qlobal terrorla mübarizədə birgə səyləri, Azərbaycanın Qərb üçün etibarlı enerji mənbəyi kimi mühüm rolunu tanıyır. O, əlavə etmişdir ki, iqtisadi artımı enerji layihələri sayəsində bu il 30 faizə çatacaq Azərbaycan sürətlə müasirləşir. Ölkə bu iqtisadi artımdan gələcəyinə sərmayə qoymaq üçün istifadə edir. Xanım Gibbs Azərbaycanı inkişafda olan demokratiya adlandıraraq ölkədə sosial, siyasi və iqtisadi imkanları genişləndirmək istiqamətində iş aparıldığını demişdir. Onım sözlərinə görə, Azərbaycanın bu sahələrdəki təşəbbüsləri digər Qafqaz və Mərkəzi Asiya dövlətlərinə nümunə ola bilər. Konqres üzvü həmçinin Qafqazın ən böyük qeyri-hökumət təşkilatı olan Heydər Əliyev Fondunun Mehriban Əliyevanın rəhbərliyi altında təhsil, səhiyyə, beynəlxalq əlaqələr, mədəniyyət və digər humanitar sahələrdə həyata keçirdiyi proqramları həmkarlarının diqqətinə çatdırmışdır. İxtisasca həkim olan Şeli Sekula Gibbs vurğulamışdır ki, doktor Mehriban Əliyevanın həkimlik biliklərini xeyriyyə işlərində istifadə etməsi xüsusilə təqdirəlayiqdir.

Çıxışının sonunda o, "həmkar həkim, parlament üzvü, həyat yoldaşı və ana" olan Azərbaycanın birinci xanımını bir daha Vaşinqtonda salamlayaraq Azərbaycanda həyata keçirilən səhiyyə proqramlarını və qadınların cəmiyyətdə rolunu artıran təşəbbüsləri alqışlamışdır.

## AZƏRBAYCAN RESPUBLİKASININ BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVANIN ABŞ-A İŞGÜZAR SƏFƏRİ BAŞA ÇATMIŞDIR

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva ABŞ-a işgüzar səfəri çərçivəsində dövlət katibinin ictimai diplomatiya və ictimai məsələlər üzrə müavini Karen Hyuz ilə görüşmüşdür.

Mehriban xanım rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən humanitar sahədə həyata keçirilən layihələr barədə danışdı, neftdən əldə edilən gəlirlər hesabına ölkəmizdə təhsil, səhiyyə və mədəniyyət sahələrinin inkişaf etdirildiyini vurğuladı. O, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən söhbət açaraq münaqişə nəticəsində valideynlərindən məhrum olmuş uşaqlara qayğı göstərilməsinin Heydər Əliyev Fondunun daim diqqət mərkəzində olduğunu qeyd etdi.

Karen Hyuz Heydər Əliyev Fondu tərəfindən görülən işləri yüksək

qiymətləndirdi və bunun Azərbaycanın gələcək inkişafı üçün böyük əhəmiyyət kəsb etdiyini vurğuladı. O, Azərbaycanın dini azadlığa hörmət edilməsi baxımından nümunəvi ölkə olduğunu bildirdi və 2007-ci ildə İslam Konfransı Təşkilatı tərəfindən Bakıda "Dözümlülüyün təbliğ olunmasında kütləvi informasiya vasitələrinin rolu" mövzusunda keçiriləcək konfrans ilə maraqlandı. Bu konfransın Azərbaycanda keçirilməsinin ölkəmiz üçün mühüm olduğunu qeyd edən Mehriban xanım Karen Hyuzu bu tədbirə dəvət etdi.

Mehriban Əliyeva ABŞ dövlət katibinin demokratiya və qlobal məsələlər üzrə müavini Paula Dobryanski ilə görüşmüşdür. Görüşdə ümumi təhlükələr, xüsusilə quş qripi xəstəliyinin qarşısının alınması istiqamətində iki ölkənin əməkdaşlığı məsələləri müzakirə edildi və xanım Dobryanski bu işdə ölkəsinin Azərbaycana hərtərəfli kömək göstərməyə hazır olduğunu bildirdi. Ölkələrimiz arasında iqtisadi və təhlükəsizlik məsələləri üzrə işçi qruplarının fəaliyyət göstərdiyini qeyd edən Paula Dobryanski həmçinin demokratiya və insan hüquqları məsələləri üzrə də müzakirələrin keçirilməsinin zəruriliyinə toxundu. O, Azərbaycanın müasir dünyəvi dövlət kimi Qərblə islam aləmi arasında körpü rolunu oynaya biləcəyini bildirdi.

Azərbaycanda tam dini və etnik tolerantlığın mövcud olduğunu qeyd edən Mehriban Əliyeva YUNESKO və İSESCO-nun xoşməramlı səfiri kimi bu istiqamətdə bütün təkliflərə açıq olduğunu vurğuladı. Görüş zamanı Azərbaycanın birinci xanımı ölkəmizdə demokratik təsisatların daha da təkmilləşdirilməsi üçün görülən tədbirlər barədə də danışdı.

Mehriban xanım Əliyevanın ABŞ-a işgüzar səfəri başa çatmışdır.

**AzərTAC**

## PARİSDƏ YUNESKO-NUN XOŞMƏRAMLI SƏFİRLƏRİNİN İLLİK HESABAT YIĞINCAĞI KEÇİRİLMİŞDİR

Aprelin 3-də Parisdə YUNESKO-nun əsas iqamətgahında qurumun xoşməramlı səfirlərinin ənənəvi illik hesabat yığıncağı keçirilmişdir.

Azərbaycanın birinci xanımı, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanı iqamətgahın qarşısında təşkilatın protokol idarəsinin rəhbəri Jan Lük Şan və digər rəsmi şəxslər qarşılamışlar.

YUNESKO-nun baş direktoru Koişiro Matsuura Mehriban xanım Əliyevanı səmimi salamlamışdır.

Yığıncağı təşkilatın baş direktoru Koişiro Matsuura açmışdır. O, xoşməramlı səfirləri 7-ci illik hesabat münasibətilə təbrik etmiş, onların son bir il ərzində gördükləri işlər barədə müfəssəl məlumat vermişdir.

Baş direktor müxtəlif qitələri və ölkələri təmsil edən səfirlərin dünyanı narahat edən bir çox problemlərin həllində fəal iştiraklarını xatırlatmış, təşkilata hərtərəfli yardım göstərdiklərini, YUNESKO-nun davamlı inkişafı xüsusi diqqətdə saxladığını vurğulamışdır.

Təhsil sahəsindən söhbət açan baş direktor hələ də dünyada milyonlarla uşağın təhsildən kənarda qaldığını bildirmiş, YUNESKO tərəfindən keçirilmiş beynəlxalq konfranslardan danışmışdır. O, Azərbaycanın birinci xanımının fəaliyyəti sayəsində Azərbaycanla YUNESKO arasında yaranmış sıx əməkdaşlığı, təhsillə bağlı regional konfransın 2008-ci ildə Bakıda keçirilməsi barədə Mehriban Əliyevanın təşəbbüsünü yüksək qiymətləndirmişdir.

Yığıncaqda Mehriban xanım Əliyeva çıxış etmişdir. Mehriban xanım çıxışının əvvəlində baş direktoru və həmkarlarını ənənəvi illik hesabat yığıncağı münasibətilə salamlamışdır. Azərbaycanın birinci xanımı YUNESKO tərəfindən tərəfdaşlıq məsələsi ilə əlaqədar Qətərdə keçirilmiş regional konfransı xatırlatmış, xoşməramlı səfirləri "Hamı üçün təhsil" proqramı çərçivəsində 2008-ci ilin iyul ayında Azərbaycanda keçiriləcək yekun regional konfransa dəvət etmişdir.

Ötən ilin "Qeyri-maddi mədəni irsin qorunması haqqında" Konvensiyanı ratifikasiya etmiş ölkələrin Baş Məclisinin 2006-cı il iyun ayının 26-da keçirilməsi ilə yadda qaldığını xatırladan Mehriban xanım Əliyeva Azərbaycanın cari ilin mart ayında bu Konvensiyanı ratifikasiya etdiyini bildirmişdir. Mehriban Əliyeva qeyri-maddi irsin qorunması və təbliğinin ümdə vəzifə olduğunu vurğulamış və bu sahədə ölkəmizdə görülən işlərdən söhbət açmışdır.

Heydər Əliyev Fondunun son bir ildəki fəaliyyətindən danışan xoşməramlı səfir həmin fəaliyyətin səmərəli olduğunu xüsusi vurğulamış, təhsil, elm, mədəniyyət, səhiyyə və ətraf mühitin qorunması kimi sahələrdə fondun öz işini davam etdirdiyini, bir sıra layihələrin artıq başa çatdırıldığını, "Yeniləşən Azərbaycana yeni məktəb" proqramının uğurla həyata keçirildiyini bildirmişdir. Mehriban Əliyeva demişdir ki, Heydər Əliyev Fondu, Vaşinqton Elmlər Akademiyası və YUNESKO Bakıda orta əsr əlyazmalarında tibb və əczaçılıq mövzusunda ilk beynəlxalq konfrans təşkil etmişdir. Hazırda ölkəmizdə təbabətə dair 3 qiymətli əlyazma qorunub saxlanılır və onlar ümumdünya yaddaş qeydiyyatına salınmışdır. Bu əlyazmalar bütün bəşəriyyət üçün böyük əhəmiyyət daşıyır.

Memarlıq abidələrinin bərpasında Heydər Əliyev Fondunun fəal iştirakını xatırladan Mehriban Əliyeva son vaxtlar Azərbaycanda bir çox tarixi və dini abidələrin bərpa edildiyini xatırlatmış, eyni zamanda, fondun ölkəmizin hüdudlarından kənardakı ümumbəşəri əhəmiyyət daşıyan mədəni abidələrin bərpasında da iştirakını vurğulamış, Parisin yaxınlığında, Versalda bərpa işlərində Heydər Əliyev Fondununun əməli fəaliyyət göstərdiyini bildirmişdir.

Azərbaycanın qeyri-maddi mədəni irslərindən biri olan muğamın qorunması və təbliği üçün bir çox işlər görüldüyünü deyən Mehriban Əliyeva bu sahədə Azərbaycana hərtərəfli kömək göstərmiş YUNESKO-ya minnətdarlığını bildirmişdir. Cənab K.Matsuuranın iştirakı ilə Bakıda təməli qoyulmuş Beynəlxalq Muğam Mərkəzinin tikintisinin davam etdirildiyini, 2008-ci ilin yayında mərkəzin açılışı ilə əlaqədar keçiriləcək təntənəli tədbirdə baş direktorun iştirak edəcəyinə ümidvar olduğunu bildirmişdir.

Mehriban xanım Əliyeva çıxışının sonunda Heydər Əliyev Fondunun Pakistandakı qızlar məktəbi ilə əlaqədar həyata keçirdiyi layihə barədə də

məlumat vermişdir. O, dünya şöhrətli musiqiçi Mstislav Rostropoviçi anadan olmasının 80 illiyi ilə əlaqədar bütün xoşməramlı səfirlər adından təbrik etmişdir.

Mehriban Əliyevanın çıxışı Heydər Əliyev Fondunun muğam və Pakistandakı qızlar məktəbi ilə əlaqədar hazırladığı layihələri əks etdirən slaydlarla müşayiət olunurdu.

Yığıncaq iştirakçıları Azərbaycanın birinci xanımının çıxışını sürəkli alqışlarla qarşılamışlar.

YUNESKO-nun baş direktoru və xoşməramlı səfirlər yığıncaqdan sonra xatirə şəkli çəkdirmişlər.

## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-NUN VƏ İSESKO-NUN XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN ƏLİYEVA DÜNYA SƏHİYYƏ ASSAMBLEYASININ 60-CI SESSİYASINDA ÇIXIŞ ETMİŞDİR

Mayın 17-də Cenevrədə Dünya Səhiyyə Təşkilatının (DST) ali orqanının - Dünya Səhiyyə Assambleyasının 60-cı sessiyasının yığıncağı keçirilmişdir. Yığıncaqda Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın səhiyyə sahəsində xidmətlərinə görə İhsan Doğramacı Ailə Sağlamlığı Fondunun mükafatına layiq görüldüyü bildirilmişdir. Mükafat təqdim olunduqdan sonra Mehriban ƏLİYEVA çıxış edərək demişdir:

- Xanım sədr!

Xanım baş direktor!

Xanımlar və cənablar!

İlk növbədə, mən bütün iştirakçıları salamlamaq, xeyirxah fəaliyyətinizdə sizə uğurlar arzulamaq istərdim.

Dünya. Səhiyyə Təşkilatı planetimizdə yaşayan bütün xalqlar üçün sağlamlığın mümkün qədər ən yüksək səviyyəsinin təmin edilməsi naminə çalışan əsil universal təsisatdır.

Burada olmaq və Dünya Səhiyyə Təşkilatının bu mükafatını almaq böyük

şərəfdir. Məni bu cür yüksək mükafata layiq gördüklərinə görə DST-nin İcraiyyə Şurasına və professor İhsan Doğramacı Ailə Sağlamlığı Fondunun seçim heyətinə minnətdarlığımı bildirmək istəyirəm.

Əminəm ki, bu mükafat ölkəmdə ana, uşaq və ailə sağlamlığının yaxşılaşdırılması məqsədilə göstərdiyim səyləri daha da gücləndirəcəkdir. Bu mükafat mənim üçün çox önəmlidir, çünki o, böyük hörmət və ehtiram bəslədiyim şəxsin, professor İhsan Doğramacının adını daşıyır.

Dünya şöhrətli pediatr və böyük xeyriyyəçi, professor İhsan Doğramacı bütün həyatını uşaqların sağlamlığı və ali təhsili kimi yüksək amallara həsr etmişdir. Dünya Səhiyyə Təşkilatının yaradıcılarından biri, onun nizamnaməsinə imza atmış, bu təşkilatın canlı tarixi sayılan belə böyük şəxsiyyət tərəfindən təltif edilmək mənim üçün böyük şərəfdir. Əfsuslar olsun ki, professor Doğramacı bu tədbirdə iştirak edə bilmədi. Mən öz adımızdan ona qarşıdan gələn bir çox illər ərzində möhkəm cansağlığı və səadət arzulayıram.

Hazırda sürətlə inkişaf edən Azərbaycanda yaşayan hər bir şəxsin həyat tərzini və sağlamlığını köklü şəkildə yaxşılaşdırmaq üçün bir çox imkanlar var. Azərbaycanda səhiyyə sisteminin müasirləşdirilməsi haqqında dövlət proqramı uğurla həyata keçirilir. Təkcə son iki il ərzində ölkəmizdə onlarca müalicə-diaqnostika mərkəzləri tikilmişdir. Onların hamısı ən müasir avadanlıqla təchiz olunur. Biz gənc həkimlərimizin təhsilinə xüsusi diqqət yetiririk. Məqsədimiz ölkədə ən yüksək dünya standartlarına cavab verən səhiyyə sisteminin qurulmasıdır. Əminəm ki, hazırkı sürətlə biz yaxın gələcəkdə öz məqsədlərimizə nail olacağıq.

Dünya Səhiyyə Təşkilatı ilə Azərbaycan arasında əməkdaşlıq çox səmərəlidir. Bu təşkilat Azərbaycanda tibbi təhsil, təhlükəsiz immunlaşdırma, ana və uşaqların sağlamlığının qorunması kimi sahələrdə bir sıra layihələr həyata keçirir. İnanıram ki, əməkdaşlığımız gələcəkdə daha səmərəli olacaqdır.

Məni təltif etdiklərinə görə, Dünya Səhiyyə Təşkilatına və İhsan Doğramacı Ailə Sağlamlığı Fonduna sonda bir daha minnətdarlığımı bildirir, bu mükafatı Azərbaycanda işləyən bütün həkimlərin və səhiyyə işçilərinin əməyinə verilən qiymət kimi qəbul edirəm.

Mən sizə uğurlar, möhkəm cansağlığı və səadət arzulayıram. Sağ olun.

(Mehriban Əliyevanın çıxışı alqışlarla qarşılanmışdır).

# AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ CENEVRƏDƏKİ BÖLMƏSİNİN BAŞ DİREKTORU SERGEY ORCONİKİDZE İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva Cenevrəyə səfəri çərçivəsində mayın 18-də Birləşmiş Millətlər Təşkilatının Cenevrədəki bölməsinin iqamətgahına gəlmişdir. Mehriban xanımı iqamətgahın önündə bölmənin protokol rəisi Sergey Şapoşnikov ehtiramla qarşılamışdır.

Burada Mehriban Əliyeva və BMT-nin Cenevrədəki bölməsinin baş direktoru Sergey Orconikidzenin görüşü keçirilmişdir. Görüşdə BMT ilə Azərbaycan arasında sıx əməkdaşlıq əlaqələri barədə fikir mübadiləsi aparılmışdır.

Baş direktor Mehriban xanım Əliyevanı ana və uşaqların, ailənin sağlamlığının qorunması və möhkəmləndirilməsi sahəsindəki xidmətlərinə görə Dünya Səhiyyə Təşkilatı tərəfindən İhsan Doğramacı Ailə Sağlamlığı Fondunun mükafatına layiq görülməsi münasibətilə təbrik etmiş, Azərbaycan Prezidenti İlham Əliyev və xanımı ilə Cenevrədə görüşünü xatırlatmışdır. Azərbaycanla BMT arasında əməkdaşlıqdan danışan Sergey Orconikidze Azərbaycanın BMT sistemində artan rolunu vurğulamış, ölkəmizin bu təşkilatda layiqincə təmsil olunduğunu bildirmişdir. O, BMT-nin Cenevrə bölməsinin iqamətgahında "Azərbaycan otağı"nın açılmasını mühüm hadisə, ikitərəfli əməkdaşlığın bariz nümunəsi kimi səciyyələndirmişdir.

Mehriban Əliyeva onun ünvanına söylədiyi xoş sözlərə görə baş direktora təşəkkür etmiş, dünyada, ölkələr və xalqlar arasında sülhün, əmin-amanlığın qorunub saxlanmasında BMT-nin səylərini yüksək qiymətləndirmişdir. Azərbaycanın birinci xanımı rəhbərlik etdiyi Fondun təhsil və mədəniyyətlə yanaşı, səhiyyənin inkişafı sahəsində gördüyü işlər barədə də məlumat vermiş, ölkəmizdə müasir tipli yeni xəstəxana və tibb ocaqlarının tikildiyini bildirmişdir.

# HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-NUN VƏ İSESKO-NUN XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN ƏLİYEVA BMT-NİN CENEVRƏDƏKİ BÖLMƏSİNİN İQAMƏTGAHINDA "AZƏRBAYCAN OTAĞI"NIN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva Dünya Səhiyyə Assambleyasının 60-cı sessiyasında iştirakı çərçivəsində mayın 18-də BMT-nin Cenevrədəki bölməsinin iqamətgahında "Azərbaycan otağı"nın açılışında iştirak etmişdir.

Açılış mərasiminə BMT-nin Cenevrədəki bölməsi yanında akkreditə olunmuş diplomatik korpusun nümayəndələri, beynəlxalq təşkilatların yüksək vəzifəli təmsilçiləri, ölkəmizin daimi nümayəndəliyinin və səfirliyinin əməkdaşları toplaşmışdılar.

BMT-nin Cenevrədəki bölməsinin baş direktoru Sergey Orconikidze və Mehriban xanım Əliyeva açılışı bildirən lenti kəsmiş, "Azərbaycan Respublikası tərəfindən təmir edilmiş və bəzədilmişdir. 2007" - sözləri yazılmış lövhənin üzərindəki örtüyü götürmüşlər.

Mehriban xanım Əliyeva ölkəmizi təmsil edən eksponatlar - İçərişəhərin təsvir edildiyi tablo, Bakıda, Qarabağda və Qubada toxunmuş XVII və XVIII əsrlərə aid xalçalar haqqında baş direktora məlumat vermişdir.

Mərasimdə çıxış edən Sergey Orconikidze Azərbaycanı başqa ölkələrə örnək göstərərək belə otaqların açılmasının BMT və onun məqsədləri üçün çox dəyərli töhfə olduğunu xüsusi vurğulamış, yaxın vaxtlarda "Azərbaycan otağı"nda mühüm tədbirlərin keçiriləcəyini bildirmişdir.

Mehriban xanım Əliyeva çıxışında otağın bərpa olunmasında yaxından iştirak etmiş BMT bölməsinin rəhbərliyinə təşəkkürünü bildirmişdir. Son illər Azərbaycanda mühüm layihələrin həyata keçirildiyini, beynəlxalq aləmdə

ölkəmizin nüfuzunun getdikcə artdığını xatırladan Mehriban Əliyeva respublikamızın iqtisadi qüdrətinin dinamik şəkildə yüksəldiyini vurğulamışdır.

Ölkəmizin ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışan Mehriban xanım Əliyeva işğalçılıq siyasəti yeridən Ermənistanın ərazilərimizin 20 faizini zəbt etdiyini, doğma yurdlarından silah gücünə çıxarılmış bir milyondan artıq insanın qaçqın və məcburi köçkün vəziyyətində yaşadığını bildirmişdir. İşğalçı dövlətin zəbt etdiyi ərazilərdən silahlı qüvvələri qeyd-şərtsiz çıxarması barədə BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə indiyə qədər əməl etmədiyini bildirən Azərbaycanın birinci xanımı beynəlxalq təşkilatları məsələnin sülh yolu ilə həllində öz təsir imkanlarından istifadə etməyə çağırmışdır.

Mərasimdə iştirak edən qonaqlar Mehriban xanımı "Azərbaycan otağı"nm açılması münasibətilə təbrik etmişlər.

Baş direktor Sergey Orconikidze Mehriban Əliyevanı böyük ehtiramla yola salmışdır.

## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-NUN VƏ İSESKO-NUN XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATİ MEHRİBAN ƏLİYEVA İSVEÇRƏDƏKİ SOYDAŞLARIMIZLA GÖRÜŞMÜŞDÜR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva Cenevrəyə səfəri çərçivəsində mayın 18-də bu ölkədə işləyən və təhsil alan soydaşlarımızın bir qrupu ilə görüşmüşdür.

Azərbaycanın İsveçrə və Vatikandakı səfiri, BMT-nin Cenevrədəki bölməsində və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi Elçin Əmirbəyov görüş iştirakçıları barədə Mehriban Əliyevaya məlumat vermişdir.

Görüşdən məmnunluq duyduğunu söyləyən Mehriban xanım xarici ölkələrdə çoxlu sayda azərbaycanlı mütəxəssislərin çalışdığını və gənclərin təhsil aldığını bildirmişdir. Son illər ölkəmizin iqtisadiyyatının sürətlə inkişaf etdiyini, əhalinin yaşayış səviyyəsinin xeyli yaxşılaşdığını xatırladan Azərbaycanın birinci xanımı respublikamız haqqında həqiqətlərin dünyaya, o cümlədən avropalılara çatdırılmasında xaricdəki soydaşlarımızın böyük qüvvə

olduğunu xüsusi vurğulamışdır.

Gənclərin xarici ölkələrdə təhsil almasından danışan Mehriban Əliyeva bildirmişdir ki, Azərbaycan Prezidenti bu məsələyə böyük diqqət yetirir və xüsusi sərəncam imzalamışdır. Yüksək səviyyəli mütəxəssislər yetişdirmək məqsədi ilə gələcəkdə minlərlə azərbaycanlı gənc xarici ölkələrdə təhsil almağa göndəriləcək və dövlət onlara hərtərəfli qayğı göstərəcəkdir.

Görüşün sonunda Mehriban xanım iştirakçılarla xatirə şəkli çəkdirmişdir.

## AZƏRBAYCANIN BİRİNCİ XANIMININ ŞƏRƏFİNƏ ZİYAFƏT VERİLMİŞDİR

Dünya Səhiyyə Təşkilatının yüksək mükafatına layiq görülmüş Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondununun prezidenti, YUNESKO və İSESKO-mm xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın şərəfinə mayın 18-də Cenevrədə ziyafət verilmişdir.

Ziyafətdə Dünya Səhiyyə Təşkilatının baş direktoru Marqaret Çan, Dünya Səhiyyə Assambleyasının 60-cı sessiyasının sədri, Avstraliyanın səhiyyə naziri Ceyn Halton, BMT-nin Cenevrədəki bölməsinin baş direktom Sergey Orconikidze, BMT-nin İnsan Hüquqları üzrə ali komissarının müavini Kunq Van Kanq, BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının icraçı direktoru Marik Belka, beynəlxalq təşkilatların rəhbərləri və akkreditə olunmuş diplomatik korpusun nümayəndələri iştirak edirdilər. Azərbaycan Respublikasının İsveçrə və Vatikandakı səfiri, BMT-nin Cenevrədə bölməsi və digər beynəlxalq təşkilatlar yanmda daimi nümayəndəliyinin rəhbəri Elçin Əmirbəyov Mehriban Əliyevanı Dünya Səhiyyə Təşkilatının yüksək mükafatına layiq görülməsi münasibətilə qonaqlar adından təbrik etmişdir. O, Azərbaycanın birincı xammının rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti barədə də məlumat vermişdir.

Səfir Mehriban xanımın ana, uşaq və ailə sağlamlığının qorunması, valideyn qayğısından məhrum olmuş uşaqlara qayğı göstərilməsi sahəsində xidmətlərindən danışmışdır. O demişdir ki, Mehriban Əliyevanm rəhbərliyi ilə Heydər Əliyev Fondu səhiyyə ilə yanaşı, tehsilin, idmanın inkişafı, mədəni irsin, ekologiyanın qorunması, Azərbaycanın xaricdə təbliği sahəsində çox işlər görmüşdür. Bütün bunlara görə Azərbaycanın birinci xanımına

YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri adı verilmişdir. Heydər Əliyev Fondu YUNESKO ilə birlikdə Azərbaycanda təhsilin inkişafı ilə bağlı müxtəlif layihələr həyata keçirmişdir. Məhz Mehriban xanımın təşəbbüsü ilə mədəniyyət və incəsənətimizin bəzi nümunələri YUNESKO-nun mədəni və qeyri-maddi irs siyahılarına daxil edilmişdir. M.Əliyeva mədəniyyətlər və dinlərarası dialoqa da öz töhfəsini vermişdir.

Ziyafətdə ölkəmizin əsrarəngiz təbiətini, tarixi abidələrini, görməli yerlərini, dənizdəki neft mədənlərini əks etdirən sənədli fılm göstərilmiş, incəsənət ustalarımızın ifasında Azərbaycan və dünya bəstəkarlarının musiqisi səslənmişdir.

## LİTVA PREZİDENTİ VALDAS ADAMKUS İLƏ GÖRÜŞ

Aprelin 3-də, YUNESKO-nun illik hesabat yığıncağından sonra Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva xoşməramlı səfir, Litvanın prezidenti Valdas Adamkusla görüşmüşdür. Söhbət zamanı Mehriban xanım Əliyeva son illər ərzində Azərbaycanda mədəniyyət sahəsində görülmüş işlərdən, Heydər Əliyev Fondunun bu yöndə fəaliyyətindən danışmışdır.

Azərbaycana etdiyi səfərini xatırladan Valdas Adamkus onun salamlarını Prezident İlham Əliyevə çatdırmağı xahiş etmiş, bu səfərdən yüksək təəssürat aldığını xüsusi vurğulamışdır. ölkələrimiz arasında mədəni əlaqələrin inkişaf etdirilməsinin zəruriliyini bildirən dövlət başçısı Prezident İlham Əliyevi və Mehriban xanımı Litvaya səfərə dəvət etmişdir.

Mehriban xanım Əliyeva bu dəvəti Azərbaycan Prezidentinin diqqətinə çatdıracağını bildirmişdir.

## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO VƏ İSESKO-NUN XOŞMƏRAMLI SƏFİRİ, MİLLƏT VƏKİLİ MEHRİBAN ƏLİYEVA DÜNYA SƏHİYYƏ TƏŞKİLATININ BAŞ DİREKTORU MARQARET ÇANLA GÖRÜŞMÜŞDÜR

Dünya Səhiyyə Assambleyasının 60-cı sessiyasının yığıncağında iştirak etmək üçün Cenevrədə səfərdə olan Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı

səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva mayın 17-də Dünya Səhiyyə Təşkilatının baş direktoru xanım Marqaret Çanla görüşmüşdür.

Görüş zamanı Mehriban xanım Əliyeva Dünya Səhiyyə Təşkilatı ilə Azərbaycan arasında əməkdaşlığı yüksək qiymətləndirmiş, bir çox layihələrin həyata keçirilməsində DST-nin köməyini xüsusi vurğulamış, quş qripi ilə mübarizədə və digər proqramların həyata keçirilməsində sıx əməkdaşlıq yarandığını bildirmişdir.

Azərbaycana səfərini xatırlayan Marqaret Çan ölkəmizdə səhiyyə sahəsində görülən işləri yüksək qiymətləndirmiş, bundan sonra da Dünya Səhiyyə Təşkilatı ilə Azərbaycan arasında əməkdaşlığın davam edəcəyini söyləmişdir. Baş direktor Mehriban xanım Əliyevanın təhsil və mədəniyyət sahələri ilə yanaşı səhiyyə sahəsində də xidmətlərini yüksək qiymətləndirmişdir.

Mehriban Əliyeva DST-nin baş direktoru Marqaret Çanı ölkəmizə səfərə dəvət etmişdir. Dəvət məmnunluqla qəbul olunmuşdur.

Azərbaycanın səhiyyə naziri Oqtay Şirəliyev görüşdə iştirak etmişdir.

## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-NUN VƏ İSESKO-NUN XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN ƏLİYEVANİN QƏTƏRƏ SƏFƏRİ

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva YUNESKO-nun və Qətər Elm, Təhsil və İcmanm İnkişafı Fondunun təşkil etdikləri "Ərəb dövlətlərində savadlılıq: tərəfdaşlığın qurulması və yeni yanaşmaların təşviqi" mövzusunda regional konfransda iştirak etmək üçün Qətərin birinci xanımı, YUNESKO-nun ibtidai və ali təhsil üzrə xüsusi elçisı Şeyxa Muza Bint Nasir əl-Missnedin dəvəti ilə martm 12-13-də bu ölkədə scfərdə olmuşdur.

Martm 12-də işə başlayan konfransın açılışında Qətər Dövlətinin əmiri Şeyx Həməd bin Xəlifə Al Tani də iştirak edirdi.

Qətər Fondununun təhsil üzrə vitse-prezidenti doktor Abdulla Əli Al Tani konfransı açaraq, bu regional tədbirin ölkəsində keçirilməsindən məmnunluğunu söylədi. Beynəlxalq aləmdə elm və təhsilə himayəçilik sahəsində kifayət qədər nüfuza malik şəxslərin iştirakının bu konfransın böyük əhəmiyyətindən xəbər verdiyini bildirdi.

Qətərin birinci xanımı Şeyxa Muza dəvəti qəbul edərək, Dohaya gəlmiş bütün qonaqlara təşəkkür etdi və dedi ki, bu konfrans savadsızlıq probleminin həlli yollarının birgə araşdırmaq, habelə təcrübə mübadiləsi aparmaq üçün gözəl fürsət olacaqdır. Təhsil sahəsində uğurlar qazanmış ölkələrin nümayəndələrinin bu mühüm məsələyə öz töhfələrini verəcəklərinə əminəm və buna görə də onların hər birinə əvvəlcədən minnətdarlığımı bildirirəm.

Sonra Oman Sultanlığının YUNESKO-dakı daimi nümayəndəsi Musa bin Cəfər bin HƏSƏN YUNESKO-nun baş direktoru Koişiro Matsuura çıxış etdilər.

Konfransın aparıcısı ABDULLA ƏLİ AL TANİ Azərbaycanın birinci xanımı Mehriban Əliyevam iştirakçılara təqdim edərək dedi:

- Bizim üçün həm də çox sevindirici haldır ki, bugünkü görüşümüzdə region ölkələrinin birinci xammları iştirak edirlər. Bu xanımların hər biri savadsızlığın aradan qaldmlmasına öz töhfəsini verir. İndi məmnuniyyətlə sizə Azərbaycan Respublikası Prezidentinin xanımı, Azərbaycan parlamentinin deputatı, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanı təqdim edirəm.

Mehriban xanım Əliyeva ixtisasca göz həkimidir. O, ana, uşaq və ailənin himayə olunması sahəsindəki xidmətlərinə görə BMT-nin yüksək mükafatına layiq görülmüşdür. BMT-nin savadsızlığın aradan qaldırılması problemlərinə həsr olunmuş növbəti konfransına Azərbaycan dövləti ev sahibliyi edəcəkdir. Ona görə də mənə çox xoşdur ki, Mehriban xanım konfransm estafetini Dohadan Bakıya aparacaqdır.

Buyurun, xanım, söz sizindir.

## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVANIN ÇIXIŞI

- Ülyahəzrətləri!

Zati-aliləri!

Xanımlar və cənablar!

İlk növbədə, mən Dohada regional konfransın təşkil edilməsində birgə təşəbbüslərinə görə Qətərin birinci xanımı, Ülyahəzrət Şeyxa Muzanı və YUNESKO-nun baş direktoru cənab Koişiro Matsuuranı təbrik edir, bu cür vacib forumda iştirak etmək üçün dəvətə görə minnətdarlığımı bildirirəm.

Bu konfrans təhsil məsələlərinə həsr olunmuşdur. Amma, əlbəttə ki, o bu gün bəşəriyyətin üzləşdiyi qlobal problemlərlə birbaşa bağlıdır.

Təhsil almaq imkanı və savadlılıq səviyyəsi baxımından xalqlar və ölkələr arasında mövcud olan böyük qeyri-tarazlıq cari həssas problemlərin əsas səbəbidir. İqtisadi artım təhsil, elm və mədəniyyətin inkişafı ilə müşayiət olunduğu, eləcə də əhalinin tərəqqinin ən son nailiyyətlərindən istifadə imkanı təmin edildiyi ölkələrlə yanaşı, biz elə ölkələri də görürük ki, orada insanlar ibtidai təhsil ala bilmirlər.

Statistika göstərir ki, 100 milyon oğlan və qız məktəbə getmək imkanından məhrumdur, dünyada yaşlı əhalinin təqribən 800 milyonu oxuya və yaza bilmir.

Bu baxımdan, mən YUNESKO-nun qlobal savadlılığın dəstəklənməsinə yönəlmiş fəaliyyətini, o cümlədən bu təşkilatın bütün ölkələr və xalqlar üçün açıq və bərabər təhsil almaq

imkanının təmin edilməsi ilə bağlı planlarını xüsusi vurğulamaq istəyirəm. "Hamı üçün təhsil" dünya konfransı və sonradan keçirilmiş regional görüşlər və konfranslar bizi narahat edən bir çox problemlərin tədricən aradan qaldırılmasının mümkünlüyünə ən bariz nümunələrdir.

Nəinki Orta Şərqin, o cümlədən bütün dünyanın ən dinamik şəkildə inkişaf edən ölkəsi olan Qətərdə bu cür konfransın keçirilməsi təbiidir. Bu gün Qətər iqtisadi tərəqqinin təhsil və elmin inkişafı ilə müşayiət olunmasının ən gözəl modelidir. Qısa müddət ərzində Qətərin təhsil infrastrukturu bütün səviyyələrdə inkişaf etmişdir. Onlarca yeni məktəb açılmışdır.

Dünyada tanınmış ımiversitetlərin tədqiqat işləri apardığı və tələbələrə təhsil verdiyi "Təhsil şəhərçiyi"nin yaradılması olduqca uğurlu və vaxtında həyata keçirilmiş layihədir.

Bütün bu islahatların aparılması nəticəsində indi Qətər ərəb aləminin xüsusi elmi və mədəni mərkəzinə çevrilməkdədir.

Hörmətli dostlar!

Böyük məmnunluqla demək istəyirəm ki, təhsil problemlərinə həsr olunmuş növbəti regional konfrans 2008-ci ilin yazında Azərbaycanda keçiriləcəkdir.

Hazırda Azərbaycan dünyada ən sürətlə inkişaf edən iqtisadiyyata malikdir. ÜDM-in artımı 2005-ci ildə 26 faiz, 2006-cı ildə isə 34 faiz olmuşdur. Bu il də biz həmin səviyyəni müəyyən dərəcədə saxlayacağıq.

Bir neçə il ərzində biz təhsil sistemimizdə islahatlar aparmışıq. Məqsədimiz dünya standartlarına cavab verən və müasir texnologiyalara əsaslanan çağdaş təhsil sistemi yaratmaqdan ibarətdir.

XX əsrdə Azərbaycan üç dəfə öz əlifbasını dəyişmək məcburiyyəti qarşısında qalmışdır. Buna baxmayaraq, ölkəmizdə savadsızlığın səviyyəsi çox aşağıdır. Əhalinin 98 faizi yaza və oxuya bilir. Azərbaycanın Konstitusiyası hər bir vətəndaşın icbari 11 illik təhsil almaq hüququna təminat verir.

Azərbaycanda təhsil sisteminin inkişaf etdirilməsi ilə bağlı Dövlət Proqramı uğurla həyata keçirilmişdir. Bir çox yeni məktəblər tikilir, tam həcmdə avadanlıq və kompyuterlərlə təchiz olunur. Bütün məktəblər müasirləşdirilir və bərpa olunur. Son 3 il ərzində bütün ölkədə 700-dən çox yeni məktəb binası inşa edilmişdir.

Bütün bunlar neft gəlirlərinin iqtisadiyyatm qeyri-neft sektorunda istifadə edilməsi üzrə Dövlət Proqrammın hissələridir və mən hesab edirəm ki, təhsilə

qoyulan sərmayə gələcəyə və gənc nəsillərimizə xidmət edən sərmayədir.

Azərbaycanın ən böyük problemi ərazimizin 20 faizinin on beş ildən çoxdur ki, Ermənistan tərəfindən işğal edilməsidir. Bunun nəticəsində 1 milyon azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Onların müəyyən hissəsi qaçqın düşərgələrində məskunlaşıbdır. Biz bu reallığı beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmağa çalışmq. Bu çətinliklərə baxmayaraq, hökumət qaçqın və məcburi köçkünlər üçün yaxşı təhsilin təmin edilməsinə çox çalışır.

Mən, həmçinin Heydər Əliyev Fondu haqqında bir neçə söz demək istəyirəm. Bu fond 2004-cü ilin may ayında yaradılmışdır və onun məqsədi təhsil, mədəniyyət, sağlamlıq, elm və ətraf mühit sahələrində müxtəlif layihələri dəstəkləməkdən ibarətdir.

Yaradıldığı gündən etibarən Heydər Əliyev Fondu mədəni irsin təşviq olunması və ölkəmizdə təhsilin inkişafı üçün bir çox işlər görmüşdür. "Yeniləşən Azərbaycana yeni məktəb" adlı proqramımız çərçivəsində 200-dən çox məktəb binası tikilmiş və tam təchiz olunmuşdur. Onların bir neçəsi ən ucqar kəndlərdə inşa edilmişdir. Biz uşaq evlərində yaşayan balaların təhsilinə xüsusi diqqət yetiririk. Onların yaşadığı binalar müasirləşdirilmiş, kompyuter və kitabxanalarla təchiz olunmuşdur. BMT-nin İnkişaf Proqramı ilə həyata keçirdiyimiz birgə layihə çərçivəsində Bakıda görmə qabiliyyəti zəif olan uşaqlar üçün audio kitabxana ilə təchiz olunmuş xüsusi təhsil mərkəzi tikilmişdir.

Fondumuzun beynəlxalq təşkilatlarla, xüsusən də YUNESKO və İSESKO ilə olduqca sıx əlaqələri var. Bu baxımdan, hesab edirəm ki, YUNESKO-nun Təhsil Məsələləri üzrə Regional Mərkəzi Azərbaycanda təsis edilə bilər və bu qurumda "Hamı üçün təhsil" proqramı üzrə işçi qrup görüşlər keçirə və bu sahədəki irəliləyişi müzakirə edə bilər.

Yekun olaraq, bildirmək istəyirəm ki, Böyük İpək yolunun mərkəzində yerləşən Azərbaycan qədim zamanlardan Şərq ilə Qərb arasında körpü olmuşdur. İndi isə biz yenidən, təhsil və mədəniyyət körpüsü rolunu oynamağa hazırıq.

Mən bu cür mühüm tədbirə və olduqca səmimi qonaqpərvərliyə görə konfransın təşkilatçılarına - YUNESKO-ya və Qətər Elm, Təhsil və İcmanın İnkişafı Fonduna bir daha öz minnətdarlığımı bildirir, Sizə uğurlar və səmərəli iş arzulayıram.

***

Sonra çıxış edən Suriya Prezidentinin xanımı Əsma əl-Əsəd vurğuladı ki, Qurani-Kərimdə göstərildiyi kimi, hər bir uğur "Oxu" kəlməsi ilə bağlıdır. Livan Prezidentinin xanımı Andre Ləhud qloballaşma şəraitində savadsızlığın aradan qaldırılmasına daha çox ehtiyac duyulduğunu bildirdi.

Konfransda ABŞ Prezidentinin xanımı Lora Buşun videoçıxışı göstərildi, YUNESKO-nun Qətərdəld nümayəndəsi, sudanlı yazıçı Əs-Səid Saleh çıxış etdi.

Daha sonra savadsızlıqdan bəhs edən film nümayiş etdirildi.

Konfransın birinci gününün axırında Qətərin birinci xanımı Şeyxa Muzanın adından iştirakçıların şərəfinə ziyafət verildi. Azərbaycanın birinci xanımı Mehriban Əliyeva ziyafətdə iştirak etdi.

Martın 13-də öz işini davam etdirən konfransda, əsasən, ərəb ölkələrinin ucqar kənd yerlərində savadsızlığın ləğvi məsələləri müzakirə olundu. Bu yöndə hazırlanmış layihələr və həyata keçirilən proqramlar ətrafında fikir mübadiləsi aparıldı.

Həmin gün Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın və Qətərin birinci xanımı Şeyxa Muzanın görüşü oldu. Təhsil problemləri barədə söhbət gedən görüşdə Mehriban xanım Qətərin birinci xanımını ölkəmizə səfərə dəvət etdi. Dəvət məmnunluqla qarşılandı.

Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın həmin gün Suriya Prezidentinin xanımı Əsma əl-Əsəd və Livanın birinci xanımı Andre Ləhud ilə görüşlərində də qarşılıqlı maraq doğuran məsələlər barədə fıkir mübadiləsi edildi.

Görüşlər zamanı Mehriban Əliyeva İSESKO-nun üzvü olan bütün ölkələrin birinci xanımlarının Bakıda forumunun keçirilməsi təşəbbüsünü irəli sürdü. Bu təşəbbüs razılıqla qarşılandı və qəbul olundu.

Martın 13-də Mehriban Əliyeva YUNESKO-nun baş direktoru Koişiro Matsuuranın adından konfrans iştirakçılarının şərəfinə verilən ziyafətdə iştirak etdi.

Azərbaycanın birinci xanımı Qətər Əmiri xanımının müşayiəti ilə həmin gün Qətər Fondunun Dohadakı "Təhsil şəhərciyi" ilə də tanış oldu. Mehriban xanıma şəhərcik haqqında ətraflı məlumat verildi, burada təhsil alan uşaqların əl işləri və yaradıcılıq nümunələri təqdim edildi.

Martın 13-də Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın Qətərə səfəri başa çatdı. Daha hava limanında Qətərin birinci xanımı Şeyxa Muza ilə söhbət edən Mehriban Əliyeva uğurlu və maraqlı keçən səfərə görə minnətdarlığını bildirdi.

Şeyxa Muza yüksək qonağı böyük hörmət və ehtiramla yola saldı.

## AZƏRBAYCAN PREZİDENTİNİN XANIMI MEHRİBAN ƏLİYEVA MİSİRİN BAŞ NAZİRİNİN XANIMI İLƏ GÖRÜŞMÜŞ, QAHİRƏDƏ MİSİR MUZEYİ İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Misir Ərəb Respublikasına rəsmi səfəri çərçivəsində ölkəmizin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva Misirin Baş nazirinin xanımı Mona Nazifə ilə görüşmüşdür.

Misirin neft nazirinin, informasiya-kommunikasiya texnologiyası nazirinin xanımlarının da iştirak etdikləri görüşdə müxtəlif sahələrdə əlaqələr müzakirə olundu. Xanımlar xüsusilə humanitar sahədə əməkdaşlıq üçün mövcud potensialdan səmərəli istifadə ilə bağlı fikir mübadiləsi apardılar.

Həmin gün Misirin Baş nazirinin xanımı adından Mehriban Əliyevanın şərəfinə nahar verildi.

* * *

Mayın 7-də Azərbaycanın birinci xanımı Qahirədə məşhur Misir Muzeyi ilə tanış oldu. Muzeyin əməkdaşları Mehriban Əliyevaya məlumat verdilər ki, burada Yer kürəsinin ən qədim dövlətçilik tarixinə malik olan ölkələrindən biri - Misirin qədim tarixinin müxtəlif dövrlərinə aid çoxlu sayda qədim əşyalar, döyüş silahları və sənədlər toplanıbdır. Əlverişli coğrafi mövqedə yerləşməsi Misirin dəfələrlə təcavüzlərə məruz qalmasına səbəb olmuşdur. Muzey istər bu hadisələri, istərsə də misirlilərin təcavüzkarlara qarşı mübarizəsini əks etdirən eksponatlarla da zəngindir. Tarixi abidələr və tikililər, ölkənin elm və təhsilinin qədimliyindən xəbər verən ekspozisiya da diqqəti cəlb edir. Bu muzeyi məşhurlaşdıran əsas eksponatlar Misir fironlarının heykəlləri, onların taxtları, istifadə etdikləri əşyalar və sarkofaqlardakı mumiyalar və sairdir.

Bildirildi ki, qədim misirlilərin inancına görə insanı sonsuzluğa qədər yaşatmaq üçün onun cəsədini saxlamaq lazımdır. Bunun üçün misirlilər ölmüş

adamı mumiyalayır, daxili orqanlarını xüsusi qabda saxlayır, sifətinə isə maska taxırdılar. Arxeoloji qazıntılar zamanı tapılmış belə mumiyaların bir hissəsi bu muzeydə saxlanılır.

Azərbaycanın birinci xanımı muzeyin fəxri qonaqlar kitabına təəssüratlarını yazdı.

Tanışlıqdan sonra Mehriban xanım Əliyevaya muzey barədə məlumat kitabı hədiyyə olundu.

**AzərTAc**

## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA SABUNÇU VƏ ƏZİZBƏYOV RAYONLARİNDA BİR SIRA OBYEKTLƏRİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Uşaqlara qayğı ölkəmizin gələcəyinə qayğıdır

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva iyunun 14-də Sabunçu rayonunun Bilgəh qəsəbəsində fondun təşəbbüsü ilə tikilib yenicə istifadəyə verilmiş 231 nömrəli uşaq bağçasında olmuşdur.

Uşaqlar Mehriban xanımı gül-çiçəklə, hərarətli alqışlarla qarşıladılar.

Kollektivin, valideynlərin müraciətlərinin araşdırılması nəticəsində müəyyən edilmişdi ki, bağçanın yerləşdiyi bina tam yararsız vəziyyətdədir. Bunu nəzərə alaraq, Heydər Əliyev Fondunun təşəbbüsü ilə burada 80 yerlik yeni uşaq bağçası inşa edildi. Müasir avadanlıqla təchiz olunan bağçanın yeməkxanası, camaşırxanası və yaşıllıqlar salınmış həyətyanı sahəsi də vardır. 2 nömrəli uşaq evinin fonda çoxsaylı müraciətləri nəzərə alınaraq, uşaqların yay tətilini səmərəli təşkil etmək üçün hazırda bağça müvəqqəti olaraq onların istifadəsinə verilmişdir. İndi burada valideyn himayəsindən məhrum olmuş 3-14 yaşlı 80-dək uşaq dincəlir.

Mehriban xanım bağçanın əvvəlki görkəmini əks etdirən fotoşəkillərə baxdı, görülmüş işlərlə yaxından tanış oldu. Qrup, yataq otaqları, tibb məntəqəsi, tərbiyəçilər kabineti və s. otaqlarm təzə avadanlıqla təchiz edilməsini, yaradılmış rahat şəraiti yüksək qiymətləndirdi. Foyedəki "Heydər Əliyev Fondu", "Uşaqların əl işləri" foto və rəsm sərgilərinin də zövqlə tərtib edildiyi bildirildi.

Uşaqlarla hal-əhval tutan Mehriban xanım onların yay istirahətinin necə keçməsi ilə maraqlandı. Hər gün avtobuslarla, müəllimlərin nəzarəti ilə Xəzərin sahilinə gəzintiyə getdiklərini həvəslə bildirən uşaqlar buranın təmiz havasının, sərinliyinin onlara xüsusi zövq verdiyini, yeməklərin keyfiyyətindən, çeşidlərindən məmnun qaldıqlarını söylədilər. Növbə ilə digər yoldaşlarının da buraya gəlib dincələcəklərini vurğuladılar, yaradılmış rahatlığa, onlara göstərdiyi diqqət və qayğıya görə Mehriban xanıma səmimi sözlərlə təşəkkür etdilər.

## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN XANIM ƏLİYEVA ƏQLİ VƏ FİZİKİ CƏHƏTDƏN QÜSURLU UŞAQLARIN TƏHSİL ALDIĞI MƏKTƏBLƏRDƏ OLMUŞDUR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva martın 15-də Təhsil Nazirliyinin Bakının Nəsimi rayonundakı 268 nömrəli yardımçı məktəbində olmuşdur.

Uşaqlar Mehriban xanımı səmimiyyətlə, gül-çiçəklə qarşıladılar.

1905-ci ildə inşa edilmiş bu binada məktəb 1927-ci ildən fəaliyyət göstərir. Uzun illər təmir olunmayan bina yararsız vəziyyətə düşmüşdü. Mehriban xanım 2003-cü ildə ilk dəfə buraya gələrkən vəziyyətlə yerində tanış olmuş, onun təşəbbüsü ilə məktəbin Heydər Əliyev Fondımım həyata keçirdiyi "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" çərçivəsində əsaslı şəkildə təmiri və yenidən qurulmasına başlanmışdır. 2005-ci ilin yanvarında işlər başa çatdırılmışdır. Burada ayrıca daimi istilik sistemi qurulmuş, yeməkxana, idman kompleksi də tikilmişdir. Məktəb təzə avadanlıqla tam komplektləşdirilmişdir, burada tibb otağı, loqopediya və s. kabinetlər vardır.

Azərbaycanın birinci xanımının buraya ilk gəlişindən sonra məktəbin fəaliyyətində də əsl canlanma yaranmışdır. İndi burada əvvəlkindən 3 dəfə çox, əqli və fiziki cəhətdən zəif inkişaf etmiş 130 uşaq təhsil alır. Bundan iki dəfə çox uşağa isə ailələrdə xüsusi tədris proqramı keçirilir. 15 sinif və 6 qrupda uşaqların təlim-tərbiyəsi ilə 140 müəllim və tərbiyəçi məşğul olur. Uşaqlara gündə 2 dəfə yemək verilir. Valideynlər iş gününün sonunda onları evlərinə aparırlar.

Məktəbin əvvəlki və hazırkı vəziyyətini əks etdirən fotoguşə, ümummilli lider Heydər Əliyevin uşaqlarla unudulmaz görüşlərinə, fondun həyata keçirdiyi layihələrə, Mehriban xanımın bu məktəbdə keçirdiyi görüşlərə həsr olunmuş

fotoşəkillər, dəhlizləri və sinif otaqlarını bəzəyən gül-çiçək dibçəkləri, göz oxşayan səliqə-sahman diqqəti cəlb edir.

Mehriban xanım məktəbin bayramsayağı bəzədilmiş salonunda uşaqların Novruz bayramı münasibətilə hazırladığı musiqili-əyləncəli kompozisiyaya tamaşa etdi, onların sevincinə qoşularaq uşaqlarla birlikdə rəqs etdi. Uşaqların məharətlə ifa etdiyi yumoristik səhnələr, oynaq, şux rəqslər hörmətli qonağa, valideynlərə xoş ovqat bəxş etdi.

Mehriban Əliyeva məktəbin kompyuter otağına da baxdı. Burada uşaqlar kompyuterlərdə sərbəst işləyirdilər. Onlar Mehriban xanımın suallarını, verdiyi tapşırıqları bacarıqla yerinə yetirdilər.

Uşaqların əmək təlimi dərsində əldə etdiyi uğurlar emalatxanada nümayiş etdirilən əl işlərində özünü göstərirdi.

Yardımçı məktəbin yeməkxanasında açılmış bayram süfrəsi də uşaqların ürəyincə oldu. Şəkərbura, paxlava, meyvə-tərəvəz, şərbətlər düzülmüş bol süfrə arxasında uşaqlarla birlikdə əyləşən Mehriban xanımdan qızı Arzu və Leylanı soruşdular, ötən dəfə onlarla birlikdə rəqs etdiklərini, birgə şəkil çəkdirdiklərini xatırlatdılar, hətta onların harada və hansı uşaqlarla yanaşı oturduqlarını da yada saldılar. Mehriban xanım uşaqların bu diqqət və yaddaşından mütəəssir oldu, növbəti görüşlərində mütləq onları da gətirəcəyini bildirdi. Buraya toplaşan valideynlər bu qayğıkeşliyinə görə Mehriban xanıma minnətdarlıq etdilər, onun artıq bu uşaqların sevimlisinə çevrildiyini vurğuladılar.

Valideyn Nisə Abbasova Fondun Prezidentinə müraciətlə dedi ki, qızı Sevda hər dəfə Sizi televizorda görəndə "Mehriban xala, Mehriban xala" deyərək hamını Sizə baxmağa, söhbətinizi dinləməyə çağırır, onu öpdüyünüzü yada salır.

Mehriban xanım Heydər Əliyev Fondunun əqli və fiziki cəhətdən zəif inkişaf etmiş, xüsusi qayğıya ehtiyacı olan uşaqların problemlərinin həllinə, onların valideynlərinin, doğma və əzizlərinin mənəvi ağrılarına şərik olmağı özünün borcu hesab etdiyini, bunun üçün mümkün olan tədbirləri görməyə çalışdığını bildirdi.

Mehriban xanım uşaqlarla birlikdə xatirə şəkilləri çəkdirdi.

Əziz qonağı səmimiyyətlə yola salan uşaqların əhval-ruhiyyəsindən bu görüşün də onların qəlbində şirin xatirəyə çevriləcəyi hiss olunurdu.

Nərimanov rayonundakı kor və zəif görən uşaqlar üçün respublika internat məktəbinin qarşısında Mehriban xanıma gül-çiçək dəstəsi təqdim edən uşaqlar bu məktəbin əsaslı şəkildə təmirinə, yenidən qurulmasına, təzə avadanlıqla təmin olunmasına göstərdiyi qayğıya görə minnətdarlıqlarını bildirdilər, indi burada onların rahatlığı üçün hər cür şərait yaradıldığını söylədilər.

"Heydər Əliyev Fondunun təşəbbüsü ilə yenidən qurulmuşdur", "Xüsusi qayğıya ehtiyacı olan uşaqlar tək deyil" sözləri yazılmış lövhələrin də asıldığı foyedə bu təhsil ocağının bərpadan əvvəlki acınacaqlı görkəmini və hazırkı vəziyyətini əks etdirən stend, ulu öndər Heydər Əliyevin uşaqlara diqqət və qayğısından bəhs edən, habelə Fondun prezidenti Mehriban xanımın bu təhsil ocağında keçirdiyi görüşlərə dair fotoguşələr yaradılmışdır.

Direktor məlumat verdi ki, 61 ildir fəaliyyət göstərən məktəbdə hazırda 300 uşaq təlim-tərbiyə alır. Onların yarısı tamamilə görmür, 27-si 1-ci qrup əlildir. Burada 100 müəllim və tərbiyəçi çalışır, onların da əksəriyyətinin görmə qabiliyyəti zəifdir.

Mehriban xanımın bu məktəbə ilk gəlişindən sonra Heydər Əliyev Fondunun həyata keçirdiyi "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" çərçivəsində 2005-ci ilin sonunda məktəbin əsaslı təmiri və yenidən qurulmasına başlanmışdır. İşlər qısa vaxtda keyfiyyətlə başa çatdırılmış, daimi istilik sistemi quraşdırılmış, yeməkxana, idman kompleksi də tikilmişdir. Uşaqların bədii-estetik zövqlərinin formalaşması, asudə vaxtlarının təşkili üçün nümunəvi şərait var. Məktəbin həyətində geniş abadlıq işləri görülmüş, yaşıllıqlar salınmış, istirahət guşələri yaradılmışdır. Uşaqlar açıq havada gəzməyi, burada istirahət etməyi, idman oyunları ilə məşğul olmağı çox sevirlər. Məktəb təzə avadanlıqla tam komplektləşdirilmiş, uşaqların müayinə, müalicəsinə kömək məqsədilə müasir avadanlıqla təchiz olunmuş tibb kabinetləri təşkil edilmişdir.

12 illik təhsil proqramından sonra attestat alan məzunlar test imtahanları ilə ali məktəblərə daxil ola bilirlər. Ötən il 14 nəfər məzundan 4-ü ali, 2-si isə orta ixtisas məktəblərinə daxil olmuşdur. Məzunlar arasından xeyli istedadlı adamlar çıxmışdır. Onlardan biri də bəstəkar İsrail Kərimov idi.

Sinif, yataq otaqları, fənn kabinetləri ilə ətraflı tanış olan Mehriban xanım proqram və dərsliklərlə təminat, kadrların ixtisas hazırlığı ilə maraqlandı.

Uşaqlar Azərbaycanın birinci xanımını Novruz bayramı münasibətilə xüsusi olaraq bəzədilmiş yeməkxanada təşkil edilmiş şənliyə dəvət etdilər. Süfrədə müxtəlif yeməklər, səməni, bol şirniyyat, meyvə-tərəvəz vardı. Məktəbin şagirdi Əsgər Əliyevin ifa etdiyi şən, oynaq mahnı və Kosa, Keçəl, Bahar qızın göstərdiyi səhnəciklər, şən, şux zarafatlar, rəqslər uşaqlarda hədsiz sevinc doğurdu. Mehriban xanım uşaqlarla birlikdə süfrə arxasında bayram plovundan daddı, yumurta döyüşdürdü, buraya tez-tez gələcəyini bildirdi.

Şagirdlərdən Zeynəb Nəcəfova, Ləman Abdullayeva, Leyla Mərdanlı, Hüseyn Əliyev Fondun prezidenti Mehriban xanım Əliyevanın məktəblilərin sevimlisi olduğunu bildirərək ona, Azərbaycan Prezidenti İlham Əliyevə və ailə üzvlərinə ən xoş Novruz arzularını çatdırdılar.

Mehriban Əliyeva Fondun BMT-nin İnkişaf Proqramı ilə birgə həyata keçirilən "Kor və görmə qabiliyyəti zəif olan insanların informasiya-kommunikasiya texnologiyalarına çıxışının təmin edilməsi" layihəsi çərçivəsində bu məktəbdə görülmüş işlərlə də tanış oldu.

Respublikamızda kor və ya görmə qabiliyyəti zəif olan şəxslərin sayı təxminən 40 min nəfərdir. Fond onlara informasiya toplamaq və məşğulluğunu artırmaq üçün əlavə imkanlar yaratmaq mexanizmi kimi, İKT-dən istifadənin təşkilini zəruri saymış, BMT-nin İnkişaf Proqramı ilə birgə Milli Strategiya hazırlamışdır.

Məktəbin kompyuter mütəxəssisləri bildirdilər ki, geniş zal elektron kitabxana üçün uyğunlaşdırılmış, Almaniya istehsalı olan 2 kompyuter dəsti alınıb quraşdırılmışdır. Bu kompyuterlər xüsusi olaraq kor və görmə qabiliyyəti zəif uşaqlar üçün hazırlanmış ən son model texnologiyadır. Uşaqlar üçün Model İKT sinifləri yaradılmış, proqram təminatı lokallaşdırılmış, internetə çıxışın təmin olunması və tədris-təlim proqramlarının hazırlanması, audio studiya və kitabxananın fəaliyyəti təmin edilmişdir.

Texnologiyanın işləmə mexanizmi əyani şəkildə göstərildi. Bildirildi ki, Brayl əlifbası ilə Azərbaycan, rus və ingilis dillərində olan istənilən kitabı kompyuterin yaddaşına köçürüb oxumaq, səsləndirib dinləmək mümkündür. Musiqiyə qulaq asmaq, internetə girmək, məktublaşmaq, 100 min səhifəlik materialı yaddaşda saxlamaq, surətini çıxarmaq, SMS göndərmək, o cümlədən mobil telefonlara da mesaj göndərmək olur. Burada dərsliklər əldə edilib çap

olunur. Gözdən əlil insanlar artıq bu texnologiyadan evlərinə də alıb fərdi qaydada istifadə etmək arzusundadırlar. Burada onlarla işləməyi öyrədən bacarıqlı mütəxəssislər vardır. Fondun köməyi ilə xaricdən mütəxəssislər dəvət olunmuş, məşğələlər keçirilmişdir, bizim mütəxəssislər də Almaniyada olmuşlar. Respublika Korlar Cəmiyyəti ilə də birgə işlər aparılır.

Fondun icraçı direktoru Anar Ələkbərov əlavə etdi ki, layihədə nəzərdə tutulmasa da, Mehriban xanımın təşəbbüsü ilə ötən il bizim nümayəndələr bu avadanlığı alıb gətirmək üçün Almaniyanın Frankfurt şəhərində keçirilən beynəlxalq sərgidə olarkən alman mütəxəssislər ölkəmizdə belə layihənin həyata keçirildiyini eşidəndə təəccüblənmişdilər. Bildirmişdilər ki, belə layihə MDB-də birinci olaraq sizin respublikanızda həyata keçirilir, hətta Avropanın bir çox qabaqcıl dövlətlərində də onun reallaşmasına girişməyə cəsarət etmirlər. BMT İnkişaf Proqramının ölkəmizdəki missiyasının rəhbərliyi də yaxın vaxtlarda bu məktəbdəki elektron kitabxana ilə tanış olmaq istədiklərini bildirdilər.

Görmə qabiliyyəti olmayan, yaxud zəif görən hər bir uşağa dəstək vermək, onların həyatının çətinliyini azaltmağı fondun prioritet fəaliyyət sahəsi hesab etdiyini bildirən Mehriban xanım layihənin birinci mərhələsi çərçivəsində həyata keçirilən tədbirləri müsbət dəyərləndirdi, bundan sonra görüləcək işlərə dair tövsiyələrini verdi, layihənin perspektivləri barədə fikirlərini açıqladı.

Heydər Əliyev Fondunun prezidenti bildirdi ki, BMT İnkişaf Proqramının da belə bir layihəyə dəstək verməsi həm ölkəmizdə gedən uğurlu islahatlara inamın, həm də fondun indiyədək qarşıya qoyduğu məqsədlərə çatmaq üçün iradə nümayiş etdirməsinin nəticəsidir.

**AzərTAC**

# HEYDƏR ƏLİYEV FONDUNDA "MUĞAM" JURNALİNIN İLK NÖMRƏSİNİN VƏ "MUĞAM-ANTOLOGİYA" LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ ÇAP OLUNMUŞ NƏŞRLƏRİN TƏQDİMATI KEÇİRİLMİŞDİR

## Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti Mehriban Əliyevanın çıxışı

İyulun 2-də Heydər Əliyev Fondunda Azərbaycan Mədəniyyətinin Dostları Fondunun təsis etdiyi "Muğam" jurnalının ilk nömrəsinin və "Muğam-antologiya" layihəsi çərçivəsində çap olunmuş Səfıyəddin Urməvinin (1217-1294) "Şərəfıyyə risaləsi" və "Kitabül-ədvar", habelə Fətullah Şirvaninin (1417-1486) "Musiqi məcəlləsi" əsərlərinin təqdimat mərasimi keçirilmişdir.

"Muğam" jurnalının baş redaktoru Azərbaycan Mədəniyyətinin Dostları Fondunun (AMDF) prezidenti Mehriban xanım Əliyevadır. AMDF nəzdindəki "Muğam mərkəzi"ndə tərtib edilmiş və "Şərq-Qərb" mətbəəsində Azərbaycan, ingilis və rus dillərində çap olunmuş jurnalın birinci nömrəsinin oxuculara ünvanlanmış ön sözdə Mehriban xanım Əliyeva nəşrin konsepsiyası haqqında məlumat verir.

Oxucular Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun muğamla bağlı keçirdiyi müxtəlif tədbirlərdən, YUNESKO-nun Beynəlxalq Muğam Mərkəzinin təməlinin qoyulması mərasimindən, ümummilli liderimiz Heydər Əliyevin görkəmli musiqiçilərlə görüşündə çəkilmiş fotoşəkillərin də verildiyi jurnalda Cəmilə Həsənovanm görkəmli bəstəkar Fikrət Əmirovun simfonik muğamları haqqında məqaləsi, Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin sədri, xalq artisti, professor Firəngiz Əlizadə, qədim xalq çalğı alətləri ansamblmın bədii rəhbəri Məcnun Kərimovla müsahibələrlə, xalq artisti Alim Qasımov, zəmanəmizin görkəmli violonçel ustalarından biri Yo-Yo-Ma haqqında məqalələrlə tanış ola biləcəklər. Bundan

əlavə, klassik muğamların məzmunu və strukturuna da ayrıca məqalənin yer aldığı jurnalın "Tarixin səhifələri" bölməsində müxtəlif illərə təsadüf edən və muğamla bağlı olan hadisələr haqqında xülasə verilir, "Qədim dövrlərdən xəbər verən musiqi" məqaləsində Şərq vokal məktəbindən bəhs olunur. Jurnalda milli musiqi alətlərimiz tar və qaval, xalq şairi Bəxtiyar Vahabzadənin "Muğam" poemasından parçalar da verilmişdir.

Səfiyəddin Urməvinin "Kitabül-ədvar" və "Şərəfiyyə risaləsi", Fətullah Şirvaninin "Musiqi məcəlləsi" kitabları haqqında da qısa xülasələrin verildiyi jurnalın ilk nömrəsinin son səhifələrində "Biz muğam haqqında nə bilirik və onım gələcəyi varmı?"- sorğusuna müxtəlif peşə sahiblərinin cavabları da dərc olunmuşdur.

Nəşrin baş redaktoru Mehriban xanım Əliyeva mərasimdə çıxış etmişdir.

- Hörmətli xanımlar və cənablar!

Əziz qonaqlar!

Mən sizi Heydər Əliyev Fondunda salamlayıram, sizi bu gün burada görməyə çox şadam. İlk növbədə, mən bizim hamımızı Azərbaycanın iki böyük qələbəsi münasibətilə təbrik etmək istərdim.

Bildiyiniz kimi, bədii gimnastika üzrə 23-cü Avropa çempionatı paytaxtımızda çox uğurla keçmişdir və bizim idmançılarımız bu yarışlarda çox yüksək nailiyyətlər əldə ediblər. Yığma komandamız bürünc medal qazanıb, gimnastımız Aliyə Qarayeva isə qızıl medala layiq görülərək, Avropa çempionu olmuşdur.

Əlbəttə bu, Azərbaycan idmanının çox böyük qələbəsidir. Bu gün bizim ölkəmiz bədii gimnastika üzrə dünyanın beş aparıcı dövləti arasındadır və bu münasibətlə mən sizi ürəkdən təbrik edirəm.

Eyni zamanda, Azərbaycanın mədəni həyatında da çox əlamətdar bir hadisə baş veribdir. Bildiyiniz kimi, Qobustan dövlət tarixi-bədii qoruğu YUNESKO-nun Dünya Mədəni İrs siyahısına salınmışdır. Bu qərar YUNESKO-nun ümumdünya İrs Komissiyasının Yeni Zelandiyada keçirilən 31-ci sessiyasında qəbul olunub və hesab edirəm ki, bu da bizim çox böyük qələbəmizdir. Çünki bu, o deməkdir ki, Qobustan təkcə Azərbaycan üçün yox, bütün bəşəriyyət üçün

çox əhəmiyyətli, çox dəyərli tarixi və mədəni abidədir. Çox namizədlər arasında məhz bizim tarixi abidəmiz seçilib və bu münasibətlə də mən sizi ürəkdən təbrik edirəm.

Əziz qonaqlar!

Bu gün biz "Muğam" jurnalını sizin diqqətinizə təqdim edirik. Bu muğamın çoxəsrlik tarixində bütövlükdə muğama həsr olunmuş ilk jurnaldır və əlbəttə ki, bütün muğamsevərlər üçün böyük bir hədiyyədir. Jurnal 3 dildə - Azərbaycan, ingilis və rus dillərində çap olunubdur. Bu da jurnalın yayılma dairəsini xeyli genişləndirib və mən əminəm ki, o, təkcə ölkəmizdə yox, dünyanın bir neçə ölkəsində öz oxucusunu tapa biləcəkdir.

Bildiyiniz kimi, Heydər Əliyev Fondu muğama dəstək olan bir sıra layihələr həyata keçirir. Bunlar "Muğam-İrs", "Muğam dünyası", "Muğam ensiklopediyası", "Muğam-internet", "Muğam-dəstgah", "Muğam-antologiya" layihələridir. Bütün bu layihələr barəsində ətraflı məlumatı siz bu jurnalın səhifələrində tapa biləcəksiniz.

Son illər ölkəmizdə muğama çox böyük maraq, çox böyük dəstək var. Çox sevindirici haldır ki, bizim gənclərimiz də muğam sənətini əsrlərin sınağından keçmiş bir sərvət kimi dəyərləndirirlər. Biz gərək bu sərvəti həm qoruyaq, həm də gələcək nəsillərə çatdıraq. Bizim bu jurnal məhz bunun üçün təsis olunub və buna xidmət edəcəkdir.

Eyni zamanda, bu gün sizin diqqətinizə üç yeni kitab təqdim olunur. Bunların nəşri Heydər Əliyev Fondu ilə Azərbaycan Milli Elmlər Akademiyası Əlyazmalar İnstitutunun birgə fəaliyyətinin nəticəsidir. Bu nəşrlər həm kitab, həm də disk şəklində hazırlanıb və muğamın tədqiqi ilə məşğul olan musiqişünaslar üçün böyük bir töhfədir. Əlyazmalar İnstitutu ilə əməkdaşlığımız davam edir və mən inanıram ki, yaxm gələcəkdə yeni-yeni nəşrlər hazırlanacaq və oxuculara çatdırılacaqdır.

Bu gün mən böyük sevinc hissi ilə demək istərdim ki, paytaxtımızda Beynəlxalq Muğam Mərkəzinin tikintisi davam edir. Siz yəqin ki, yaxşı xatırlayırsınız, biz bu layihəni birgə müzakirə edirdik. Memarlıq baxımından birgə layihə seçmişdik. Çox gözəl binadır, həm müasirdir, həm gözəldir, həm də bizim ənənələrimizə uyğundur. Muğam Mərkəzi 2008-ci ilin əvvəllərində istifadəyə veriləcəkdir. Mən əminəm ki, bu mərkəz həm sənət evinə, həm

muğam məktəbinə, həm muğam muzeyinə, həm də ki, bizim musiqimizə həsr olunmuş bir abidəyə çevriləcəkdir.

Bu gün buraya toplaşan bütün insanların taleyində muğam xüsusi bir yer tutur. Çoxlarınız muğam sənətinə, demək olar ki, bütün ömrünüzü həsr edirsiniz. Mən sizi belə bir jurnalın işıq üzü görməsi münasibətilə ürəkdən təbrik edirəm. İnanıram ki, bizim yeni jurnal həm muğama aid tədqiqatlara yeni təkan verəcək, həm də muğamı populyarlaşdıracaqdır. Bizimlə bu jurnalın hazırlanmasında və muğama həsr olunmuş digər layihələrdə əməkdaşlıq edən, bizə dəstək verən bütün insanlara dərin minnətdarlığımı bildirirəm. Mən sizə möhkəm cansağlığı, uğurlar və xoşbəxtlik arzulayıram.

Çox sağ olun.

***

**Sənətşünaslıq doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Zemfira SƏFƏROVA** yeni jurnalı və nəşrləri Azərbaycan ictimaiyyəti üçün önəmli və əlamətdar hadisə kimi səciyyələndirmişdir. O demişdir ki, xalqımızın musiqi irsinin ən qiymətli incisi olan muğama həsr edilmiş və orta əsrlərdə yazılmış üç risalənin və "Muğam" jurnalının təqdimatı musiqiçilər üçün böyük töhfədir. Bir xalqın musiqi mədəniyyətindən, musiqi irsindən yalnız o vaxt danışmaq olar ki, o xalq öz dəyərlərini qiymətləndirə və yaşada bilsin. Bu baxımdan qloballaşma dövründə musiqi dəyərlərimizin qorunması, gələcək nəsillərə çatdırılması çox vacibdir.

Z.Səfərova vurğulamışdır ki, Azərbaycan muğamı hazırda özünün dirçəliş dövrünü yaşayır. Böyük muğam layihələri həyata keçirilir. Bu layihələr çərçivəsində bu gün təqdim olunan üç risalə orta əsr musiqi mədəniyyətimizin güzgüsüdür. Sənətşünas risalələr haqqında ətraflı məlumat vermiş, onların nəşri sahəsində böyük xidməti olan Mehriban xanım Əliyevaya təşəkkür etmişdir.

Muğam ifaçısı, xalq artisti Alim QASIMOV jurnalın nəşri münasibətilə musiqisevərləri təbrik etmiş, muğamın Azərbaycanda, habelə dünyada təbliği baxımından nəşrin əhəmiyyətini vurğulamışdır. Başda Mehriban xanım olmaqla, jurnalın ərsəyə gəlməsində zəhməti olan hər kəsə muğamsevərlər adından təşəkkür edən xanəndə qısa muğam parçası ifa etmişdir.

Azərbaycan Milli Konservatoriyasının rektoru, xalq artisti Siyavuş KƏRİMİ demişdir ki, jurnalın və kitabların nəşri milli musiqimizin təbliğində,

o cümlədən gənclərə dəqiq çatdırılmasında çox mühüm təşəbbüsdür. Mehriban xanımın muğamın tədqiqinin muğam ifaçılığından çox-çox geridə qalması fikrini xatırladan S.Kərimi Azərbaycan musiqişünaslarının xarici ölkələrin arxiv və muzeylərində saxlanılan əsərlərinin tapılıb öyrənilməsinin vacibliyini vurğulamışdır.

**AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru, filologiya elmləri doktoru Məmməd ADİLOV** "Muğam-antoiogiya" layihəsi çərçivəsində buraxılmış əsərlərin Azərbaycan musiqi elminin tədqiqinə böyük töhfə verdiyini bildirmişdir.

**Jurnalın ərsəyə gəlməsindən çox sevindiyini söyləyən xalq artisti, professor Arif BABAYEV** demişdir ki, hazırda Azərbaycanda muğam çox sürətlə inkişaf edir, yayılır. Bu işdə Mehriban xanımın əməyi böyükdür.

A.Babayev "Qızıl ürək" beynəlxalq mükafatı alması münasibətilə Mehriban xanımı bir daha təbrik etmişdir.

**Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin sədri, xalq artisti Firəngiz ƏLİZADƏ** muğamın təbliğinin ümumbəşəri əhəmiyyətinə toxunmuşdur. O, Mehriban xanımın muğamın təbliğindəki xüsusi xidmətlərini vurğulamış, muğam ifaçılarına göstərilən diqqəti yüksək qiymətləndirmişdir. F.Əlizadə "Muğam" jurnalının nəşrə başlamasını muğamın təbliği işində yeni mərhələ kimi səciyyələndirmişdir.

**AzərTAC**

## HEYDƏR ƏLİYEV FONDUNUN TƏLİM-TƏDRİS MƏRKƏZİNİN AÇILIŞI OLMUŞDUR

Martın 16-da Bakının Nizami rayonunda Heydər Əliyev Fondunun Təlim-Tədris Mərkəzinin açılışı olmuşdur. Fondun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva mərasimdə iştirak etmişdir.

Uşaqlar Mehriban xanımı səmimiyyətlə, gül-çiçəklə qarşıladılar.

2005-ci ilin noyabrında inşasına başlanmış, 1500 kvadratmetr sahəsi olan üçmərtəbəli bina bütün fənlər üzrə ali məktəblərə, eləcə də ondan sonrakı mərhələlər üçün hazırlıq kurslarının təşkili məqsədilə tikilmişdir. Burada hər növbədə 100 nəfər olmaqla gündə 3 növbədə 300 nəfərin məşğul olması üçün rahat şərait yaradılmışdır. Fənlərdən və uşaqların sayından asılı olaraq, 3, 4, 8 nəfərlik otaqlar təzə, rahat avadanlıqla təchiz olunmuşdur. Valideynlər üçün gözləmə otağı da var. Hər mərtəbənin foyesində ümummilli lider Heydər Əliyevin uşaqlara sonsuz məhəbbətini, diqqət və qayğısını əks etdirən fotostendlər, rəsm əsərləri asılmış, divan-kreslolar, jurnal stolları qoyulmuşdur. Ayrıca istilik sistemi, sanitar qovşağı olan mərkəzin konfrans salonunda müxtəlif tədbirlərin keçirilməsi üçün elektron avadanlıq quraşdırılmışdır. Burada paytaxtın bütün məktəbləri tədbirlərini keçirə biləcək, uşaqlar üçün tanınmış alim və mütəxəssislərin mühazirələri, onlarla görüşlər təşkil olunacaqdır. Fondun balansında olan mərkəzin imkanlarından heç bir məhdudiyyət qoyulmadan arzu edən bütün məktəblilər, gənclər istifadə edəcəklər. Özünümaliyyələşdirmə prinsipi ilə fəaliyyət göstərəcək mərkəzdə imkansız ailələrin uşaqları üçün güzəştlər nəzərdə tutulacaq, uşaq evlərindən və internat məktəblərindən gələnlər isə pulsuz məşğul olacaqlar. Mərkəzin həyətində istirahət guşələri yaradılmış, yaşıl xiyaban salınmışdır.

Mərkəzin xidməti və sinif otaqları ilə tanış olan Mehriban xanım yüksək sürətli internetə qoşulu kompyuterlərin alınıb quraşdırılmasından, kompyuter

salonunun zövqlə tərtib edilməsindən, bütövlükdə görülən işin keyfiyyətindən razı qaldığını bildirdi.

Bakı Şəhər Baş Təhsil İdarəsinin rəisi Nailə Rzaquliyeva ilə söhbətində bu mərkəzin imkanlarından gənc nəslin yüksək elmi-nəzəri, praktik biliklərə yiyələnməsi üçün səmərəli istifadə edilməsi ilə bağlı tövsiyələrini, təkliflərini bildirən Mehriban xanım, mərkəzin müəllim və rəhbər kadrlarının ən nümunəvi, bilikli, peşəkar insanlardan seçilməsində Fonda kömək göstərməyi də xahiş etdi, birgə fəaliyyət üçün təkliflər hazırlanmasının gərəkliyini vurğuladı.

***

Mehriban xanım sonra Nizami rayonundakı 1 nömrəli uşaq evində Heydər Əliyev Fondunun təşkil etdiyi Novruz şənliyində iştirak etdi.

Uşaq evinin sakinləri Azərbaycanın birinci xanımını böyük səmimiyyətlə, gül-çiçəklə qarşıladılar.

Bayramsayağı bəzədilmiş foyedə uşaqların ifa etdikləri oynaq mahnılar və rəqslər görüşə xoş ovqat bəxş etdi. Milli geyimli oğlan və qızların xalı, geyim, bəzək əşyalarını bacarıqla toxuması, onların əl işlərinin sərgisi Mehriban xanımda xüsusi maraq doğurdu.

Mehriban xanım uşaq tərbiyə müəssisəsinin bahar rəngləri ilə bəzədilmiş yeməkxanasında Novruz bayramı münasibətilə hazırlanmış musiqili-əyləncəli kompozisiyaya da tamaşa etdi. Fondun əməkdaşları masalar üstünə hər cür bayram şirniyyatı, meyvə-tərəvəz düzmüş, xidmətçilərlə birlikdə uşaqlara qulluq edirdilər.

2003-cü ildən fəaliyyətə başlayan, dəfələrlə respublika müsabiqələrinin qalibi olmuş, xarici ölkələrə səfərlər etmiş "Azəri" mahnı və rəqs ansamblının çıxışları hərarətlə qarşılandı. Ansamblın bədii rəhbəri Rövşən Məmmədov, baletmeysteri Nazim Abdullayevdir. Kollektiv İstanbulda keçiriləcək ənənəvi uşaq bayramında iştirak etmək üçün apreldə Fondun maliyyə dəstəyi ilə qardaş Türkiyəyə gedəcəkdir. Təravət və İbrahimin oynadığı müasir bal rəqsi, Yasəmən və Yalçının "Naz eləmə" rəqsi, ansamblın ifa etdiyi "Çobanlar", "Arpa çay", "Azərbaycanım" mahnı-rəqsləri, balaca aktyorların Novruz personajlı yumoristik səhnələri, şənlik iştirakçılarının hamılıqla "Yallı" getməsi əsl bayram ovqatından xəbər verirdi.

Fondun Prezidenti özü ilə bir masa arxasında oturmuş uşaqlara bayram

plovu çəkdi, onlarla birlikdə əyləndi, xatirə şəkilləri çəkdirdi.

Hər dəfə bu uşaq evində yeniliklər gördüyünü bildirən Mehriban xanım yeni təşkil olunmuş oxu zalına da baxdı, uşaqların asudə vaxtlarını səmərəli keçirməsi üçün yaradılmış nümunəvi şəraitdən razı qaldı.

Direktor Nərminə Zöhrabova xalqımızın əziz bayramı münasibətilə Mehriban xanımı uşaq evinin sakinləri adından təbrik etdi. Minnətdarlıqla bildirdi ki, dəfələrlə buraya gələn Mehriban xanımın təşəbbüsü ilə Heydər Əliyev Fondunun həyata keçirdiyi "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" çərçivəsində əsaslı təmir edilən və yenidən qurulan bu təlim-tərbiyə ocağında uşaqların bədii-estetik zövqlərinin formalaşması, asudə vaxtlarının təşkili üçün hər cür şərait var. Həyətdə geniş abadlıq işləri görülmüş, yaşıllıqlar salınmış, istirahət guşələri yaradılmışdır. Uşaqlar açıq havada gəzməyi, istiharət etməyi, idman oyunları ilə məşğul olmağı çox sevirlər.Uşaq evi təzə avadanlıqla tam komplektləşdirilmiş, müasir səviyyədə təchiz olunmuş tibb kabinetləri təşkil edilmişdir. Hazırda burada 107 uşaq vardır, xidmətçi heyət də daxil olmaqla, onların təlim-tərbiyəsi ilə 44 nəfər məşğul olur. Bu uşaq evinin yetirmələri dəfələrlə müxtəlif idman, rəsm, musiqi müsabiqələrində qalib gəlmiş, diplom və fəxri fərmanlar almışdır.

Mehriban xanım uşaqlara və tərbiyəçi müəllimlərə Novruz bayramı münasibətilə xoş arzularını çatdırdı.

***

Mehriban Əliyevanın həmin gün Novruz bayramı münasibətilə daha bir görüşü Suraxanı rayonundakı 2 nömrəli uşaq evində oldu.

Ötən il buraya gələndə Mehriban xanım bu təlim-tərbiyə müəssisəsinə mikroavtobus bağışlamışdı. O vaxt burada yeməkxana olmadığına görə uşaqlara yeməyin otaqlarda verildiyini bildikdə, yeməkxana tikilməsinə təşəbbüs göstərmişdi.

Mehriban xanım uşaq evinin yataq otaqlarına, tibb məntəqəsinə baxdıqdan sonra təzə tikilmiş, 380 kvadratmetr sahəsi olan yeməkxanaya gəldi. Ərazinin əvvəlki vəziyyətini və indiki görünüşünü əks etdirən fotolara baxdı, yeməkxananın ərzaq anbarında, mətbəxində oldu, ərzaq ehtiyatı, normaları, sanitariya vəziyyəti ilə maraqlandı.

Buranın ən yaşlı xidmətçisi olan Həqiqət Sultanova yaradılan belə gözəl

şəraitə görə hamının razılığını Mehriban xanıma çatdırdı. Eyni zamanda dedi ki, Xocalı qırğını haqqında əsl həqiqətin dünyaya yayılması üçün gördüyü işlərə görə xüsusi minnətdarlıq etməyi özümə borc bilirəm.

Bayram süfrəsi arxasında hər kəs öz yerini tutduqdan sonra uşaq evində təlim-tərbiyə işinin təşkilindən, uşaqların müxtəlif sahələrdə əldə etdiyi uğurlardan bəhs edən film göstərildi.

4 yaşlı Aytac isə əsl körpə məhəbbəti ilə Mehriban xanımın boynuna sarılıb ondan aralanmırdı.

Bütün uşaqlar bir səslə Mehriban xanımı salamladılar. Sonra şənliyin aparıcıları Mehriban xanıma müraciətlə dedilər:

"Əziz Mehriban xanım, bizimlə Novruz bayramı sevincini bölüşməyə xoş gəlmisiniz. Biz Sizi əziz bayramımız münasibətilə ürəkdən təbrik edirik.

Heydər Əliyev Fondunun "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində görülən işlər xalqımızın minlərlə ailəsinə rahatlıq, sevinc bəxş etmiş, yaxşı təhsil imkanı yaratmışdır.

Digər 28 belə uşaq evi, internat məktəbi kimi, bizim müəssisə də Sizin təşəbbüsünüzlə həyata keçirilən "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" çərçivəsində təmir edilərək, təzə avadanlıqla tam təchiz olunmuş, rahatlığımız üçün hər cür şərait yaradılmışdır. Söz veririk ki, bizə göstərdiyiniz qayğıya cavab olaraq səylə oxuyacaq, Vətənimizə, xalqımıza gərəkli insanlar olacağıq.

Sizə və hörmətli Prezidentimizə gördüyünüz böyük işlərdə müvəffəqiyyətlər arzulayırıq. Bu bayram günündə Sizə öz sevgi və məhəbbətimizi bildiririk".

Mahnı və rəqslər bir-birini əvəz etdi, uşaqlar Novruz səhnəcikləri göstərdilər, yeyib-içib şənləndilər.

Fondun prezidenti buradan ayrılarkən bir daha hamını bayram münasibətilə təbrik etdi, tərbiyəçilərdən onların əməyinin ən böyük savab iş olduğunu unutmamağı, uşaqlara öz balaları kimi baxmağı xahiş etdi.

## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN XANIM ƏLİYEVA ÖLKƏ VƏTƏNDAŞLARININ BÖYÜK RƏĞBƏT VƏ ETİMADINI QAZANMIŞDIR

Umummilli liderimiz Heydər Əliyevin zəngin dövlətçilik irsinin öyrənilməsi, gündəlik həyatımızda tətbiqi və gələcək nəsillərə çatdırılması müasir dövrdə aktuallıq kəsb edir. Bu ali məqsədlərin gerçəkləşdirilməsi uğrunda inamla çalışan, qısa müddətdə strateji əhəmiyyət daşıyan bir sıra layihələri inamla gerçəkləşdirən Heydər Əliyev Fondu cəmiyyətdə xeyirxahlığın müqəddəs ünvanına çevrilmişdir. Ulu öndərimizin humanist ideyalarından ruh alan fond onun nəcib və müqəddəs əməllərini yaşatmaq üçün ən müxtəlif sahələrdə sistemli tədbirlər həyata keçirir, hər bir vətəndaşın zəruri istək və arzularının reallaşmasına, problemlərinin operativ həllinə maddi-mənəvi dəstək verir. Heydər Əliyev Fondu ictimaiyyətin ən müxtəlif təbəqələri ilə əlaqələrini genişləndirməklə, ümummilli liderimizin ideyalarının praktik surətdə gerçəkləşməsinə, Azərbaycanın hərtərəfli inkişafı və vətəndaş cəmiyyəti quruculuğu prosesinin sürətləndirilməsinə öz töhfəsini verməyə çalışır.

Azərbaycanın birinci xanımı bu gün YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri kimi fərqli mədəniyyətləri bir araya gətirərək bəşəriyyətin xilası uğrunda əzmlə çalışan nəcib insanlarla bir sırada dayanır. Bu missiya heç də son üçillik fəaliyyətlə məhdudlaşmır: Mehriban xanım Əliyeva hələ 1995-ci ildən -"Azərbaycan Mədəniyyətinin Dostları" xeyriyyə fondunun rəhbəri kimi ağır böhranla üzləşmiş milli mədəniyyətimizə böyük qayğı və diqqət göstərmişdir. 1995-ci ildən üzü bəri musiqi təhsili və gələcək nəslin maarifləndirilməsi işi bu fondun daim diqqət mərkəzində olmuş, ardıcıl şəkildə təşkil edilən xeyriyyə konsertləri mədəniyyətimizin zəngin ənənələrinin qorunması işinə töhfə vermişdir. Həmin dövrdən başlayaraq Azərbaycanda musiqi gimnaziyası və musiqi məktəbi

əsaslı təmir edilmiş, minlərlə yeniyetmə və gəncin,ələlxüsus imkansız ailələrdən olan gənclərin yüksək musiqi təhsili almasına əlverişli imkan yaradılmışdır.

Heydər Əliyev Fondu təhsildə müasir informasiya texnologiyalarının tətbiqi sahəsində də böyük işlər görür. BMT İnkişaf Proqramı ilə imzalanmış saziş bu baxımdan böyük əhəmiyyətə malikdir. Bu sazişin nəticəsi olaraq Azərbaycanda kor və görmə qabiliyyəti zəif olan insanların informasiya və kommunikasiya texnologiyalarına çıxışını təmin edən layihənin həyata keçirilməsinə başlanmışdır. Məlumat üçün bildirək ki, Azərbaycanda 320 min əlil insan yaşayır, onlardan 40 mini isə kor və görmə qabiliyyəti zəif olan şəxslərdir. Layihə bu insanların cəmiyyətə qovuşmasına, onların informasiya kommunikasiyaları vasitələrilə bilik və məlumat əldə etmək imkanlarının genişləndirilməsinə, onların məşğulluğunun artırılmasına, ümumən bu insanların yaşayış tərzinin yaxşılaşdırılmasına xidmət edir. Bu saziş Heydər Əliyev Fondu ilə BMT-nin İnkişaf Proqramı arasında əməkdaşlığın ilk uğurlu bəhrəsidir. Bu saziş həmçinin BMT baş katibi Kofi Annanın təşəbbüsü ilə 2003-cü ilin dekabrında Cenevrədə dövlət və hökumət başçılarının iştirakı ilə keçirilən sammitdə informasiya-kommunikasiya texnologiyalarının hamı üçün təmin olunması barədə götürülmüş öhdəliyə və Azərbaycan hökumətinin İKT üzrə Milli Strategiyasına uyğun imzalanmışdır. Azərbaycanın 2005-ci ilin noyabr ayında Tunisdə keçirilən informasiya texnologiyaları konfransdakı iştirakı da ölkə rəhbərliyinin bu sahəyə marağının nə qədər böyük olmasını bir sübut təsdiqləyir.

Heydər Əliyev Fondu YUNESKO çərçivəsində keçirilən medəni tədbirlərdə də fəal iştirak edir. Heydər Əliyev Fondunun bu beynəlxalq təşkilatla əməkdaşlığı sayəsində qısa müddət ərzində şifahi və musiqi ənənələrinin təbliği və qorunması sahəsində böyük işlər görülmüşdür. Mədəniyyət sahəsində YUNESKO-nun iki konvensiyası var. Onlardan biri məhz maddi-mədəni irslə bağlıdır. 2003-cü ildə qəbul edilmiş konvensiya isə qeyri-maddi mədəni irsin qorunması ilə bağlıdır və 2006-cı ilin yayında qurumun Litvada keçiriləcək illik toplantısında Azərbaycanın mühüm abidəsi sayılan Qobustan YUNESKO-nun irs siyahısına daxil ediləcəkdir. Fondun təşəbbüsü ilə aşıq sənətinin YUNESKO-nun "Bəşəriyyətin şifahi və qeyri-maddi irsin şah əsərləri" siyahısına salınması təklifi irəli sürülmüşdür.

Mehriban xanım Əliyevanın təşəbbüsü əsasında 2004-cü ilin avqust ayında

Bakıda həmçinin "YUNESKO-Azərbaycan: gələcəyə körpü" mövzusunda ikinci konfrans keçirilmiş, milli təhsilimizin inkişafı ilə bağlı mühüm müzakirələr aparılmışdır. Xatırladaq ki, təhsil sahəsində Azərbaycanla YUNESKO arasında bir neçə istiqamətdə əməkdaşlıq əlaqələri qurulmuşdur. Bu əlaqələr əsasən, "Təhsil hamı üçün" proqramını, "Assosiativ məktəblər", texniki-peşə sahəsində əməkdaşlıq, inkluziv təhsil layihəsi, ali məktəblərdə YUNESKO kafedralarının yaradılması və digər sahələri əhatə edir. Təhsilin məzmunca yeniləşməsi, məktəblərdə informasiya texnologiyalarının geniş tətbiqi və digər bu kimi planlar da əməkdaşlığın çərçivəsinə daxil olan məsələlərdəndir. Təhsillə bağlı hələ 2004-cü ilin avqustunda keçirilən konfrans isə əsas etibarilə bu istiqamətdə səylərin koordinasiyası, əlaqələrin yeni mərhələsinin başlıca istiqamətlərinin müəyyənləndirilməsi baxımından əhəmiyyətli olmuşdur. Konfransdakı çıxışında Azərbaycan milli təhsilindəki problemlər barədə söhbət açan YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva indiyə qədər həyata keçirilmiş islahatlar barədə konfrans iştirakçılarını məlumatlandırmışdır. Və ən əsas məqam kimi Ermənistanm Azərbaycana qarşı təcavüzünün milli təhsilimiz qarşısında yaratdığı problemləri həm YUNESKO-nun baş direktorunun, həm də nümayəndə heyəti üzvlərinin nəzərinə çatdırmışdır.

İndiyə qədər YUNESKO-nun baş direktorunun rəhbərliyi ilə bu qurumun çoxsaylı məsul işçiləri və ekspertləri Azərbaycanda olaraq məcburi köçkün və qaçqın ailələrində yaşayan uşaqların təhsil problemləri ilə bağlı müxtəlif layihələr işləyib hazırlamışlar. YUNESKO kimi böyük imkanlara malik nüfuzlu beynəlxalq təşkilatın diqqətinin ölkəmizin təhsil problemlərinə cəlb edilməsi, dünyanın bir sıra dövlətlərinə xas xarakterik problemlərin həlli üçün düşünülmüş pilot layihələrin sınaqdan keçirilmə məkanı kimi məhz Azərbaycanın seçilməsi, YUNESKO ilə əməkdaşlıq şəraitində keçirilən birgə tədbirlər yaxm gələcəkdə bu əlaqələrin daha da intensiv xarakter almasına geniş imkanlar yaradır. Mehriban xanım Əliyevanın Azərbaycan təhsilinin inkişafı, yeni nəslin təlim-tərbiyəsinin yüksək səviyyədə qurulması, gələcəyimiz üçün layiqli vətəndaşların, peşəkar kadrların hazırlanması yönündə atdığı addımlar onun əsil vətəndaş mövqeyinin parlaq ifadəsidir.

Azərbaycan Mədəniyyətinin Dostları Fonduna rəhbərlik edən Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 1996-cı ildən Azərbaycan, ingilis və rus dillərində

çap olunan "Azərbaycan-irs" jurnalının səhifələrində milli musiqimizin, mədəniyyətimizin, tarixi-milli irsimizin qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi vacibliyi ilə bağlı çoxsaylı məqalələr işıq üzü görmüşdür. Azərbaycanın mədəniyyəti və incəsənəti ilə bağlı ən aktual problemlərin, böyük məzmun yükünə malik materialların dərc edildiyi "Azərbaycan-irs" jurnalı ölkə həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması və təbliği işinə də böyük dəstək olmuşdur. Heydər Əliyev Fondunun fəaliyyətə başlaması bu işlərin daha qlobal miqyasda, həm də sistemli və ardıcıl surətdə həyata keçirilməsinə imkan yaratmışdır.

2004-cü ildə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın YUNESKO-nun xoşməramlı səfiri seçilməsi ilə fondun milli irsin mühafizəsi, elm və mədəniyyətin inkişafı sahəsindəki fəaliyyəti bir qədər də genişlənmişdir. Azərbaycanın bir sıra görkəmli alimlərinin, yazıçı və bəstəkarların yubileylərinin keçirilməsi, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin beynəlxalq miqyasda qeyd olunması, YUNESKO-nun "Dünya irs siyahısı"na İçərişəhərin Şirvanşahlar Saray Kompleksi ilə birgə daxil edilməsi, bu siyahıya Qobustan Qoruq Muzeyinin və Atəşgahın da daxil olması üçün ilkin sənədlərin hazırlanması bu fəaliyyətin təqdirəlayiq məqamları kimi vurğulana bilər. Fondun prezidentinin şəxsi səyləri nəticəsində Azərbaycan xalqının milli sərvəti sayılan muğam həmin mötəbər təşkilatın vasitəsilə bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri sırasına daxil edilmişdir.

Mehriban xanım Əliyevanın Azərbaycan muğamların öyrənilməsi və təbliği ilə bağlı fəaliyyəti onun mənəvi dəyərlərə bağlılığının və yüksək vətənpərvərliyinin bariz göstəricisidir. "Qarabağ xanəndələri" adlı nəfis albomun buraxılması da Fondun ötən ilki uğurları sırasında qeyd oluna bilər.

Heydər Əliyev Fondu qısa müddətdə mədəniyyət abidələrinin yenidən qurulması və reabilitasiyası sahəsində əməli tədbirlər həyata keçirmişdir. Gəncə şəhərində Cavadxan türbəsinin, Comərd Qəssab məqbərəsinin, Bakının Şüvəlan qəsəbəsində yerləşən Pirhəsən ziyarətgahının bərpasını, Abdulla Şaiqin ev-muzeyinin təmiri bu qəbildən olan işlər sırasında xüsusi vurğulana bilər. Bundan başqa, Azərbaycan həqiqətlərinin müasir informasiya texnologiyalarının köməyilə dünya arenasına çıxarılması, bu məqsədlə internet resurslarının yaradılması da fondun diqqət mərkəzindədir. 2005-ci ildə həcminə və keyfiyyətinə görə

ölkədə analoqu olmayan "Azərbaycan" informasiya portalının yaradılması xüsusilə təqdirəlayiqdir. Layihənin reallaşmasına respublikanın aparıcı mütəxəssisləri də cəlb edilmiş, çoxsaylı arxivlərdən, kitabxanalardan və dövlət müəssisələrindən toplanmış dəyərli materiallar, sənədli bilgilər burada əksini tapmışdır. "Qarabağ həqiqətləri" kitabının 2006-cı ildə nəfis tərtibatla çapdan çıxması da fondun milli problemlərimizə necə böyük həssaslıqla yanaşdığını göstərir. YUNESKO-nun qeyri-maddi irs siyahısına aşıq sənətinin də daxil edilməsi yönündə səylərin gücləndirilməsi, təşkilatın baş katibinin iştirakı ilə ötən ilin avqust ayında Bakıda Beynəlxalq Muğam mərkəzinin təməlinin qoyulması fondun fəaliyyətinin kifayət qədər geniş spektri əhatə etdiyini təsdiqləyir.

Heydər Əliyev Fondunun ötən ilki fəaliyyətinin əsas istiqamətlərindən biri də Azərbaycan cəmiyyətinin müdafiəyə ən çox ehtiyacı olan uşaq evlərinə və internatlara yardım göstərilməsi ilə bağlıdır. Fond eyni zamanda səhiyyə sahəsində də layihələr həyata keçirmişdir. Bu sırada "Diabetli uşaqlara ən yüksək qayğı" və "Talassemiyasız həyat naminə" layihələri xüsusi qeyd olunmalıdır. Birinci layihə çərçivəsincə diabetli uşaqların problemlərinin həllinə həsr olunmuş konfrans keçirilmiş, 14 yaşınadək olan diabetli uşaqlara dərman preparatları paylanmışdır.

Hazırda layihə üzrə işlər davam etdirilir və fond uşaqlarımızın sağlamlığı üçün lazım olan hər bir şeyi onlara verir. Mehriban xanım xəstə, kimsəsiz uşaqlara qayğı missiyasını başqalarına da təlqin edir. Onun üçün önəmlisi budur ki, bu problemlərə indi heç kəs biganə deyil. Bir çox qurumlar, fərdlər fondla bu istiqamətdə əməkdaşlıq əlaqələri yaratmaqdadır. Təkcə keçən il Heydər Əliyev Fondunun dəstəyilə 500-dən çox soydaşımıza yardım göstərilməsi Mehriban Əliyevanın xeyirxah fəaliyyətinin nəticəsidir.

Heydər Əliyev Fondunun ümdə məqsədlərindən biri də ulu öndərimizin zəngin irsinin, Vətən qarşısında misilsiz xidmətlərinin, milli dövlətçilik ideyalarının dərindən öyrənilməsi, təbliği, yeni nəsillərə çatdırılmasıdır. Bu məqsədlə fondda Heydər Əliyevə həsr edilmiş ekspozisiya hər il yeni eksponatlarla zənginləşdirilir. Belə davamlı iş gələcəkdə Heydər Əliyev Fondunda ulu öndərin fəaliyyətinin bütün istiqamətlərini əks etdirən materialların toplanıb mərkəzləşdirilməsinə imkan verəcək. Ölkəmizdə təhsilin inkişafı, əhalinin maarifləndirilməsi, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, türkçülük,

azərbaycançılıq məfkurəsinin təbliği istiqamətində də Heydər Əliyev Fondu ardıcıl və məqsədyönlü fəaliyyət göstərir.

Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın həm də Milli Gimnastika Federasiyasının prezidenti kimi millətin mənəvi-fiziki sağlamlığının təmin olunması istiqamətindəki fəaliyyəti də təqdirəlayiqdir. Qısa müddətdə Azərbaycanın bədii gimnastika idman növünün inkişafı istiqamətində atdığı addımlar, habelə 2006-cı ildə Bakıda bədii gimnastika üzrə Avropa çempionatının keçirilməsi onun bu sahədə də yaxşı təşkilatçı və qayğıkeş rəhbər olduğunu göstərir.

Bütün bunlar deməyə əsas verir ki, Heydər Əliyev Fondununun son üç il yarımda həyata keçirdiyi çoxsaylı layihələri birləşdirən bir ortaq xətt var - humanizm, insanpərvərlik, mərhəmət! Fondun Prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın amnistiya təşəbbüsü ilə çıxış etməsi deyilənləri bir daha təsdiqləyir. Ümıımmilli liderimiz Heydər Əliyevin anadan olmasının 84-cü ildönümü münasibətilə irəli sürülmüş bu nəcib və humanist təşəbbüs əsasında gerçəkləşən amnistiya aktı minlərlə azərbaycanlı ailəsinə hədsiz sevinc və xoşbəxtlik gətirmişdir.

Amnistiya təşəbbüsü Milli Məclisdə geniş müzakirə olunaraq təqdir edilmiş, deputat Mehriban xanım Əliyevanın yüksək humanizmi, insanpərvərliyi kimi dəyərləndirilmişdir. Bu, Azərbaycan parlament tarixində ilk dəfə olaraq Milli Məclisin deputatı tərəfindən irəli sürülmüş və geniş ictimai dəstək almış amnistiya aktı olmaqla, özlüyündə böyük mənəvi-əxlaqi və siyasi məzmun daşımışdır. Bir daha aydın olur ki, Heydər Əliyev Fondununun Prezidenti hər bir addımda ulu öndərimizin humanizmə və insanpərvərliyə söykənən siyasətinə istinad edir.

Bu gün Azərbaycan vətəndaşlarının ölkənin "birinci xanımı"nın fəaliyyətini rəğbət və məmnunluq hissilə yaxından izləməsini də Mehriban Əliyevanın yüksək humanizmində və qayğıkeşliyində axtarmaq lazım gəlir. Özünün də söylədiyi kimi, başqalarına yaxşılıq, mərhəmət ömrü boyu onun üçün ümdə anlayışlara, ən ülvi insani keyfiyyətlərə çevrilmiş, eyni zamanda, bu xoşməramlı fəaliyyətin kökündə səmimilik dayanmışdır.

***Sabir Hüseynov***

# MÜNDƏRİCAT

ƏLİ EYVAZOV, (ÖN SÖZ) MƏRHƏMƏT VƏ XEYİRXAHLIĞA SÖYKƏNƏN XOŞMƏRAMLI MİSSİYA……………………3
**NƏRGİZ PAŞAYEVA**, XOŞMƏRAMLİ SƏFİR MEHRİBAN XANİM ƏLİYEVA YUNESKO TRİBUNASİNDAN AZƏRBAYCANİN HAQQ SƏSİNİ DÜNYAYA ÇATDİRİR…………………………………………...14
HİCRAN HÜSEYNOVA, XOŞ MƏRAMLAR ELÇİSİ NƏCİB ƏMƏLLƏRİN DAVAMÇISI……………………………………19
**SAMIİRƏ EYVAZOVA**, MİLYONLARIN ÜMİD YERİ ……………………………………………………………22
AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVAYA "QIZIL ÜRƏK" BEYNƏLXALQ MÜKAFATI TƏQDİM OLUNMUŞDUR……………………………………………………………28
OLJAS SÜLEYMENOV, "MƏN AZƏRBAYCANA GÖRƏ QÜRUR HİSSİ KEÇİRİRƏM..."……………………………………31
HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-NUN XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVA "YAQUT XAÇ" ORDENİNƏ LAYİQ GÖRÜLMÜŞDÜR …………………………………………32
AZƏRBAYCANIN BİRİNCİ XANIMI, HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO VƏ İSESKO-NUN XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN XANIM ƏLİYEVA DST-NİN YÜKSƏK MÜKAFATINA LAYİQ GÖRÜLMÜŞDÜR…………………………………………………33
İLHAM ƏLİYEVİN, MEHRİBAN XANIM ƏLİYEVANIN QƏDRİNİ BİLİN, ONLAR ÖLKƏNİZ ÜÇÜN ÇOX İŞ GÖRÜRLƏR………………………………………………………………………..34
HACI NƏRİMANOĞLU, XOŞMƏRAMLI, XOŞNİYYƏTLİ…………………………………………………………39
**RƏŞAD CƏFƏRLİ**, İNSANPƏRVƏRLİK HEYDƏR ƏLİYEV FONDUNUN ƏSAS MƏRAMLARINDAN BİRİDİR……………………………………………………………………53
HEYDƏR ƏLİYEV FONDUNDA RUSİYANIN "PUŞKİN KİTABXANASI" FONDUNDAN KİTABLARIN HƏDİYYƏ EDİLMƏSİ MƏRASİMİ…………………………………………………………..56
ƏNVƏR MƏŞƏDİYEV, QIZIL ÜRƏKLİ İNSAN……………………………………………………………..69
**XALİD NİYAZOV**, XALQA VƏ DÖVLƏTƏ TƏMƏNNASIZ XİDMƏT ÖRNƏYİ……………………………………..74
**RÜSTƏM MIKAYILOV**,ŞƏRƏFLİ MİSSİYA……………………………………………………………89
HEYDƏR ƏLİYEV FONDUNDA "YENİLƏŞƏN~ÄZƏRBAYCANA YENİ MƏKTƏB" PROQRAMININ İKİNCİ MƏRHƏLƏSİNİN TƏQDİMATINA HƏSR OLUNMUŞ "DƏYİRMİ MASA" KEÇİRİLMİŞDİR……………………………………………………………………..92
HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-NUN VƏ İSESCO-NUN XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN ƏLİYEVANIN FRANSAYA SƏFƏRİ…………………………105
MEHRİBAN ƏLİYEVA: «MƏN ƏSAS DİQQƏTİMİ TƏHSİL VƏ SƏHİYYƏ SAHƏSİNƏ YÖNƏLDƏCƏM»………………113
HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-NUN XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN ƏLİYEVANIN ƏZİZBƏYOV RAYONU İCTİMAİYYƏTİ İLƏ GÖRÜŞÜ…………………………………………………………119
AZƏRBAYCAN RESPUBLİKASININ BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVANIN ABŞ-A İŞGÜZAR SƏFƏRİ………………………………………………………………123
PARİSDƏ YUNESKO-NUN XOŞMƏRAMLI SƏFİRLƏRİNİN İLLİK HESABAT YIĞINCAĞI KEÇİRİLMİŞDİR………………………………………………………………..137
AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ CENEVRƏDƏKİ BÖLMƏSİNİN BAŞ DİREKTORU SERGEY ORCONİKİDZE İLƏ GÖRÜŞMÜŞDÜR……………………………………………………...141
HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-NUN VƏ İSESKO-NUN XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN ƏLİYEVANIN QƏTƏRƏ SƏFƏRİ…………………………………………………….147
AZƏRBAYCANIN BİRİNCİ XANİMI MEHRİBAN ƏLİYEVA SABUNÇU VƏ ƏZİZBGYOV RAYONLARINDA BİR SIRA OBYEKTLƏRİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR…………………………..154
HEYDƏR ƏLİYEV FONDUNDA "MUĞAM" JURNALININ İLK NÖMRƏSİNİN VƏ "MUĞAM-ANTOLOGİYA" LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ ÇAP OLUNMUŞ NƏŞRLƏRİN TOQDİMATI KEÇİRİLMİŞDİR.......................................................160
HEYDƏR ƏLİYEV FONDUNUN TƏLİM-TƏDRİS MƏRKƏZİNİN AÇILIŞI OLMUŞDUR………………………………...165
**SABİR HÜSEYNOV**, HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN XANIM ƏLİYEVA ÖLKƏ VƏTƏNDAŞLARININ BÖYÜK RƏĞBƏT VƏ ETİMADINI QAZANMIŞDIR……………………………………169


















Зарiфа Азiз кизи
Алiєва
Zərifə Əziz qızı
Əliyeva





*Buraxılışa məsul: Bəxtiyar Nəbiyev*




















2004
2005









*Redaktoru: Adil Şirin*

*Kompüter dizayneri: Zahid Məmmədov*
*Səhifələyici: Günay Seyidova*
*Texniki redaktor: Rövşanə Hüseynova*
*Montajçı: Rasim Hacıyev*
*Operator çapçı: Elşad Hacıyev*

*Yığılmağa verilmiş 07.07.2007.*
*Çapa imzalanmış 23.09.2007.*
*Şərti çap vərəqi 22. Sifariş Ns 514.*
*Kağızformatı 60x84 1/8. Tiraj 500.*

---

*Kitab "Nurlan " nəşriyyat-poliqrafiya müəssisəsində*
*hazır diapozitvlərdən çap olunmuşdur.*
*Direktor: **prof. N.B.Məmmədli***
***E-mail: nurlan l959@yahoo.com***
*Tel: 497-16-32; 850-311-41-89*
*Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.*